


İLQAR CƏMİLOĞLU

ƏLİ İMAMVERDİ


# CƏMİL ƏKBƏR

## ŞEİRLƏR

## 2. CİLD


İKSAD

Publishing House

İLQAR CƏMİLOĞLU
ƏLİ İMAMVERDİ

# CƏMİL ƏKBƏR



## *ŞEİRLƏR*

*II CİLD*

İKSAD
Publishing House

Copyright © 2022 by iksad publishing house
All rights reserved. No part of this publication may be reproduced,
distributed or
transmitted in any form or by
any means, including photocopying, recording or other electronic or
mechanical methods, without the prior written permission of the publisher,
except in the case of brief guotations embodied in critical reviews and
certain other noncommercial uses permitted by copyright law.
Institution of
Economic Development and Social
Researches Publications®
(The Licence Number of Publicator: 2014/31220)
TURKEY TR: +90 342 606 06 75
USA: +1 631 685 0 853
E mail: iksadyayinevi@gmail.com
www.iksadyayinevi.com
It is responsibility of the author to abide by the publishing ethics rules.
Iksad Publications – 2022©
**ISBN: 978-625-8323-55-9**
Cover Design: İbrahim KAYA
December / 2022
Ankara / Turkey
Size = 16x24 cm

# ÖN SÖZÜN MÜƏLLİFİ

*Prof.Dr. İlgar İmamverdi, Hüquqşünas Əli İmamverdi*

**ELMİ REDAKTOR VƏ MƏSLƏHƏTÇİ:**

***Professor Maarifə Hacıyeva***
**Filologiya Elmləri Doktoru**

Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlu ilə Əli İmamverdinin, pedaqoji sahədə uzun illər səmərəli xidmət etmiş, iqtisadcı alim, Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirdikləri ***"Cəmil Əkbər – II cild şeirlər"*** adlı kitabda, yarıməsirlik bir yaradıcılıq yolu keçmiş şair təbiətli alimin poetik irsinin bir hissəsi yer almaqdadır. Ayrı- ayrı dönəmləri əhatə edən, müxtəlif mövzulu bu kitabda variantları ilə birgə 316 poetik nümunələr yer almaqdadır. Vətən, məhəbbət, eşq, insan amili, ictimai-siyasi xarakterli bu kimi bir çox mövzuları əhatə edən optimist, bəzən də şikayət motifli, haqsızlığa üsyan hətta lirik-duyğusal, bədbin ruhlu pissimist şeirlər Cəmil Əkbərin həssas qəlbinin, şairanə düşüncələrinin şeir dili ilə əks sədası olub, mənəvi dünyasını təcəssüm etdirir. II cild "Cəmil Əkbər – şeirlər" adlı kitab filoloji elm sahəsində çalışan ədəbyyatşünaslar və şeirsevən qiymətli oxucular üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

ÖN SÖZÜN MÜƏLLİFİ ........ i
MÜNDƏRİCAT ........ iii
ÖN SÖZ ........ 1
*CƏMİL ƏKBƏR YARADICILIĞININ BƏZİ MƏSƏLƏLƏRİ* ........ 1
1. ÇAĞIRIR BİZİ ........ 20
2. VAR ........ 21
3. QANAN VAR ........ 22
4. HAQQI VAR ........ 24
5. HAQQI VAR ........ 25
6. QARIŞMASA ........ 27
7. MƏNSİZ? ........ 28
8. MÜSƏLMAN VAR! ........ 29
9. VAR MƏNİM ........ 32
10. VAR ONUN ........ 35
11. VAR ONUN? ........ 36
12. VAR ONUN ........ 37
13. VAR Kİ? ........ 39
14. PUL ........ 41
15. EY PUL? ........ 41
16. EY PUL? ........ 43
17. PULDUR ........ 43
18. PULA BAĞLIDIR ........ 44
19. PUL İMİŞ ........ 46
20. DOLANAMMIR NİYƏ GÖRƏN? ........ 48
21. GÖYÇƏLİLƏR NİYƏ QALSIN GÖYÇƏDƏ? ........ 49
22. ARZULA ........ 51
23. BOL EYLƏ ........ 52
24. BOL EYLƏ-EYLƏ ........ 53
25. BOL EYLƏ-EYLƏ ........ 54
26. HƏSRƏTİK ........ 55
27. DÜŞDÜ ........ 56
28. DİLƏK ........ 57
29. BİRYERƏ DÜŞDÜ ........ 59
30. SÖZ AÇAQ İNDİ? ........ 61
31. İNDİ ........ 63
32. DANIŞAQ İNDİ? ........ 64
33. İNDİ ........ 66

34. İNDİ ........ 67
35. İNDİ ........ 68
36. KƏF GƏLİR İNDİ ........ 70
37. BELƏ GƏŞT EYLƏYİR ZƏMANƏ İNDİ ........ 72
38. İNDİ ........ 75
39. İNDİ ........ 77
40. İNDİ ........ 81
41. İNDİ ........ 82
42. İNDİ ........ 82
43. İNDİ ........ 84
44. OLUB İNDİ........ 84
45. DƏRS ALIM İNDİ?........ 85
46. İNANIM İNDİ?........ 86
48. TAP AYIR İNDİ ........ 88
49. GƏL DOLAN İNDİ ........ 89
50. NEYLƏSİN İNDİ?........ 91
51. MÜDİR QAĞA ........ 96
52. SİZİN BALÇILI ........ 98
53. AD QAZANIB ........ 101
54. BU CƏMİL ƏKBƏR ........ 102
55. ONUN GÖZLƏRİ........ 103
56. SARISU KƏNDİ........ 105
57. BATIR........ 107
58. İMİŞ ........ 109
59. ƏL ÇƏK AY KİŞİ........ 110
60. NƏDİR? ........ 112
61. NƏDİR? ........ 113
62. NƏDİR? ........ 114
63. NƏDİR? ........ 116
64. YOXSA BU DÜNYANIN SONUDUR NƏDİR? ........ 117
65. ÇATIŞMIRSA HEÇNƏDİR........ 118
66. HEÇNƏDİR ........ 120
67. HEÇNƏDİR ........ 122
68. HEÇNƏDİR ........ 123
69. HEÇNƏDİR ........ 124
70. HEÇNƏDİR ........ 126
71. GÖRÜNMÜRSƏ HEÇNƏDİR........ 127
72. ZAD NƏDİR? ........ 129
73. ELƏ DƏ QANDIM........ 132

74. AYRILANMIRAM ........ 133
75. YAŞA ........ 134
76. YAŞA ........ 136
77. YAŞA ........ 137
78. İNSANTƏK YAŞA ........ 138
79. MƏHƏBBƏTİM ........ 140
80. DAHA ........ 141
81. DÜNYA DÜZƏLƏNƏ OXŞAMIR DEYƏN ........ 142
82. ÇƏKMƏRƏM DAHA ........ 145
83. DAHA ........ 146
84. KÖÇ DAHA ........ 147
85. QOCALDIM ........ 148
86. QOCALIQ ........ 150
87. SÖZƏ BAXMIR ........ 151
88. SÖZƏ BAXMIR ........ 152
89. SÖZƏ BAXMIR ........ 153
90. SÖZƏ BAXMIR ........ 154
91. SÖZƏ BAXMIR ........ 155
92. SÖZƏ BAXMIR ........ 156
93. SÖZÜNƏ BAXMIR ........ 157
94. BAXAN YOX ........ 158
95. BAXAN YOX ........ 160
96. BİR BAX ........ 161
97. BİR BAX ........ 163
98. BAX ........ 165
99. BAX ........ 166
100. QƏLBİMİZİN FƏRQİ ........ 168
101. ZƏMANƏYƏ BAX ........ 169
102. BAX ........ 170
103. BAX ........ 171
104. BAX-BAX ........ 173
105. BAX-BAX ........ 175
106. BAX-BAX ........ 177
107. BAXMAZDIM ........ 179
108. EL GÖZÜYLƏ BAX ........ 180
109. BAXSIN ........ 182
110. BAXIŞLAR ........ 183
111. BAXILMIR ........ 185
112. BELƏ GÖRMƏDİK ........ 188

113. BELƏ GÖRMƏDİK ........ 190
114. XƏBƏRSİZ ........ 193
115. XƏBƏRSİZSƏN ........ 195
116. XƏBƏRSİZ OLMA! ........ 196
117. DOLANMAZ ........ 198
118. DÜZİYMİŞ ........ 199
119. BİLSƏNƏ? ........ 200
120. BİLSƏNƏ? ........ 201
121. BİLSƏNƏ? ........ 202
122. HƏRƏ ........ 203
123. FİKİRLƏR ........ 204
124. DÜZƏLƏN DEYİL ........ 206
125. ÇƏTİNDİR ........ 206
126. ÇƏTİNDİR ........ 208
127. ÇƏTİNDİR ........ 209
128. ÇƏTİNDİR ........ 210
129. NƏ ÇƏTİNDİR? ........ 211
130. QƏBİRQAZAN ........ 212
131. AZALMIR ........ 222
132. OLMAYAYDI ........ 223
133. OLMAYAYDI ........ 225
134. SOLMAMIŞ ........ 226
135. YAZ ........ 227
136. HƏYAT YOLLARINI DOĞRU GEDƏNLƏR ........ 229
137. YAZARDIM ........ 230
138. YAZARDIM ........ 231
139. MƏN YAZIM? ........ 231
140. YAZSANA? ........ 233
141. NECƏ YAZMAYIM? ........ 235
142. YENƏ ŞEİR YAZASIYAM ........ 236
143. QƏLƏM DOĞRU YAZ! ........ 238
144. QƏLƏM DOĞRU YAZ! ........ 240
145. YAZ QƏZET ........ 241
146. TƏZƏ ŞEİR YAZMISANMI? ........ 243
147. AYAQ DÜZ YERİ ........ 245
148. AYAQ DÜZ YERİ ........ 246
149. QOYAYDIM ........ 249
150. TƏKCƏ-TƏNHA QOYANMARAM ........ 249
151. ÜRƏYİM ........ 254

152. ÜRƏYİMİ ........ 255
153. ÜRƏYİMDƏSƏN ........ 256
154. ÜRƏYİMDƏDİR ........ 257
155. ÜRƏYİM MƏNİM ........ 258
156. ÜRƏK VAR ........ 259
157. ƏSL ÜRƏK ........ 260
158. ÜRƏK DÖZMÜR ........ 263
159. AXTAR ........ 264
160. AXTARIR ........ 265
161. AXTARIRIQ ........ 265
162. AXTARIRAM ........ 267
163. AXTARIRAM ........ 268
164. VƏHDƏTİNİ AXTARIRAM ........ 270
165. AXTARMASIN ........ 271
166. QALACAQSAN?! ........ 273
167. ƏLLƏRİM ........ 274
168. AMANDIR ETMƏSİN ........ 275
169. YUYANMAZ ........ 276
170. BU ........ 279
171. BU ........ 282
172. BU ........ 284
173. BU ........ 285
174. BU ........ 286
175. BU ........ 288
176. BU ........ 293
177. AYRILIQ DƏMİDİR, YOXSA NƏDİR BU? ........ 295
178. NƏ GƏRDİŞDİ BU? ........ 295
179. A FƏRSİZ OĞUL? ........ 297
180. KARA YETMƏSƏ ........ 299
181. NƏDİ? ........ 301
182. BİZİMDİR ........ 301
183. GÜL DƏ GÜLDÜKİ ........ 303
184. DAĞLARIN ........ 305
185. DAĞLARIN ........ 306
186. DAĞLARDA-DAĞLARDA ........ 307
187. DAĞLAR ........ 309
188. DAĞLAR ........ 310
189. DAĞLAR ........ 312
190 .DAĞLAR ........ 313

191. BU DAĞLARIN, O DAĞLARIN ... 314
192. NEYLİM? ... 317
193. NEYLƏYİM? ... 318
194. NEYLƏYİM? ... 319
195. NEYLƏYİM? ... 320
196. NEYLƏYİM? ... 321
197. NEYLƏYİM? ... 323
198. TAPAMMASAM BƏS NEYLƏYİM? ... 323
199. NEYLƏSİN? ... 325
200. NEYLƏSİN? ... 325
201. NEYLƏSİN? ... 327
202. NEYLƏSİN? ... 328
203. NEYLƏSİN? ... 329
204. NEYLƏSİN? ... 330
205. NEYLƏSİN? ... 331
206. YAZIQ NEYLƏSİN? ... 331
207. YAZIQ NEYLƏSİN? ... 333
208. VƏTƏN YAZIQ NEYLƏSİN? ... 333
209. BAŞQADIR ... 335
210. BAŞQADIR ... 336
211. BAŞQADIR ... 337
212. BAŞQA-BAŞQADIR ... 339
213. BAŞQA-BAŞQADIR ... 341
214. BAŞQA-BAŞQADIR ... 342
215. BAŞQADIR ... 344
216. BİLMƏMİŞƏM ... 345
217. BİLMƏMİŞƏM ... 348
218. BİLƏNMƏMİŞƏM ... 349
219. ÖZÜMƏ ÇATMIR ... 351
220. ÖZÜMƏ ÇATMIR ... 355
221. ÖZÜMƏ ÇATMIR? ... 358
222. SAZ ... 364
223. TELLİ SAZIM ... 365
224. SAZDA ... 366
225. TELLİ SAZIMDA ... 367
226. TELLİ SAZIMA ... 370
227. SAZIM ... 371
228. TELLİ SAZ MƏNİM ... 372
229. ARALANMAYIN ... 376

230. NƏ DEYİR? .......... 377
231. ƏL ÇƏKİN .......... 378
232. GÜLMƏLİDİR .......... 379
233. QƏHƏTSƏ .......... 380
234. İNANMA! .......... 381
235. ƏYYAMIDIR .......... 385
236. ƏYYAMIDIR .......... 386
237. ƏYYAMIDIR .......... 388
238. GÖDƏLİB .......... 389
239. BU MİLLƏT .......... 390
240. BU MİLLƏT .......... 396
241. İNSANIN .......... 397
242. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI .......... 401
243. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI .......... 402
244. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI .......... 406
245. ÇATDI .......... 413
246. MƏNƏ ÇATMADI .......... 413
247. MƏNİM DÖY .......... 416
248. ÇATMADI .......... 417
249. ÇATMADI .......... 419
250. ÇATMADI .......... 421
251. ÇATMADI .......... 422
252. BİLSİN .......... 424
253. BİLSİN! .......... 426
254. BİZDƏ VAR .......... 429
255. BİZDƏ VAR .......... 438
256. SƏNDƏ DƏ VAR, MƏNDƏDƏ VAR .......... 439
257. TƏKLƏDİ MƏNİ .......... 441
258. MƏNİM .......... 442
259. MƏNİM .......... 443
260. MƏNİM .......... 445
261. MƏNİM .......... 448
262. SIRIDIN MƏNƏ .......... 449
263. O MƏNƏM .......... 450
264. ÇAŞBAŞ SALDI MƏNİ DƏ .......... 451
265. DEMƏ MƏNİMDİR .......... 453
266. MƏNİMCƏ .......... 455
267. SUSURAM MƏN DƏ .......... 456
268. EŞİT MƏNİ .......... 457

269. BASIRIN MƏNİ ........ 459
270. ZAMANIM MƏNİM ........ 460
271. ZAMANIM MƏNİM ........ 461
272. GÖYNƏDƏN MƏNİ ........ 462
273. MƏNİ YAMAN İNCİDİRLƏR ........ 463
274. QORUYUN MƏNİ ........ 465
275. QOCALTDI MƏNİ ........ 466
276. AMALIM MƏNİM ........ 467
277. CARÇISIYAM MƏN ........ 468
278. MƏNİM BU VƏDƏM ........ 469
279. DƏYİŞMƏRƏM MƏN ........ 471
280. MƏNİ ƏYMƏSƏ ........ 472
281. MƏN GÖRDÜKCƏ SARSILIRAM ........ 474
282. NƏ VERDİN? ........ 476
283. DAD-HAZAR ........ 477
284. DAD-HAZAR ........ 478
285. DAD-HAZAR ........ 479
286. HESAB ETMƏ ........ 480
287. İNSANLARLA YOLA GET! ........ 481
288. GETDİ ........ 483
289. GETDİ ........ 484
290. GETDİ ........ 485
291. GETDİ ........ 487
292. GETDİ ........ 487
293. GETDİ ........ 488
294. GETMƏ! ........ 489
295. GETMƏYİN! ........ 489
296. YOL GETMƏK OLAR ........ 491
297. GEDİB ........ 492
298. GEDİBDİR ........ 493
299. GEDİBDİR ........ 495
300. GEDİR ........ 496
301. GEDİR ........ 498
302. GEDİR ........ 499
303. GEDİRSƏN ........ 500
301. GEDİRSƏN? ........ 502
302. GEDİRSƏN ........ 505
303. HARA GEDİRSƏN? ........ 507
304. GÖRƏN HARA GEDİRİK? ........ 508

305. HAYANA GEDİR? ........ 511
306. GEDƏRSƏN ........ 512
307. ÖMÜRDƏN GEDİR ........ 513
308. YANIB GEDİR ........ 514
309. ƏLDƏN GEDƏR ........ 516
310. ÖZGƏ YOLLA GEDƏNMƏRƏM ........ 517
311. DÜZ GƏLİB GEDİN ........ 520
312. GETMİRƏM ........ 522
313. GETMƏSİN ........ 523
314. GƏL ........ 524
315. GƏL ........ 527
316. GƏL ........ 528
PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV ........ 530
ƏLİ İLQAR OĞLU İMAMVERDİ ........ 533

# ÖN SÖZ

## *CƏMİL ƏKBƏR YARADICILIĞININ BƏZİ MƏSƏLƏLƏRİ*

Qədim “Odlar Diyarı” olan Azərbaycanımız ünlü simaları ilə dünyada tanınmışdır. İstər sənət adamları, istərsə yazıçılar, şairlər, musiqi xadimlərimiz yaşadıqları dönəmlərdə öz sahələrində böyük uğurlara imza atmışlar. Və dünya mədəniyyətinə möhtəşəm yaradıcılıqlarını töhfə etməklə isimlərini dünya ədəbiyyatı, incəsənəti xəzinəsinəsinin şərəf lövhəsinə həkk etməyi bacarmışlar. Azərbaycan mədəniyyəti xəzinəsinə baxdığımızda Nizami Gəncəvi, Məhəmməd Fizuli, Seyid İmadəddin Nəsimi bu görkəmli simalar arasında ən baş sırada gəlir. Daha sonra Molla Pənah Vaqif, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid Əfəndi, Cəfər Cabbarlı və s. neçə-neçə korifeylərin adlarını hörmət və ehtiramla sadalaya bilərik. Sənət aləmində Azərbaycanın məşhur rəssamı Səttar Bəhlulzadənin, profesyonal musiqi elmi sahəsində isə Əbdülqadir Marağayi, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov başda olmaqla layiqli tələbələri Asəf Zeynallı, Əfrasiyab Bədəlbəyli, Qara Qarayev, Cövdət Hacıyev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Cahangir Cahangirov, Süleyman Ələsgərov, Arif Məlikov bu tarixi şəxsiyyətlər cərgəsində isimlərini dünya mədəniyyəti arenasında duyurmuşlar.

Azərbaycanın istedadlı şəxsiyyətlərindən biri də qədim Gəncə şəhərində tanınmış pedaqoq, şair qəlbli alim Cəmil İmamverdi oğlu Əkbərdir. Şəkil № 1.



Şəkil № 1. Cəmil İmamverdioğlu Əkbər (1928-2000)

Əlli illik yaradıcılıq yolu keçmiş şair təbiətli alimin poeziyası çoxrəngli olmaqla həmdə çoxşaxəlidir. Azərbaycan şifahi xalq ədəbiyyatına, özəlliklə də aşıq poeziyasına məxsus qoşma, gəraylı, divani bununla belə deyişmə kimi bir çox çətin janrlarda qələmini sınayan İmamverdi oğlu Cəmil Əkbər  ömrünün böyük bir qismini elmi – pedaqoji sahədə olduğu kimi xalq yaradıcılığının önəmli bir sahəsi olan aşıq ədəbiyyatını poetik töhvələrlə, öz təbiri, öz orijinal fikirləri, mənalı və hikmət dolu fəlsəfi mahiyyətli müdrik və didaktik düşüncələri ilə daha da zənginlik gətirmişdir.

Namərd yüyürsə də hey, çata bilməz,
Mərd asta getsə də, hey yavaş-yavaş.

və ya

Küsməmişdən barışandır ürəyim.

“İndi” rədifli şeirindəki beyt orijinallığı ilə Cəmil Əkbərin poetik dünyada olan düşüncələrinin bir ifadəsi olaraq diqqəti cəlb edir.

Onun sözlərilə qəlbimi sıxdım,
Niyə gözyaşımla yuyunmur indi?

“Baxsın” rədifli şeirində də orijinal düşüncə Cəmil Əkbər poeziyasına məxsusluğunun ifadəsidir.

Gözlərin didəsi nəm içindədir,
Bəmdə inildəyən zilimə baxsın.

“Yazardım” rədifli şeirdə də poetiklik bu misralarla müşahidə olunur.

Sən xəsdə olsaydın mən də təbibin,
Dərmanı başa yox, dilə yazardım.

Bu kimi orijinal fikirlərlə zəngin poetik misralar Cəmil Əkbər yaradıcılığında çoxsayda olması ilə diqqəti çəkir. Bütün bunları mükəmməl mütaliyənin və zəngin həyat təcrübəsinin, ən başda isə Allah vergisindən yaranan ilhamın məhsulları kimi dəyərləndirə bilərik.

Cəmil Əkbər yaradıcılığında qırmızı xətlə keçən cəhətlərdən biri onun öyüd-nəsihətə dair fikirləridir. Bu cəhət şairin müəllimlik məsləyi ilə bağlıdır. Cəmil Əkbər şeir dili ilə də bu 50 il pedaqoji sahədə gənc nəslin təlim-tərbiyəsində və onların kamil mütəxəssis olmaqla yanaşı həm də bir vətənpərvər insan kimi yetişməsində əməyini-bilik bacarığını sərf edərək öyüdlərini, tövsiyələrini imkan olduqca şeiriyyətin təsirli imkanları ilə, profesionallıqla dilə gətirimişdir. Bununla belə övladlarına etdiyi məsləhətləri, öyüd nəsihətləri öz tələbələrindən də əsirgəməzdi Cəmil Əkbər. Çünki dərs dediyi tələbələri öz evladları kimi sevir və gəncliyimizin, gələcəyimizin zəmanətçiləri olan tələbələrinə əsl insanilik meyarları ilə dəyər-qiymət verməyə çalışırdı Cəmil Əkbər. “Var mənim” rədifli şeirinin birinci bəndinin ilk beytində öyüd-nəsihət verməsini bu sözlərlə etiraf edir Cəmil Əkbər.

Sözlərimi eşidənlər dinləsin,
Deyiləsi nəsihətim var mənim.

Cəmil Əkbərin hətta əsl müsəlmançılığa xələl gətirən neqatif hallara münasibətini bildirərək, şeirin sərt dili ilə qırmanclayaraq ifşaedici, təhqiredici kəlimələrlə iradlarını bildirməsi haqq-ədalət qanunlarını bir çox üzdəniraqların tapdaması ilə bağlıdır.

Bir çox şeirlərində Cəmil Əkbər antipodların dili ilə onları məcazi anlamda ifşa edir. Bu tərzlə cəmiyyətdəki bu kimi mənfi halları poetik misralarla tənqid atəşinə tutmaqdan belə çəknmir ustad şair.

Yerli-yersiz danışmıram sözümü,
Ad qazanıb tanıtmışam özümü,
Bilən yoxdur astarımı, üzümü.
Lotuluqda ləyaqətim var mənim.

Təəssüf hissilərini ifadə edən şeirlər də Cəmil Əkbər yaradıcılığında özünü göstərməkdədir. Vətənə layiq olmayan naqis övladları yana-yana, təəssüf hissləri ilə anladan Cəmil Əkbər “Var onun” rədifli şeirinin bir bəndində belə yazır:

Hayıf o Vətənə, o torpağa ki,
Sənin kimi bir övladı var onun.
O gövdə, butağa, o yarpağa ki,
Sənin kimi bir bərbadı var onun.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarını işğalı zamanında dünyaya yalandan hay-həşir salaraq zavallı, yazıq xalq imici yaratdığı bir vaxtda Cəmil Əkbər bu haqsızlıqdan, şərdən, böhtandan, iftiradan heyrətə gələrək 22 noyabr 1991-ci il tarixində "Var onun?" rədifli şeirində bütün bu acınacaqlı hadisələrə qarşı nifrətini, qəzəbini poetik sözlərin ətkiləyici qüvvəsi ilə ifadə etməyə çalışmışdır.

Dığalar çaşıbdı, azıb yolunu,
Dağıdıb sökübdü, qazıb yolunu,
Dönübdür dinindən, pozub yolunu,
Nə "Astvas", nə Allahı var onun.

Dünya alışverişlərinin başında gələn pul ilə bağlı Cəmil Əkbər də bu mövzuda olan fikirlərini 13 rədifdə olan şeiri ilə oxucularıyla paylaşır. Fitnə-fəsad mənbəyi kimi pulun neqatif rolunu insanlıq aləminə anladan Cəmil Əkbər zəngin həyat təcrübəsinə dayanaraq pulun dünya miqyasında insanları əsarətdə saxlamasını orijinal fikirlərlə bəyan edir. Və bu mövzuda bizlərə hər zaman ehtiyatlı olmağı tövsiyə edir.

Odur insanları yoldan azdıran,
Ünsiyyəti, ülfətləri pozduran,
Ayaqlar altından quyu qazdıran,
Günahsız günaha batan da puldur.

Cəmil Əkbər oxucularına xoş niyyətli olmağı arzulayan insan olmasını "Arzula" rədifli şeirində bu misralarla belə deyir.

Çox deyilib keçən günə gün çatmaz,
Gələcəyə səadəti arzula.
Ha çağırsan, ha bağırsan ün çatmaz,
El-obaya sədaqəti arzula.

"Bol eylə" rədifli şeirində üzünü ulu tanrıya tutan Cəmil Əkbər insanlıq üçün xoş gün arzulayaraq, insanlar arasında sədaqəti, səxavəti, saf arzunu pak diləyi, xeyirxahlığı, fəziləti şan-şöhrəti, şərafəti, ədəb-ərkan, nəzakəti bol etməsini acizanə bir dillə ifadə etmişdir.

İnsanın insandan üzü dönməsin,
Qadir Allah məhəbbəti bol eylə.
Baxışı, nəzəri, gözü dönməsin,
Sədaqəti, səxavəti bol eylə.

"Bol eylə eylə" rədifli digər iki şeirində isə insanlar arasında hər cür müqəddəs diləyinin: abırı, isməti, xətir-hörməti eşqi-məhəbbəti, səxa-səxavəti, fəhmi-fərasəti, əhdi-sədaqəti ülvi-ləyaqəti, namusu -qeyrəti, insafı-mürvəti, bu kimi insani dəyərləri qısaca desək saf arzu-niyyətin bol olmasını poetik misralarla təmənna edərək munis diləklərini səmimi bir dillə oxucularına çatdırır.

İlahi insana tamah verincə,
Eşqi-məhəbbəti bol eylə-eylə.
Xəyanət, xəsarət, günah verincə,
Səxa-səxavəti bol eylə-eylə.

İnsanlığa aid olan mənəvi dəyərlərə həsrət qaldığını şikayət-giley ruhda olan "Həsrətik" rədifli şeirlə Cəmil Əkbər dərdlərini izhar edir. Hər bəndin son misralarında ədalətə, həqiqətə, insanlığa, ləyaqətə, sədaqətə, səxavətə, saf arzuya, pak niyyətə, ülvi istək, məhəbbətə, şan-şöhrətə, şərafətə, bacarığa, fərasətə, mərd igidə, cəsarətə, xeyirxahlığa, fəzilətə, ehtirama, mərhəmətə, ədəb-ərkan nəzakətə və s. bu kimi insani dəyərlərə həsrət qalmasını giley, şikayət dolu kəlmələrlə oxucularına anlatmağa çalışır.

Saxtalıq, sünilik, yalan əlindən,
Ədalətə, həqiqətə həsrətik.
Dağıdıb sökənlər, talan əlindən,
İnsanlığa, ləyaqətə həsrətik.

Giley-şikayət motifli şeirləri arasında “Söz açaq indi?”, “Danışaq indi?” rədifli qoşmalarını da misal göstərə bilərik. İctimai-siyasi şəraitdən asılı olmayaraq bir çox insanların dönük olması, əhdinə sadiq qalmaması, səxavətsiz, mərhəmətsiz, kəramətsiz, nəzakətsiz, fərasətsiz, bacarıqsız, məharətsiz olmasını kədər motifli misralarla xatırladan Cəmil Əkbər onların xəyanətindən, qəbahətindən bəhs etməklə törətdikləri haqsızlıqları, fəlakətləri, müsibətləri bu kimi xoşagəlməz halları şairanə bir baxışla vəsf etməyə onu dinləyənlərə şikayət etməklə dərdi-sərini paylaşır.

Yolunu, izini azan oqədər?
Ünsiyyət-ülfəti pozan oqədər?
Şər-böhtan danışıb yazan oqədər?
Hansı xəyanətdən söz açaq indi?

və ya

Dünyanın kələfi dolaşıb yaman,
Hansı ədalətdən danışaq indi?
İpi ilməsinə culaşıb yaman,
Hansı həqiqətdən danışaq indi?

“İndi” rədifində yazdığı şeirlər mövzu baxımında Cəmil Əkbərin giley motifli şeirlər silsiləsi arasında yer almaqdadır. İnsanların dönüklüyü, saxtalığı, birbirini aldatması, “Əşrəfi-məxluqata” yaraşmayan hər cür neqatif hallar şikayət timsalında hər iki şeirin elə ilk bəndlərində oxucularına çatdırılır.

Hərkəs nə istəsə onu da edir,
Baxan yox nə yaşa, nə başa indi.
Özü də bilməyir nə məqsəd güdür?
Baxan yox nə gözə, nə qaşa indi.

və ya

Aman Allah nə günlərə qalmışıq?
Yetməyir haraya nə qardaş indi.
Nə səs-küyə, nə ünlərə qalmışıq?
Gəlməyir haraya nə yoldaş indi.

Erməni vəhşəti nəticəsində İrəvan torpaqlarından köç etmək məcburiyyətində qalan neçə min Vətən övladlarımızın öz ata-baba topraqlarından məcburən sürgün edilməsi Cəmil Əkbəri həqiqətən də dərin kədərə salmışdır. Onların acınacaqlı taleyini poetik hissiyatının diktəsi ilə şikayət ruhunda yazdığı "Düşdü" rədifli şeiri ilə dərdini-qəmini anlatmağa çalışır.

Məhəbbət eşqilə vuran ürəyim,
Niyə qəm-kədərin gölünə düşdü?
Oyanan ürəyim, duran ürəyim,
Hansı nadürüstün felinə düşdü?

Əyilmək bilməyən dağa bənzəyən,
Barlı-bərəkətli bağa bənzəyən,
Şamama yetirən tağa bənzəyən,
Qaçqınlıq, köçgünlük selinə düşdü.

Cəmil Əkbərin şikayət ruhunda olan mövzular arasında dövrandan, dövrdən, zamandan bəhs edən giley dolu misralardır ki, 15. May 1993 tarixində yazdığı "Belə gəşt eləyir zəmanə indi" rədifli şeirində haqsızlıqlar bu kimi neqatif mənfi hallar şeir dili ilə tənqid atəşinə tutulur.

Azğına, pozğuna meydan verilib,
Qarğaya, quzğuna meydan verilib.
Məzluma, üzgünə zindan verilib,
Belə gəşt eyləyir zəmanə indi.

Dərd içində saralmışıq, solmuşuq,
Fikirlərə, xəyallara dalmışıq,
Aman Allah, gör nə günə qalmışıq?
Belə gəşt eyləyir zəmanə indi.

Nə təlim götürən, nə sözqanan var,
Nə doğru eşidən, nə düz qanan var.
Yol, cığır tanıyan, nə iz qanan var,
Belə gəşt eyləyir zəmanə indi.

“Baxılmır” rədifli şeiridə şikayət-giley ruhlu olub bu qəbildən olan şeirlərə də şamil edilə bilər. Haqsızlıqdan şikayət bu şeirdə də açıq-aydın duyulur.

Zəmanə bəd gəlib, Allah amandır,
Doğru-düzlük, həqiqətə baxılmır.
Əhlihal insanın halı yamandır,
İnsanlığa, ləyaqətə baxılmır.

Alan-almağında, satan-satmaqda,
Qovan-qovmağında, tutan-tutmaqda,
Aranı-bərəni qatan-qatmaqda,
Giley-güzar, şikayətə baxılmır.

“Belə görmədik” rədifli iki şeir də şikayət, giley motiflidir. Bu şeirlərdə keçmiş zamanla indiki zaman arasında olan fərq sanki müqayisə edilməklə giley dolu şikayət poetik dillə oxucusu ilə paylaşılır.

Saxtalar olmadı, yalan olmadı,
Dağıdan, talayan, talan olmadı,
Xəyallar içində solan olmadı,
Biz elə görmüşük, belə görmədik.

və ya

Demə tərif edir köhnə zamanı,
Gətirmə könlünə beylə gümanı.
Salmayın araya nahaq davanı,
Biz elə görmüşdük, belə görmədik.

“Xəbərsiz” rədifli şeri də şikayət ruhunu ifadə edir. Burada əsas fikir neqatif işləri yaşadan insanlara, insanlığa qarşı mövqe tutan şəxslər tənqid olunur.

Nə çox anlayırsan, nə az qanırsan,
Nə ney anlayırsan, nə saz qanırsan,
Nə mətləb duyursan, nə söz qanırsan,
Ehtiramdan, nəzakətdən xəbərsiz.

Çatışmır kamalın dəlisən, nəsən?
Qansoran həşarət, zəlisən nəsən?
İblisin, şeytanın felisən nəsən?
Xeyirxahlıq, fəzilətdən xəbərsiz.

Bütün şairlərin ruh halının ifadəsi olan məhəbbət mövzulu şeirlər Cəmil Əkbər yaradıcılığına da xas cəhətlərdən biridir. Eşqin-məhəbbətin yaşı olmur deyirlər. Bu mövzudakı şeirlərin sayı Cəmil Əkbərin yaradıcılığında çoxluq təşkil edir. Ülvi hisslərin tərənnümü bu lirik məhəbbət motifli şeirlərində daha səmimi, daha ülvi səslənməkdədir. "Biryerə düşdü" rədifli şeirini oxuduqca peşimanlıq hissiləri ilə çulğalaşmış ən ülvi lirik duyğular, oxucunu hətta bir qədər kövrəldə də bilir.

Mənim sadəliyim, sənin daş-qaşın,
Mənim iradəmlə, sənin göz-qaşın.
Mənim ürək şamım, sənin atəşin,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim arzularım, sənin niyyətin,
Mənim sadəliyim, sənin zinətin,
Mənim taleyimlə, sənin qismətin,
Nəyaman, ay aman biryerə düşdü.

Məhəbbət mövzulu şeirlər Cəmil Əkbərin yaradıcılığında xüsusi bir yer tutmaqdadır. 1951-ci ildə hələ 23 yaşında ikən yazdığı "İndi" rədifli şeiri bu qəbildən olan şeirlər bölümündə yer alır.

A bimürvət, a nainsaf, a zalım,
Yandırma bağrımı tez mənim indi.
Alışıb oduna büryan olduğum,
Al bu miskin könlüm qız, mənim indi.

Məhəbbət mövzusundakı "Solmamış" rədifli şeiri də Cəmil Əkbər yaradıcılığında özünəməxsus poetik düşüncələri ilə fərqlənir.

Nə qədər bacarsan ədalan, gülüm?
Hüsnü-camalının gülü solmamış.
Ellərdə ad qazan, sədalan gülüm?
Əqil kamalının ləli solmamış.

Əzəl gündən düz qoyulsun əsası,
Qoy ucalsın məhəbbətin binası,
Pərvaz etsin könüllərin sonası,
Çeşməsi quruyub, gölü solmamış.

"Neyləyim?" rədifli şeir Cəmil Əkbərin məhəbbət mövzulu şeirləri arasında yer alır.

Yanımdan keçərkən gözəl afətim,
Qanrılıb baxmayım, baxım neyləyim?
Eşq-məhəbbətlə nə zərafətim?
Yandırıb qəlbimi, yaxım neyləyim?

Cəmiləm gözəllik divanəsiyəm,
Oduna alışan pərvanəsiyəm,
Aşiqəm məşuqun divanəsiyəm,
Başına qaxmayım, qaxım neyləyim?

Sabiranə ruhda yazılmış məcazi anlam daşıyan şeirlər də Cəmil Əkbər yaradıcılığında sezilməkdədir. "Müdir qağa" rədifli şeirində Cəmil Əkbər bəzi üzdəniraq vəzifə sahiblərinin özünü düşünərək, vəzifəsindən sui-istifadə edip bəzi şəxslərdən rüşvət almaqla, pul-para toplayaraq özünə cahi-cəlal, gün-güzəran yaratması beləliklə də xalqın malını mənimsəməsi, elin varına göz dikərək onu talaması, kimi neqatif hallarını hədəf alaraq sözün qüdrəti və geniş imkanları ilə bu kimi tipləri tənqid atəşi ilə ifşa edir.

Özün dolanmağın hesabdan deyil,
Qoy biz də dolanaq, ay müdir qağa.
Qurani-Kərimdən, kitabdan deyil,
Qoy biz də dolanaq, ay müdir qağa.

Ellərin varını az mənimsəyin,
Dərinə getməyin, üz mənimsəyin,
Gəl eşit bu xalqı, söz mənimsəyin,
Qoy biz də dolanaq, ay müdir qağa.

İthafnamələr Cəmil Əkbər yaradıcılığında da diqqəti çəkməkdədir. Görkəmli elm, sənət xadimləri ilə yanaşı, xalq arasında tanınmış dəyərli insanlara həsr edilmiş bu qəbildən olan şeirlər kifayət qədər Cəmil Əkbər yaradıcılığında özünü biruzə verməkdədir. Namaz müəllimə ithafən yazdığı "Sizin Balçılı" rədifli şeirində Cəmil müəllim əslində Azərbaycanın bin-bərəkətli bölgəsi olan Balçılı kəndinin, onun dəyərli insanlarının mənəvi gözəlliyini poeziyanın gücü ilə vəsf etməyə çalışır.

Qüdrət sahibindən payını alıb,
Nə gözəl diyardır, sizin Balçılı?
Çörəyini alıb, çayını alıb,
Nə gözəl diyardır, sizin Balçılı?

Bu yerin sakini babaya rəhmət,
Nəqədər tər töküb, çəkibdir zəhmət,
Qayğılar göstərib, eyləyib xidmət,
Nə gözəl diyardır, sizin Balçılı?

Digər bir ithafnaməsində Cəmil Əkbər, tanınmış şəxsiyyətlər, elm, sənət adamlarına ithafən yazdığı şeirlər səmimi duyğuların ifadəsi kimi o şəxsləri qiymətləndirmək vasitəsi kimi özünü göstərir. Prof.Dr. Niyazi Səfərovun 70 illiyi münasibəti ilə 1996-cı ildə ithaf etdiyi "Bu" rədifli şeirini misal göstərə bilərik.

Yetmiş il yaşamaq zərafət deyil,
Dözümdü, durumdu, dəyanətdi bu.
Kim deyər bu hünər, məharət deyil?
Yenilməz iradə, qətiyyətdi bu.

"Bu Cəmil Əkbər" şeirində isə şair, insanları tanıyan bir şəxs kimi kənar gözlə, sanki Cəmil Əkbərin sözcüsü kimi onun şəxsiyyətini, kişiliyini fikir və düşüncələrini insanlara olan münasibətini, mənəvi dünyasını poetik dillə açaraq bir növ özü-özünü oxucularına tanıdır.

İstəyir dünyada dava olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.
Zəhərə qarışan hava olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.

Cəmil Əkbər ana Vətənini azad, firəvan görmək istədiyi üçün “Yaşa” rədifli şeirində ürək sözlərini, arzu-diləklərini səmimi bir dillə ifadə edir:

Cəmil Əkbər vüqarınla öyünüb,
Əhdi-peyman, ilqarınla sevinib.
Bu qüdrətlə,  bu hikmətlə güvənib,
Vətən azad yaşa, firəvan yaşa.

Qocalıqdan şikayət motifli şeirlər də Cəmil Əkbər yaradıcılığında “Qocaldım”, “Qocalıq”, “Qocalığın simfoniyası”, “Sözə baxmır”, “Sözünə baxmır” rədiflərində olan bir neçə şeirdə görünməkdədir. İxtiyar çağının yaratdığı bir sıra sıxıntılar, çətinliklər səmimiyyəti ilə etiraf olunur. “Daha” rədifli şeir bu mövzuda olan şeirlər arasındadır:

Azalıbdır dəyanətim,
Odum, közüm, hərarətim,
Olan-qalan var qüvvətim,
Gedənmirəm işə daha.

Paltarımı geyənmirəm,
Cümləni düz deyənmirəm,
Çeynəyirəm yeyənmirəm,
Kabab dəymir dişə daha.

Bu qəbildən olan şeirlərində Cəmil Əkbər insan həyatının qüruba endiyi dönəmi, sanki qocalığın xarakteristikasını obrazlı dillə açıb göstərməyə çalışır. Daha ətraflı xarakterizə etmək üçün Cəmil Əkbər “Sözə baxmır” rədifli şeirini hətta 4 variantda yazmışdır. 1963-cü ildən başlamış müxtəlif illərdə *(1975, 1983, 1986, 1989, 1990, 1994, 1995)* bu mövzuda olan düşüncələrini oxucuları ilə paylaşmışdır.

İnsan qocalanda nə pis olarmış,
Ayaq sözə baxmır, baş sözə baxmır.
Əzalar yerbəyer naqis olarmış,
Xəyal sözə baxmır, huş sözə baxmır.

Bu qəbildən olan şeirləri dinlədikcə qocalığın əlindən dad-hazar edərək, ixtiyarlıq dönəmindən gileylənir Cəmil Əkbər.

Dövrü – zamandan, bədxah insanlardan şikayət, Cəmil Əkbərin "Neylim?" rədifli 4 şeirində də özünü göstərir.

"Gədə-güdələr"in, "lotu-potular"ın Cəmil Əkbərin üstünə ayaq alması, qəsdinə duraraq məcazi anlamda könül quşunu öldürməsi bu kimi dərdlərə dözə bilmədiyini, ümidin təkcə Allaha qaldığını şeirin bir bəndində bu misralarla izhar edərək gileylənməkdədir.

Ağarmaq istəmir saçım, saqqalım,
Zəmanə ağardır başımı neylim?
Gedir kef-damağım, gəlir məlalım,
Tökür gözlərimin yaşını neylim?

Gədə-güdə ayaq alır üstümə,
Toxunurlar mənliyimə, şəsdimə,
Xainliklə giribdilər qəsdimə,
Öldürür könlümün quşunu neylim?

Azərbaycan aşıqlarının və şairlərinin yaradıcılığında olan dağ mövzusu Cəmil Əkbər yaradıcılığında da özünü göstərir. Bu mövzuda 8 şeir yazan Cəmil Əkbər bəzi şeirində Azərbaycan təbiətinin şah əsəri olan, əsrarəngiz gözəlliklərə bələnmiş əzəmətli füsunkar dağları poetik bir dillə vəsf edir. Bəzən onu narahat edən məsələlərlə bağlı dağlarla mənəvi yaxın sırdaş kimi fikrlərini paylaşır, ictimai-siyasi müstəvidə dərdi-sərini şair düşüncəsini şeir dili ilə ifadə etməyə çalışır. Bəzən də Cəmil Əkbər dağların dili ilə öz dərdlərini verməyə, bu narahatçılığının həyəcan təbilini çalmağa çalışır. Bir növü öz dərdi-sərini dağların dərdi səri olaraq onu narahat edən problemləri izhar edir.

Nanikor oğlunu, qızını görüb,
Çatıldı qabağı, qaşı dağların.
Yersiz ədasını, nazını görüb,
Sarsıldı xəyalı-huşu dağların.

Bəzi şeirlərində dağların zəngin bitki örtüyünə də diqqət ayırır. Gözəlliyinə gözəllik gətirən bu bitkilərin hərbirinin öz yeri, öz ətri, öz rayihəsi olduğunu vurğulayan Cəmil Əkbər "Dağlarda-dağlarda" rədifli şeirinin bir bəndində onlara bu misralarla belə dəyər verir.

"Burxanc otu", "kəkotu" var,
Bizim dağlarda-dağlarda.
Yol üstündə "yolotu" var,
Bizim dağlarda-dağlarda.

Qayalarda kəklik də var,
Talalarda əlik də var,
Sərin mehli külək də var,
Bizim dağlarda-dağlarda.

Həssas bir ata, duyğusal düşüncəli bir baba kimi Cəmil Əkbər bu dünyanı tərk edib gedəndən sonra övladlarının günü-güzəranı necə olacaq deyə "Mənsiz?" rədifli şeirində kövrək, həmçinin nigarançılıq ruhuna bələnmiş fikirlərini, səmimi duyğularını poetik misraların imkanları ilə belə dilə gətirir:

Düşünürəm gələcəyi, son günü,
Necə keçəcəkdir gününüz mənsiz?
Kim açacaq dolaşanda düyünü?
Necə olacaqdır şəniniz mənsiz?

Çəkməkdən olmuşam fikir yorğunu,
Verirəm sizlərə belə sorğunu,
Kim çəkəcək mənim kimi qayğını?
Necə üyünəcək dəniniz mənsiz?

Bir çox şeirlərini oxuduqca Cəmil Əkbərin bir şəxsiyyət kimi iç dünyası kəşf olunur. Bununla da şairin mənəvi aləmini, təbiətini öyrənmiş oluruq. "Ürəyim", "Bilməmişəm" rədifli şeirləri ilə Cəmil Əkbərin xarakteri, poetik misraların ecazkar müşayiətində xarakteri ortaya qoyulur.

Ədəblə, ərkanla dolanmışam mən,
Qovğa salmamışam, qal bilməmişəm.
Peyvənd olunmuşam, calanmışam mən,
Özgə iz tanıyıb yol bilməmişəm.

Elimə, xalqıma xidmət etmişəm,
Əlimdən gələni hörmət etmişəm,
Ar-namus gözləyib, qeyrət etmişəm,
İnsafı-mürvəti bol bilməmişəm.

Cəmil Əkbər yaradıcılığında yer alan mövzulardan biri də min illər boyu Azərbaycan mədəniyyətində yer alan, ustad aşıqlarımızın sənətkarlığını üzə çıxaran, aşıqlarımızın çalıb oxuduğu möcüzə alət olan telli sazımızdır. Bu alətlə bağlı Cəmil Əkbər bir neçə şeir yazmışdır. Özü də ev şəraitində hər zaman çalıb-çağırmaqla bu aləti özünə mənəvi dost bilmiş, kimsəyə deyə bilmədiyini dərdini, qəmini sanki bir tərəfmüqabil kimi onunla paylaşmış sirdaş olaraq ona öz fikirlərini izhar etmişdir.

Mən onu sevirəm, o məni sevir,
Eləbil bülbüldü gülşəni sevir,
Elin avazıdır, el şəni sevir,
Dostum, arkadaşım, qardaşımdı saz.

Sazın ruhu ilə Cəmil Əkbərin ruhu sanki birbiri ilə uyğun gəlməkdə, bir ahəngdə uyum saxlamaqdadır. Saz, Cəmil Əkbər üçün mənəvi ehtiyacdır. Bir çox poetik incilər məhs sazın qüdrəti ilə xalqımıza ərmağan olmuşdur. Qeyd etməliyik ki, saz mövzusunda yazdığı şeirlər müxtəlif illəri əhatə edir.

Cəmil Əkbər yaradıcılığında müdrik fikirlərlə zəngin şeirlər çoxluq təşkil edir. Bu cəhət Cəmil Əkbərin pedaqoji fəaliyyəti, həyatda gördükləri obyektiv gerçəkliklər, olan həqiqətlərlə bağlıdır. 1981-ci il 5 yanvar tarixində yazdığı 25 bənddən ibarət "İnanma" rədifli şeir bu dediklərimizə ən gözəl örnək ola bilər.

Diqqət yetir zəmanənin işinə,
Sərraf yoxsa, beh-bazara inanma!
Bərkdə-boşda dostları vur dişinə,
Vəfasıza, biilqara inanma!

Cəmil Əkbərin yaradıcılığını təhlil etdiyimizdə anlaşılır ki, müəllif bir çox şeirlərini fərqli illərdə bəzən də fərqli ay, hətta fərqli

günlərdə bir neçə variantda yazmışdır. Bu baxımdan “Kimiyə çatmadı, kimiyə çatdı”, “Qələm doğru yaz”, “Ayaq düz yeri” şeiri iki variantda, “Özümə çatmır”, “Əyyamıdır”, “Bu millət” rədifli şeiri üç variantda, “Bu” və “Sözə baxmır” rədifli şeiri isə 6 variantda yazıldığına şahid oluruq.

Cəmil Əkbərin yaradıcılığında ustadnamə xarakterli çoxsayda şeirlər də mövcuddur. Bu da Azərbaycan aşıq yaradıcılığına olan məhəbbətindən, bu şifahi xalq yaradıcılığına marağının təsiri ilə özünü göstərməkdədir. 1963-cü ildə ustad aşıq Dədə Şəmşirlə tanış olduqdan sonra bu azman sənətkarın, bilavasitə Cəmil Əkbərin yaradıcılığına çox böyük mənəvi təsir etmişdir. 1967-ci ildə yazdığı “Hesab etmə” rədifli şeiri bu qəbildən olan müdrikanə xarakterli, ustadnamə ruhlu şeirlər silsiləsində yer almaqdadır:

Dolanma tərsinə ey fitnə-fəsad,
Düzü əyri görüb, şər hesab etmə.
İnsafdan, vicdandan olaraq kasad,
Hər dördayaqlını nər hesab etmə.

Aldanma iblisə, uyma şeytana,
Atını çapdırma şərə, böhtana.
Bir nəzər yetirin yaxşı-yamana,
Hər ziri-zibili, zər hesab etmə.

Hörmətdən salmayın siz ağsaqqalı,
İrəli çəkməyin yaltaq naqqalı,
Hiyləgər tülkünü, qorxaq çaqqalı,
Kərgədan, fil deyib, şir hesab etmə.

Nə paxıl olmayın, nə qəlbiqara,
Çəkilib ayağa, düşərsən dara,
Qaraya ağ demə, ağa da qara,
Hər sinədöyəni pir hesab etmə.

Yazıram gəraylı, divani, qəzəl,
Tərsinə gedənə deyirəm düzəl,
Kəmağıl, sərsəri, yelbeyin gözəl,
Hər üzəgüləni ər hesab etmə.

Azərbaycan aşıq yaradıcılığının təsiri idi ki, Cəmil Əkbər divani formasında "Əldən gedər" rədifli şeir də xalqımıza ərmağan etmişdir. Bu şeirin ilk bəndinin ruhundan ustad kəlamı olduğu açıq-aşkar duyulmaqdadır.

Gəl aldanma zəmanənin hər köklənən sazına,
Yolu versən tamahına, şöhrətin əldən gedər.
Həris olma var-dövlətin nə çoxuna, azına,
Boğanmasan sən nəfsini, qeyrətin əldən gedər.

Qeyd etməliyik ki, tədiqqatçı şair Tayyib Atmaca "Əldən gedər" rədifli divanisini, sahib olduğu "Hece Taşları" adlı aylıq şeir dərgisinin 15 noyabr 2022 tarixli 93-cü sayısının 14-15-ci səhifəsində yayınlatmışdır.

Nəsihət ruhlu şeirləri ilə də Cəmil Əkbər bir tərbiyəçi-pedaqoq alim kimi həyatda yanlış yolla gedən bir qrup insanları məntiqi dəlillərlə, doğru yola çəkməyə təşəbbüs göstərərək poetik dillə anlatmağa çalışır. "Yola get" rədifli şeiri ilə şair ümumiyyətlə insan övladlarını haqq-ədalətə çəkməyə, doğru yola yönləndirməyə cəhd edir.

Əsəblər korlama, qaraltma qanı,
İnsanoğlu, insanlarla yola get!
Çox asıb-kəsənlər özün de hanı?
İnsanoğlu, insanlarla yola get!

Görmürsənmi öldürəni, öləni?
Ağladanı, sızladanı, güləni?
Milyon-milyon gedənləri gələni?
İnsanoğlu, insanlarla yola get!

Hüzün dolu şeirlər də Cəmil Əkbər yaradıcılığında mövcuddur. Əziz dostlarının haqq dünyasına köçməsi Cəmil Əkbərin qəlbində məyusedici ağır təəssüf hissləri oyatmış, matəm mövzulu bir çox qəmli şerilər yazmışdır. "Getdi" rədifli şeiri ona qardaş qədər əziz olan, məsləkdaşı Cəbrayıl müəllimin Haqq dünyasına qovuşmasının təsiri ilə yazılmışdır:

Hayıf, a Cəbrayıl, əziz qardaşım,
Səninlə nə qədər ləyaqət getdi.
Vicdanı, məsləki təmiz yoldaşım,
Nə qədər sədaqət, səxavət getdi.

Peşimançılıq ruhunu ifadə edən şeirlər də Cəmil Əkbərin yaradıcılığında yer almaqdadır. Gənclik çağlarında vaxtın, zamanın boş keçməsini həyatının müdrik çağında anlayan Cəmil Əkbər böyük peşmançılıq, mənəvi iztirab çəkir və bu mövzunu şeir dili ilə ifadə edir. Bununla da gənclərin vaxtı-vədənin dəyər qiymətini bilməyi belə anlatmağa çalışır.

Heyif o günlərə, o saatlara,
Dolanıb əqrəbi, boş gəldi-getdi.
O dövrü-zamana, o büsatlara,
Qərq oldu tufana qış gəldi-getdi.

Heyif o qəlblərə, o ürəklərə,
O arzu-istəyə, o diləklərə,
Yorulmaz qollara o biləklərə,
Cahilə, nadana tuş gəldi-getdi.

Əslində Cəmil Əkbər bu şeiri ilə insanlara mesaj verib anladır ki, vaxtı vədəni boş keçirib illəri yelə verdikdən sonra o qiymətli günlər bir daha geri gəlməz. Həyatı yaşamağı səhv anlayan insanlara dəqiqənin, saniyənin belə qədrini bilməyə, vaxtını pis qəlbli, mənfur niyyətli insanlarla boşa keçirməməsini təmənna edir. Çünki sonrakı peşimançılığın fayda vermədiyini üzüntü ilə anlatmağa çalışır.

Cəmil Əkbərin müxtəlif mövzulu şeirləri arasında lirik ruhlu olanları da var. Təmiz hisslərin təzahürü olan bu şeirlərdən biri də dağ çiçəklərinə bir həmdəm, bir sevgili aşiq-məşuq kimi, sirdaş, yaxındaş kimi yazdığı “Getmirəm” rədifli şeiridir.

Ay zərif çətirli, ay çiçəklərim,
Mən səndən əl çəkib doyub getmirəm.
Ay behişt ətirli, ay göyçəklərim,
Mən səni kimsəsiz qoyub getmirəm.

Öz doğma Vətəninini yabançı ölkələrlə dəyişən vətən övladlarının çəkdiyi mincür məşəqqətlər Çəmil Əkbərin “Gəl” rədifli şeirində anlamlı təsir qüvvəsi ilə təsvir olunmuşdur. Doğma Vətənin çiləsi, əzab əziyyəti də olsa qürbət eldən daha gözəl olduğunu şeirinin hərbir bəndində mənalı məntiqlə izah etməyə çalışır.

Azərbaycanda bir atalar sözü var. Deyirlər: “Öl içində, el içində”. Bu məramla yanaşan Cəmil Əkbər yad məmləkətdəki soydaşlarımızın öz evinə, eşiyinə, kəndinə dönməsini, öz xalqına, millətinə, qohum-əqrəbasına sahib çıxmasını, doğma xalqına qeyrətlə, vicdanla xidmət edərək xeyir verməsini arzulayır.

Yabançı ölkədə qaldığın bəsdir!
Fikirə, xəyala daldığın bəsdir!
Gül kimi saralıb, solduğun bəsdir!
Səfalı yaylağın, güneyinə gəl.

Gəl ulu dağların nəfəsini gör,
Bülbüllü bağların həvəsini gör,
Barlı-bərəkətli meyvəsini gör,
Bənövşə dərməyə, quzeyinə gəl.

“Cəmil Əkbər”in 2-ci cild şeirlər kitabında yer alan poetik incilər, fərqli illərdə yazılmış müxtəlif mövzulardakı poeziyasının bir qismini təşkil etməkdədir.


Prof. Dr. İlgar Cəmiloğlu


Hüquqşünas Əli İmamverdi

*Şəhla qızımın Haqq dünyasına qovuşan günü*

*12.07 – 2022 Allah Rəhmət etsin*

## 1. ÇAĞIRIR BİZİ

Səadət naminə firəvan həyat,
İlhamlı əməyə çağırır bizi.
Eşqin aqibəti, bu toy, bu büsat,
İlhamlı əməyə çağırır bizi.

Dövlətli, sərvətli, varlı dolanmaq,
Qüvvətli, qüdrətli, karlı dolanmaq,
Namuslu, qeyrətli, arlı dolanmaq,
İlhamlı əməyə çağırır bizi.

Uğurlu yollara gedən səfərlər,
Qələbə, təntənə, böyük hünərlər.
İgidlik, qoçaqlıq, bütün zəfərlər,
İlhamlı əməyə çağırır bizi.

Həyatın sirrini anlamaq qanmaq,
Eşqin, məhəbbətin oduna yanmaq,
Axşamlar gec yatmaq, erkən oyanmaq,
İlhamlı əməyə çağırır bizi.

Sədaqət, səxavət, ünsiyyət, ülfət,
Saf arzu-istəklər, ülvi məhəbbət.
Alilik naminə hərbir ləyaqət,
İlhamlı əməyə çağırır bizi.

Həyatda var olan məna, məziyyət,
Doğruluq, düzgünlük, birdə ədalət,
Zəriflik, nəciblik, paklıq keyfiyyət,
İlhamlı əməyə çağırır bizi.

Gözəl dünyamızda şan da, şöhrət də,
Ünsiyyət məqamı xətir-hörmət də,
Səxavət, kəramət, insaf, mürvət də,
İlhamlı əməyə çağırır bizi.

Car olub ad-sanı ellərə düşmək,
Əsrlər adlayıb, illərə düşmək,
Qonub dodaqlara, dillərə düşmək,
İlhamlı əməyə çağırır bizi.

Ay Cəmil dünyada yaratmaq, qurmaq,
Ədəblə, ərkanla oturmaq, durmaq.
Dövranı, şərəflə sonuna vurmaq,
İlhamlı əməyə çağırır bizi.

***Cəmil Əkbər*** 23. 11 – 1987

## 2. VAR

Bu dünya belədir, əzəldən bəri,
Günəş də var, səma da var, yer də var.
Dolanıb keçsə də, yüz ildən bəri,
Aşkar da var, açılmamış sir də var.

Nə istidir anaların qucağı,
Mehri-ülfət, ünsiyyətin bucağı.
Etibarın, etiqadın ocağı,
Məkkə də var, məscid də var, pir də var.

Gəl seyrə çıx aranları, dağları,
Loğmanları, xəsdələri, sağları.
Becərilən, bəslənilən bağları,
Calaq da var, peyvənd də var, cır da var.

Hərkəsin xətiri, hörməti başqa,
Şərafəti başqa, şöhrəti başqa.
Dəyanəti başqa, qüdrəti başqa,
Tülkü də var, çaqqal da var, şir də var.

Yaxşıları, yamanları, pisi gör,
Bədxahları, xeyirxahı, nəsi gör.
Qızıl-gümüş, biriliyantı, misi gör,
Sərraf da var, zərgər də var, zər də var.

Hamı sürür dövranını bir zaman,
Çəkib gedir karvanını bir zaman.
Əkib-biçir xırmanını bir zaman,
Hərkəs üçün xeyir də var, şər də var.

Seyrə çıxıb uzaqları gəl görək,
İsti-soyuq, sazaqları gəl görək.
Məzlumları, yazıqları gəl görək,
Görən varsa, görməyən də, kor da var.

Çox mənəm deyənin xətiri olmur,
Təravəti olmur, ətiri olmur,
Həyat lövhəsində sətiri olmur,
Gülşən varsa, çəmən varsa, xar da var.

Hamı zirvələrə uça bilməyir,
Baş vurub buluda qaça bilməyir,
Çatıb ənginliyə quca bilməyir,
Tərlan varsa, şahin varsa, sar da var.

Belədir dünyanın gərdişi, Cəmil!
Adət-ənənəsi, vərdişi, Cəmil!
Baş aça bilməyir hər kişi, Cəmil!
Ayıq varsa, sərvaxt varsa, kar da var.

***Cəmil Əkbər***

## 3. QANAN VAR

Baş ağrıdıb hər yetənə söz demə,
Nə ədalət, nə həqiqət qanan var.
Hərnə desən doğru demə, düz demə,
Nə insanlıq, nə ləyaqət qanan var.

Cəhd edib, çalışıb özünü yorma,
Kəlməni, cümləni, sözünü yorma.
Baxışını yorma, gözünü yorma,
Ədəb-ərkan, nə nəzakət qanan var.

Hər yetənə hörmətini pay etmə,
Hər gədəni bəsləyərək bay etmə.
Hədər yerə zəhmətini zay etmə,
Xeyirxahlıq, nə fəzilət qanan var.

Hədər yerə gəl başını ağrıtma,
Xəyalını, nə huşunu ağrıtma.
Qabağını, nə qaşını ağrıtma,
Nə məsləhət, nə nəsihət qanan var.

Hər yetənə xeyirxahlıq eyləmə,
Səmimiyyət, mehribanlıq eyləmə.
Candan keçib, istiqanlıq eyləmə,
Nə xoş arzu, nə də niyyət qanan var.

Hərkəs nə bilirsə onu da edir,
Özü də bilməyir nə məqsəd güdür.
Hayandan gəlibdir, hayana gedir,
Nə ixtiyar, nə sədarət qanan var.

Hamı qan sormaqda zəliyə dönüb,
Dadamal, tamarzı, ləliyə dönüb,
İtirib əqlini dəliyə dönüb,
İnsaf-mürvət, nə kəramət qanan var.

Bəşərin övladı pozulub gedib,
İgidlik nəyaman azalıb gedib?
Saralıb, soluxub, sozalıb gedib,
Nə ünsiyyət, nə  də ülfət qanan var.

Hamı yön alıbdır tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı.
Baxan yox uğurlu sabaha sarı,
Nə şan-şöhrət, nə şərafət qanan var.

Sükuta dalıbdır kamal dünyası,
Əqidə dünyası, amal dünyası,
Mənəvi gözəllik, camal dünyası,
Nə din-məzhəb, nə şəriət qanan var.

Cəmil Əkbər nə dayanıb durursan?
Dərd-qəm çəkib, nə özünü yorursan?
Ora-bura çırpınırsan, vurursan,
Nə bacarıq, nə fərasət qanan var.

***Cəmil Əkbər*** 20. 12 – 1995

## 4. HAQQI VAR

*I variant*

Yer üzündə qoy küdurət silinsin,
Yaşamağa məhəbbətin haqqı var.
Kimin varsa məharəti bilinsin,
Yaşamağa fərasətin haqqı var.

Qoy olmasın yer üzündə yalanlar,
Nə əqrəblər, nə iblislər, ilanlar,
Şər uyduran, fitnə-fəsad, çalanlar,
Yaşamağa ədalətin haqqı var.

Yer üzündə cəhalət də qalmasın,
Xainlik də, xəyanət də qalmasın,
Giley-güzar, şikayət də qalmasın,
Yaşamağa ləyaqətin haqqı var.

İlqarsıza, dönüklərə ar olsun,
Vicdanından sönüklərə ar olsun,
Hər məzhəbə yönüklərə ar olsun,
Yaşamağa sədaqətin haqqı var.

Gözümüzə görünməsin nadanlıq,
Kütbeyinlik, kəmağıllıq, avamlıq.
Başımızı dəng etməsin yamanlıq,
Yaşamağa mərifətin haqqı var.

Yer üzündə qəlbi daşlar olmasın,
Vicdanı kəm, fikri çaşlar olmasın.
Filə hürən alabaşlar olmasın,
Yaşamağa şərafətin haqqı var.

İnsafsızlar, mürvətsizlər azala,
Xətirsizlər, hörmətsizlər azala.
Fəhimsizlər, diqqətsizlər azala,
Yaşamağa kəramətin haqqı var.

Yer üzündə olmayaydı yaltaqlar,
Təlxək kimi oyunbazlar, şıltaqlar,
Abırsızlar, həyasızlar, sırtıqlar,
Yaşamağa cəsarətin haqqı var.

Qırılaydı harda varsa lovğalar,
Hay-küy salan qarıldayan qarğalar,
Başımızda qoz qırmaya darğalar,
Yaşamağa səxavətin haqqı var.

Olmayadı nə acgözlər, hərislər,
Nə namərdlər, nanəciblər, xəbislər,
Nə yarımçıq gədə-güdə, nə pislər,
Yaşamağa nəzakətin haqqı var.

***Cəmil Əkbər*** 29. 07 – 1988

## 5. HAQQI VAR

*II variant*

Küdurətdən, ədavətdən nə çıxar?
Yaşamağa məhəbbətin haqqı var.
Acıq, qəzəb, ya nifrətdən nə çıxar?
Ədəb-ərkan, mərifətin haqqı var.

Qorxaqlıqdan, yaltaqlıqdan uzaq ol,
Təlxəklikdən, şıltaqlıqdan uzaq ol.
Həyasızlıq, sırtıqlıqdan uzaq ol,
Yaşamağa cəsarətin haqqı var.

Biqeyrətə, karsızlara sığınma,
Söyüd kimi barsızlara sığınma.
Binamusa, arsızlara sığınma,
Yaşamağa ləyaqətin haqqı var.

Ölüvaya, tənbəllərə nə hacət?
Həyat üçün əngəllərə nə hacət?
Çətənəyə, cəncəllərə nə hacət?
Yaşamağa fərasətin haqqı var.

Bacarana baş qurbandı deyirlər,
Dolma, bozbaş, aş qurbandı deyirlər.
Səhər tezdən xaş qurbandı deyirlər,
Yaşamağa məharətin haqqı var.

Yaşatmaq var, yaşamaq var deyirlər,
Yüklənmək var, daşımaq var deyirlər.
Boşamaq var, boşanmaq var deyirlər,
Yaşamağa şərafətin haqqı var.

Nifrət olsun namərdlərə, xoryada,
Başkəsənə, qantökənə, cəllada,
Ahnaləyə, qəm-qüssəyə, fəryada,
Yaşamağa kəramətin haqqı var.

Qoy olmasın el malına hərislər,
Nə acgözlər, tamahkarlar, xəsislər,
Nə paxıllar, nə xainlər, xəbislər,
Yaşamağa səxavətin haqqı var.

Vicdanı kəm, qəlbi daşlar olmaya,
Fikri-zikri tamam çaşlar olmaya.
Filə hürən alabaşlar olmaya,
Yaşamağa mərhəmətin haqqı var.

İlqarına dönüklərə ar olsun!
Məhəbbəti sönüklərə ar olsun!
Hər məzhəbə yönüklərə ar olsun!
Yaşamağa sədaqətin haqqı var.

***Cəmil Əkbər*** 31. 07 – 1988

## 6. QARIŞMASA

Dəryalar dolarmı, dalğalanarmı?
Ona yüz yerindən çay qarışmasa.
Dəqiqə, saatla il düzələrmi?
Onlara həftələr, ay qarışmasa.

Qardaş qardaş ilə dalaşardımı?
Qəlbinə ləkələr bulaşardımı?
Nəsillər pozulub cırlaşardımı?
Böyründən bədəsil zay qarışmasa.

Qohum-qardaş uzaqlaşıb yad olmaz,
Hərkəsdənin qazandığı ad olmaz,
Ürək fərəhlənib, könül şad olmaz,
Söhbətə şirindil nay qarışmasa.

İnsan arasında qalmaqal olmaz,
Nə dava, nə dalaş, qeyri–hal olmaz,
Nə qüssə, nə kədər, nə məlal olmaz,
Bölgü məqamında pay qarışmasa.

Dağların köksündən sellər açılmaz,
Döşündə lalələr, güllər açılmaz,
Qəlbimin sazında tellər açılmaz,
Əyərki bahara yay qarışmasa.

Cəmiləm xalqıma məhəbbətim var,
Deməyə, yazmağa nəsihətim var,
Əhlihal insanla ünsiyyətim var,
Qanana-qanmayan tay qarışmasa.

***Cəmil Əkbər*** 15. 07 - 1963

## 7. MƏNSİZ?

Düşünürəm gələcəyi, son günü,
Necə keçəcəkdir gününüz mənsiz?
Kim açacaq dolaşanda düyünü?
Necə olacaqdır şəniniz mənsiz?

Çəkməkdən olmuşam fikir yorğunu,
Verirəm sizlərə belə sorğunu,
Kim çəkəcək mənim kimi qayğını?
Necə üyünəcək dəniniz mənsiz?

İnləyəndə qəlbinizin telləri,
Qoy axmasın gözünüzün selləri,
Saralmasın eşqinizin gülləri,
Necə köklənəcək bəminiz mənsiz?

Kim tökəcək, axıdacaq tərini?
İşlədəcək kamalını, sərini?
Kim verəcək sizə mənim yerimi?
Necə durulacaq qanınız mənsiz?

Kim qazanıb verəcəkdir çörəyi?
Təsəllini, təsginliyi, ürəyi?
Olacaqdır evinizin dirəyi?
Necə keçəcəkdir çəminiz mənsiz?

Oyanıb qəflətdən ayılmasanız,
Tanınıb, seçilib, sayılmasanız,
Şərəflə ellərdə yayılmasanız,
Necə ucalacaq himiniz mənsiz?

Nə bacardım nəfinizi vermişəm,
Nəşənizi, kefinizi vermişəm,
Dönə-dönə səhvinizi demişəm,
Necə düşəcəkdir yönünüz mənsiz?

Mən olmuşam gözünüzün işığı,
Evinizin xanəndəsi, aşığı,
Həm böyüyü, həm kiçiyi, uşağı,
Necə yanacaqdır şamınız mənsiz?

Kim çəkəcək sizin üçün zəhməti?
Düzəldəcək, verəcəkdir zinəti?
Yaradacaq yer üzündə cənnəti?
Necə biçiləcək zəminiz mənsiz?

Gəlib-keçib ötüşəcək zamanlar,
Könlünüzdə kök salmasın gümanlar.
Qəlbinizi bürüməsin dumanlar,
Necə açılacaq çəniniz mənsiz?

Fikirdən Cəmilin qaralır qanı,
Sıxılır ürəyi, üzülür canı,
Ey könül mülkümün dini-imanı,
Necə keçəcəkdir dəminiz mənsiz?

***Cəmil Əkbər***

## 8. MÜSƏLMAN VAR!

Harda xain, xəbis varsa,
Orda bil ki, müsəlman var!
Acgöz, həris, naqis varsa,
Orda bil ki, müsəlman var!

Harda acgöz, həris varsa?
Tamah varsa, nəfis varsa?
Bədxah varsa, o pis varsa?
Orda bil ki, müsəlman var!

Vicdanından kəc olan var,
İnsanlığa öc olan var,
Vaxtsız ölən, qocalan var,
Orda bil ki, müsəlman var!

Harda giley-güzar varsa?
Sağalmayan azar varsa?
Vicdanlara bazar varsa?
Orda bil ki, müsəlman var!

Harda şər var, böhtan varsa?
Aralığı qatan varsa?
Əqrəb, iblis, şeytan varsa?
Orda bil ki, müsəlman var!

Harda ölü, təmbəllər var,
Dava salan cəncəllər var.
İşə mane, əngəllər var,
Orda bil ki, müsəlman var!

Harda qəsdə dururlarsa,
Birbirini yorurlarsa,
Min bir hiylə qururlarsa,
Orda bil ki, müsəlman var!

Harda varsa saxta, yalan,
Çalıb-çapan, xalqı yolan,
Vicdanı kəm, cibi dolan,
Orda bil ki, müsəlman var!

Harda görsən yaltaqları,
Kəndirbazı, şıltaqları,
Həyasızı, sırtıqları,
Orda bil ki, müsəlman var!

Harda yoxsa insaf, mürvət,
Haqqısaya xətir-hörmət,
Doğru fikir, düzgün söhbət,
Orda bil ki, müsəlman var!

Harda qovğa-qalı görsən?
Dəymənişdən kalı görsən?
Xoşa gəlməz halı görsən?
Orda bil ki, müsəlman var!

Harda görsən ənikləri,
Məzhəbindən dönükləri.
Hərbir yola yönükləri,
Orda bil ki, müsəlman var!

Harda görsən hiylə, kələk,
Üzü bəzək, içi təzək.
Sərsəm xəyal, kəc də dilək,
Orda bil ki, müsəlman var!

Harda gördün lotu-potu,
Tapanmazsan qanun notu,
Vur başına ala çatı,
Orda bil ki, müsəlman var!

Harda varsa, ədəbazlar?
Yekəxana modabazlar?
Məkr, kələk, hoqqabazlar,
Orda bil ki, müsəlman var!

Harda görsən pozğunları?
Həyasızı, azğınları?
Leş gəmirən quzğunları?
Orda bil ki, müsəlman var!

Harda bil ki, bezdirən var,
Əzablara dözdürən var,
Ürəkləri üzdürən var,
Orda bil ki, müsəlman var!

Baş götürüb hara gedək?
Dərdi kimə bəyan edək?
Necə gəlib dada yetək?
Orda bil ki, müsəlman var!

***Cəmil Əkbər***

## 9. VAR MƏNİM

Sözlərimi eşidənlər dinləsin,
Deyiləsi nəsihətim var mənim.
İstər gülsün, istərsədə inləsin,
Söylənəsi hekayətim var mənim.

Çəkmək üçün ürəyimdə yox qəmim,
Suda batmaz nə yelkənim, nə gəmim,
Quldurlardır, lotulardır həmdəmim,
Canhacanıq, həmsöhbətim var mənim.

Başımdadır yaltaqların dəstəsi,
Eşitmirəm ədaləti, haq səsi.
Harınlaşıb mən saymıram heçkəsi,
Koroğlutək cəsarətim var mənim.

Yaşamışam, yaşatmışam həmişə,
Baş qoşmuram, qarışmıram hər işə.
Niyə salım onu-bunu təşvişə,
Kim baş əysə sədaqətim var mənim.

Rəiyyətim danlayanmaz üzümü,
Başa düşüb anlayanmaz sözümü,
Fələk belə qatlayanmaz dizimi,
Demaqoqdan şikayətim var mənim.

Aram yoxdur düz danışıb deyənlə,
Haqsızlığa nifrət edib söyənlə.
Qazancını təkcə-tənha yeyənlə,
Əlaçığa ənaətim var mənim.

Toplayıram dörd yanıma tayımı,
Kurortlarda keçirərəm yayımı.
Gözü yolda qoymayıram dayımı,
Tez çatası əmanətim var mənim.

Kəlbəcərdən göndərirlər balımı.
Baş əyirlər, soruşurlar halımı.
Möhkəm yerə söykəmişəm dalımı,
El bilir ki, şan-şöhrətim var mənim.

Arxayınam qazandığım adıma,
Dost – tanışa, qohumuma, yadıma.
Kim yetirsə harayıma, dadıma?
Ona qarşı məhəbbətim var mənim.

Kim sataşsa tez boynunu buraram,
Bircə gündə yüz cür kələk quraram.
Ölənədək vəzifədə duraram,
Yıxan olmaz, dəyanətim var mənim.

Yerli-yersiz danışmıram sözümü,
Ad qazanıb tanıtmışam özümü,
Bilən yoxdur astarımı, üzümü.
Lotuluqda ləyaqətim var mənim.

Çəkilirəm məclislərdə başa mən,
Görünür ki, çox gəlirəm xoşa mən.
Şair kimi bir gəlmirəm coşa mən,
Xoş güzəran, səadətim var mənim.

El içində sözüm keçir yağ kimi,
Arzularım gül açıbdı bağ kimi,
Bax, arxamda dayım durub dağ kimi,
Canım qurban, ibadətim var mənim.

Nə versələr yox demirəm, alıram,
Azdan-çoxdan qayğıya da qalıram,
Həriflərі çolpa kimi yoluram,
İxtiyarım, sənaətim[1] var mənim.

---

[1] Sənaət (ərəbcə) – ustalıq, hünər

Tökməyirəm qazanc üçün qantəri,
Hər il gəlir təzə-təzə müştəri,
Zəli kimi batırıram neştəri,
Sormaq üçün fərasətim var mənim.

Əyanidə dərs deyəndə ölürəm,
Qiyabidə dərs deyəndə gülürəm.
Dərs yükünü öz xeyrimə bölürəm,
Mən müdirəm sədarətim var mənim.

Saxla sözüm qoyun qalsın əmanət,
Zurna çalıb eyləməyin bəyanət.
Kurs işinin dəftərini on manat,
Hər gün satan laborantım var mənim.

Kim pozarsa ləzzətimi, dadımı?
Ləkələsə şərəfimi, adımı?
Kəsərlərsə qazanc üçün xodumu?
Ona qarşı ədavətim var mənim.

Saymayanı ağlar gözlü qoyaram,
Dərisini qoyun kimi soyaram.
Tez-tələsik günahımı yuyaram,
Nə olsun ki, cinayətim var mənim?

Səbirliyəm, söyən olsa dinmərəm,
Od almaram, qızışmaram, sönmərəm.
Mövqeimdən yüksələrəm, enmərəm,
Nəcür desən xasiyyətim var mənim.

Kimsəsizdən əhval tutub sormuram,
Əylənmirəm, oturmuram, durmuram.
Sağlıq deyib qədəhləri vurmuram,
Arxalıyla ünsiyyətim var mənim.

Fikirləşib yormayıram başımı,
Ona-buna turşutmuram qaşımı,
Kef içində artırıram yaşımı,
Gəzmək üçün bir Qıratım var mənim.

Maşınımla el-obalar gəzirəm,
Kef olmasa darıxıram bezirəm.
Nə etsələr, göz yumuram dözürəm,
Bilirəm ki, xəcalətim var mənim.

Ona-buna yağlı vədlər verirəm,
Aldadaraq könüllərə girirəm.
Öz işimi məharətlə görürəm,
Bacarığım, min hikmətim var mənim.

Hiyləliklə keçirirəm baş belə,
Daş üstünə daş qoymuram daş belə,
Keçirəcəm neçə-neçə yaş belə,
Yüzə doğru səyyahətim var mənim.

***Cəmil Əkbər***

## 10. VAR ONUN

Hayıf o Vətənə, o torpağa ki,
Sənin kimi bir övladı var onun.
O gövdə, butağa, o yarpağa ki,
Sənin kimi bir bərbadı var onun.

Hayıf o ataya, babalara ki,
O elə, o yurda, obalara ki,
O ocaq, o közə, sobalara ki,
Sənin kimi bir züryəti var onun.

Hayıf o xalqa ki, o millətə ki,
O insanoğluna, o xilqətə ki,
O nəsil, əsilə, o xislətə ki,
Sənin kimi bir fəryadı var onun.

Hayıf o şəhərə o kəndlərə ki,
O bürcə, qalaya, o bəndlərə ki,
O keçid, bərəlgə, o həndlərə[2] ki,
Sənin kimi bir xoryadı var onun.

Hayıf o ülfətə, səmimiyyətə,
O arzu-istəyə, o məhəbbətə,
O eşqə, həvəsə, o sədaqətə,
Sənin kimi bir "Fərhadı" var onun.

Hayıf o dostluğa, o yoldaşlığa,
O həmkar, həmdəmə, o sirdaşlığa,
Həmyaşıd, taytuşluq, o çağdaşlığa,
Sənin kimi qohum, yadı var onun.

***Cəmil Əkbər*** 19.10-1990

## 11. VAR ONUN?

Gör necə dəhşətdi, fəlakətdi bu?
Nə təqsiri, nə günahı var onun?
Kindi, küdurətdi, ədavətdi bu?
Nə xeyiri, nə mətahı var onun?

Bu necə xəyaldı, fikirdi qardaş?
Hiylədi, qurğudu, məkrdi qardaş?
Mənim millətimə təhqirdi qardaş?
Nə iştahı, nə tamahı var onun?

Necə müsibətdi, məşəqqətdi bu?
Xainlik, xəbislik, xəyanətdi bu?
Quldurluq, qatillik, cinayətdi bu?
Min naləsi, min birahı var onun?

[2] Hənd – 1. Divar, 2. Sahə, əkin sahəsi, 3.Yaxın ətraf.

Necə əlaqədi, nə ünsiyyətdi?
Dözümdü, durumdu, nə qətiyyətdi?
Bu necə həngamə, nə hekayətdi?
Nə axşamı, nə sabahı var onun?

Dığalar çaşıbdı, azıb yolunu,
Dağıdıb sökübdü, qazıb yolunu,
Dönübdür dinindən, pozub yolunu,
Nə Astvas, nə Allahı var onun.

***Cəmil Əkbər*** 22.11 – 1991

## 12. VAR ONUN

İnsanoğlu bu dünyaya gələndən,
Kamal kimi bir nişanı var onun.
Gözgörməyən sirli-sirli aləmi,
Düsşündükcə hər nişanı var onun.

Doğulandan əzəl gündən anadan,
İbtidadan, bünövrədən, binadan,
Hissiyatı, şüurları oyadan,
Xəbər verən pasibanı var onun.

Cəm olubdur insanların başında,
Düşüncədə, xəyalında, huşunda,
Arzusunda, əməlində, işində,
Dürlü-dürlü gövhərkanı var onun.

Dərrakəsi hasil edir kamalı,
Məslək, vicdan, əqidəni amalı.
Odur edən dünyasını mənalı,
Verdikləri hər fərmanı var onun.

Düşüncədir məsləhətlər verdirən,
Hökm verib hər işləri gördürən.
Yolgöstərən nəsihətlər dedirən,
Münəccimi, ol loğmanı var onun.

Vicdan dedikləri insanda şahdır,
Kimdə tapılmasa, nalədir, ahdır,
Xətadır, bəladır işi günahdır,
Haqq qoyduğu yol-ərkanı var onun.

Elmdir, bilikdir, yolgöstərəni,
Sədaqət, səxavət bol göstərəni,
Ədəbi, ərkanı bil göstərəni,
Öz tərsanə, öz sükanı var onun.

Halaldır zəhməti, neməti, nanı,
Cənnətə çevirən odur dünyanı.
Yaşadır, ucaldır hərbir insanı,
Bəxş etdiyi şöhrət-şanı var onun.

Səbri çoxdur, nə yükləsən götürür,
Hövsələdir hər qəzəbi söndürür.
Kimdə yoxsa zirvələrdən endirür,
Haq-taaladan kərəm-kanı var onun.

Hərkəsdənin təməlidir öz əsli,
Öz keçmişi, nəcabəti nəsili.
Bu olmasa zimistandır hər ili,
Qış görməyən gülüstanı var onun.

Kara çatır insanların həyası,
Hörmət-izzət məhəbbətin ziyası.
Halal olsa hərkəsdənin mayası,
Beh-bazarı, düz dükanı var onun.

Paxıllıq, xainlik verir əl-ələ,
Salır aralığa yaman vəlvələ.
Qoymayır insanlıq əmələ gələ,
Cəhənnəmi, qırqazanı var onun.

Xəbisliyin nə bağı var, nə barı,
Nə dövləti, nə sərvəti, nə varı.
Nə dostu var, nə yoldaşı, nə yarı,
Öz-özünə bir düşməni var onun.

Tamahdır insanı yoldan azdıran,
Ünsiyyəti paralayan, pozduran,
Ayaqlar altından quyu qazdıran,
Əzab verən bəd hədyanı var onun.

İstəyir dünyanı eyləsin qarət,
Nə utanır, nə də çəkir xəcalət,
Acgözlük, hərislik olub pis halət,
Səbəb odur ah-amanı var onun.

Qəbahətin dəftəri yox, sözü yox,
Nə dili var, nə ağzı var, gözü yox.
El içində çıxmaq üçün üzü yox,
Gizli qalan sirr-pünhanı var onun.

Qal-qovğalar insanları öldürür,
Məhəbbəti paralayır, böldürür.
Dost-tanışı insanlara güldürür,
Nalə salan bir kamanı var onun.

Kim almasa bu sözləri nəzərə,
Ömür-günü gedəcəkdir hədərə.
Xeyir verməz el-obaya, bəşərə,
Bu qüvvəsi, bu təkanı var onun.

Dünya gör-götürdür atalar deyib,
Görüb-götürməyən hədərə gedib.
Dərdləyib, çərləyib, qəddini əyib,
Cəmil kimi sərraf-kanı var onun.

***Cəmil Əkbər***

## 13. VAR Kİ?

Hərə bir biçimdə, hərə bir boyda,
Oqədər arzu var, saf niyyət var ki?
Bilmirsən insanlıq ondadır, bunda,
Oqədər insan var, şəxsiyyət var ki?

Hər insanoğlunun xətiri başqa,
Təravəti başqa, ətiri başqa,
Həyat səhfəsində sətiri başqa,
Oqədər kəmiyyət, keyfiyyət var ki?

Hərə bir dözümdə, bir durumdadır,
Hərə bir tutumda, bir vurumdadır.
Hərə bir zümrədə, bir qurumdadır,
Oqədər səbr var, dəyanət var ki?

Hərə bir diyarda öz işindədir,
Əyri işindədir, düz işindədir,
Dərin işindədir, üz işindədir,
Oqədər cinayət, şikayət var ki?

Nəqədər söhbət var, o deyilməsin,
Nəqədər meyvə var, o yeyilməsin.
Nəqədər insan var, o əyilməsin,
Oqədər nağıl var, hekayət var ki?

Oqədər çox şey var, öz yerində döy,
Fikirlər, xəyallar, söz yerində döy.
Oğul yerində döy, qız yerində döy,
Oqədər xəta var, qəbahət var ki?

İnsan birbirini bezdirir yaman,
Əzab-əziyyətə dözdürür yaman,
Dağları, daşları gəzdirir yaman,
Oqədər kin, nifrət, küdurət var ki?

Ay Cəmil, saymaqla bitəsi deyil,
Azalası deyil, itəsi deyil,
Yayınası deyil, ötəsi deyil,
Oqədər istək var, məhəbbət var ki?

***Cəmil Əkbər*** 9. 02 – 1992

## 14. PUL

Pul məhrum edir bilin,
Gözəl saf ürəkləri.
Pozub silir, yox edir,
O şirin diləkləri.

Bəzisi pul toplayır,
İstər olsun mülkədar.
Xalqı soyub talayır,
Sanki olub əməkdar.

Hərkəs ona uyarsa,
Qəlbdən üzü gülməyir,
Öz xalqını soyarsa,
İşi heç düzəlməyir.

O məsum ürəkləri,
Yox edir, yox bir anda,
Utandırır bizləri,
Bilin bütün cahanda.

Əyləndirir insanı,
Sanki hərbir məkanda,
Tökdürmüş nahaq qanı,
Bilin keçmiş zamanda.

***Cəmil Əkbər*** 1956

## 15. EY PUL?

Sənsiz yoxdu saya gələn,
Mən nə deyim sənə ey pul?
Dar məqamda hoya gələn,
Mən nə deyim sənə ey pul.

Sənsiz hörmət-izzət hanı?
Nicat hanı, nüsrət hanı?
Dəyərlərə qiymət hanı?
Mən nə deyim sənə ey pul?

Yoxdur qəlbdə məhəbbət də,
Yalan olur həqiqət də.
Kara yetmir səxavət də,
Mən nə deyim sənə ey pul?

Nə ad vardır, nə də san var,
Nə şərəf var, nə də şan var,
Nə xaqan var, nə də xan var,
Mən nə deyim sənə ey pul?

Hər dərdlərə sənsən dərman,
Hökmü qərar verən fərman,
Qəlb evimi etdin viran,
Mən nə deyim sənə ey pul?

Bəlkə günah özümdədir?
Qəlbimdəki dözümdədir?
Baxışımda, gözümdədir?
Mən nə deyim sənə ey pul?

Hər işlərin baisisən,
Qatilisən, canisisən,
Alimisən, dahisisən,
Mən nə deyim sənə ey pul?

Sənsiz oldu günüm qara,
Könül evim parça-para,
Dərdimə yoxdur bir çara,
Mən nə deyim sənə ey pul?

Gədələri çəkdin başa,
Bürümüsən al qumaşa.
Görənlər etdi tamaşa,
Mən nə deyim sənə ey pul?

Sən Cəmili xar eylədin,
Dünyasını dar eylədin,
Tərlan ikən sar eylədin,
Mən nə deyim sənə ey pul?

***Cəmil Əkbər*** 4. 04 – 1999

## 16. EY PUL?

Qiymət versək ədəb-ərkan hörmətə,
Aldanmasaq hər yalançı şöhrətə,
Kəc baxmasaq biz namusa qeyrətə,
Eləbil zibilsən, de nəsən ey pul?

Cəmil Əkbər sussamasaq al qana,
Qəsd etməsək nə məsləkə, vicdana,
Dolansaq dünyada mərdi-mərdana,
Hörmətdən düşərsən, de nəsən ey pul?

***Cəmil Əkbər***

## 17. PULDUR[3]

Hələ az yazılıb a Kərəm puldan,
Fitnə də, fəsad da, böhtan da puldur.
Xəbərin varmıdır nökərdən, quldan?
Aparıb bazarda satan da puldur.

Bədəməl törədən, bəd işlər görən,
Nalayiq, naqisə, səltənət verən,
Acgöz, hərislərin qəlbinə girən,
Şarlatan, iblis də, şeytan da, puldur.

Odur gözlüləri gözsüz eyləyən,
Arif, danəndəni, sözsüz eyləyən,
Mənəm deyənləri gücsüz eyləyən,
Asan da, kəsən də, tutan da puldur.

Odur "loğman" edən hərbir naşını,
Məzlumun, fəqirin tökən yaşını.
Haqqın, ədalətin, mizan daşını,
Götürüb kənara atan da puldur.

---

[3] "Puldur" rədifli şeir Cəmil Əkbərin tələbəsi olmuş, istedadlı şair Kərəm Kürqıraqlıya cavab olaraq yazılmışdır.

Odur insanları yoldan azdıran,
Ünsiyyəti, ülfətləri  pozduran,
Ayaqlar altından quyu qazdıran,
Günahsız günaha batan da puldur.

Odur quldurları qaldıran başa,
Bəzəyib, bürüyən atlas qumaşa,
Güllələr atdıran, qardaş-qardaşa,
Gedib daldalarda yatan da puldur.

İnsandan-insana dəyməzdi xəta,
Böyüklər kiçiyə olardı ata,
Haqq-nahaq qanlara hey bata-bata,
Aramsız aranı qatan da puldur.

Yoxdursa haraya çatası dayın,
Çalış bədəməldən uzaqlaş, yayın,
Olma kimsələrə heç də arxayın,
Dar gündə dayın da, atan da puldur.

Heçkəs deməsin ki, varlı-hallıyam,
Var-dövlət sahibi, cah-cəlallıyam.
Əyilməz qamətli dağ vüqarlıyam,
Anla ki, başında xatan da puldur.

Cəmili edibdir dəli-divanə,
Bilmir ki, dərdini desin hayana?
Dərd ağırdır, necə dözüb dayana?
Haraysız haraya çatan da puldur.

***Cəmil Əkbər*** 1973

## 18. PULA BAĞLIDIR

Pul üstündə ar-namuslar atılır,
Qan qaralır, qaşqabaqlar çatılır,
Nazu-nemət əldən-ələ satılır,
Namus da, qeyrət də pula bağlıdır.

Pulsuz olan çata bilmir murada,
İgid ölür, adı batır arada,
Pul olanda ağ görünür, qara da,
Qüvvət də, qüdrət də pula bağlıdır.

Pul olmasa ürək dönüb daş olur,
Fikir, xəyal altüst olub, çaş olur,
Başlar ayaq, ayaq gəlib baş olur,
İnsaf da, mürvət də pula bağlıdır.

Pul ilə yaranır ünsiyyətimiz,
Yerinə yetişir hər niyyətimiz.
Dünyaya yayılır qətiyyətimiz,
Hökumət, dövlət də pula bağlıdır.

İnsanı insana, bağlı eyləyən,
Sinəni düyünlü, dağlı eyləyən.
Dünyanı qaralı, ağlı eyləyən,
Xahiş də, minnət də pula bağlıdır.

Könüllərdən keçənləri bilənməz,
Pulsuz olan ürəyindən gülənməz.
Pulu olsa aralıqda dilənməz,
Kədər də, möhnət də pula bağlıdır.

Pul olmasa işləyənlər tapılmaz,
Nə saraylar, nə qalalar yapılmaz,
Qan qaralmaz, qaşqabaqlar çatılmaz,
Əmək də, zəhmət də pula bağlıdır.

Pul olanda güllər açır arzular,
Süfrəmizdə bol-bol olur urzular,
Anasını əmə bilir quzular,
Arzu da, istək də pula bağlıdır.

Pul olmasa dəyər gəlməz ölçüyə,
Çəmil, sığma bu dünyaya, ölkəyə,
Nəğdi olmaz, uyan olmaz nisyəyə,
Dəyər də, qiymət də pula bağlıdır.

***Cəmil Əkbər***

## 19. PUL İMİŞ

Manat olub ünsiyyətin əsası,
Ədalət də, həqiqət də pul imiş.
Ülviliyin, qüdsiyyətin binası,
Eşq-həvəs, məhəbbət də pul imiş.

Nəqədər aldandıq yalan sözlərə,
Boğazdan yuxarı kalan sözlərə.
Xəzana qarışan, solan sözlərə,
Dözüm-durum, dəyanət də pul imiş.

Parasız nə ülfət, nə ünsiyyət var?!
Nə gözəl adət var, nə xasiyyət var?!
Nə xilqət, nə bəşər, nə cəmiyyət var?!
Arzu-istək, xoş niyyət də pul imiş.

Odur insanları nikbin eyləyən,
Lovğa, yekəxana, xudbin eyləyən.
Qüssəyə qərq edən, bədbin eyləyən,
Ziyarət də, ibadət də pul imiş.

Odur adamları insan eyləyən,
Nadan kimsələri qanan eyləyən.
Biri-birisinə həyan eyləyən,
Nəzakət də, məlahət də pul imiş.

Odur söz-söhbəti ötgün eyləyən,
Kamala çatdırıb yetkin, eyləyən,
Fikiri cəm edən, bitgin eyləyən,
Səxavət də, kəramət də pul imiş.

Odur gədələri hörmətli edən,
Odur yezidləri mürvətli edən,
Odur dovşanları qeyrətli edən,
Cəsarət də, fərasət də pul imiş.

Odur insanları qüdrətləndirən,
Finişdə irəli sürətləndirən.
Şərafətli edən, şöhrətləndirən,
Əsl-zat da, nəcabət də pul imiş.

O imiş bəşəri cana gətirən,
Yedirib-içirib qana gətirən.
Şərəfə-şöhrətə, şana gətirən,
Məharət də, ləyaqət də pul imiş.

Altunsuz bu həyat, nə varsa boşdur,
Onunla ünsiyyət, ülfətlər xoşdur.
Eləbil baharda insana qışdır,
Müşk, ənbər də, təravət də pul imiş.

Onunla yaranır, qurulur hər şey,
Çalxanıb-çalxanıb durulur hər şey.
Çəkilib damardan sorulur hər şey,
Saraylar da, imarət də pul imiş.

Ona bağlı imiş ülfətin başı,
Bəşəri aləmin, xilqətin başı,
Ölkənin, Vətənin, millətin başı,
Bəraət də, zəmanət də pul imiş.

Kimdə yoxsa aralıqda boş gəzər,
Sinəsində ömürboyu daş gəzər,
Kim deyər ki, güzəranı xoş gəzər?
Əvvəl-axır, nihayət də pul imiş.

Parasız dünyaya inanma qardaş,
Girib tərəziyə sınama qardaş.
Məzəmmət olunub, qınama qardaş,
Din, etiqat, şəriət də pul imiş.

Pulun yoxsa hamı sənə güləcək,
İnanmakı gözyaşını siləcək?
Şərik olub dərdi-qəmi böləcək?
Kamillik də, fəzilət də pul imiş.

Dünyanın işini mən belə gördüm,
Cibi boş olanı mən kölə gördüm.
Varlını-hallını mən lələ gördüm,
Ədəb-ərkan, mərifət də pul imiş.

Xətir də, hörmət də əfsanə imiş,
Ona inananlar divanə imiş.
Doğma övladına biganə imiş,
Azdan-çoxdan mərhəmət də pul imiş.

Dünyanın ləzzəti kefi ondadır,
Qazancı, gəliri, nəfi ondadır,
Zurnası, qavalı dəfi ondadır,
Qanun-qayda, təriqət də pul imiş.

Cəmil Əkbər gör nəqədər gec qanıb?
Düz görməyib, eşitməyib kəc qanıb?
Tərs eşidib, səhv anlayıb, ləc qanıb?
Şan-şöhrət də, şərafət də pul imiş.

***Cəmil Əkbər*** 19. 08 – 1989

## 20. DOLANAMMIR NİYƏ GÖRƏN?

Abır, ismət sahibləri,
Dolanammır niyə görən?
Halal qismət sahibləri,
Dolanammır niyə görən?

Zəhmət çəkib tər tökənlər,
İnci səpib, zər tökənlər,
Dərz biçənlər, vər tökənlər,
Dolanammır niyə görən?

Haqq danışıb söz deyənlər,
Hərnə olsa düz deyənlər,
Cəmil, dərin-üz deyənlər,
Dolanammır niyə görən?

***Cəmil Əkbər*** 3. 04 – 1999

## 21. GÖYÇƏLİLƏR NİYƏ QALSIN GÖYÇƏDƏ?

Qol-qanadı açılmırdı oyerdə,
Göyçəlilər niyə qalsın Göyçədə?
Ziyaları saçılmırdı oyerdə,
Göyçəlilər niyə qalsın Göyçədə?

Dağlarının dumanı var, çəni var,
Erməninin kəlləsində cini var,
Dəvə kimi ürəyində kini var,
Göyçəlilər niyə qalsın Göyçədə?

Əsrlərlə orda qaldıq nə tapdıq?
Nə qazandıq, nə götürdük, nə qapdıq?
Divarlara gərmə, təzək hey yapdıq,
Göyçəlilər niyə qalsın Göyçədə?

Dözənmədi Hayqazların zoruna,
Hiyləsinə, nə məkrinə, toruna,
Lənət olsun Mıkırtıçın goruna,
Göyçəlilər niyə qalsın Göyçədə?

Gədiklərdə tara batıb qalırdı,
Zimistanda qara batıb qalırdı,
Min fikirə, xəyallara dalırdı,
Göyçəlilər niyə qalsın Göyçədə?

Başbiləni Yunisləri burdadır,
Aslanları, Qəşəmləri burdadır,
Həsənləri, Hüseynləri burdadır,
Göyçəlilər niyə qalsın Göyçədə?

Əli, Vəli, Pirvəlisi başdadır,
Salınıblar üzüklərə qaşdadır,
Yağlı-yağlı vəzifədə işdədir,
Göyçəllir niyə qalsın Göyçədə?

Cabbarı da, Cəfəri də burdadır,
Dost – müsahib, Həbibi də burdadır,
Nicatı da, Nüsrəti də burdadır,
Göyçəlilər niyə qalsın Göyçədə?

İqtidarda, qardaşları burdadır,
Həmyerlisi, taytuşları burdadır,
Həmdəmləri, sirdaşları burdadır,
Göyçəlilər niyə qalsın Göyçədə?

Yemək burda, içmək burda, kef burda,
Gəlir-çıxar, qazanc burda, nəf burda,
Döşürməyə, ötürməyə müf burda,
Göyçəlilər niyə qalsın Göyçədə?

Bu yerlərdə yaxşı keçir günləri,
Yaş da olsa üyüdülür dənləri,
Xərac alır dəryadan gəmiləri,
Göyçəlilər niyə qalsın Göyçədə?

Biz gəldik ki, əlbir olaq hamımız,
Sözbir olaq, dilbir olaq hamımız,
Nə bacarsaq pulgir olaq hamımız,
Göyçəlilər niyə qalsın Göyçədə?

Biz gəldik ki, səadətə qovuşaq,
Xətalardan, bəlalardan sovuşaq,
Harda olsaq həmrəy olub uyuşaq,
Göyçəlilər niyə qalsın Göyçədə?

Hamı bilsin, qoy tanısın "yeraz"ıq,
Kim deyər ki, əqiqədən dayazıq?
Soydaşlara pərçim olan bir pazıq,
Göyçəlilər niyə qalsın Göyçədə?

Çaldıqları köhnə-köşkül saz olub,
Var-dövləti ördək olub, qaz olub,
Gördükləri selli, sulu yaz olub,
Göyçəlilər niyə qalsın Göyçədə?

***Cəmil Əkbər*** 3-4. 04 – 1999

## 22. ARZULA

Çox deyilib keçən günə gün çatmaz,
Gələcəyə səadəti arzula.
Ha çağırsan, ha bağırsan ün çatmaz,
El-obaya sədaqəti arzula.

Ötən günlər ötüb getdi deyirlər,
Gözdən itib-batıb getdi deyirlər.
Muradına çatıb getdi deyirlər,
Ürəklərə məhəbbəti arzula.

Keçmişdə yaxşı da, pis də olubdur,
Qızıl da, gümüş də, mis də olubdur.
Zalım da, bədxah da, nəs də olubdur,
Gələcəyə mərhəməti arzula.

Meyil yetir yenə kitab, dəftərə,
Açılsın qarşında gözəl mənzərə.
Xeyir zəfər çalsın həmişə şərə,
İnsanlığa ləyaqəti arzula.

Zəmanə xoş keçsin, gəlsin o günlər,
Açılsın dolaşıq düşən düyünlər.
Düzünə işləsin başlar, beyinlər,
Xoş sədanı, bəyanatı arzula.

Fitnədən, fəsaddan gendə dolanaq,
Çəkilək dalana tində dolanaq,
Buluddan uzaşaq, gündə dolanaq,
Ünsiyyətdə xoş niyyəti arzula.

İnsan birbirini bezdirməsinlər,
Salıb müsibətə dözdürməsinlər.
Dağları-daşları gəzdirməsinlər,
İnsaf, mürvət, kəraməti arzula.

Oxuyun, öyrənin Cəmil Əkbəri,
Müəllim olubdu nə vaxtdan bəri.
Çəkibdi zəhməti, tökübdü təri,
Ona biraz dəyanəti arzula.

***Cəmil Əkbər*** 4. 04 – 1999

## 23. BOL EYLƏ

İnsanın insandan üzü dönməsin,
Qadir Allah məhəbbəti bol eylə.
Baxışı, nəzəri, gözü dönməsin,
Sədaqəti, səxavəti bol eylə.

İnsanın başından cini yox olsun,
Qəlbindən silinsin kini yox olsun.
Qulağı dəng edən ünü yox olsun,
Saf arzunu, pak niyyəti bol eylə.

Ünsiyyət ülfətdə hörmət yaşasın,
Çəkilən zəhmətlər, xidmət yaşasın,
Kəramət yaşasın, mürvət yaşasın,
Xeyirxahlıq, fəziləti bol eylə.

Ürəklər dərdləyib baş ağarmasın,
Qabaqlar tutulub qaş ağarmasın.
Nə saçlar, saqqallar boş ağarmasın,
Şan-şöhrəti, şərafəti bol eylə.

Bu cahan mülkündə dava olmasın,
Zəhərə qarışan hava olmasın,
Vaxt-vədəsiz gül yanaqlar solmasın,
Ədəb-ərkan, nəzakəti bol eylə.

***Cəmil Əkbər*** 21. 04 – 1999

## 24. BOL EYLƏ-EYLƏ

İlahi, insana tamah verincə,
Eşqi-məhəbbəti bol eylə-eylə.
Xəyanət, xəsarət, günah verincə,
Səxa-səxavəti bol eylə-eylə.

İnsanam deyəni küt eyləyincə,
Yoxsul eyləyincə, lüt eyləyincə,
Ünsiyyət-ülfətdə mat eyləyincə,
Fəhmi-fərasəti bol eylə-eylə.

İlqara, vəfaya dönük edincə,
Hər yola, hər izə yönük edincə,
Vicdanı, məsləki sönük edincə,
Əhdi-sədaqəti bol eylə-eylə.

Laqeyid, biganə hey nəyə gərək?
Sərsəri, kəmağıl, səy nəyə gərək?
İdrak, düşüncəsi, key nəyə gərək?
Ülvi-ləyaqəti bol eylə-eylə.

İnsanam deyəni arsız edincə,
Ağacsız, meyvəsiz, barsız edincə,
Taqətsiz edincə, girsız edincə,
Abırı, isməti bol eylə-eylə.

Dünyada hiyləgər, bic kimə lazım?
Xain kimə lazım, kəc kimə lazım?
Höcət kimə lazım, öc kimə lazım?
Xətiri-hörməti bol eylə-eylə.

İnsan övladını xəbis edincə,
Nanəcib yaradıb, naqis edincə,
Dadamal, ləlöyün, həris edincə,
İnsafı-mürvəti bol eylə-eylə.

Kimlərə lazımdır nanıkor gədə?
Nadanlıq eyləyən, sitəmkar gədə?
Övladı-bəşərə ziyankar gədə?
Namusu, qeyrəti bol eylə-eylə.

Olmasın arada qəlbi qaralar,
Əqidə düşkünü, içi yaralar.
Darılıb şəninə solub saralar,
Saf arzu, niyyəti bol eylə-eylə.

***Cəmil Əkbər*** 20.02 -1989

## 25. BOL EYLƏ-EYLƏ

İlahi, sən kəsmə ənaətini,
İnsafı-mürvəti bol eylə-eylə.
Etibar, etiqat, zəmanətini,
Xətiri-hörməti bol eylə-eylə.

Qoymaynan dünyada zalım çoxala,
Ürəklər kövrələ tamam yuxala.
Çırpınıb, darıxıb tamam sıxıla,
Abırı, isməti bol eylə-eylə.

İlahi, insandan kamalı kəsmə,
Əqidə, məsləki, amalı kəsmə,
Görkəmi, yöndəmi, camalı kəsmə,
Dəyəri, qiyməti bol eylə-eylə.

Qoymaynan dünyada kalan çoxala,
Açılan azala, solan çoxala.
Boşalan qırıla, dolan çoxala,
Namusu, qeyrəi bol eylə-eylə.

Qoymayın çoxalsın xain, xəbislər,
Tamaha uyanlar, acgöz hərislər,
Nanəcib, namərdlər, nacins, naqislər,
Ülvi-məhəbbəti bol eylə-eylə.

Çoxalsın dünyada etibar, ilqar,
Açılsın alınlar, düzəlsin vüqar.
Qəlbləri tutmasın nə his, boran, qar,
Səxa, sədaqəti bol eylə-eylə.

Ürəkdə olmasın nə kin, küdurət,
Nə qisas, nə qərəz, nə də ədavət.
Olmasın cinayət, nə də xəyanət,
Pak arzu, niyyəti bol eylə, eylə.

Cəmilin qəlbinə vurma zədəni,
Qaldırma üstünə gədə-güdəni.
Salma pis günlərə qoca dədəni,
Məzmunu, hikməti bol eylə, eylə.

***Cəmil Əkbər*** 3. 06 -1988

## 26. HƏSRƏTİK

Saxtalıq, sünilik, yalan əlindən,
Ədalətə, həqiqətə həsrətik.
Dağıdıb sökənlər, talan əlindən,
İnsanlığa, ləyaqətə həsrətik.

Hiyləgər, dələduz, biclər üzündən,
Sərsəri, kəmağıl, giclər üzündən,
Qanuna, qaydaya, kəclər üzündən,
Sədaqətə, səxavətə həsrətik.

Ünsiyyət, ülfəti pozan əlindən,
Doğrunu əyriyə yozan əlindən,
Yolunu, izini azan əlindən,
Saf arzuya, pak niyyətə həsrətik.

Kəmağıllar, başıboşlar üzündən,
Vicdansızlar, qəlbidaşlar üzündən,
Filə hürən alabaşlar üzündən,
Ülvi-istək, məhəbbətə həsrətik.

Nanəciblər naqislərin əlindən,
Xainlərin, xəbislərin əlindən,
Acgözlərin, hərislərin əlindən,
Şan-şöhrətə, şərafətə həsrətik.

Qiymət verilməyir zəhmət əhlinə,
Canqoyan, qanqoyan xidmət əhlinə,
Kəramət əhlinə, mürvət əhlinə,
Bacarığa, fərasətə həsrətik.

Dünyanın ləzzəti yaltaqlarındı,
Abırsız, həyasız, sırtıqlarındı,
İnsan cərgəsində artıqlarındı,
Mərd igidə, cəsarətə həsrətik.

Dağıdıb talayır, sökənlər sökür,
Dağı sinələrə çəkənlər çəkir.
Əyib qamətləri bükənlər bükür,
Xeyirxahlıq, fəzilətə həsrətik.

Hayana baxırsan qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Gileylər, güzarlar, şikayət artıb,
Ehtirama, mərhəmətə həsrətik.

Üzdə, gözdə abır-həya qalmayıb,
Əqidə qalmayıb, qayə qalmayıb,
Təlimi düz verən dayə qalmayıb,
Ədəb-ərkan nəzakətə həsrətik.

***Cəmil Əkbər*** 22. 04 – 1999

## 27. DÜŞDÜ

Məhəbbət eşqilə vuran ürəyim,
Niyə qəm-kədərin gölünə düşdü?
Oyanan ürəyim, duran ürəyim,
Hansı nadürüstün felinə düşdü?

Vətən torpağında cana gələrdim,
Zülala çevrilib şana gələrdim,
Bəslənib, yetişib qana gələrdim,
Niyə biyabanın çölünə düşdü?

Bir kəlmə özünə söz götürməyən,
Özgə torbasından duz götürməyən,
Əlaman eyləyib tez götürməyən,
Hər yetən gədənin dilinə düşdü?

Nədən ay İlahi qanan kimsələr?
Ellərin dərdinə yanan kimsələr?
Xətiri, hörməti anan kimsələr?
Neyçün sərsərinin əlinə düşdü?

Tərk etdi yurdunu Vətən övladı,
Bəslənib orada bitən övladı.
Gözəl avazıyla ötən övladı,
Bəs niyə özgənin elinə düşdü?

Əyilmək bilməyən dağa bənzəyən,
Barlı-bərəkətli bağa bənzəyən,
Şamama yetirən tağa bənzəyən,
Qaçqınlıq, köçgünlük selinə düşdü.

Cəmil Əkbər buminvalla neyləsin?
Dərdi kimə açıb, nəyi söyləsin?
Kimə nə danışıb, bəyan eyləsin?
Zamanın bəd gələn ilinə düşdü.

***Cəmil Əkbər*** 27. 04 – 1999

## 28. DİLƏK

Bala çox şirindir, bilənlər bilir,
Görənlər görübdü, görməyən görsün.
Çəkib zəhmətini dərənlər bilir,
Dərənlər dəribdi, dərməyən dərsin.

Ağac da barını görsə yaxşıdı,
Bağbana faydanı versə yaxşıdı.
Hərkəs öz borcunu versə yaxşıdı,
Verənlər veribdi, verməyən versin.

Çoxları bənd çəkib, qalalar tikib,
Qəsrlər yapdırıb, saraylar tikib.
Həyət-bacasına hasarlar çəkib,
Hörənlər hörübdü, hörməyən hörsün.

Vədəsi çatmamış ölən də öldü,
Çox məchul qalan da, bilən də oldu,
Gedənlər də oldu, gələn də oldu,
Gələnlər gəlibdi, gəlməyən gəlsin.

Nəola hamının ürəyi gülə,
Arzusu, istəyi, diləyi gülə.
Süfrəsi şən ola, çörəyi gülə,
Gülənlər gülübdü, gülməyən gülsün.

Hamı birbirinin qolundan tuta,
Sağından yapışıb, solundan tuta.
Qızını sevələr, oğlundan tuta,
Tutanlar tutubdu, tutmayan tutsun.

Məqamı çatmamış baş ağarmaya,
Qabaq tutulmaya, qaş ağarmaya,
Saçlar qara qala, kaş ağarmaya,
Qalanlar qalıbdı, qalmayan qalsın.

Nəola hərbirkəs murada çata,
Şərəfli, şöhrətli bir ada çata,
Yetişib haraya, imdada çata,
Çatanlar çatıbdı, çatmayan çatsın.

Çoxları nabələd, naşı qalıbdı,
Fikirin, xəyalın çaşı qalıbdı,
Ərsəyə gəlməyib, vəhşi qalıbdı,
Bilənlər bilibdi, bilməyən bilsin.

***Cəmil Əkbər*** 30.04 -1999

## 29. BİRYERƏ DÜŞDÜ

Mənim qocalığım, sənin gəncliyin,
Nəyaman, ay aman biryerə düşdü.
Mənim yorğunluğum, sənin dincliyin,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim aydınlığım, sənin zülmətin,
Mənim məhəbbətim, sənin nifrətin.
Mənim ləyaqətim, sənin qiymətin,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim sadəliyim, sənin daş-qaşın,
Mənim iradəmlə, sənin göz-qaşın.
Mənim ürək şamım, sənin atəşin,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim arzularım, sənin niyyətin,
Mənim sadəliyim, sənin zinətin,
Mənim taleyimlə, sənin qismətin,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim əqidəmlə, sənin kamalın,
Mənim niyyətimlə, sənin amalın,
Mənim görkəmimlə, sənin camalın,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim məsumluğum, sənin bəyliyin,
Mənim həssaslığım, sənin keyliyin.
Mənim hatəmliyim, sənin göylüyün,
Nəyaman, ay aman biryerə düşdü.

Məndəki məhəbbət, səndəki ürək,
Məndəki qətilik, səndəki gərək?
Məndəki hərarət, səndəki külək,
Nəyaman, ay aman biryerə düşdü.

Məndə xeyirxahlıq, səndəki nəslik,
Məndə mülayimlik, səndəki tərslik.
Məndəki yaxşılıq, səndəki pislik,
Nəyaman, ay aman biryerə düşdü.

Məndəki səhralıq, səndəki orman,
Mənim xəsdəliyim, səndəki dərman.
Mənim xətalarım, səndəki fərman,
Nəyaman, ay aman biryerə düşdü.

Səndə zəhər oldu, şirin dillərim,
Səndə tikan oldu, qönçə güllərim,
Səndə viran oldu, abad ellərim,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim açıqlığım, səndə kinlilik,
Məndə həlimlilik, səndə ciddilik,
Məndəki şiəlik, səndə sünnilik,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim ehtiramım, sənin diqqətin,
Mənim zərifliyim, sənin qüvvətin,
Abırım, ismətim, sənin iffətin,
Nəyaman, ay aman biryerə düşdü.

Əzəldən beləymiş fələyin işi,
Tərsinə dolanır çərxi-gərdişi,
Yandırır ocaqda kababla-şişi,
Nəyaman, ay aman biryerə düşdü.

Mənim nəzərimlə, sənin diqqətin,
Mənim sırtıqlığım, sənin ismətim,
Mənim taleyimlə, sənin qismətin,
Nəyaman, ay aman biryerə düşdü.

Ziddiyyət içində Cəmilin canı,
Korlandı əsəbi, qaraldı qanı,
Hayıf ki, tikanla gülün ünvanı,
Nəyaman, ay aman biryerə düşdü.

***Cəmil Əkbər*** 20. 05 - 1975

## 30. SÖZ AÇAQ İNDİ?

Dost-tanış nəyaman dönük çıxıbdır,
Hansı sədaqətdən söz açaq indi?
Vicdanı, məsləki sönük çıxıbdır,
Hansı səxavətdən söz açaq indi?

Güclülər gücsüzü zülmətə salır,
Vurub dərd-azara hillətə salır.
İşgəncə, müsibət, zillətə salır,
Hansı mərhəmətdən söz açaq indi?

Zəmanədə ağsaqqalı sayan yox,
Dərdbiləni, əhlihalı sayan yox.
Hərkəsdəni öz yerinə qoyan yox,
Hansı kəramətdən söz açaq indi?

Saf-arzuya, pak niyyətə baxan yox,
Nə öyüdə, nəsihətə baxan yox.
Nə xahişə, nə minnətə baxan yox,
Hansı nəzakətdən söz açaq indi?

Haraya baxırsan nemət qıtlaşıb,
Halaldan kəsb olan qismət qıtlaşıb.
Həya ərşə çıxıb, ismət qıtlaşıb,
Hansı fərasətdən söz açaq indi?

Nə mətləb anlayan, nə sözqanan var,
İşarə anlayıb, nə gözqanan var.
Nə haqqı tanıyan, nə düz qanan var,
Hansı məharətdən söz açaq indi?

Yolunu, izini azan oqədər?
Ünsiyyət-ülfəti pozan oqədər?
Şər-böhtan danışıb yazan oqədər?
Hansı xəyanətdən söz açaq indi?

Deyib-danışmaqla söz başa gəlmir,
Oğul başa gəlmir, qız başa gəlmir.
Gecikib ləngiyir, tez başa gəlmir,
Hansı qəbahətdən söz açaq  indi?

Oqədər çoxalıb yalan danışan?
Min bir böhtan deyib, palan danışan?
Boğazdan yuxarı kalan danışan?
Hansı bəyanətdən söz açaq indi?

Hayana baxırsan nadandı qardaş?!
Yolunu tərsinə adandı qardaş?!
Təlimdən yarımçıq dadandı qardaş?!
Hansı qiraətdən söz açaq indi?

Oqədər çoxalıb bezən, bezdirən,
Məzlumlara dağı-daşı gəzdirən.
Müsibətə, hər əzaba dözdürən,
Hansı şikayətdən söz açaq indi?

Bir deyil, beş deyil ölən-öldürən,
Ağladan, sızladan, gülən, güldürən.
Bəyan edib bu sirləri bildirən,
Hansı hekayətdən söz açaq indi?

Dünyamız nəqədər davalar görüb?
Zəhərə qarışmış havalar görüb?
Əqli-kəmlər görüb, yavalar görüb?
Hansı müsibətdən söz açaq indi?

Nələr gəlib bu bəşərin başına,
Zərbə dəyib torpağına, daşına.
Söz gəlsədə, gəlməsədə xoşuna,
Hansı fəlakətdən söz açaq indi?

Nəqədər insanlar qırılıb gedib?
Biri digərinə darılıb gedib?
Qoluna, qılçına sarılıb gedib?
Hansı ədavətdən söz açaq indi?

***Cəmil Əkbər*** 25. 07 -1998

## 31. İNDİ

Bir zaman pəhə-pəh qurulanları,
Dağıdıb himini sökürlər indi.
Hünər meydanında yorulanları,
Rədd edib, işindən əkirlər indi.

Zirvədən-zirvəyə ucalanların,
Zəfərlər çalaraq bac alanların,
Vicdanla, qeyrətlə qocalanların,
Vurub qamətini bükürlər indi.

Bir zaman hamıdan baş olanların,
Üzüyə salınıb qaş olanların,
Sözləri ellərdə xoş olanların,
Abır-həyasını tökürlər indi.

Axtarıb tapırlar nadan kəsləri,
Təlimdən yarımçıq dadan kəsləri.
Yolunu tərsinə adan kəsləri,
Vurhavur irəli çəkirlər indi.

Bəşəri-aləmə yolgöstərənin,
Sağını tanıdıb, sol göstərənin,
Qajını ayırıb, qol göstərənin,
Quzğuntək üstünə çökürlər indi.

Baxın, görün gülən kimdir, ağlayan?
Kimdir bədəməllə coşub-çağlayan?
Sinələri düyünləyən, dağlayan?
Qürurla gəzənlər, səkirlər indi.

Məzlumu, fəqiri vuran kəslərin,
Onun qərəzində duran kəslərin,
Zəlitək qanları soran kəslərin,
Gözünün yaşını tökürlər indi.

Bir zaman obada bəylik edənin,
Elə sahib olub eylik edənin,
İtirib əqlini zaylıq edənin,
Yurdunda turşənək əkirlər indi.

Ay Cəmil, bəd gəlib zamanın işi,
Nəgünə qoyurlar dövrü-gərdişi?
Tablaşa bilməyir buna hər kişi,
Bezdirib zəhləni tökürlər indi.

***Cəmil Əkbər*** 13-14. 02 – 1997

## 32. DANIŞAQ İNDİ?

Dünyanın kələfi dolaşıb yaman,
Hansı ədalətdən danışaq indi?
İpi-ilməsinə culaşıb yaman,
Hansı həqiqətdən danışaq indi?

Düha sahibinə lağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər.
Kol-kosu bəsləyib bağ eyləyirlər,
Hansı şərafətdən danışaq indi?

Alim də, loğman da dönük çıxıbdır,
Vicdanı, məsləki sönük çıxıbdır.
Yalquzaq sürüyə ənik çıxıbdır,
Hansı dəyanətdən danışaq indi?

Ədəb-ərkan, nəzakətə baxan yox,
İnsanlığa, ləyaqətə baxan yox.
Xeyirxahlıq, fəzilətə baxan yox,
Hansı ləyaqətdən danışaq indi?

Qanmazlar qananı zülmətə salır,
Min bir dərd, bəlaya zillətə salır.
Sağalmaz azara, hillətə salır,
Hansı mərhəmətdən danışaq indi?

Dünyagörmüş ağsaqqalı sayan yox,
Dərdbiləni, əhlihalı sayan yox,
Elm əhlini, pürkamalı sayan yox,
Hansı itaətdən danışaq indi?

Meydan verilibdir başıboşlara,
Vicdanı kəmlərə, qəlbi daşlara,
Filə hücum çəkən alabaşlara,
Hansı fərasətdən danışaq  indi?

Gədədən törəyən bəylər də gördük,
İdrakdan sönüklər, keylər də gördük,
Hay-həşirlər gördük, küylər də gördük,
Hansı nəcabətdən danışaq indi?

Dünyada nəqədər davalar oldu,
Zəhərə qarışan havalar oldu,
Ağlıkəmlər oldu, yavalar oldu,
Hansı cəhalətdən danışaq  indi?

Nələr gəldi insanların başına?
Düyün düşdü qabağına, qaşına,
Söz gəlsədə, gəlməsədə xoşuna,
Hansı fəzilətdən danışaq  indi?

Nəqədər insanın qanı töküldü?
Zülalı çəkildi, şanı töküldü?
Şan-şöhrəti, adı-sanı töküldü?
Hansı ədavətdən danışaq indi?

Biri yalan deyir, biri düz deyir,
Biri dərin deyir, biri üz deyir.
Birisi gecikir, biri tez deyir,
Hansı məharətdən danışaq  indi?

Birisi aldadır, biri aldanır,
Birisi gizlənir, biri daldanır,
Bilmirsən nə səmtə düzü yollanır?
Hansı sədarətdən danışaq  indi?

Deyib danışmaqla başa gələn döy,
Fikirə, xəyala, huşa gələn döy,
Ürəyə yatan döy, xoşa gələn döy,
Hansı qəbahətdən danışaq indi?

Oqədər çoxalıb yalan danışan,
Boğazdan yuxarı, kalan danışan,
Züy tutub nağara çalan danışan,
Hansı bəyanətdən danışaq indi?

Bir deyil, beş deyil nadan gədələr,
Ellərin malını, udan gədələr,
Təlimdən yarımçıq dadan gədələr,
Hansı qiraətdən danışaq indi?

Çoxalıb həryanda bezən, bezdirən,
İşgəncəyə, müsibətə dözdürən,
Dağa, daşa salıb xalqı gəzdirən,
Hansı şikayətdən danışaq indi?

***Cəmil Əkbər*** 15. 10 - 1992

## 33. İNDİ

Hərkəs nə istəsə onu da edir,
Baxan yox nə yaşa, nə başa indi.
Özü də bilməyir nə məqsəd güdür,
Baxan yox nə gözə, nə qaşa indi.

Hərə öz işində, öz kefindədir,
Öz gəlir-çıxarı, öz nəfindədir,
Öz zurna-qavalı, öz dəfindədir,
Baxan yox nə zora, nə xoşa indi.

Gözəl zəmanənin vədəsi getdi,
Sorağı kəsildi, sədası getdi,
Nurani, pirani dədəsi getdi,
Baxan yox nə sözə, nə işə indi.

Dolandı, hərləndi, zəmanə keçdi,
Qalandı odlara, pərvanə keçdi.
Yaxşılar baş əydi, yamana keçdi,
Baxan yox bahara, nə qışa indi.

Qiymət yoxdur ağırlığı çəkənə,
Dərd əlindən qamətini bükənə.
Gözyaşının leysanını tökənə,
Baxan yox tərəzi, nə daşa indi.

İnsanlıq, ləyaqət kara gəlməyir,
Sədaqət, səxavət kara gəlməyir,
Ədalət, həqiqət kara gəlməyir,
Baxan yox xəyala, nə huşa indi.

Ədəb-ərkan, nəzakət də qalmayıb,
Xeyirxahlıq, fəzilət də qalmayıb,
Hörmət-izzət, pak niyyət də qalmayıb,
Baxan yox nə taya, nə tuşa indi.

Yaxşılar yamana qarışıb gedib,
Alabaş, boz qurdla barışıb gedib.
Yalquzaq sürüyə sırışıb gedib,
Baxan yox yamaca, nə döşə indi.

Ay Cəmil dəyişib hüquq, ixtiyar,
Böylə hökm eyləyir, bizim iqtidar.
Nəqədər gəzsən də diyarbadiyar,
İşləmir nə sənət, nə peşə indi.

***Cəmil Əkbər*** 1-13. 06 – 1992

## 34. İNDİ

Aman Allah nə günlərə qalmışıq?
Yetməyir haraya nə qardaş indi.
Nə səs-küyə, nə ünlərə qalmışıq?
Gəlməyir haraya nə yoldaş indi.

Düşmüşük çətinə darda qalmışıq,
Qasırğa, boranda, qarda qalmışıq,
İlişib kəməndə, torda qalmışıq,
Yetişmir imdada nə taytuş indi.

Çoxları insafı atıb gedibdir,
Üzə bilməyənlər batıb gedibdir.
Uzaşıb gözlərdən itib gedibdir,
Görünmür gözümə nə çağdaş indi.

Çoxlarına köməyimi vermişəm,
Nəcib arzu, diləyimi vermişəm.
Xəlbirimi, ələyimi vermişəm,
Dolanır uzaqda çox sirdaş indi.

Hərkəsin həyatda öz boyu vardır,
Öz əsli, öz kökü, öz soyu vardır.
Öz haray-həşiri, öz hayı vardır,
Ada uyğun deyil çox addaş indi.

Mən Cəmil Əkbərəm, belə qanmışam,
Belə od almışam, elə yanmışam,
Belə düşünmüşəm, elə sanmışam,
Çox mənəm deyənlər, çox nimdaş indi.

***Cəmil Əkbər***

## 35. İNDİ

Aman Allah nə qəribə zamandır,
Nə köhlən-köhləndi, nə də xər indi.
Qanmasan da pisdir, qansan yamandır,
Qanunda əsər yox, nə kəsər indi.

Baxışlar, nəzərlər gözlər dəyişib,
Qaşlar sürmələnib, üzlər dəyişib,
Oğlanlar mat qalıb, qızlar dəyişib,
Nə Nəbi Nəbidir, nə Həcər indi.

Ləyaqət əhlinə pisdi deyirlər,
Zalımdı, qəddardı, nəsdi deyirlər,
Qızıl döy, gümüş döy, misdi deyirlər,
Nə sərraf sərrafdır, nə də zər indi.

Gözəl görünənə çirkin deyirlər,
Sadə görünənə xudbin deyirlər.
Bədbin olanlara nikbin deyirlər,
Nə ayaq düz gedir, nə də sər[4] indi.

Haqq yoluyla gedən, adan qalmayıb,
Doğru tərbiyəni dadan qalmayıb,
Adamlar içində adam qalmayıb,
Nə insan-insandı, nə bəşər indi.

Hərəyə bir damğa, ləkə vurulur,
Bilmirəm nə hiylə, kələk qurulur?
Qərəzində, qisasında, durulur,
Nə böhtan böhtandı, nə də şər indi.

Qarışıb gedibdir yaxşı yamana,
Baxan yox məzhəbə, dinə, imana,
Neyləsin gərdişi-dövrü zamana?
Nə günəş-günəşdir, nə qəmər indi.

Qalmayıb süfrədə halaldan maya,
Oxuyub bilən yox, Qurandan ayə.
Yaman gədələşib nurani dayə,
Nə qazanc qazancdır, nə səmər indi.

İnsanlar pozulub saxtalaşıbdır,
Vicdanlar, məsləklər axtalaşıbdır.
Sinə darvazası taxtalaşıbdır,
Nə hünər-hünərdir, nə zəfər indi.

---

[4] Sər - baş

Hərə bir fikirdə, bir xəyaldadır,
Cığırda, izdədir bir yolaqdadır,
Özü də bilməyir heç nə haldadır?
Nə karvan karvandır, nə səfər indi.

Günəş də dəyişib öz xislətini,
İgid də dəyişib düz xislətini,
Bahar da dəyişib yaz xislətini,
Nə istək-istəkdir, nə təpər indi.

Qohum da dəyişib, yad da dəyişib,
Damaq da dəyişib, dad da dəyişib,
Alov da dəyişib, od da dəyişib,
Nə ocaq ocaqdır, nə hənir indi.

Toylarda müğənni avazdan düşüb,
Boğaz da kökündən, murazdan düşüb.
Aşıq saza gəlmir, o sazdan düşüb,
Nə səsdə səs qalıb, nə səmir indi.

Nə Məmməddə qalıb, nə Əlimizdə,
Nə Həsən, Hüseyn, nə Vəlimizdə,
Nə ağıllıda qalıb, nə dəlimizdə,
Nə Abbas Abbasdı, nə Cəfər indi.

Yalanı çox görüb, həqiqət susub,
Altun hökm eyləyir, ləyaqət susub.
Bacarıq lal olub, fərasət susub,
Nə Cəmil Cəmildi, nə Əkbər indi.

***Cəmil Əkbər***

## 36. KƏF GƏLİR İNDİ

Aman Allah, nə zəmanə gəlibdi,
Yoldaş da yoldaşa kəf gəlir indi.
Nə sərsəri, nə divanə gəlibdi,
Qardaş da qardaşa kəf gəlir indi.

Nə əhli-dərd, nə pürkamal qanırlar,
Böyük-kiçik, nə ağsaqqal sanırlar,
Nə xətiri, nə hörməti anırlar,
Taytuş da, taytuşa kəf gəlir indi.

Məhəbbət, sədaqət azalıb yaman,
Kəramət, səxavət pozulub yaman.
İnsanlıq, ləyaqət sozalıb yaman,
Sirdaş da sirdaşa kəf gəlir indi.

Unudulur xətir-hörmət nə varsa,
Nəcib arzu, gözəl niyyət nə varsa,
Namus, qeyrət, insaf-mürvət nə varsa,
Çağdaş da çağdaşa kəf gəlir indi.

Nə şöhrətə, nə də ada baxırlar,
Nə qohuma, nə də yada baxırlar.
Nə oda, nə suya, bada baxırlar,
Addaş da Addaşa kəf gəlir indi.

Tərlanlar tərlanı saya gətirmir,
Şahinlər şahini saya gətirmir,
Sərçələr sərçəni saya gətirmir,
Bayquş da bayquşa kəf gəlir indi.

Hamı qəflətdədir oyaq qalmayıb,
İtirib əqlini sayıq qalmayıb.
Arxada bir möhkəm dayaq qalmayıb,
Sərxoş da sərxoşa kəf gəlir indi.

Ünsiyyətin sarsıyıbdır əsası,
Dağılıbdır binövrəsi, binası.
Nə çox yazım, nə az yazım qısası,
Meyxoş da meyxoşa kəf gəlir indi.

Eləbil insanda kamal azalıb,
Əqidə azalıb, amal azalıb,
Mənəvi yöryöndəm, camal azalıb,
Çaşbaş da çaşbaşa kəf gəlir indi.

***Cəmil Əkbər*** 1. 08 -1989

## 37. BELƏ GƏŞT EYLƏYİR ZƏMANƏ İNDİ

Nə abır, nə ismət, həya qalmayıb,
Belə gəşt eyləyir zəmanə indi.
Təlimi düz verən dayə qalmayıb,
Belə gəşt eyləyir zəmanə indi.

Ləyaqət əhlinə baxan kimdiki?
Ürpədib qəlbini sıxan kimdiki?
Səmtinə yön alıb axan kimdiki?
Belə gəşt eyləyir zəmanə indi.

Alan-almağında, satan satmaqda,
Üzən-üzməyində, batan batmaqda.
Uyuyub qəflətdə yatan-yatmaqda,
Belə gəşt eyləyir zəmanə indi.

Açan-açmağında, solan solmaqda,
Azalan-azalır, dolan-dolmaqda,
Fikirə, xəyala dalan-dalmaqda,
Belə gəşt eyləyir zəmanə indi.

Hiyləgər, dələduz verib əl-ələ,
Salırlar aləmə yaman vəl-vələ.
Odurki bu cahan gəlmir əmələ,
Belə gəşt eyləyir zəmanə indi.

Hiyləgərlər, dələduzlar hökmedir,
Vicdanı kəm, qəlbi buzlar hökmedir.
Leş gəmirən bu quzğunlar hökmedir,
Belə gəşt eyləyir zəmanə indi.

Tapdanan-tapdanır, əzənlər-əzir,
İncidən-incidir, bezənlər-bezir.
Səbr edib tablaşıb, dözənlər-dözür,
Belə gəşt eyləyir zəmanə indi.

Ağlayan-ağlayır, gülənlər-gülür,
Dirilən-dirilir, ölənlər-ölür.
Gözünün yaşını silənlər-silir,
Belə gəşt eyləyir zəmanə indi.

Çalan-çalmağında, çapan-çapmaqda,
İtirən-itirir, tapan-tapmaqda,
Yayınan-yayınır, sapan-sapmaqda,
Belə gəşt eyləyir zəmanə indi.

Nə azına, nə çoxuna baxan var,
Nə varına, nə yoxuna baxan var,
Nə uzağa, nə yaxına baxan var,
Belə gəşt eyləyir zəmanə indi.

Doğru-düzlük, həqiqətdən əsər yox,
İnsanlıqdan, ləyaqətdən səmər yox.
Nə qanunda, nə qaydada kəsər yox,
Belə gəşt eyləyir zəmanə indi.

Ünsiyyət-ülfəti pozan-pozmaqda,
Şər deyib-danışan, yazan-yazmaqda.
Doğrunu tərsinə yozan-yozmaqda,
Belə gəşt eyləyir zəmanə indi.

Qaldıq gədə kimi bəylər əlində,
İdrakdan, kamaldan keylər əlində.
Əqildən dayazlar, səylər əlində,
Belə gəşt eyləyir zəmanə indi.

Birisi dərd çəkir, biri kef çəkir,
Birisi tər tökür, biri müf çəkir,
Biri doğru gedir, biri səhv çəkir,
Belə gəşt eyləyir zəmanə indi.

Əlində qalmışıq nadan kəslərin,
Haqqısay itirib, udan kəslərin.
Təlimdən yarımçıq dadan kəslərin,
Belə gəşt eyləyir zəmanə indi.

Gedən-getdi, gələni də yıxdılar,
Diri nədir, öləni də yıxdılar.
Oxuyanı, biləni də yıxdılar,
Belə gəşt eyləyir zəmanə indi.

Azğına, pozğuna meydan verilib,
Qarğaya, quzğuna meydan verilib.
Məzluma, üzgünə zindan verilib,
Belə gəşt eyləyir zəmanə indi.

Arada qalmayıb qeyrət, ar gedib,
Halal dövlət, halal sərvət, var gedib.
Mən saydıqca daha nələr gör gedib?
Belə gəşt eyləyir zəmanə indi.

Dərd içində saralmışıq, solmuşuq,
Fikirlərə, xəyallara dalmışıq,
Aman Allah gör nə günə qalmışıq?
Belə gəşt eyləyir zəmanə indi.

Nə təlim götürən, nə sözqanan var,
Nə doğru eşidən, nə düz qanan var.
Yol-cığır tanıyan, nə iz qanan var,
Belə gəşt eyləyir zəmanə indi.

Görən harda qaldı dil qananlarım?
Oba düşünənlər, el qananlarım,
Bağ-bağça bəsləyən, gül qananlarım,
Belə gəşt eyləyir zəmanə indi.

Bəd deyib, danışan dillərə baxın,
Dağıdıb, talayan əllərə baxın.
Saralan, soluxan güllərə baxın,
Belə gəşt eyləyir zəmanə indi.

İnsan məxluqatı çaşıbdır, Allah!
Həddi-hüdudunu aşıbdır, Allah!
Səbr kasaları daşıbdır, Allah!,
Belə gəşt eyləyir zəmanə indi.

Kəsən yoxdur bu qovğanı, bu qalı,
Taladılar el-obanı, mahalı.
Dözənmirəm mən gördükcə bu halı,
Belə gəşt eyləyir zəmanə indi.

Bu hərəkət cahanıma yaraşmır,
Dövranıma, zamanıma yaraşmır.
Vətənimə, məkanıma yaraşmır,
Belə gəşt eyləyir zəmanə indi.

Hayanda qalıbdır qayda sevənlər?
Bu xalqa verməyə fayda sevənlər?
Baharda, payızda, yayda sevənlər?
Belə gəşt eyləyir zəmanə indi.

Görən harda qaldı dərdbilənlərim?
Şahmat oynayanlar, nərd bilənlərim?
Hünər meydanında mərd bilənlərim?
Belə gəşt eyləyir zəmanə indi.

***Cəmil Əkbər*** 15. 05 -1993

## 38. İNDİ

İnsanları həyasızlıq bürüyüb,
Nə abır qalıbdır, nə ismət indi.
Yazıq canım daha dinmir, kiriyib,
Nə xətir qalıbdır, nə hörmət indi.

İnsan birbiriylə ədavətdədir,
Paxıllıq, xainlik, xəyanətdədir.
Ünsiyyət-ülfətdə qəbahətdədir,
Nə insaf qalıbdır, nə mürvət indi.

Bu dünyada həyasızlar çoxalıb,
Əqidəsiz, qayəsizlər çoxalıb.
Tərbiyəsiz, dayəsizlər çoxalıb,
Nə namus qalıbdır, nə qeyrət indi.

Hər yetən dırmaşıb, başa çəkilir,
Yetişib zirvəyə qaşa çəkilir.
Karlı, dəyanətli işə çəkilir,
Nə şərəf qalıbdır, nə şöhrət indi.

Gileylər, güzarlar, qeybət kəsilmir,
Dəhşətlər azalmır, heyrət kəsilmir.
Bu qəddarlıq, belə cürət kəsilmir,
Nə xahiş qalmayıb, nə minnət indi.

Fikirlər, xəyallar dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman.
İpi-ilməsinə culaşıb yaman,
Nə söz əsər etmir, nə söhbət indi.

Hökmedir həryanda əyri-oğrular,
Görünmür gözlərə düzlər, doğrular.
Səsi çıxsa dərhal onu boğurlar,
Nə doğruluq qalıb, həqiqət indi.

Saxtalıq artıbdır, yalan çoxalıb,
Dağılan, sökülən, talan çoxalıb.
Xəzana qərq olub solan çoxalıb,
Mat qalıb bu işə ədalət indi.

Qalmışıq nəyaman nadan əlində?
Sümürüb haqqısay udan əlində,
Yolunu tərsinə adan əlində,
Boğur ləyaqəti cəhalət indi.

Çəkişmə, didişmə ara verməyir,
Qövr edən yaraya çarə verməyir.
Qollardan yapışmır, para verməyir,
Nə dözüm qalıbdır, dəyanət indi.

***Cəmil Əkbər*** 1. 09 -1993

## 39. İNDİ

Gəlib çıxdığımız zəmanəyə bax,
Nə çətin, dolaşıq yol olub indi?
Kitaba, dəftərə salnaməyə bax,
Çevrilib müşgülə, dal olub indi.

Eləbil dünyada nemət azalıb,
Xətir ərşə çıxıb, hörmət azalıb.
Şərafət yox olub, şöhrət azalıb,
Nə ağır, nə çətin il olub indi.

Ayıran tapılmır yaxşını pisdən,
Qalayı gümüşdən, qızılı misdən.
Bəşər məhvə gedir qərəzlə, qəsdən,
Başlara nəyaman kül olub indi?

Sısqaca bulaqlar kükrəyib daşır,
Sığmır hüduduna, həddini aşır.
Görənin, bilənin xəyalı çaşır,
Eləbil Kür - Araz, Nil olub indi.

Başları dəng edir nabələd, naşı,
İncidir dosd-dosdu, qardaş-qardaşı.
Həmkarlar-həmkarı, yoldaş-yoldaşı,
Gözyaşı qurumur, sel olub indi.

Hamı yön alıbdır şəhərə sarı,
Yoğurub yapmamış bəhərə sarı.
Becərən tapılmır gen tarlaları,
Tikanlı, qanqallı çöl olub indi.

Düşünən yox nə qabağı, nə dalı,
Salırlar araya qovğanı, qalı.
Arılar çəməndən deyildir halı,
Doşab, sirkə, qora bal olub indi.

Qırılıb tökülür zəkalı başlar,
Tutulub qabaqlar, çatılıb qaşlar.
Dolaşıq fikirlər, xəyallar, huşlar,
Şəvətək saqqallar çal olub indi.

Becərən azalıb barlı ağacı,
Almalı, heyvalı, narlı ağacı.
Faydalı, yararlı karlı ağacı,
Sulanıb bəslənən kol olub indi.

Ayıran tapılmır yaxşı-yamanı,
Atıblar məzhəbi, dini, imanı,
Buğa eyləyirlər cılız dananı,
Sanırlar, böyüyüb kal olub indi.

Gədadan böyüyən "bəyzadələrin",
Sərsəri, kütbeyin keyzadələrin,
Simiclik eyləyən, göyzadələrin,
Yastığı, yorğanı tül olub indi.

Torpağa tökməyən alın tərini,
Yaxşı yola salır xeyir, şərini.
Oxu bu naməni, bil hünərini,
Hamıdan çox olub, bol olub indi.

Yazıq bəşər divanələr əlində,
İnsanlığa biganələr əlində,
Qərq olaraq pərvanələr selində,
Yanıb-yaxılaraq, kül olub indi.

Ömürboyu ədalətdən deyənlər,
Doğruluqdan, həqiqətdən deyənlər.
Məna dolu, məziyyətdən deyənlər,
Çəkir xəcaləti, lal olub indi.

Sayan yoxdur, seçən yoxdur adamı,
Paxla sanıb doğrayırlar badamı.
Dərdi açaq hər yetirən yadamı?
Eləbil naxırda mal olub indi.

Alagözlər, qara qaşlar sürmədir,
Bu məqsədlə sərf edilən cərmədir.
Alyanaqlar, billur buxaq gərmədir,
Sanırlar lalədir, al olub indi.

Bazarda hər şeyin qiyməti artıb,
Axtarıb tapmırsan, minnəti artıb.
Yoxsa sərf edilən zəhməti artıb?
Qədəklər, sətinlər, şal olub indi.

Son qoyan tapılmır kəc fikirlərə,
İnsanlıq naminə öc fikirlərə.
Hiyləgər, dələduz, bic fikirlərə,
Hamı fitnə-fəsad, fel olub indi.

Zəhmətsiz, xidmətsiz kef edənə bax,
Qazanc götürənə, nəf edənə bax.
Hər addımbaşında səhv edənə bax,
Köstəbək, mığmığa fil olub indi.

Əhlihal insanın pozuldu kefi,
Azaldı qazancı, tükəndi nəfi.
Deyildi nöqsanı, bilindi səhvi,
Nəqədər əl, ayaq şil olub indi?

Bürüyüb həryanı alaqotları,
Gicitkansayağı dalaqotları.
Tikanlı, qanqallı ulaqotları,
Mixək darçın olub, hil olub indi.

Cahillik eyləyən nadan kəslərin,
Təlimdən yarımçıq dadan kəslərin.
Haqqısay sümürüb udan kəslərin,
Sərvəti, dövləti ləl olub indi.

Həyatda səhv düşüb çoxunun yeri,
Tutubdu naxışı, gətirib zəri.
Soxulub damara haçandan bəri,
Oxu bu dastanı, bil olub indi.

Qanundan, qaydadan qalmayıb əsər,
Nə bir xeyir, fayda, qalmayıb səmər.
Qollarda qüvvə yox, qılıncda kəsər,
Nömrələr işləyir, xal olub indi.

Sağikən insanın qədri bilinmir,
Hörməti, izzəti, xətri bilinmir.
Kəlməsi oxunmur, sətri bilinmir,
Təsəlli yerimiz val olub indi.

Bir zaman inləyib bəmdə ötənlər,
Hicranı köködə qəmdə ötənlər,
Bu ahəng, vəzndə, çəmdə ötənlər,
Köklənib nəyaman zil olub indi?

Heyif ziyalıya olan xidmətə,
Olan baxışlara, olan diqqətə,
Edilən xətirə, olan hörmətə,
Deyirlər bəşərə şəl olub indi.

Sıxlaşıb cərgəsi ədəbazların,
Lovğa, yekəxana, modabazların.
Şıltaqlıq eyləyən hoqqabazların,
Çoxalıb dəstəsi, xıl olub indi.

Sədaqətdən, səxavətdən əsər yox,
İnsaf, mürvət, kəramətdən kəsər yox,
Məsləhətdən, nəsihətdən səmər yox,
Hamı tamahına qul olub indi.

Dünyanın işinə nə demək olar?
Necə yardım etmək, nə kömək olar?
Necə xidmət olar, nə əmək olar?
Gözlərə uzanan mil olub indi.

Baxan yox əyriyə, baxan yox düzə,
Baxan yox dərinə, baxan yox üzə.
Baxan yox söhbətə, baxan yox sözə,
Ülfətin açarı dil olub indi.

Yazıq bəşər cəhalətin üzündən,
Xəta, bəla, qəbahətin üzündən.
Bədxahlığın, pis adətin üzündən,
Yanıb-yaxılırlar, kül olub indi.

Qədri bilinməyir qızıl güllərin,
Ətirli, xətirli gözəl güllərin,
Bağçada bəslənən özəl güllərin,
Həryan Muğan olub, Mil olub indi.

Bir zaman ellərdə baş olan Cəmil,
Salınıb üzüyə qaş olan Cəmil.
Sözləri-söhbəti xoş olan Cəmil,
Nəyaman pərişanhal olub indi?

***Cəmil Əkbər*** 30. 01 - 1992

## 40. İNDİ

Bilmirəm nə üçün danışmır dilim?
Susubdur, dinməyir lal olub indi.
İgidlər yetirən oymağım, elim,
Haçandan bəridir kal olub indi.

Dağ kimi əyilməz vüqarım hanı?
Düz əhdi-peymanım, ilqarım hanı?
Üzümə gülməyir nigarım, hanı?
Əyilib qaməti dal olub indi.

Əzəldən hənasız qara saçlarım,
Çəkibdi mənşərə dara saçlarım.
Gedibdi hayana, hara saçlarım?
Ağarıb tərtəmiz çal olub indi.

Bir zaman bəslənən barlı ağaclar,
Almalı, heyvalı, narlı ağaçlar.
Bəhrəli, meyvəli karlı ağaclar,
Tikanlı, qanqallı kol olub indi.

Bir zaman keçilməz olan gədiklər,
Qar ilə, buz ilə dolan gədiklər.
Daşla, qaya ilə kalan gədiklər,
İtib, çoxlarına yol olub indi.

Əzəldən həryanda baş olan Cəmil,
Çəkilib üzüyə, qaş olan Cəmil.
Sözləri, söhbəti xoş olan Cəmil,
Nəyaman pərişan-hal olub indi?

***Cəmil Əkbər***

## 41. İNDİ

A bimürvət, a nainsaf, a zalım,
Yandırma bağrımı tez, mənim indi.
Alışıb oduna büryan olduğum,
Al bu miskin könlüm qız, mənim indi.

Dünya vəfasızdır, ayılıb qandım,
Sənin eşq oduna alışıb yandım.
Səni özüm üçün vəfalı sandım.
Qurtarıb deməyə söz, mənim indi.

Oyan bir qəflətdən, oyan sevgilim,
Dəstindən bərk tutma sən qızıl gülün.
Canıma od salıb o şirin dilin,
Yandırmır sinəmi köz mənim indi.

***Cəmil Əkbər*** 1951

## 42. İNDİ

Hər məni görəndə sevinən ürək,
Hayanda qalıbdır, sevinmir indi?
Eşq ilə çırpınan, döyünən ürək,
Hayanda susubdur, döyünmür indi?

Hər məni görəndə sevinən insan,
Baxıb mənliyinə güvənən insan.
Fəxr edib qürurla öyünən insan,
Görəsən nə üçün öyünmür indi?

Hər məni görəndə can deyənlərim,
Süfrəmin başında nan yeyənlərim.
Oxudub, öyrədib qan deyənlərim,
Hayana gedibdir, görünmür indi?

Onun gözlərilə dünyaya baxdım,
Onun izlərilə yollara çıxdım.
Onun sözlərilə qəlbimi sıxdım,
Niyə gözyaşımla yuyunmur indi?

Unuda bilmirəm onun səsini,
Qəlbimi yandıran od nəfəsini,
O həzin, o qısqanc zümzüməsini,
Gedib aşkar gəzir, bürünmür indi!

Mən gələn yollarda gözü qalardı,
Söhbəti qalardı, sözü qalardı.
İşvəsi qalardı, nazı qalardı,
Kölgətək dalımca sürünmür indi!

Görüşə gələndə naz eyləyərdi,
Nazı-qəmzəsini az eyləyərdi.
Söhbəti dəmləyib saz eyləyərdi,
Həsrətli ürəyin ovunmur indi!

Yoxuşa-enişə at sürməmişəm,
Özgə butaqlardan bar dərməmişəm.
Kef-damaq çəkərək gün görməmişəm,
Könül dağ-daş gəzir, ərinmir indi!

***Cəmil Əkbər*** 18. 05 – 1988

## 43. İNDİ

*Prof. Ə. A. Əsgərovun 70 illik yubileyi münasibəti ilə*

Dünənki sadəcə fəhlə balası,
İdraklı, zəkalı baş olub indi.
Yayılıb ellərə adı, sədası,
Üzüyə layiqli qaş olub indi.

Hünər meydanında zəfərlər çalıb,
Vətən torpağında ilhamı alıb.
Fikirə qərq olub, xəyala dalıb,
Yetmişi haqlayan yaş olub indi.

Şərəflə oturub, şərəflə durub,
Şərəflə yaradıb, şərəflə qurub,
Nəqədər tər töküb, özünü yorub,
Hünəri bilinib, faş olub indi.

Arxada qoyubdur pis günlərini,
Bədxah günlərini, nəs günlərini.
Əzablı, zülümlü, tərs günlərini,
Günü-güzəranı xoş olub indi.

Nəşr olunub neçə-neçə əsəri,
Bildirilib, göstərilib səməri.
Azalan döy ovxarları, kəsəri,
Dövrü-zəmanədə baş olub indi.

Bu qoca dünyanın seyrinə dalıb,
Dəftərə köçürüb, qələmə alıb.
Olanı-qalanı yadına salıb,
Nələrə  rast gəlib, tuş olub indi.

***Cəmil Əkbər*** 4. 10 – 1997

## 44. OLUB İNDİ

Dövrü-zəmanəmiz nə günə qalıb?
Ədalət, həqiqət heç olub indi.
Dolaşıb kələfi, düyünə qalıb,
Mərhəmət, ləyaqət puç olub indi.

Gərdişi-dövranlar elə gətirib,
Elə bəslənilib, elə bitirib,
Möhnəti boynuna belə götürüb,
Əqidə, məslək də kəc olub indi.

Ünsiyyət-ülfətlər pozulub gedib,
Doğrular tərsinə yozulub gedib.
İnsaf da, mürvət də azalıb gedib,
Doğru, düz danışmaq suç olub indi.

Abırlı, ismətli üzə baxan yox,
Əyrilər çoxalıb, düzə baxan yox,
Ömür-gün qısalıb yüzə baxan yox,
Oğrular, əyrilər dəc olub indi.

Düşüncəyə, nə kamala baxan yox,
Nə əqidə, nə amala baxan yox.
Nə qocaya, nə cahala baxan yox,
Çox kamal sahibi, gic olub indi.

Təmiz qana, nə ey südə baxan yox,
Nə nəsihət, nə öyüdə baxan yox.
Nə palıda, nə söyüdə baxan yox,
Meydanda hökm edən bic olub indi.

***Cəmil Əkbər*** 11.06 – 1998

## 45. DƏRS ALIM İNDİ?

Bir zaman dərsimi ədalət verdi,
Hansı ədalətdən dərs alım indi?
Doğruluq, düzgünlük, həqiqət verdi,
Hansı həqiqətdən dərs alım indi?

Gözümü açandan sədaqət gördüm,
Mərhəmət, ehtiram, səxavət gördüm.
Ülvi-istək gördüm, məhəbbət gördüm,
Hansı sədaqətdən dərs alım indi

Düşünüb dərk edən insan var idi,
Dərdə çarə tapan loğman var idi.
Böyüyü-kiçiyi sayan var idi,
De hansı insandan dərs alım indi?

İnsandan-insana hörmət var idi,
Kəramət var idi, mürvət var idi.
Mənəvi gözəllik, sərvət var idi,
De hansı hörmətdən dərs alım indi?

Bir zaman vəfalı yoldaş var idi,
Həmfikir, həmdəmlər, sirdaş var idi.
Taytuşlar, həmkarlar, çağdaş var idi,
De hansı qardaşdan dərs alım indi?

Namuslu, qeyrətli ata görmüşdüm,
Səmimi, mehriban ana görmüşdüm.
Nurani ağsaqqal baba görmüşdüm,
Hansı babalardan dərs alım indi?

Üzlərdə, gözlərdə həya var idi,
Əqidə var idi, qayə var idi.
Təlimi düz verən dayə var idi,
Hansı dayələrdən dərs alım indi?

Sağlam düşüncə də, söz də var idi,
Yolaq da, cığır da, iz də var idi.
Ay Cəmil, oğul da, qız da var idi,
Hansı söz-söhbətdən dərs alım indi?

***Cəmil Əkbər***

## 46. İNANIM İNDİ?

Bir zaman amalım ədalət idi,
Hansı ədalətə inanım indi?
Doğruluq, düzgünlük, həqiqət idi,
Hansı həqiqətə inanım indi?

Dostluqda etibar sədaqət gördüm,
Ehtiram, etiqat, mərhəmət gördüm.
Hatəm deyiləndən səxavət gördüm,
Hansı səxavətə inanım indi?

Ümid bəslənəsi insan var idi,
Dərdləri sağaldan loğman var idi.
Eşqin yollarında Sənan var idi,
De hansı insana inanım indi?

Arada-bərədə hörmət var idi,
Kəramət var idi, mürvət var idi.
Mənəvi var-dövlət, sərvət var idi,
De hansı sərvətə inanım indi?

Bir zaman vəfalı yoldaş var idi,
Həmkarlar, həmdəmlər, sirdaş var idi.
Taytuşlar var idi, çağdaş var idi,
De hansı yoldaşa inanım indi?

Bir zaman deyirlər Kərəm var idi,
Sinəsi dərdləyən vərəm var idi.
Biçarə Yəhya bəy, Dilqəm var idi,
De hansı Dilqəmə inanım indi?

Namuslu, qeyrətli ata görmüşəm,
Mehriban, səmimi, ana görmüşəm,
Nurani, ağsaqqal baba görmüşəm,
Hansı atalara inanım indi?

Ünsiyyət-ülfətdə hikmət var idi,
İnsandan-insana nüsrət var idi.
Dəyərə münasib qiymət var idi,
De hansı qiymətə inanım indi?

Sağlam fikirlər də söz də var idi,
Abırlı, ismətli, üz də var idi,
Oğul da var idi, qız da var idi,
De hansı qızlara inanım indi?

***Cəmil Əkbər*** 25. 07 – 1998

## 48. TAP AYIR İNDİ

Tarixin kələfi dolaşıb yaman,
Oğulsan ilməsin tap, ayır indi.
Düycəsi, yumağı culaşıb yaman,
Oğulsan xanasın tap, ayır indi.

Hərə bir at minib, oynadıb gedib,
Hərə bir zurnada qaynadıb gedib.
Çoxunu yandırıb, göynədib gedib,
Oğulsan binasın tap, ayır indi.

Hərə nə bilirsə onu eyləyib,
Onu çərənləyib, onu söyləyib.
Onu qovalayıb, onu teyləyib,
Oğulsan zinasın tap, ayır indi.

Baxış yerində döy, göz yerində döy,
Sifət yerində döy, üz yerində döy,
Əyri yerində döy, düz yerində döy,
Oğulsan hənasın tap, ayır indi.

Öyrənən tapılmır, öyrədən yoxdur,
Salıb təpik altda göynədən yoxdur.
Qoyub ocaq üstdə qaynadan yoxdur,
Oğulsan anasın tap, ayır indi.

Hamı qəvvas olub göllərdə üzür,
Şənlənib kef çəkir, ellərdə üzür.
Böyük dastan olub dillərdə üzür,
Oğulsan sonasın tap, ayır indi.

Yeyiblər, içiblər, məzələniblər,
Bəzənib, düzənib, təzələniblər.
Çuvaltək dolublar gözələniblər,
Oğulsan dığasın tap, ayır indi.

Hamı yekələnib kişi olubdur,
Bığların burubdur, şeşə olubdur.
Hər şey hamı üçün peşə olubdur,
Oğulsan gədasın tap, ayır indi.

Hamı lotu olub, bicləşib yaman,
İtirib əqlini, gicləşib yaman.
Qanunla, qaydayla öcləşib yaman,
Oğulsan atasın tap, ayır indi.

Fikirlər, xəyallar qarışıb yaman,
Əyrilər düzlərə sırışıb yaman.
Giriblər meydana, vuruşub yaman,
Oğulsan babasın tap, ayır indi.

***Cəmil Əkbər*** 5. 09 – 1988

## 49. GƏL DOLAN İNDİ

Dövrü-zəmanəmiz nə pis olubdur,
Oğulsan baş açıb, gəl dolan indi.
İnsanam deyənlər naqis olubdur,
Oğulsan baş açıb, gəl dolan indi.

Düha sahibinə lağ eyləyirlər,
Çıxıb əndazədən ağ eyləyirlər,
Kiçik təpələri dağ eyləyirlər,
Oğulsan baş açıb, gəl dolan indi.

Düşüncə, dərrakə, kamal kütləşib,
Əqidə kütləşib, amal kütləşib,
El-oba kütləşib, mahal kütləşib,
Oğulsan baş açıb, gəl dolan indi.

Kimə nə deyirsən tərsinə qanır,
Toxunub xətrinə, hirsinə anır.
Dəyir yağırına, kirsinə yanır,
Oğulsan baş açıb, gəl dolan indi.

Gedib çağırsan da, gələn kimdi ki?
Qəlbindən keçəni bilən kimdi ki?
Gözündən dumanı silən kimdi ki?
Oğulsan baş açıb, gəl dolan indi.

Deyilən sözləri duyan kimdi ki?
Qoşulub fikrinə uyan kimdi ki?
Etdiyi günahı yuyan kimdi ki?
Oğulsan baş açıb, gəl dolan indi.

Şikayət eyləyib gedəsən hara?
Düşsən də çətinə, düşsən də dara,
Tək əlacım qalıb Pərvərdigara,
Oğulsan baş açıb, gəl dolan indi.

Görə-görə gözü korlar çoxalıb,
Vicdanı kəm, qəlbi darlar çoxalıb.
Tərlan oylağında sarlar çoxalıb,
Oğulsan baş açıb, gəl dolan indi.

Eşidib bilənlər küsməsin məndən,
Əlini əlimdən kəsməsin məndən.
Qorxmasın, ülkməsin, əsməsin məndən,
Oğulsan baş açıb, gəl dolan indi.

Belə getməz zəmanənin axırı,
Sürtülərək üzə çıxar paxırı.
Canavarlar qırıb tökür naxırı,
Oğulsan baş açıb, gəl dolan indi.

***Cəmil Əkbər*** 24. 07 – 1998

## 50. NEYLƏSİN İNDİ?

Gündə min bir dəfə əsəb korlayan,
Ürək neyləməsin, neyləsin indi?
Vicdan gücə düşür, məslək zorlanır,
Ürək neyləməsin, neyləsin indi?

Baxdıqca, gördükcə qan xarab olur,
Üzülür bədəndə can xarab olur.
Zülal xarab olur, şan xarab olur,
Ürək neyləməsin, neyləsin indi?

Alim də, loğman da gözdən salınır,
Cığırdan, yolaqdan, izdən salınır.
Gün çeşdə çıxmamış tezdən salınır,
Ürək neyləməsin, neyləsin indi?

Yalandan qaraya ağdı deyirlər,
Kiçik təpələrə dağdı deyirlər.
Ulğun kol-kosuna bağdı deyirlər,
Ürək neyləməsin, neyləsin indi?

Dünyanı bürüyüb gic oğlu giclər,
Hiyləgər, dələduz, bic oğlu biclər,
Haqqa-ədalətə kəc oğlu kəclər,
Ürək neyləməsin, neyləsin indi?

Düzə əyri, əyriyə düz deyirlər,
Üzə dərin, dərinə üz deyirlər,
Yüzə əlli, əlliyə yüz deyirlər,
Ürək neyləməsin, neyləsin indi?

Aman Allah, ağsaqqalı sayan yox,
Dərdbiləni, əhlihalı sayan yox.
Nuranini, pürkamalı sayan yox,
Ürək neyləməsin, neyləsin indi?

Atanı-ananı pəsinməyirlər,
Utanıb, qızarıb diksinməyirlər.
Qorxmurlar, ülkmürlər, səksənməyirlər,
Ürək neyləməsin, neyləsin indi?

Abırsızı, həyasızı görüncə,
Məsləksizi, qayəsizi görüncə,
Təlimsizi, dayəsizi görüncə,
Ürək neyləməsin, neyləsin indi?

Oğruluq, əyrilik baş alıb gedir,
Fikirlər, xəyallar çaş olub gedir,
Könüllər mülkündə qış olub gedir,
Ürək neyləməsin, neyləsin indi?

Sədaqəti, səxavəti qanan yox,
Ülvi-istək, məhəbbəti qanan yox.
Ədəb-ərkan, nəzakəti qanan yox,
Ürək neyləməsin, neyləsin indi?

Hamı qurşanıbdır əyri yollara,
Aldanıb uyubdur qeyri yollara.
Çalışıb verən yox xeyri yollara,
Ürək neyləməsin, neyləsin indi?

Dünyanın işinə, güzarına bax,
Düşübdü xəsdəlik, azarına bax.
Alana, satana bazarına bax,
Ürək neyləməsin, neyləsin indi?

İş verilir nabələdə, naşıya,
Oğul gərək böylə dərdi daşıya.
Nə deyəsən yelbeyinə, xoşuya?
Ürək neyləməsin, neyləsin indi?

Buminvalla ölən-itən çoxalar,
Mərd igidlər dözə bilməz, yoxalar.
Abırsızlar, həyasızlar sıxılar,
Ürək neyləməsin, neyləsin indi?

Görə-görə haqq-ədalət danılır,
Düz fikirlər tərsəməssəb sanılır.
İnsanoğlu görən niyə yanılır?
Ürək neyləməsin, neyləsin indi?

Yalan sözdən, söhbətlərdən doymuşam,
Giley-güzar, qeybətlərdən doymuşam.
Dəhşətlərdən, heyrətlərdən doymuşam,
Ürək neyləməsin, neyləsin indi?

Hamı at çapdırır şərə, böhtana,
Bir deyən tapılmır lənət şeytana.
Ülfət korlayana, araqatana,
Ürək neyləməsin, neyləsin indi?

İnsaf tükənibdir, mürvət azalıb,
Ünsiyyət-ülfətdə hörmət azalıb.
Mənəvi var-dövlət, sərvət azalıb,
Ürək neyləməsin, neyləsin indi?

Qazanan azalıb, satan çoxalıb,
Namusu, qeyrəti atan çoxalıb.
Dayı kölgəsində yatan çoxalıb,
Ürək neyləməsin, neyləsin indi?

Dövrü-zəmanədə cəhalət artır,
Nöqsanlar çoxalır, qəbahət artır.
Törəyir küdurət, ədavət artır,
Ürək neyləməsin, neyləsin indi?

Nə abır, nə ismət, həya satan var,
Nə məslək, nə vicdan, qayə satan var.
Nə ustad sayan var, dayə satan var,
Ürək neyləməsin, neyləsin indi?

Deyib danışmağın əsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur.
Müjdəsi verilmir, nəməri yoxdur,
Ürək neyləməsin, neyləsin indi?

Bəşər övladını qandırmaq olmur,
Eyhamla söz deyib andırmaq olmur.
Sönən çırağını yandırmaq olmur,
Ürək neyləməsin, neyləsin indi?

Şeytan fitvasında qalır insanlar,
Saralır insanlar, solur insanlar.
Boşalır insanlar, dolur insanlar,
Ürək neyləməsin, neyləsin indi?

Haqsızlıq əlində ölən oqədər?
Gedənlər oqədər, gələn oqədər?
Bağrının başını dələn oqədər?
Ürək neyləməsin, neyləsin indi?

Hərə bir diyarda min qələt edir,
Özü də bilməyir nə mətləb güdür.
Dolanbac yollarla hey gedib-gəlir,
Ürək neyləməsin, neyləsin indi?

Axır aqibətdə min acı qalır,
Gözlər də, gözlərə qiyqacı qalır.
İnsan səadətin möhtacı qalır,
Ürək neyləməsin, neyləsin indi?

Birisi qazanır, birisi yeyir,
Birisi toxuyur, birisi geyir,
Birisi düzəldir, birisi əyir,
Ürək neyləməsin, neyləsin indi?

Cahillər, nadanlar qanmaq istəmir,
Xətiri, hörməti anmaq istəmir.
Nəqədər od qoysan yanmaq istəmir,
Ürək neyləməsin, neyləsin indi?

Nə mətləb qanan var, nə sözqanan var,
İşarə anlayıb, nə göz qanan var.
Nə yol anlayan var, nə iz qanan var,
Ürək neyləməsin, neyləsin indi?

Eləbil bəşərin taleyi dönüb?
Parlayan kəhkəşan ulduzu sönüb.
Nəqədər zirvədən aşağı enib,
Ürək neyləməsin, neyləsin indi?

Qardaş da qardaşa sataşır indi,
Yoldaş da yoldaşa daş atır indi.
Övlad atasıyla tutaşır indi,
Ürək neyləməsin, neyləsin indi?

İlahi, kamal ver bu bəndələrə,
Əqidə, amal ver bu bəndələrə.
Mənəvi camal ver bu bəndələrə,
Ürək neyləməsin, neyləsin indi?

Hamı düz getməyir, yolunu çaşıb,
Sağını yanılıb, solunu çaşıb.
İşlətmir əlini, qolunu çaşıb,
Ürək neyləməsin, neyləsin indi?

Bir də eşidirsən birisi öldü,
İnsanın sağlamı, dirisi öldü.
Kiçiyi, böyüyü, irisi öldü,
Ürək neyləməsin, neyləsin indi?

Nə huri qanan var, nədəki mələk,
Nə yardım qanan var, nədəki kömək.
Nə zəhmət çəkən var, nədəki əmək,
Ürək neyləməsin, neyləsin indi?

Avara dolanıb gəzən oqədər,
Qəlbləri incidib, üzən oqədər.
Canından usanıb bezən oqədər,
Ürək neyləməsin, neyləsin indi?

Haram üstələyib halalı Cəmil!
İtirib huşunu, xəyalı Cəmil.
Həyasız olubdur, həyalı Cəmil,
Ürək neyləməsin, neyləsin indi?

***Cəmil Əkbər*** 6. 03 – 1993

## 51. MÜDİR QAĞA

Özün dolanmağın hesabdan deyil,
Qoy biz də dolanaq, ay müdir qağa.
Qurani-Kərimdən, kitabdan deyil,
Qoy biz də dolanaq, ay müdir qağa.

Biz də bu obanın, elin oğluyuq,
Çəmənin, çiçəyin, gülün oğluyuq.
Muğanın, Şirvanın, Milin oğluyuq,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bizim də düşünən başımız vardır,
Fikir, xəyalımız, huşumuz vardır.
Ömrümüz, günümüz, yaşımız vardır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Dərk edib anlayan beynimiz vardır,
Yaddaşımız vardır, zehnimiz vardır.
Nəzərə almağa eynimiz vardır,
Qoy biz də dolanaq, ay müdir qağa.

Ellərin varını az mənimsəyin,
Dərinə getməyin üz mənimsəyin.
Gəl eşit bu xalqı, söz mənimsəyin,
Qoy biz də dolanaq, ay müdir qağa.

Yunanlı qəsbkar İsgəndərə bax!
On dəfə, yüz dəfə, minbir kərə bax!
Ayıbdır ellərdən, xeyir-şərə bax!
Qoy biz də dolanaq, ay müdir qağa.

Saraylar, villalar qoy sizin olsun,
Alınmaz qalalar qoy sizin olsun.
Zərli piyalələr qoy sizin olsun,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bizim də atamız, anamız olub,
Ülvi məhəbbətdən binamız olub.
Göllərdə üzüşən sonamız olub,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bizim də sinədə ürək döyünür,
Müqəddəs arzular, dilək döyünür.
Səmada uçmağa lələk döyünür,
Qoy biz də dolanaq, ay müdir qağa.

Tək özünü gəl düşünmə cahanda,
Razı qalmaz bil qadiri-Sübhan da.
Bizi qoyma daldalarda, pünhanda,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bizim də qəlbimiz, ürəyimiz var,
Nəcib arzu-istək, diləyimiz var.
Xəlbir, şadaramız, ələyimiz var,
Qoy biz də dolanaq, ay müdir qağa.

Bəlkə də başbilən mən olmalıydım,
Hamıdan vüqarlı, şən olmalıydım.
Xətadan, bəladan gen olmalıydım,
Qoy biz də dolanaq, ay müdir qağa.

Zirvəyə qalxana, enənə bir bax,
Qaralıb, qarsıxıb, sönənə bir bax.
Düşüb zindanlara dinənə bir bax,
Qoy biz də dolanaq, ay müdir qağa.

Elin nəzərində gözə gələrsən,
Açıb qapımıza duza gələrsən.
Düşərsən dillərə sözə gələrsən,
Qoy biz də dolanaq, ay müdir qağa.

Varınla, halınla az öyün gədə,
Düşüb eşq-həvəsə az söyün gədə.
Bəzənib, düzənib az geyin gədə,
Qoy biz də dolanaq, ay müdir qağa.

Yetişər məqamı, peşman olarsan,
Özün də özünə düşmən olarsan.
Gəlmisən, gedərsən peyman olarsan,
Qoy biz də dolanaq, ay müdir qağa.

***Cəmil Əkbər*** 6. 05 – 1999

## 52. SİZİN BALÇILI

*Namaz müəllimə həsr olunur*

Qüdrət sahibindən payını alıb,
Nə gözəl diyardır, sizin Balçılı?
Çörəyini alıb, çayını alıb,
Nə gözəl diyardır, sizin Balçılı?

Bir yanı arandı, bir yanı dağdı,
Hayana baxırsan bağçadı, bağdı?
Dost-tanış yanında üzləri ağdı,
Nə gözəl diyardır, sizin Balçılı?

Günbatan Daşkəsən, Gündoğan Gəncə,
Hörmətdə, izzətdə durubdur öncə.
İnankı yox tay - bərabəri məncə,
Nə gözəl diyardır, sizin Balçılı?

Baxdıqca insanın ürəyi gülür,
Arzusu, istəyi, diləyi gülür.
Qurub yaratdıqca biləyi gülür,
Nə gözəl diyardır, sizin Balçılı?

Bu yerin sakini babaya rəhmət,
Nəqədər tər töküb, çəkibdir zəhmət?
Qayğılar göstərib, eyləyib xidmət?
Nə gözəl diyardır, sizin Balçılı?

Məni heyran edən səmimiyyətdir,
Təmiz arzulardır, ülvü niyyətdir.
Dədə-babalardan qalan adətdir,
Nə gözəl diyardır, sizin Balçılı?

Bu yerlərdə mərd oğullar yaşayır,
Düşmənlərə dərd oğullar yaşayır.
Nadir oğul, fərd oğullar yaşayır,
Nə gözəl diyardır, sizin Balçılı?

Özünə münasib adına bir bax,
Qohum-qardaşına, yadına bir bax,
Könül diyarında oduna bir bax,
Nə gözəl diyardır, sizin Balçılı?

İnsan insan kimi nə mehribandır?
Böyüklü-kiçikli nəcib insandır.
Arxadır, həyandır, şərəfdir, şandır,
Nə gözəl diyardır, sizin Balçılı?

Eşidib bilməyən, görməyən görsün,
Məhəbbət bağından dərməyən dərsin.
Onun qiymətini verməyən versin,
Nə gözəl diyardır, sizin Balçılı?

Bir zaman Müslümün qonağı oldum,
Oğlunun toyunda tamada oldum.
Ruhları oxşadım, qəlblərdə qaldum,
Nə gözəl diyardır, sizin Balçılı?

Seyr edin dağları, düzünə bir bax,
Yoluna nəzər sal, izinə bir bax.
İgid övladların yüzünə bir bax,
Nə gözəl diyardır, sizin Balçılı?

Gör nəqədər mərd oğullar yetişib?
Dövrü-zəmanəyə ənam gətirib.
Əfsus olsun çoxlarını itirib,
Gözü yolda qalıb, sizin Balçılı?

Özünə münasib ad qazanıbdır,
Düşübdü dillərə dad qazanıbdır.
Nəqədər dost tutub, yad qazanıbdır?
Məni heyran edib, sizin Balçılı?

Dostların, tanışın, yüzü burdadır,
Namazın, Poladın özü burdadır.
Söhbəti burdadır, sözü burdadır,
Nə gözəl diyardır, sizin Balçılı?

Əlinə keçənə hörmət eyləyir,
Kəramət göstərir, mürvət eyləyir.
Mənəvi gözəllik, sərvət eyləyir,
Nə gözəl diyardır, sizin Balçılı?

Bir yanı dağlıqdı, bir yanı dərə,
Bir yanı bərəlgə, bir yanı bərə.
İşində-gücündə çalışır hərə,
Nə gözəl diyardır, sizin Balçılı?

Ötüb zimistanı, gəlibdir yazı,
Eşidib dinlədik sədəfli sazı,
Unutmaq olarmı Söhbət, Namazı?
Nə gözəl diyardır, sizin Balçılı?

Böyüyün, kiçiyin yerini bilir,
İstini, soyuğu, sərini bilir,
Acını xoşlamır, şirini bilir,
Nə gözəl diyardır, sizin Balçılı?

Həbiblə, İdrislə salamım olub,
Şirin söz-söhbətim, kəlamım olub,
Gənclik çağlarından ilhamım olub,
Nə gözəl diyardır, sizin Balçılı?

İsgəndər nəvəsi Qərib hardadır,
Görünmür gözümə, görən hardadır?
Özü olmasada, qəlbi burdadır,
Nə gözəl diyardır, sizin Balçılı?

Həsənin, Namazın qonağı olduq,
Şənlik məclisindən feyziyab alduq.
Baxıb təbiətə, xəyala dalduq,
Nə gözəl diyardır, sizin Balçılı?

Dostların, tanışın gözü burdadır,
Suları duruldan sözü burdadır.
Nə danım, gizlədim, düzü burdadır,
Nə gözəl diyardır, sizin Balçılı?

Baharın fəslidir, gəlibdir yazı,
Var olsun dostluqda Polad, Namazı.
Ruhumu oxşadı, söhbəti, sözü,
Nə gözəl diyardır, sizin Balçılı?

Mehribanlıq canındadı bu yerin,
Damağında, qanındadı bu yerin.
Zülalında, şanındadı bu yerin,
Nə gözəl diyardır, sizin Balçılı?

Gör necə coşdurub Cəmil Əkbəri?
Qaynadıb, daşdırıb Cəmil Əkbəri.
Kim deyər çaşdırıb Cəmil Əkbəri?
Nə gözəl diyardır, sizin Balçılı?

***Cəmil Əkbər*** 8 – 9 / 05 – 1999

## 53. AD QAZANIB

Nə deyəsən nadanlara?
Qəbahətdə ad qazanıb.
Təlimdən kəm dadanlara?
Cəhalətdə ad qazanıb.

Ürəyində kini yatır,
Kəlləsində cini yatır,
Qulaqlarda ünü yatır,
Ədavətdə ad qazanıb.

İnsanlıqda tayı yoxdur,
Nə çörəyi, çayı yoxdur,
Nə haqqı, nə sayı yoxdur,
Xəyanətdə ad qazanıb.

Hər kəlmədə sözü yalan,
Hər addımda izi yalan,
Hər baxışda gözü yalan,
Küdurətdə ad qazanıb.

Sədaqətlə arası yox,
Xərcləməyə parası yox,
Düzəlməyə çarəsi yox,
Şikayətdə ad qazanıb.

***Cəmil Əkbər*** 12. 05 - 1999

## 54. BU CƏMİL ƏKBƏR

İstəyir dünyada dava olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.
Zəhərə qarışan hava olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.

İstəyir təpəyə dağ deyilməsin,
Amandır kol-kosa bağ deyilməsin.
Karvanlar çaşmasın yük əyilməsin,
Bax belə insandır, bu Cəmil Əkbər.

Ləyaqət sahibi sönməsin heç vaxt,
Bu ali zirvədən enməsin heç vaxt.
Naxələf, nanəcib dinməsin heç vaxt,
Bax belə insandır, bu Cəmil Əkbər.

Mərd igid olanlar ucalsın hər an,
Səksənə, doxsana qocalsın hər an.
Zəfər dünyasından bac alsın hər an,
Bax belə insandır, bu Cəmil Əkbər.

Ləyaqət əhlinə pis deyilməsin,
Bədxah deyilməsin, nəs deyilməsin,
Qızıla, gümüşə mis deyilməsin,
Bax belə insandır, bu Cəmil Əkbər.

İstərdi dünyada dava olmasın,
Zəhərə qarışan hava olmasın.
Bu cahan mülkündə yava olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.

İstərdiki qəlbə dəyən olmasın,
Düzələn işləri əyən olmasın,
Matəmdə qaralar geyən olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.

İstərdi hər yerdə sədaqət ola,
Ədəb-ərkan ola, nəzakət ola.
Xeyirxahlıq ola, fəzilət ola,
Bax belə insandır, bu Cəmil Əkbər.

Saralan olmasın, solan olmasın,
Gözləri yollarda qalan olmasın,
Dağılan, sökülən, talan olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər..

Sözlərdə, söhbətdə yalan olmasın,
Fikirə, xəyala dalan olmasın.
Əqrəblər, iblislər, ilan olmasın,
Bax belə insandır, bu Cəmil Əkbər.

***Cəmil Əkbər***

## 55. ONUN GÖZLƏRİ

Firidun ayırır yaxşını pisdən,
Sərraf gözləridir onun gözləri.
Qalayı gümüşdən, qızılı misdən,
Sərraf gözləridir onun gözləri.

Görünür həmişə xeyirdə, şərdə,
Şərikdi hərzaman kədərə, dərdə.
İlahi qıymasın belə bir mərdə,
Sərraf gözləridir onun gözləri.

İnsanam deyəni yaxşıca seçir,
Könül diyarından eyhamla keçir.
Hər boya münasib xələti biçir,
Sərraf gözləridir onun gözləri.

Oturub duranda yerini bilir,
Dayazı seyr edir, dərini bilir.
Yaxını, uzağı, bərini bilir,
Sərraf gözləridir onun gözləri.

Ünsiyyəti təmiz, ülfəti pakdır,
Arzusu, istəyi, niyyəti pakdır.
Baxışı, nəzəri, diqqəti pakdır,
Sərraf gözləridir onun gözləri.

Sinədə döyünən ürəyi təmiz,
Süfrəsi genişdir, çörəyi təmiz.
Qayğısı, yardımı, köməyi təmiz,
Sərraf gözləridir onun gözləri.

Nəzəri cəlb edən Fedya dayıdır,
İlahi bəxş edib, haqqın payıdır.
Mərd doğulub, mərd igidlər tayıdır,
Sərraf gözləridir onun gözləri.

Gəncə mahalında yeganədir o,
Vicdanı kəmlərə biganədir o.
Dostların qəlbində pərvanədir o,
Sərraf gözləridir onun gözləri.

Seçdiyi peşənin adı dostluqdur,
Qohumu, qardaşı, yadı dostluqdur.
İstisi, həniri, odu dostluqdur,
Sərraf gözləridir onun gözləri.

Onu heyran edən pak ünsiyyətdir,
Təmiz fikirlərdir, sağlam niyyətdir,
Ehtiram, etiqat, səmimiyyətdir,
Sərraf gözləridir onun gözləri.

***Cəmil Əkbər*** 27. 05 - 1999

## 56. SARISU KƏNDİ

Kəpəz gözyaşını selə döndərib,
Yaman pərişandı Sarısu kəndi.
Varını-yoxunu ona göndərib,
Durub keşiyində Sarısu kəndi.

Burdan baxın xan Kəpəzin boyuna,
Sular çatmaz bu yerlərin suyuna,
Yaşılbaş sonalar gəlib yuyuna,
Baxıb vəcdə gələ Sarısu kəndi.

Bu dağın, dərənin başı Kəpəzdir,
Torpağı Kəpəzdir, daşı Kəpəzdir.
Üzüyə layiqli qaşı Kəpəzdir,
Onun ayağıdır Sarısu kəndi.

Təbiətdən möcüzədir bu yerlər,
Koroğlunun varisidir bu ərlər,
Zəhmət çəkib göstərirlər hünərlər,
Əyməz vüqarını Sarısu kəndi.

Hayana baxırsan güldür, çiçəkdir,
Biri obirindən gözəl göyçəkdir.
Zərif yarpağı var qönçə ləçəkdir,
Dillərə dastandır Sarısu kəndi.

Tarlalar, zəmilər gül ətirlidir,
Darçın ətirlidir, hil ətirlidir,
Çəmən ətirlidir, çöl ətirlidir,
Cənnət məkanıdır Sarısu kəndi.

Bürüyüb həryanı yaşıl meşələr,
Bizi heyran edən gözəl guşələr.
Yolunu gözləyir tər bənövşələr,
Cənnəti-rizvandır, Sarısu kəndi.

Səcdənə gəlmişəm a şır-şır bulaq,
Suyundan içməklə olmayır doymaq.
Nuş etsən açılar kar olan qulaq,
Zəm-zəm çeşməlidir Sarısu kəndi.

Bir yanı Çaykənddir, bir yanı Mənəş,
Bir yanı buzluqdur, bir yanı nə xoş.
Baxır Canbaz dağı qəlbində atəş,
Necə mehribandı Sarısu kəndi?

Nəqədər bacarsan iç, ləzzət verir,
Dəryazla zəmidən biç, ləzzət verir.
Arılar yüklənib köç ləzzət verir,
Zülala bələnib Sarısu kəndi.

Namaz bu yerlərdə imdada yetdi,
Mindi köhlənini gözlərdən itdi,
Bizi bu məkanla o tanış etdi,
Dostluğa layiqdi, Sarısu kəndi.

Süfrəyə düzülən balına bir bax,
Bərəlgə, yamaca, yalına bir bax.
Kababın ətrinə, dadına bir bax.
Xeyir-bərəkətli, Sarısu kəndi.

Firudin, Məhəbbət əziz qonaqdı,
Arzu istəkləri dəniz, qonaqdı,
Alikə deyəsi sözümüz çoxdu,
Sirri-müəmmadır, Sarısu kəndi.

Ağsaqqal Əsgərə, Qüdrətə baxın,
Üzlərdə, gözlərdə cürətə baxın.
Vaqifin etdiyi xidmətə baxın,
Mərifət əhlidir Sarısu kəndi.

Bu yerə ilk dəfə düşdü güzarım,
Yağ-bal, qaymaq oldu, burda naharım,
Daha yoxdu bədənimdə azarım,
Xəsdəyə loğmandı, Sarısu kəndi.

Deməyin, tərifə yaman uymusan?
Dağ üstünə, gör nə dağlar qoymusan?
Bu yerlərdə möcüzələr duymusan?
Gülab ətirlidir Sarısu kəndi.

Nəqədər deyilsə tərif yaraşır,
İncəlik yaraşır, zərif yaraşır,
Cümlədə, kəlmədə hərif yaraşır,
Gözəl bir guşədir Sarısu kəndi.

Babalar nə gözəl yeri seçibdir?
İncini, sədəfi, zəri seçibdir,
Qəhraman igidi, nəri seçibdir,
İgidlər məsgəni Sarısu kəndi.

Gör necə dayanıb, durub xan Kəpəz?
Eləbil boynunu burub xan Kəpəz.
Neçə qərinələr yorub xan Kəpəz,
Baxıb fəxr eyləsin Sarısu kəndi.

İlqardı ekranda bizi göstərən,
Dərəni, təpəni, düzü göstərən.
Düzüb yerbəyerdən sizi göstərən,
Baxsın bu büsata, Sarısu kəndi.

Cəmil bu yerlərdə qalmaq istəyir,
Coşubdur ilhamı, dolmaq istəyir.
Könül rübabını çalmaq istəyir,
Məni heyran etdi Sarısu kəndi.

***Cəmil Əkbər*** 12. 06 – 1999

## 57. BATIR

Dünya yaranandan indiyə qədər,
Nəqədər haqq batır, ədalət batır?
Cahanda baqidir qüssə-qəm, kədər,
Nəqədər doğruluq, həqiqət batır?

Qurtara bilməyir nadan əlindən,
Haqqısay sümürüb, udan əlindən.
Təlimdən kəm-kəsir dadan əlindən,
Nəqədər insanlıq ləyaqət batır?

Hiyləgər, dələduz verir əl-ələ,
Salırlar aləmə yaman vəlvələ.
Qoymayır insanlıq əmələ gələ,
Nəqədər bacarıq, fərasət batır?

Qalıbdı naxələf, naqis əlində,
Paxıllar, xainlər, xəbis əlində.
Bisəmər, yaramaz, varis əlində,
Ədəb-ərkan batır, nəzakət batır.

Zəmanə mülkündə dönüklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Dadamal, canavar, əniklər artıb,
Nəqədər sədaqət, səxavət batır?

Bu bəşər övladı pozulub gedir,
Xətirlər, hörmətlər azalıb gedir.
Doğrular tərsinə yozulub gedir,
Ehtiram puç olur, mərhəmət batır.

Haçandan kəsməyir dava-dalaşlar,
Həyəcanlar, səksəkələr, təlaşlar,
Qal-qovğalar, çəkişmələr, savaşlar,
Cəhalət içində məmləkət batır.

Hələdə döyünür xəbis ürəklər,
Nanəcib, naxələf, naqis ürəklər.
Tamahkir quldurlar, həris ürəklər,
Küdurət içində məhəbbət batır.

Ay Cəmil, törənən dava-dalaşda,
Həyəcanda, səksəkədə, təlaşda.
Vurhavurda, qırhaqırda, savaşda,
Nəqədər azadlıq, səadət batır?

***Cəmil Əkbər*** 21. 05 - 1999

## 58. İMİŞ

Çoxlarını mən tərtəmiz bilmişəm,
Sən deməynən başdan-başa lil imiş.
Dost demişəm, candan əziz bilmişəm,
Sən deməynən başdan-başa şil imiş.

Bildirmişəm ürəyimdən keçəni,
Arzu, istək, diləyimdən keçəni.
Xəlbirimdən, ələyimdən keçəni,
Sən deməynən çətən, ceyil, cil imiş.

Gör kimləri eləbelə sanmışam?
Nökər, naib, həm də kölə sanmışam?
“Zooparkda” adi dələ sanmışam?
Sən deməynən o begemont, fil imiş.

Çox yerləri elə sandım bərədir,
Sürüdəki kürə deyil, kərədir.
Sel-su yuyan uçurumlu dərədir,
Sən deməynən yoxuş, zirvə, zil imiş.

Neçə yağlı, şirin sözə inandım,
Saxta baxış, saxta üzə inandım.
Vaxt-vədəsiz solan izə inandım,
Sən deməynən fitnə imiş, fel imiş.

Nəqədər qızılı mis anlamışam?
Yaxşı tanımayıb pis anlamışam?
Xeyirxah insanı nəs anlamışam?
Sən deməynən inci, sədəf, ləl imiş.

Gör  nəqədər xətirləri duymadım?
Yazıları, sətirləri duymadım?
Gül-çiçəkdə ətirləri duymadım?
Sən deməynən darçın, mixək, hil imiş.

Çoxlarını elə sandım yetişib,
Peyvənd olub, calaq tutub bitişib.
Lalıxlayıb, vaxt-vədəsi ötüşüb,
Sən deməynən sütül imiş, kal imiş.

Çoxlarını elə sandım zəhərdir,
Dərd-azardır, qəm-qüssədir, qəhərdir,
Müsibətdir, fəlakətdir, kədərdir,
Sən deməynən bəhməz imiş, bal imiş.

Elə sandım çoxlarının eli var,
Yaratmağa qolları var, əli var.
Danışmağa şirin-şəkər dili var,
Sən deməynən kəköy imiş, lal imiş.

Çoxlarını elə sandım bez imiş,
Eləbelə dayaz imiş, üz imiş,
Əfsus olsun fikirlərim tez imiş,
Sən deməynən dərin imiş, göl imiş.

Hər ülfətə, ünsiyyətə inandım,
Öyüdlərə, nəsihətə inandım.
Hər arzuya, hər niyyətə inandım,
Sən deməynən nömrə imiş, xal imiş.

Cəmil deyir, gəl sən sada aldanma,
Hər yetənə nə sığınma, daldanma.
Bəd işlərin arxasınca yollanma,
Deməsinlər bu nəyaman mal imiş.

***Cəmil Əkbər*** 28. 05 - 1999

## 59. ƏL ÇƏK AY KİŞİ

Çox deyilən mədhiyyələr yalandır,
Əl çək bu tərifdən, əl çək ay kişi.
Bara çatmaz, tez-tələsik solandır,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Niyə aldanırsan saxta sözlərə?
Saxta  astarlara, saxta üzlərə?
Saxta baxışlara saxta gözlərə?
Əl çək bu tərifdən, əl çək ay kişi.

Mədhiyyə, naməyə az meyil yetir,
Çiyninə buqədər böhtanı götür.
Oxu bu naməni bil, sətir- sətir,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Deyirlər mədhiyyə başı gicədir,
Fikiri, xəyalı, huşu gicədir.
Gözlərə tor gəlir, qaşı gicədir,
Əlçək bu tərifdən, əlçək ay kişi.

Yoxdu yalan sözə inanan Vallah,
Sayılıb-seçilib, unanan Vallah,
Bu yolla ellərdə tanınan Vallah,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Buqədər tərifə nə ehtiyac var?
Uyubdu nə üçün bizim iqtidar?
İnsana gərəkdi haqlı iftixar,
Əlçək bu tərifdən, əlçək ay kişi.

Tərifdən başımız dəng olub gedib,
Düşüb haldan, dildən təng olub gedib.
Ay aman, nəqədər zəng olub gedib,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Yalançı mədhiyyə hörmət gətirmir,
Şərafət gətirmir, şöhrət gətirmir.
Mənəvi var-dövlət, sərvət gətirmir,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Saxta deyimlərə uyma, ayıbdır!
Şanı-şövkətinə qıyma, ayıbdır!
Xalqı mal yerinə qoyma ayıbdır!
Əl çək bu tərifdən, əl çək ay kişi.

İnsana nəqədər tərif gərəkdir?
Biri-birisindən zərif gərəkdir?
Cümlələr, kəlmələr, hərif gərəkdir?
Əl çək bu tərifdən, əl çək ay kişi.

Tərif kimə gərək, həqiqət yoxsa?
İçində azacıq məhəbbət yoxsa,
İncəlik, zəriflik, ləyaqət yoxsa,
Əl çək bu tərifdən, əl çək ay kişi.

Daha bəsdi utan, eldən ayıbdır,
Günlərdən, aylardan, ildən ayıbdır.
Muğandan, Şirvandan, Mildən ayıbdır,
Əl çək bu tərifdən, əl çək ay kişi.

***Cəmil Əkbər*** 14. 07 - 1999

## 60. NƏDİR?

Gözəllik aşiqi olan insanda,
Buqədər kin nədir, küdurət nədir?
Əqilə, kamala dolan insanda,
Avamlıq, nadanlıq, cəhalət nədir?

İnsaf qədri, mürvət qədri biləndə,
Xətir-hörmət, ülfət qədri biləndə,
Şərəf qədri, şöhrət qədri biləndə,
Buqədər bədxahlıq, qəbahət nədir?

İnsanlıq, ləyaqət hayanda qaldı?
Sədaqət, səxavət hayanda qaldı?
Nəzakət, məlahət hayanda qaldı?
Özün de, bəs indi ədavət nədir?

Nəqədər eşidib, bilməməliyik?
Utanıb, qızarıb ölməməliyik.
Axan gözyaşını silməməliyik,
Bu giley, bu güzar, şikayət nədir?

Nəqədər kor olub görməməliyik?
Bağ salıb barını dərməməliyik?
Alınan borcları verməməliyik?
Etdiyin bu xəta, cinayət nədir?

Nəqədər incisin, beziksin bəşər?
Didişib, boğuşsun xeyir ilə şər?
Verməsin bir ara daim, sərbəsər,
Bu nəzir, bu niyaz ibadət nədir?

***Cəmil Əkbər*** 5. 04 – 1991

## 61. NƏDİR?

Mənim qəlbimdəki dəyanətə bax,
Fəhm-fərasətə, ləyaqətə bax,
Fikirə, xəyala, bəyanətə bax,
Sənin qəlbindəki zəlalət nədir?

Mənim qəlbimdəki hikmətə bir bax,
Hünərə, təpərə, riqqətə bir bax,
Eyhama, nəzərə, diqqətə bir bax,
Sənin qəlbindəki dəlalət nədir?

Mənim qəlbim Vətən üçün döyünür,
Pöhrə verib bitən üçün döyünür.
Dad-haraya yetən üçün döyünür,
Sənin qəlbindəki məziyyət nədir?

Mənim qəlbim ədalətə can atır,
Doğruluğa, həqiqətə can atır.
Ədəb-ərkan, mərifətə can atır,
Sənin qəlbindəki nəzakət nədir?

Mənim qəlbim yaratmaqla fəxr edir,
Yaşamaqla, yaşatmaqla fəxr edir.
Ömrü-günü uzatmaqla fəxr edir,
Sənin qəlbindəki bəd niyyət nədir?

Mənim qəlbim nadanlıqdan kəc olub,
Cəhalətə, avamlığa öc olub.
Ony görcək sərsəm olub, gic olub,
Sənin qəlbindəki zəlalət nədir?

***Cəmil Əkbər*** 2. 12 – 1988

## 62. NƏDİR?

İlahi, insana bir düşüncə ver,
Anlasın, görsün ki, ədalət nədir?
Qanmayan kəslərə bir işgəncə ver,
Görsün ki, düzgünlük, həqiqət nədir?

Görməyən gözlərə nurunu çatdır,
Hənirini çatdır, qorunu çatdır.
Göstərib qüvvəni, zorunu çatdır,
Dərk edib anlasın, ləyaqət nədir?

Tutulub karlaşan qulaq olmasın,
Əqildə, kamalda çolaq olmasın.
İnsan qılıfında ulaq olmasın,
Anlasın, dərk etsin nəzakət nədir?

Amandır, ürəklər daşa dönməsin,
Boranı kəsməyən qışa dönməsin.
Vaxtsız dayanmasın, haşa dönməsin,
Anlasın, dərk etsin fəzilət nədir?

İlqardan, imandan dönən olmasın,
Qaralıb, qarsıxıb sönən olmasın.
Şərəfli mövqedən enən olmasın,
Anlasın, dərk etsin sədaqət nədir?

İlahi heçkimsə xəbis olmasın,
Nanəcib, naxələf, naqis olmasın.
Dadamal, ləlöyün, həris olmasın,
Anlasın, dərk etsin səxavət nədir?

İnsanlıq, ləyaqət qoy azalmasın,
Haldan-hala düşüb heç pozulmasın.
İnləyib, sızlayıb, nə sozalmasın,
Anlasın, dərk etsin mətanət nədir?

İnsanam deyənin həyası olsun,
Əqidə, məsləki, qayəsi olsun.
Yardımı, qayğısı, sayəsi olsun,
Anlasın, dərk etsin xəcalət nədir?

Gözəl dünyamızda dava olmasın,
Zəhərə qarışmış hava olmasın.
Sərsəri, kəmağıl, yava olmasın,
Anlasın, dərk etsin ədavət nədir?

Heçkəsin taleyi qara gəlməsin,
İlişib kəməndə tora gəlməsin,
Düşüb məşəqqətə zora gəlməsin,
Anlasın, dərk etsin şərafət nədir?

İlahi heçkəsi mürvətsiz etmə,
Mənəvi aləmsiz, sərvətsiz etmə,
Hünərsiz, təpərsiz, cürətsiz etmə,
Anlasın, dərk etsin cəsarət nədir?

İlahi heçkəsin gözünü yumma,
Yolağını kəsib, izini yumma.
Sağlam fikirini, sözünü yumma,
Görsünki nadanlıq, cəhalət nədir?

İlahi hərkəsə məharət də ver,
Azadlıq bəxş eylə, bəraət də ver.
Könül sarayına hərarət də ver,
Ayılıb dərk etsin səadət nədir?

***Cəmil Əkbər*** 19. 06 -1994

## 63. NƏDİR?

Qənirsiz gözəlsən ay qadan alım,
Bu əndam, bu yöndəm, bu təhər nədir?
Hüsnünü görüncə çaşdı xəyalım,
Verirsən buqədər bu qəhər nədir?

Gözələm deyəndən xoşhal istərəm,
Vəslinə yetməyə vüsal istərəm.
Bal-qaymaq dodaqdan zülal istərəm,
Tökürsən üstümə bu zəhər nədir?

Oxlayıb qəlbimi almısan ələ,
Bütün varlığıma saldın vəlvələ.
Nə vaxtdır özümə gəlmirəm hələ,
Demirsən bu qazanc, bu bəhər nədir?

Haranın ceyranı, maralısan sən?
Ovçun naşı olub yaralısan sən.
Dərd çəkib, qəm yemə, saralısan sən,
Gəzirsən bu küçə, bu şəhər nədir?

Eşqinin oduna yandım, qalandım,
Əriyib şam kimi yerə calandım,
Daim xəyalınla gəzdim, dolandım,
Hər axşam, günorta, bu səhər nədir?

Baş alıb hayana gedirsən gülüm?
Gedəni yolundan edirsən gülüm,
Bağrımın başını didirsən gülüm,
Demirsən bu güzar, bu səfər nədir?

Soruşub adını bilmək istərəm,
Dərdini dərdimlə bölmək istərəm.
Sən olan diyarda ölmək istərəm,
Sərrafam kanında bu gövhər nədir?

Şamama var bostanının tağında,
Bar yetişib məhəbbətin bağında.
Ənam et Cəmilə qoca çağında,
Deməki, bihalsan, bu hünər nədir?

***Cəmil Əkbər*** 19. 05 – 1985, 17. 06 – 1985

## 64. YOXSA BU DÜNYANIN SONUDUR NƏDİR?

Ünsiyyət-ülfətdə xəyanət artır,
Yoxsa bu dünyanın sonudur nədir?
Hər addımbaşında cinayət artır,
Yoxsa bu dünyanın sonudur nədir?

Məhəbbət azalır, ədavət artır,
Giley, güzar, qeybət, şikayət artır.
Bürüyür həryanı, cəhalət artır,
Yoxsa bu dünyanın sonudur nədir?

Baxan yoxdur nə insafa, mürvətə,
Sədaqətə, səxavətə, hörmətə,
Bu mənəvi gözəlliyə, sərvətə,
Yoxsa bu dünyanın sonudur nədir?

Ləyaqətlər itib-batır arada,
Sağalmayır, qövr eyləyir yara da,
Axtarmaqla tapılan döy çara da,
Yoxsa bu dünyanın sonudur nədir?

Gör nəqədər ədalətlər tapdandı?
Doğruluqlar, həqiqətlər tapdandı?
Məna dolu məziyyətlər tapdandı?
Yoxsa bu dünyanın sonudur nədir?

Görən gözlər görə-görə kor olub,
Eşitməyir qulaqlar da kar olub.[5]
Gör nəqədər laçın, tərlan, sar olub?
Yoxsa bu dünyanın sonudur nədir?

---

[5] Qulaqlar pas tutub, deyən kar olub.

Gör nəqədər gədə bəylər törəyib?
Şaqqulutək dədə bəylər törəyib?
Sağ bədəndə zədə bəylər törəyib?
Yoxsa bu dünyanın sonudur nədir?

Gör nəqədər mövqeindən endilər?
Yana-yana qaraldılar söndülər?
Orda-burda danışdılar, dindilər?
Yoxsa bu dünyanın sonudur nədir?

Yersiz gəlib yerlini qovalayır,
Ərsiz gəlib ərlini qovalayır.
Zərsiz gəlib zərlini qovalayır,
Yoxsa bu dünyanın sonudur nədir?

Şər-xeyirə, xeyir-şərə qarışıb,
Zər-inciyə, inci-zərə qarışıb.
Dönə-dönə min bir kərə qarışıb,
Yoxsa bu dünyanın sonudur nədir?

Böyük, kiçik, ağsaqqalı sayan yox,
Dərdbiləni, əhlihalı sayan yox.
Pak vicdanı, pürkamalı sayan yox,
Yoxsa bu dünyanın sonudur nədir?

Hamı yön alıbdır tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı.
Baxan yox işıqlı sabaha sarı,
Yoxsa bu dünyanın sonudur nədir?

***Cəmil Əkbər*** 2. 12 – 1992

## 65. ÇATIŞMIRSA HEÇNƏDİR

İstər Napoleon, ya İsgəndər ol,
Məharətin çatışmırsa heçnədir.
İstər milyoner ol, ya milyarder ol,
Səxavətin çatışmırsa heçnədir.

İstər sahibkar ol, istər nökər ol,
İstər işdə-gücdə, ya da bekar ol.
İstər ovçuluq et, istər şikar ol,
Ədalətin çatışmırsa heçnədir.

İstər qardaşım ol, ya yoldaşım ol,
Həmkarım, həmdəmim, ya sirdaşım ol.
Həmyaşıd, taytuşum, ya çağdaşım ol,
Nəzakətin çatışmırsa heçnədir.

Alim ol, çoban ol, ya loğman olun,
Uşaq ol, qoca ol, ya cavan olun.
İstər adam olun, ya insan olun,
Məhəbbətin çatışmırsa heçnədir.

İstər sənə Nizami də desinlər,
Fizuli də, Nəsimi də desinlər,
Əfzələddin Xəqani də desinlər,
Ləyaqətin çatışmırsa heçnədir.

İstər gözəl olun, ya çirkin olun,
Sadədən sadə ol, ya xudbin olun,
Ya şad-xürrəm olun, ya bədbin olun,
Pak niyyətin çatışmırsa heçnədir.

İstər ayaqda ol, istər başda ol,
İstər payız doğul, istər qışda ol.
İstər zirvədə ol, ya da qaşda ol,
Mərifətin çatışmırsa heçnədir.

Hamıdan dövlətli, varlı da olsa,
Tutarlı, samballı, karlı da olsa.
Ağactək butaqlı, barlı da olsa,
Mərhəmətin çatışmırsa heçnədir.

İstər əlli yaşa, istər yüz yaşa,
İstər çoxlu yaşa, istər az yaşa,
İstər payız yaşa, istər yaz yaşa,
Fərasətin çatışmırsa heçnədir.

İstər yaxına gəl, ya aralı ol,
İstər buralı ol, ya oralı ol.
İstərsə dağların lap maralı ol,
Məharətin çatışmırsa heçnədir.

İstər uzaqda ol, istər gendə gəz,
Dalanda, döngədə, ya da tində gəz.
Dumanda, çisgində, ya da çəndə gəz,
Sədaqətin çatışmırsa heçnədir.

Dəryaca düşüncən, kamalın ola,
Əqidən, məsləkin, amalın ola.
Dünyada tanınan mahalın ola,
Cəsarətin çatışmırsa heçnədir.

Deyirlər hər ilin öz fəsili var,
Hər insanoğlunun, öz nəsili var,
Əcdadı, soy kökü, öz əsili var,
Nəcabətin çatışmırsa heçnədir.

İstər padşah olsun, ya sultan olsun,
Ya tacidar olsun, ya xaqan olsun,
Sözləri dillərdə lap dastan olsun,
Kəramətin çatışmırsa heçnədir.

Cəmil Əkbər eləbelə öyünmə,
Fərəhlənib, iftixarla sevinmə,
Heçkimsəyə bel bağlama güvənmə,
Dəyanətin çatışmırsa heçnədir.

***Cəmil Əkbər*** 20. 07 – 1999

## 66. HEÇNƏDİR

İstər sultan olsun, istər xan olsun,
Ədalətsiz, həqiqətsiz heçnədir.
Adı, soyadı da Gülcahan olsun,
İnsan olan ləyaqətsiz heçnədir.

Dövləti, sərvəti, varı olsada,
Bağlarının dürlü barı olsada.
İxtiyarı, iqtidarı olsada,
Ədəb-ərkan, nəzakətsiz heçnədir.

Nəqədər yüksəlib, ucala bilsə,
Zəfər dünyasından bac ala bilsə.
Səksənə, doxsana qocala bilsə,
Sədaqətsiz, səxavətsiz heçnədir.

Nəqədər aranı, dağı olsada,
Xəsdəsi olsada, sağı olsada,
Qarası olsada, ağı olsada,
İnsaf-mürvət, mərhəmətsiz heçnədir.

Seyredib dünyanı sezməliyik biz,
Qəvvastək dəryada üzməliyik biz,
Çətin məqamlarda dözməliyik biz,
İgid olan dəyanətsiz heçnədir.

Ünsiyyət-ülfətlər düz gərək düz, düz,
Yerində deyilən söz gərək, söz, söz.
Hər şey məqamında tez gərək, tez, tez,
Doğru-düzgün bəyanətsiz heçnədir.

İstər oğul olsun, istər qız olsun,
İstər payız olsun, istər yaz olsun,
İstər geciksinlər, istər tez olsun,
Fərasətsiz, cəsarətsiz heçnədir.

Bizə həyat verən ürək olsada,
Övladı-bəşərə gərək olsada.
Yetişib haraya kömək olsada,
Eşq-həvəssiz, məhəbbətsiz heçnədir.

İnsanı yaşadan əməl olsada,
Bünövrə olsada, təməl olsada.
Nəcabət olsada, əsil olsada,
Xöş iqbalsız, səadətsiz heçnədir.

Hərkəsin obası, eli olsada,
Muğanı, Şirvanı, Mili olsada,
Danışmağa ana dili olsada,
Təlimatsız, qiraətsiz heçnədir.

İnsan haxlasada yüzü ay Cəmil,
Gəzsədə dağ, aran, düzü ay Cəmil,
Qınama nə sizi, bizi ay Cəmil,
Saf arzusuz, pak niyyətsiz heçnədir.

***Cəmil Əkbər***

## 67. HEÇNƏDİR

Bu dünyada gör nəqədər adam var?
Şan-şöhrətsiz, şərafətsiz heçnədir.
Yol-izini tərsəməssəb adan var,
Ədalətsiz, həqiqətsiz heçnədir.

Hamı bilir hər sinədə ürək var,
Arzu-mətləb, istəklər var, dilək var.
Doğruluq var, əyrilik var, kələk var,
Sədaqətsiz, səxavətsiz heçnədir.

Gör nəqədər ünsiyyət var, ülfət var?
Dedi-qodu, giley-güzar, qeybət var?
Yerli-yersiz danışıq var, söhbət var?
Ədəb-ərkan nəzakətsiz heçnədir.

Yer üzünə gör nəqədər gələn var?
Oxuyan var, öyrənən var, bilən var?
Yaşayan var, yaradan var, ölən var?
Bacarıqsız, məharətsiz heçnədir.

Gör nəqədər igidlər var, oğul var?
Dadlı-duzlu şirin-şəkər, noğul var?
Dastanlar var, şeirlər var, nağıl var?
Fərasətsiz, cəsarətsiz heçnədir.

İnsan gərək qulluq edə kamala,
Vicdan, məslək, əqidəyə amala.
Qiymət qoya el-obaya mahala,
Dözüm-durum dəyanətsiz heçnədir.

Cəmil Əkbər, yalqız gəzmə, dolanma,
Cahil olub nadanlığa yollanma.
Bədəməlin ocağında qalanma,
İnsanoğlu cəmiyyətsiz heçnədir.

***Cəmil Əkbər*** 8. 01 – 1993

## 68. HEÇNƏDİR

İstər alim olsun, ya mömin olsun,
Sədaqətsiz, səxavətsiz heçnədir.
İstər şair olsun, ya loğman olsun,
İnsaf-mürvət, kəramətsiz heçnədir.

İstər qazı olsun, münəccim olsun,
İstərsə yazıçı, mütərcim olsun.
İstərsə bədgüman, xatircəm olsun,
Ədalətsiz, həqiqətsiz heçnədir.

İstər ana olsun, ya bacı olsun,
İstər şirin olsun, ya acı olsun.
İstərsə başımın lap tacı olsun,
Abır-həya, ar, ismətsiz heçnədir.

İstər cavan olsun, ya qoca olsun,
Kərbəlaya getsin, ya Hacı olsun.
Ya vəzir, ya vəkil, ya xoca olsun,
Dəyanətsiz, qətiyyətsiz heçnədir.

Kim harada işləsədə, olsa da,
Oxusada, oynasada, çalsa da.
Yaşatsada, yaratsada, qalsa da,
Ədəb-ərkan, nəzakətsiz heçnədir.

İstər oğul olsun, istər qız olsun,
İstər payız olsun, istər yaz olsun.
İstər çoxlu olsun, istər az olsun,
Saf arzusuz, pak niyyətsiz heçnədir.

İstər çəmən olsun, istər çöl olsun,
İstər çiçək olsun, istər gül olsun.
İstər xəzan olsun, istər kül olsun,
Məlahətsiz, təravətsiz heçnədir.

Hərkəs gərək kamalıyla dolansın,
Əqidəsi, amalıyla dolansın.
Bu mənəvi camalıyla dolansın,
Fərasətsiz, cəsarətsiz heçnədir.

İstər söhbət olsun, istər söz olsun,
İstər əyri olsun, istər düz olsun.
İstər ocaq olsun, istər köz olsun,
Hənirtisiz, hərarətsiz heçnədir.

İstər qohum olsun, ya qardaş olsun,
İstər çağdaş olsun, ya yoldaş olsun,
Ya həmkar, ya həmdəm, ya sirdaş olsun,
Xeyirxahsız, fəzilətsiz heçnədir.

***Cəmil Əkbər*** 3. 01 - 1990

## 69. HEÇNƏDİR

Çox görmüşəm gülyanağı dünyada,
Abır-həya, ismət yoxsa heçnədir.
Dili qaymaq, bal dodağı dünyada,
Ədəb-ərkan, mərfət yoxsa heçnədir.

Çox gədalar yaşa dolub, qocalıb,
Elə sanır zəfər çalıb, bac alıb.
Zirvələrdən-zirvələrə ucalıb,
Şərəf yoxsa, şöhrət yoxsa heçnədir.

Yerə-göyə sığışmayır ədası,
Ad qazanıb dağdan ağır sədası.
Onu-bunu bezikdirir qadası,
Namus yoxsa, qeyrət yoxsa heçnədir.

Çoxlarını aldadıbdır tamahı,
Görəbilmir nə olacaq sabahı?
Dəryalarda təmizlənməz günahı,
Xətir yoxsa, hörmət yoxsa heçnədir.

Hər yetənin qazandığı ad olmur,
Ha yesə də dəhanında dad olmur.
Eyni açılmayır, könlü şad olmur,
Təpər yoxsa, riqqət yoxsa heçnədir.

Hər keçən günlərə gün demək olmaz,
Hər çıxan səs-küyə ün demək olmaz.
Hər insanoğluna şən demək olmaz,
Dəyər yoxsa, qiymət yoxsa heçnədir.

Hər sinə altında ürək vursa da,
Arzular, istəklər, dilək vursa da.
Fəhm-fərasəti zirək vursa da,
İnsaf yoxsa, mürvət yoxsa heçnədir.

Çox mənəm deyənlər yaşa dolsa da,
Kamala yetişib, başa dolsa da.
Fikirə, xəyala, huşa dolsa da,
Qüvvət yoxsa, qüdrət yoxsa heçnədir.

İstər çağdaş olsun, ya yoldaş olsun,
Ya həmkar, ya həmdəm, ya sirdaş olsun,
Ən yaxın mehriban, bir yoldaş olsun,
Nicat yoxsa, nüsrət yoxsa heçnədir.

Nəqədər sifət var, üz var ay Cəmil?
Dərin var, dayaz var, üz var ay Cəmil?
Xanəndə, aşıq var, saz var ay Cəmil,
Məna yoxsa, hikmət yoxsa heçnədir.

***Cəmil Əkbər***

## 70. HEÇNƏDİR

Nəqədər şərəfin, şanın olsada,
Abırsız, ismətsiz, yarsız heçnədir.
Sərvətin, gövhərin, kanın olsada,
Namussuz, qeyrətsiz, arsız heçnədir.

Nəqədər gitara, saqsafon ola,
Səsə qüvvət verən mikrafon ola.
Patefon, val ola, qramafon ola,
Kamansız, qavalsız, tarsız heçnədir.

Nəqədər olsada eyyvan otağın,
Gəlməsə mehriban, əziz qonağın.
Kölgəsi olsada qollu budağın,
Çiçəksiz, nübarsız, barsız heçnədir.

Nəqədər igidin şöhrəti ola,
Ellərə sığmayan hörməti ola.
Kəraməti ola, mürvəti ola,
Yeməksiz, içməksiz, varsız heçnədir.

Nəqədər igidin adı olsada,
Qohumu, qardaşı, yadı olsada,
Tüsdüsü çıxsada, odu olsada,
Haraysız, həşirsiz, karsız heçnədir.

Nəqədər xəsdənin loğmanı olsun,
Tədbiri, çarəsi, dərmanı olsun,
Ay Cəmil, bağların bağbanı olsun,
Almasız, heyvasız, narsız heçnədir.

***Cəmil Əkbər*** 13. 03 – 1993

## 71. GÖRÜNMÜRSƏ HEÇNƏDİR

*Aşıq Kamandarın verlişinə qulaq asarkən, aldığım təəssüratdan*

İstər qoca olsun, ya cavan olsun,
Sədaqəti görünmürsə heçnədir.
İstər alim olsun, ya coban olsun,
Səxavəti görünmürsə heçnədir.

İstər qazı olsun, münəccim olsun,
İstər ədib olsun, mütərcim olsun.
Özündən bədgüman, xatircəm olsun,
Ədaləti görünmürsə heçnədir.

İstər xaqan olsun, ya da xan olsun,
Ya şahənşah olsun, ya sultan olsun,
Ya Xaliqi-aləm, ya sübhan olsun,
Həqiqəti görünmürsə heçnədir.

İstər ağa olsun, istər bəy olsun,
İstər aqil olsun, istər key olsun.
İstər ərdöy olsun, istər döy[6] olsun,
Nihayəti görünmürsə heçnədir.

İstər zalım olsun, ya fəqir olsun,
İstər müti, kölə, ya səqir olsun.
İstər təriflənsin, ya təhqir olsun,
Sədarəti görünmürsə heçnədir.

İstər xəsdə olsun, istər sağ olsun,
İstər qara olsun, istər ağ olsun.
İstər təpə olsun, istər dağ olsun,
Əzəməti görünmürsə heçnədir.

[6] Döy – dev

İstər qohum olsun, ya qardaş olsun,
Eloğlu sayılsın, ya çağdaş olsun.
Ya böyük, ya kiçik, ya çağdaş olsun,
Məharəti görünmürsə heçnədir.

İstər oğul olsun, ya da qız olsun,
İstər çoxlu olsun, ya da az olsun.
İstər payız olsun, istər yaz olsun,
Şərafəti görünmürsə heçnədir.

Kim harda yaşayıb, harda olsa da?
Genişdə, açıqda, darda olsa da?
Borana düşsədə, tarda olsa da?
Mərifəti görünmürsə heçnədir.

Hərkəs el içində tanınmayırsa,
Enişdə, yoxuşda sınanmayırsa.
Sayılıb, seçilib unanmayırsa,
Ləyaqəti görünmürsə heçnədir.

İstər qardaş olsun, ya bacı olsun,
Məcnuntək Leylinin möhtacı olsun.
Gəlib başımızın lap tacı olsun,
Məhəbbəti görünmürsə heçnədir.

Hərkəs gərək kamal ilə dolansın,
Məslək, vicdan, amal ilə dolansın,
Öz mənəvi camal ilə dolansın,
Bu hikməti görünmürsə heçnədir.

Hamı gərək el gözündə çəkilə,
Xəyanətdən uzaq ola, əkilə.
Qulaq asa nəsihətə, dəlilə,
Bu xidməti görünmürsə heçnədir.

İstər söhbət olsun, istər söz olsun,
İstər dərin-dayaz, istər üz olsun.
İstər ocaq, alov, istər köz olsun,
Hərarəti görünmürsə heçnədir.

İstər nadan olsun, ya qanan olsun,
İstər aşiq olsun, ya canan olsun,
İstər eşq oduna o yanan olsun,
Kəraməti görünmürsə heçnədir.

İstər çəmən olsun, istər çöl olsun,
İstər çiçək olsun, istər gül olsun.
İstər xəzan olsun, istər yel olsun,
Təravəti görünmürsə heçnədir.

İstər oyaq olsun, yada ki, yatsın,
İstər aralığı bir anda qatsın.
Dağıtsın, talasın, murada çatsın,
Nəzakəti görünmürsə heçnədir.

İstər nökər olsun, ya naib olsun,
İstər bu ölkəyə o sahib olsun.
İstərsə yaşasın, ya qaib olsun,
Əzəməti görünmürsə heçnədir.

İstər ata olsun, ya ana olsun,
Ya huri, ya mələk, ya sona olsun.
Məhəbbət mülkündə o bina olsun,
Dəyanəti görünmürsə heçnədir.

İstər Əkbər olsun, ya Cəmil olsun,
Ya İbrahim olsun, ya Xəlil olsun.
Ya Musa, ya İsa, ya Cəlil olsun,
Fəziləti görünmürsə heçnədir.

***Cəmil Əkbər*** 3. 01 -1990

## 72. ZAD NƏDİR?

İnsan birbirinin qanını sorur,
Xətir nədir, izzət, hörmət, zad nədir?
Sümürüb iliyi, canını sorur,
İnsaf nədir, rəhim, mürvət, zad nədir.

Qaraldıb qanını, qəlbini sıxır,
Kəsib dirəyini, evini yıxır.
Dağıdıb tağını, sonuna çıxır,
Abır, həya, iffət, ismət, zad nədir?

Soyur dərisini, malını yeyir,
Şanına göz dikir, balını yeyir,
Töküb dəymişini, kalını yeyir,
Xahiş nədir, minnət nədir, zad nədir?

Etdiyi əməldən heç utanan yox,
Ürpəşən, səksənən, heç qısqanan yox.
Pəsinib - çəkinən, heç diksinən yox.
Nəzər nədir, diqqət nədir, zad nədir?

Hamı istəyir ki, pulu çox olsun,
Dövləti, sərvəti, malı çox olsun.
Nökəri, naibi, qulu çox olsun,
Ədəb-ərkan, mərfət nədir, zad nədir?

İnsan insanlara qəsd edir yaman,
Yeməmiş, içməmiş, məsd edir yaman.
Çevirib astarın üst edir yaman,
Bəşər nədir, millət nədir, zad nədir?

İnləyirik zalımların əlində,
Boğuluruq daşqınların selində.
Abırsızlıq, həyasızlıq gölündə,
Qəzəb, hiddət, nifrət nədir, zad nədir?

Saralırıq divanələr əlində,
El-obaya biganələr əlində.
Külə döndük pərvanələr selində,
Namus nədir, qeyrət nədir, zad nədir?

Nadan oğlu "stolunu" tanımır,
Nəzər salıb sağ-solunu tanımır.
Doğru getmir, haqq yolunu tanımır,
Şərəf nədir, şöhrət nədir, zad nədir?

İnsan övladında inam qalmayıb,
Bəxşeyiş, ərmağan, ənam qalmayıb.
Müqəddəs otaqlar, binam qalmayıb,
Cəhənnəm nə, cənnət nədir, zad nədir?

Dindirdikcə al qanını zəhərlər,
Dərdə salıb ürəkləri qəhərlər.
Cana doyar kənd, qəsəbə, şəhərlər,
Cəza nədir, şiddət nədir, zad nədir?

Hamı ləkələyib təmiz adını,
Möhtərəm adını, əziz adını,
Ən incə, ən zərif, ləziz adını,
Məna-məzmun, hikmət nədir, zad nədir?

Başdan-başa xəyanətdi dünyada,
Giley-güzar, şikayətdi dünyada,
Addımbaşı cinayətdi dünyada,
Zəhmət nədir, xidmət nədir, zad nədir?

Namusdan, qeyrətdən qalmayıb əsər,
Nə deyim, yazımkı olsun müxtəsər?
İnsanlıq məhv olub, ölüb dərbədər,
Qüvvət nədir, qüdrət nədir, zad nədir?

Davalar, dalaşlar verməyir ara,
Qövr edib sızlayır, sağalmır yara.
Axtarmaq əbəsdir, tapılmır çara,
Fürsət nədir, möhlət nədir, zad nədir?

Fikirinin təpəsi, nədə dağı yox,
Peyvənd olan, bar gətirən, bağı yox,
Tutarı yox, sambalı yox, sağı yox,
Dəyər nədir, qiymət nədir, zad nədir?

***Cəmil Əkbər*** 7. 04 -1993, 22. 05 -1993

## 73. ELƏ DƏ QANDIM

Tamaha uyaraq mal yığmamışam,
Mən elə düşündüm, elə də qandım.
Çəhrayı, qırmızı, al yığmamışam,
Mən elə düşündüm, elə də qandım.

Özgənin varında gözüm olmadı,
Söhbətim olmadı, sözüm olmadı.
Tama gətirməyə duzum olmadı,
Mən elə düşündüm, elə də qandım.

Nanəcib, naqisdən aralı gəzdim,
Qəlbi xoflu gəzdim, qaralı gəzdim.
Alıb zərbələri yaralı gəzdim,
Mən elə düşündüm, elə də qandım.

Hər yetən kəslərlə aram olmadı,
Könlünü almağa param olmadı.
Dərdinə nə dəvam, çarəm olmadı,
Mən elə düşündüm, elə də qandım.

Mən elə sandım ki, ədalətliyəm,
Hamıdan aliyəm, ləyaqətliyəm.
Ədəbli, ərkanlı, nəzakətliyəm,
Mən elə düşündüm, elə də qandım.

Sandım ki, davranış belə gərəkdir,
Obaya gərəkdir, elə gərəkdir.
Muğana, Şirvana, Milə gərəkdir,
Mən elə düşündüm, elə də qandım.

İstədim əzilən, əzən olmasın,
Əlimdən inciyiən, bezən olmasın,
Əzab-əziyyətə dözən olmasın,
Mən elə düşündüm, elə də qandım.

Sinəmdə məhəbbət közü dolandı,
Söhbəti dolandı, sözü dolandı.
Oğulu dolandı, qızı dolandı,
Mən elə düşündüm, elə də qandım.

İstədim heçkəsə dəyməsin xəta,
Səadət bəxş olsun hamıya əta.
Hamı xoş arzuya, murada çata,
Mən elə düşündüm, elə də qandım.

***Cəmil Əkbər*** 30. 07 – 1999

## 74. AYRILANMIRAM

Hərnədən də mən aralı dolansam,
Haqdan, həqiqətdən ayrılanmıram.
Qəlbi xoflu, ya qaralı dolansam,
Ülvi məhəbbətdən ayrılanmıram.

Əzəldən mənalı sözə aşiqəm,
Mənalı baxışa, gözə aşiqəm.
Ozan nəvəsiyəm, saza aşiqəm,
Şeirtək sənətdən ayrılanmıram.

İstərdim dünyada dava olmasın,
Zəhərə qarışmış hava olmasın.
And, qəsəm eylərəm, tova olmasın,
Bu arzu-niyyətdən ayrılanmıram.

İstərdim həryanda gözəllik ola,
Zəriflik, məlahət, incəlik ola.
Hamı dərsin ala, ariflik ola,
Bu sözdən, söhbətdən ayrılanmıram.

Mən Cəmil Əkbərəm ürəyi təmiz,
Arzusu, istəyi, diləyi təmiz.
Halaldı mayası, çörəyi təmiz,
Bu gözəl nemətdən ayrılanmıram.

***Cəmil Əkbər*** 21. 11 – 1992

# 75. YAŞA

Budur təbiətdən arzu, diləyim,
Vətən azad yaşa, firəvan yaşa.
Qoy səndən güc alsın, qolum, biləyim,
Vətən azad yaşa, firəvan yaşa.

Əsməsin üstündən qara küləklər,
Salmasın çətinə, dara küləklər,
Qıymasın dövlətə, vara küləklər,
Vətən azad yaşa, firəvan yaşa.

Bu gözəl diyarda nadan olmasın,
Təlimdən yarımçıq dadan olmasın.
Yolunu tərsinə adan olmasın,
Vətən azad yaşa, firəvan yaşa.

Paxıla, xainə, xəbisə nifrət,
Nanəcib törəyən, naqisə nifrət,
Naxələf övladdan varisə nifrət,
Vətən azad yaşa, firəvan yaşa.

Yaşasın, yaratsın hər vətəndaşın,
Qoy töksün torpağa, tər vətəndaşın,
Becərsin, yetirsin zər vətəndaşın,
Vətən azad yaşa, firəvan yaşa.

Qal-qovğa törəyib, dava olmasın,
Sərsəri, kəmağıl, yava olmasın,
Zəhərə qarışan hava olmasın,
Vətən azad yaşa, firəvan yaşa.

Ədavət görməsin qoy vətən oğlu,
Xəyanət görməsin qoy vətən oğlu,
Qəbahət görməsin qoy vətən oğlu,
Vətən azad yaşa, firəvan yaşa.

Əzilən olmasın, əzən olmasın,
Nadana, cahilə dözən olmasın,
İnciyən olmasın bezən olmasın,
Vətən azad yaşa, firəvan yaşa.

İlqara, imana kəclər olmasın,
Sərsəri, kəmağıl, giclər olmasın.
Hiyləgər, dələduz, biclər olmasın,
Vətən azad yaşa, firəvan yaşa.

Fikiri, xəyalı çaşlar olmasın,
Vicdanı, məsləki, daşlar olmasın.
Kamalı kəm, başıboşlar olmasın,
Vətən azad yaşa, firəvan yaşa.

Ləyaqət sahibi həryanda olsun,
Bakıda, Şəkidə, Salyanda olsun,
Gəncədə, Şirvanda, Muğanda olsun,
Vətən azad yaşa, firəvan yaşa.

Xətrinə dəyməsin nanıkor gədə,
Övladı-bəşərə ziyankarlar gədə.
Həşəratsayağı müftəxor gədə,
Vətən azad yaşa, firəvan yaşa.

Gül açsın həryanda torpağın daşın,
Çoxalsın nemətin, ucalsın başın,
Gəlsin hər diyardan dostun, qardaşın,
Vətən azad yaşa, firəvan yaşa.

Cəmil Əkbər vüqarınla öyünüb,
Əhdi-peyman, ilqarınla sevinib.
Bu qüdrətlə,  bu hikmətlə güvənib,
Vətən azad yaşa, firəvan yaşa.

***Cəmil Əkbər*** 5. 11 – 1991

## 76. YAŞA

Mən olsam da, olmasam da,
Bəşər yaşa, xilqət yaşa!
Mən qalsam da, qalmasam da,
Qüvvət yaşa, qüdrət yaşa!

Mən gəlsəm də, gəlməsəm də,
Mən bilsəm də, bilməsəm də,
Mən getsəm də, getməsəm də,
Ədəb yaşa, mərfət yaşa!

Mən gülsəm də, gülməsəm də,
Göz yaşımı silməsəm də,
Mən ölsəm də, ölməsəm də,
Ay cəsarət, cürət yaşa!

Qoy itməsin haqqısaylar,
Dürlü sovqat, dolu paylar.
Nə duz-çörək, nə də çaylar,
Xətir yaşa, hörmət yaşa!

Mən ansam da, anmasam da,
Mən dansam da, danmasam da,
Mən qansam da, qanmasam da,
İnsaf yaşa, mürvət yaşa!

Mən əksəm də, əkməsəm də,
Mən səpsəm də, səpməsəm də.
Mən çəksəm də, çəkməsəm də,
Zəhmət yaşa, xidmət yaşa!

Mən versəm də, verməsəm də,
Mən dərsəm də, dərməsəm də.
Mən görsəm də, görməsəm də,
Abır yaşa, ismət yaşa!

Qoy yox olsun müftəxorlar,
Çalıb-çapan haramxorlar.
Qədirbilməz nanıkorlar,
Halal nemət, qismət yaşa!

Mən desəm də, deməsəm də,
Mən yesəm də, yeməsəm də,
Mən əysəm də, əyməsəm də,
Namus yaşa, qeyrət yaşa!

Hamının yeri bilinsin,
Açılsın sirri bilinsin,
İncisi, zəri bilinsin,
Dəyər yaşa, qiymət yaşa!

Ləyaqət düşməsin gözdən,
Nə söhbətdən, nə də sözdən,
Nə yolaqdan, nə də izdən,
Şərəf yaşa, şöhrət yaşa!

Qoy olmasın keyfiyyətsiz,
Nə mənasız, əhmiyyətsiz.
Saf arzusuz, pak niyyətsiz,
Məna yaşa, hikmət yaşa!

Tez qocalma Cəmil Əkbər,
Ömür-günü  vermə hədər.
Yemə qüssə, çəkmə qəhər,
Məqam yaşa, möhlət yaşa!

***Cəmil Əkbər*** 5. 01 – 1990

## 77. YAŞA

*Haqverdi müəllimin 50 illiyinə*

Salam olsun bizlərdən, ay mehriban yoldaşım,
Karvanını sür başa, əlli yaşın yüz olsun.
Ay həmkarım, həmdəmim, ay səmimi qardaşım,
İşin-gücün nizamda, qoy cağbacağ düz olsun.

Qəlbində saf məhəbbət, bir də sədaqət olsun,
Ünvanına söylənən, hamsı ədalət olsun?
Qoy bədinə danışan özü xəcalət olsun,
Könüllərdə yer tutub dərin salıb, iz yaşa.

Yaxşılığı etginən özün üçün sən peşə,
Bəd işindən, sözündən düşməginən təşvişə.
Sözlərimi unutma, yadına sal həmişə,
Səxavətlə ömür sür, kəramətlə gəz qoşa.

Zəhmət çəkib sinə gər, ər oğlu ər meydanda,
Hünərinlə fəxr elə, nər oğlu nər meydanda.
Ariflər əhsən desin, zər oğlu zər meydanda,
Mətin olub, tablaşıb, qətiyyətlə döz yaşa.

Hər yetənin işinə həsəd çəkib darıxma,
Uçuşuna bənd olub qanadına sarılma.
Paxıllıqda can qoyub, xainlikdə yorulma,
Bağban olub bağ becər, meyvəsindən üz yaşa.

Sən də “Şarik”[7]in kimi, çıx qarşıla mehriban,
Sahibinlə gün keçir, ömürboyu firavan,
Baxıb görsün, baş əysin, Bakı, Gəncə, İrəvan,
Əlli yaşın nədir ki, səksən, doxsan, yüz yaşa.

“Şarik” kimi əlimi ağzına al, dişləmə,
Qəzəbini artırıb, dişlərini şişləmə.
Pisimizi danışıb, bədimizə işləmə,
Ürəyindən keçəni, doğru anla söz yaşa.

***Cəmil Əkbər*** 22. 10 – 1986

## 78. İNSANTƏK YAŞA

Gözəl dünyamızın qayğısına qal,
İnsan ol, insan ol, insantək yaşa.
Əvvəli-axırı bir yadına sal,
İnsan ol, insan ol, insantək yaşa.

[7] “Şarik” - Haqverdi müəllimin evdə bəslədiyi köpəyin ismi

Sən insansan etmə yamanlıq gülüm,
Olma kainata qaranlıq, zülüm.
Gəlmişik dünyaya biranlıq bilin,
İnsan ol, insan ol, insantək yaşa.

Kin-küdurət, ədavətdən uzaq ol,
Paxıllıqdan, xəyanətdən uzaq ol.
Xəta, bəla, qəbahətdən uzaq ol,
İnsan ol, insan ol, insantək yaşa.

Gör haçandan, nə zamandan bəridir?
Giley-güzar ürəkləri çürüdür.
Od-ocaqsız şamlar kimi əridir,
İnsan ol, insan ol, insantək yaşa.

Olmaynan ömründə tamahın qulu,
Azmaynan yolunu görəndə pulu.
Satma mənliyini ay insanoğlu,
İnsan ol, insan ol, insantək yaşa.

Hərnə etsən əmanətdi ellərə,
Ya dostluqdu, sədaqətdi ellərə.
Ya qəsd-qərəz, xəyanətdi ellərə,
İnsan ol, insan ol, insantək yaşa.

Unutma heç zaman xətir-hörməti,
İnsafı, mürvəti, nə kəraməti.
İlqarı, imanı nə sədaqəti,
İnsan ol, insan ol, insantək yaşa.

Sözündə, işində ədalətli ol,
Ədəbli, ərkanlı, mərifətli ol.
Gözəl ol, nəcib ol, nəzakətli ol,
İnsan ol, insan ol, insantək yaşa.

Tökmə qabaqları, çatma qaşları,
Ağrıtma ürəyi, nə də başları,
Üstünə qaldırma alabaşları,
İnsan ol, insan ol, insantək yaşa.

Ayıbdir ellərdən həya et barı,
Eşidib-bilənlər görməsin karı.
Sərsin örkənlərin üstünə darı,
İnsan ol, insan ol, insantək yaşa.

Korlayıb əsəbi, qanı qaraltma,
Zəhlə töküb gen dünyanı daraltma.
Xəzan olub bağça-bağı saraltma,
İnsan ol, insan ol, insantək yaşa.

Gəl insanoğlunun dəymə şəstinə ,
Girmə qisasına, qərəz, qəsdinə.
Yerli-yersiz ayaq alma üstünə,
İnsan ol, insan ol, insantək yaşa.

Nə töksən qabına içərsən bir gün,
Nə əksən yəqin ki, biçərsən bir gün.
Gəlmisən dünyaya, köçərsən bir gün,
İnsan ol, insan ol, insantək yaşa.

Dəyməsin kimsəyə azacıq xətan,
Çəkil bədəməldən, bu xalqdan utan.
Xəcalət çəkməsin eşitsə atan,
İnsan ol, insan ol, insantək yaşa.

***Cəmil Əkbər*** 7. 04 – 1990

## 79. MƏHƏBBƏTİM

Həryetənə pay verməném,
Talan deyil məhəbbətim.
Çörək nədir, çay verməném,
Dolan deyil məhəbbətim.

Hərzaman güllər açsada,
Çəmənlər, çöllər açsada,
Fəsillər, illər açsada,
Solan deyil məhəbbətim.

Başlanibdi ürəyimdə,
Nəcib arzu, diləyimdə,
El-obaya gərəyimdə,
Yalan deyil məhəbbətim.

Cahillərə, nadanlara,
Təlimdən kəm dadanlara,
Yolu tərsə adanlara,
Olan deyil məhəbbətim.

Həryetirən nakəslərə,
Xainlərə, xəbislərə,
Bədəsilə, bədcinslərə,
Kalan deyil məhəbbətim.

***Cəmil Əkbər*** 9. 11 – 1998

## 80. DAHA

Bütöv idim paralandım,
Gələnmirəm huşa daha.
Öz-özümdən qaralandım,
Gələnmirəm coşa daha.

İtirirəm təravəti,
Gözəlliyi, məlahəti,
Ülviliyi, ləyaqəti,
Gələnmirəm xoşa daha.

Tapanmıram qiymətimi,
Abırımı, ismətimi,
Çəkənmirəm ləzzətimi,
Gəzənmirəm şeşə daha.

Umac, hörrə xörəyimdir,
Əsa indi dirəyimdir.
Dar günümdə gərəyimdir,
Çıxanmıram döşə daha.

Azalıbdır dəyanətim,
Odum, közüm, hərarətim,
Olan-qalan var qüvvətim,
Gedənmirəm işə daha.

Gül-çiçəklər xəşəm oldu,
Könül bağım kövşən oldu,
Künc-bucaqlar guşəm oldu,
Kara yetmir peşə daha.

Paltarımı geyənmirəm,
Cümləni düz deyənmirəm,
Çeynəyirəm yeyənmirəm,
Kabab dəymir dişə daha.

Xeyir-şərdən aralandım,
İçin-için yaralandım,
Bostantəki uralandım,
Könlüm olub şüşə daha.

***Cəmil Əkbər*** 7. 10 -1983

## 81. DÜNYA DÜZƏLƏNƏ OXŞAMIR DEYƏN

Filə, begemota alabaş hürür,
Dünya düzələnə oxşamır deyən.
Nə qorxur, nə ülkür, diribaş hürür,
Dünya düzələnə oxşamır deyən.

Düha sahibini gözdən salırlar,
Vurub yolağından, izdən salırlar,
Məqamı çatmamış tezdən salırlar,
Dünya düzələnə oxşamır deyən.

Alan-almağında, satan-satmaqda,
Şər deyib aranı qatan-qatmaqda,
Bəd işlər törədib tutan-tutmaqda,
Dünya düzələnə oxşamır deyən.

Hər yerdə qal-qovğa, dava çoxalır,
Zəhərə qarışmış hava çoxalır,
Sərsəri, gicbəsər, yava çoxalır,
Dünya düzələnə oxşamır deyən.

Gəlib zəmanədə səylik edirlər,
Elə sahib olub, “eylik” edirlər,
Pozğunluq salırlar, zaylıq edirlər,
Dünya düzələnə oxşamır deyən.

Hayana baxırsan yalan çoxalıb,
Dağılan, sökülən, talan çoxalıb.
Dələduz, hiyləgər kalan çoxalıb,
Dünya düzələnə oxşamır deyən.

Abırsız, ismətsiz, həyasız artır,
Təlim görməyənlər, dayəsiz artır,
Əqidəsiz artır, qayəsiz artır,
Dünya düzələnə oxşamır deyən.

Nəqədər saralıb, solan görürəm,
Gözləri qan-yaşla dolan görürəm,
Əl-ayaq altında qalan görürəm,
Dünya düzələnə oxşamır deyən.

Ar-namus azalıb, qeyrət qalmayıb,
Əvvəlki təmtəraq, şöhrət qalmayıb,
Mərhəmət qalmayıb, hörmət qalmayıb,
Dünya düzələnə oxşamır deyən.

Kəsən yox kökünü alaq otunun,
Gicitkansayağı dalaq otunun,
Tikanlar, qanqallar  ulaq otunun,
Dünya düzələnə oxşamır deyən.

Ünsiyyət-ülfətdə cəhalət artır,
Xətalar, bəlalar, qəbahət artır,
Küdurət çoxalır, ədavət artır,
Dünya düzələnə oxşamır deyən.

Nə haq tanıyan var, nə həqiqəti,
Nə yaxşı-yamanı, nə ləyaqəti,
Nə ədəb-ərkanı, nə nəzakəti,
Dünya düzələnə oxşamır deyən.

Etibar, sədaqət sözdə qalıbdır,
Yolaqda, cığırda, izdə qalıbdır,
Arzular, istəklər gözdə qalıbdır,
Dünya düzələnə oxşamır deyən.

Hayana baxırsan ziddiyyət artır,
Zalımlıq, qəddarlıq, bədniyyət artır.
Əzablar çoxalır, əziyyət artır,
Dünya düzələnə oxşamır deyən.

Hərə bir diyarda azğınlıq edir,
Qalmaqal törədib, pozğunluq edir,
Leşləri gəmirən, quzğunluq edir,
Dünya düzələnə oxşamır deyən.

Buqədər danışmaq, yazmaq olarmı?
Planlar, tədbirlər cızmaq olarmı?
Silib qaralamaq, pozmaq olarmı?
Dünya düzələnə oxşamır deyən.

Ağbirçəyi, ağsaqqalı sayan yox,
Yolgöstərən əhlihalı sayan yox.
Nuranini, pürkamalı sayan yox,
Dünya düzələnə oxşamır deyən.

Ha deyirsən, danışırsan qanan yox,
Sözlərini xatırlayıb anan yox.
Ruh oxşayan, mehri-ülfət, canan yox,
Dünya düzələnə oxşamır deyən.

Havayı özünü yorma, ay Cəmil,
Daha qaşqabaqlı durma, ay Cəmil,
Sinənə dağ-düyün vurma, ay Cəmil,
Dünya düzələnə oxşamır deyən.

***Cəmil Əkbər*** 29-30 / 08 - 1995

## 82. ÇƏKMƏRƏM DAHA

Sən ki, cəhalətdən aralanmadın,
Mən sənin dərdini çəkmərəm daha.
Özündən şəklənib qaralanmadın,
Sənin təsibini çəkmərəm daha.

Nəqədər çağırdım, sən ayılmadın,
İnsan cərgəsində sən sayılmadın,
Şərəflə, şöhrətlə sən yayılmadın,
Dərdindən qəddimi bükmərəm daha.

Qəflətlər içində yatıb qalmısan,
Vicdanı, məsləki satıb qalmısan,
Yaxşını yamana qatıb qalmısan,
Mən sənin önündə səkmərəm daha.

Yıxılıb ölsəndə ağlamaram mən,
Başıma qaralar bağlamaram mən,
Havayı sinəmi dağlamaram mən,
Hayıfdı, gözyaşı tökmərəm daha.

Səni doğan elə doğub neyləyim?
Nəfsin üçün kölə doğub neyləyim?
Min bir kələk, hiylə doğub neyləyim?
Qəlbimin bəndini sökmərəm daha.

Haçandır qəflətdə yatıb qalmısan,
Üfunət gölünə batıb qalmısan,
Yaxşını-yamana qatıb qalmısan,
Diz çöküb qarşında çökmərəm daha.

Ey cahil, nəqədər qəlbimə dəydin?
Üzümə irişdin, arxamca söydün,
Cəmilin qəddini yay kimi əydin?
Zikr edib adını çəkmərəm daha.

***Cəmil Əkbər*** 1 - 03 – 1997

## 83. DAHA

Qüvvətim, qüdrətim azalır deyən,
Girləyib başımı saxlamır daha.
İnləyir, sızlayır, sozalır deyən,
Çatır qabağımı, qaşımı daha.

Bu dərdə tablaşıb dözə bilmirəm,
Dağları, daşları gəzə bilmirəm.
Dünya çox şirindir, bezə bilmirəm,
Dağıdır sərimdə huşumu daha.

Zəmanənin etibarı bu imiş,
Əhdi-peyman, düz ilqarı bu imiş.
Canıyanan vəfadarı bu imiş,
Atacaq mənim də daşımı daha.

İxtiyar, iqtidar əlimdən gedir,
Dəhanımdan gedir, dilimdən gedir.
Saralıb soluxur, gülümdən gedir,
Qatacaq zəhərə aşımı daha.

Fələyin işinə nə demək olar,
Əgər qismət yoxsa, nə yemək olar,
Bəzənib, düzənib nə geymək olar,
Kəsəcək ömrümü, yaşımı daha.

***Cəmil Əkbər***

## 84. KÖÇ DAHA

Gözəl dünyamızın ləzzəti qaçıb,
Dövran keçib, zaman deyir köç daha.
Hörməti azalıb, izzəti qaçıb,
Əmr deyir, fərman deyir köç daha.

İnsanlığa, ləyaqətə baxan yox,
Ədədəb, ərkan, nəzakətə baxan yox,
Sədaqətə, səxavətə baxan yox,
Cahil deyir, nadan deyir köç daha.

Ölkə qıtlıq çəkir, var çatışmayır,
Bağlar becərilmir, bar çatışmayır,
Namus tükənibdir, ar çatışmayır,
Fürsət kedib, imkan deyir köç daha.

İftixarla gəzmək belə çətindir,
Səbr eyləyib dözmək belə çətindir.
Sahil dardır, üzmək belə çətindir,
Qəvvas baxır, sükan deyir köç daha.

Şair gərək zəmanədən yazalar,
Cəhalətin qəbirini qazalar,
Sızıldayır, sözə baxmır əzalar,
Həkim, təbib, loğman deyir köç daha.

Meydan arsızındır, girişmək olmur,
Əhlihal insanla görüşmək olmur,
Kefini-halını soruşmaq olmur,
Bazar baha, dükan deyir köç daha.

Zamanın hökmüylə barışmaq olmur,
Quldur dəstəsilə yarışmaq olmur,
Xeyrinə, şərinə qarışmaq  olmur,
Bir çarə yox, dərman deyir köç daha.

Bir xeyir yox dost-tanışdan, yoldaşdan,
Nə həmkardan, nə həmdəmdən, sirdaşdan,
Həmyaşıddan, taytuşlardan, çağdaşdan,
Yaxın-uzaq, həryan deyir köç daha.

Azalıb, gözlərin nuru qalmayıb,
Dizimin taqəti, giri qalmayıb,
Qolumun qüvvəti, zoru qalmayıb,
Sarvan çaşıb, karvan deyir köç daha.

Çoxalıbdır hiylə, məkr, kələklər,
Boğulurlar nəcib arzu-diləklər.
Çox bəd əsir qasırğalı küləklər,
Rüzgar deyir, cəryan deyir köç daha.

Məqam gəlib, vaxt yetişib tamama,
Ümid qalıb peyğənbərə, imana,
Tağ quruyub, bostan vermir şamama,
Sirri-aləm, pünhan deyir köç daha.

Düşmüşük nəyaman çətinə, dara?
Başını götürüb qaçasan hara?
Əl açıb yalvardım Pərvərdigara,
Xuda-Kərim, Sübhan deyir köç daha.

Sızlamaq əbəsdir ay Cəmil Əkbər,
Salıb ürəyinə, çəkmə qəm-kədər,
Nəqədər çəksən də hədərdir, hədər,
Muğan deyir, Şirvan deyir köç daha.

***Cəmil Əkbər*** 10-11. 09 – 1996

## 85. QOCALDIM

Baxıb zəmanənin kəc gərdişinə,
Nadanlar əlində qaldım, qocaldım.
Uymadım hər adət, hər vərdişinə,
Yersiz zərbələri aldım, qocaldım.

Seyredib elləri, gəzdim həryanı,
Gördükcə varlını, lütü, üryanı,
Dərk edib duymadım qoca dünyanı,
Dərin xəyallara daldım, qocaldım.

Tapmadım yaxşını, pisi anlayan,
Bədxahı tanıyıb, nəsi anlayan,
Zildəki, bəmdəki səsi anlayan,
Odur ki, pərişan oldum, qocaldım.

Görmədim düz çəkə mizan tərəzi,
Kəsilə oğruluq, qalmaya izi,
Görəndə hər yerdə qəsdi-qərəzi,
Min dəfə boşalıb-doldum, qocaldım.

Yox kamil bağbanım bəsləyə məni,
Əgər yatmışamsa səsləyə məni.
Tapılmır sərrafım dinləyə məni,
Gül kimi saraldım, soldum, qocaldım.

Haqsızlıq gördükcə sındı budağım,
Çatılıb tutuldu qaşım, qabağım,
Duyduqca dar məzar evim, otağım,
Axır aqibəti buldum, qocaldım.

İstərdim bu bəşər bəla görməsin,
Düşüb iztiraba nalə görməsin,
Tarlamız, zəmimiz ala görməsin,
Əlimdə alakeş yoldum, qocaldım.

Hər sözüm, söhbətim elə çatmadı,
Buluddan ələnib, selə çatmadı.
Çeşmədən yön alıb gölə çatmadı,
Özüm öz könlümü aldım, qocaldım.

Gördüm ki, qanandan-qanmayan çoxdu,
Gördüm ki, anandan-anmayan çoxdu,
Düşüb eşq oduna yanmayan çoxdu,
Könül rübabını çaldım qocaldım.

***Cəmil Əkbər*** 1963

## 86. QOCALIQ

Görürük, bilirik tam açıq-aydın,
Yetməyir haraya, kara qocalıq.
İnsan varlığını gərəksiz qoydun,
Üzləri eyləyən qara qocalıq.

Arvad, uşaq sözlərimi tutmayır,
Yazıq canım daha gecə yatmayır,
Huş azalır günü-gündən, artmayır,
Cəsəd qalır lap avara, qocalıq.

Hanı ətrafımda gəzən cananlar?
Sözdən, işarədən məna qananlar?
Ülfət qılıb, axtaranlar, ananlar.
Salır məhəbbəti tora qocalıq.

Düşür el içində hörmət- izzət də,
Qaçır damaqlardan dad da, ləzzət də,
Kimsəyə xoş gəlmir, söz də söhbət də,
Çevrilir ağıya, mara qocalıq.

İnsanı pis günə dəlalətin var,
Yoxdur bir xoş günün, cəhalətin var,
Əcabə dövransan, pis halətin var,
Salır qəlbimizi nara, qocalıq.

Özü də bilməyir heç nələr edir,
Hayana yön alıb, hayana gedir,
Könüllər mülkünü şam kimi didir,
Baxmayır yoldaşa, yara qocalıq.

Baxmaqla insanın doymayır gözü,
Deməklə doymayır söhbəti, sözü,
Sönməyir məhəbbət odunun közü,
Həsrət eyləsədə vara qocalıq.

Qüvvəti, qüdrəti əlindən aldın,
İnsanı ayırıb elindən aldın.
Cəmili əliboş yollara saldın,
Axır aqibətə hara qocalıq?

***Cəmil Əkbər***

## 87. SÖZƏ BAXMIR

*I variant*

Seyredib dünyanı gəzmək istərəm,
Ayaq sözə baxmır, baş sözə baxmır.
Çalışıb-vuruşub dözmək istərəm,
Ömür sözə baxmır, yaş sözə baxmır.

İstərdim aləmin seyrinə varam,
Dünya gözəlinin qadasın alam,
Zəfərlər təblini çaldıqca-çalam,
Fikir sözə baxmır, huş sözə baxmır.

Bəzənib-düzənib geyə biləydim,
Şeirlər düzəldib, deyə biləydim,
Şişə çəkib kabab yeyə biləydim,
Damaq sözə baxmır, diş sözə baxmır.

İstərdim bəşərin yükünü çəkəm,
Şumlayıb torpağı, yerini əkəm,
Naz-nemət becərib, tərimi tökəm,
Kotan sözə baxmır, xış sözə baxmır.

Oxu bu naməni tezdən gör gedir,
Azalıb qolumdan, dizdən gir gedir.
Dayanıb qalmayır, gözdən nur gedir,
Gözlər sözə baxmır, qaş sözə baxmır.

Ay Cəmil, hərnə var kamal da qalmır,
Əqidə, məsləkdə, amal da qalmır,
Köç edir ellərdən, cahal da qalmır,
Sənət sözə baxmır, iş sözə baxmır.

***Cəmil Əkbər*** 24. 05 -1994

## 88. SÖZƏ BAXMIR

*II variant*

İnsan qocalanda nə pis olarmış,
Ayaq sözə baxmır, baş sözə baxmır.
Əzalar yerbəyer naqis olarmış,
Xəyal sözə baxmır, huş sözə baxmır.

Əvvəlkitək gəşt eyləyib gəzənmir,
Ağrılara, acılara dözənmir.
Ha çeynəyir, ovxalayır əzənmir,
Dəhan sözə baxmır, diş sözə baxmır.

İşdən-gücdən əl-ayaqlar soyuyur,
Eləbilki qış fəslidir uyuyur.
O uşağı, uşaq onu buyurur,
Peşə sözə baxmır, iş sözə baxmır.

Gündən-günə kef-damaqlar pozulur,
Ayaq altdan asta-asta qazılır.
Günah-savab hərnə varsa yazılır,
Ömür sözə baxmır, yaş sözə baxmır

Dağ başına duman gəlir, qar gəlir,
Belə hallar mərd igidə ar gəlir.
Gen dünya başlara sanki dar gəlir,
Qulaq sözə baxmır, guş sözə baxmır.

Bu dünyada hər nə varsa köhnəlir,
Şah pərdədə bir çox hava köklənir.
Çox karvanlar öz vaxtında yüklənir,
Kotan sözə baxmır, xış sözə baxmır.

Cəmil Əkbər əzəl gündən belədir,
Zaman ağa, insanoğlu  kölədir.
Məqam gəlir çox zalımlar pilədir,
Bahar sözə baxmır, qış sözə baxmır.

***Cəmil Əkbər*** 28. 07 - 1989

## 89. SÖZƏ BAXMIR

*III variant*

Soruşdun halımı əziz eloğlum,
Ayaq sözə baxmır, baş sözə baxmır.
Ürəyi, diləyi təmiz eloğlum,
Xəyal sözə baxmır, huş sözə baxmır.

Dağ kimi qamətim bükülüb gedir,
Qüvvətim dizlərdən çəkilib gedir.
Bir-bir damağımdan sökülüb gedir,
Damaq sözə baxmır, diş sözə baxmır.

Gördüyüm, bildiyim yadımdan çıxır,
Ünvanımdan çıxır, adımdan çıxır,
Eşqim, məhəbbətim odumdan çıxır,
Peşə sözə baxmır, iş sözə baxmır.

Tutulur nəfəsim, kəsilir səsim,
Getgedə azalır eşqim, həvəsim.
Taylarla, tuşlarla hey bəhsəbəhsim,
Sinə sözə baxmır, döş sözə baxmır.

İstədim şum edib əkinə varam,
Toxum hazırlayıb, səpinə varam.
Tərimi tökərək çətinə varam,
Kotan sözə baxmır, xış sözə baxmır.

Zəmanə korlanıb, il də bəd gəlir,
Çəmən də, çiçək də, çöl də bəd gəlir.
Muğan da, Şirvan da, Mil də bəd gəlir,
Yediyim xaş, dolma, aş sözə baxmır.

Bu dövran sərt oldu, pozuluram mən,
İnləyib, sızlayıb, sozalıram mən.
Deyəsən əksilib, azalıram mən,
Kirpik sözə baxmır, qaş sözə baxmır.

Qəlbimi ağrıdır nadan, kimsələr,
Yolunu tərsinə adan kimsələr.
Təlimdən yarımçıq dadan kimsələr,
Fikiri, xəyalı çaş sözə baxmır.

Dəyişir mövsümlər, dəyişir fəsil,
Nəsillər dalınca gəlirlər nəsil.
Bilmirsən heç ələ nə gəlir hasil?
Payız sözə baxmır, qış sözə baxmır.

Nə mətləb güdürsən ay Cəmil Əkbər?
Nə fəqan edirsən ay Cəmil Əkbər?
Qocalıb gedirsən ay Cəmil Əkbər?
Ömür sözə baxmır, yaş sözə baxmır.

***Cəmil Əkbər*** 24. 05 -1994

## 90. SÖZƏ BAXMIR

*IV variant*

Budur qocalığın əziz töhfəsi,
Ayaq sözə baxmır, baş sözə baxmır.
Ələnib seçilən, təmiz töhfəsi,
Xəyal sözə baxmır, huş sözə baxmır.

Tutur qaşqabağı, çatır qaşı da,
Ağrıdır ürəyi, gözü, qaşı da.
Gödəldir ömrü də, kəsir yaşı da,
Ömür sözə baxmır, yaş sözə baxmır.

Dağları, daşları gəzə bilmirəm,
Pozulur əhvalım məzə bilmirəm.
Uduram birtəhər, əzə bilmirəm,
Ağrıyır, sızlayır diş sözə baxmır.

Azalır yerbəyer gücüm, qüvvətim,
Gözəl arzularım, saf məhəbbətim,
Tablaşa bilmirəm, yox dəyanətim,
Kotan sözə baxmır, xış sözə baxmır.

Əlimdən ixtiyar, iqtidar gedir,
Çəmənlər, çiçəklər, gülüzar gedir.
Əzəldən axıra nəkivar gedir,
Peşə sözə baxmır, iş sözə baxmır.

Düzəldən düzəldir, əyənlər əyir,
Toxunub qəlblərə dəyənlər dəyir,
Qazanan qazanır, yeyənlər yeyir,
Kabab sözə baxmır, şiş sözə baxmır.

Zəmanə hökmedir, yetişir vədə,
İstər ağa olsun, istərsə gədə,
Alırıq həyatdan hər yersiz zədə,
Payız sözə baxmır, qış sözə baxmır.

Ay Cəmil, zamana, vaxta nə deyək?
Çıxır hökm eyləyir, taxta nə deyək?
Taleyə, yığvala, baxta nə deyək?
Mizan sözə baxmır, daş sözə baxmır.

***Cəmil Əkbər*** 2. 10 -1995

## 91. SÖZƏ BAXMIR

*V variant*

Qocalığın nə qəribə halı var?
Ayaq sözə baxmır, baş sözə baxmır.
Çəkməyə nəqədər dərd-məlalı var?
Xəyal sözə baxmır, huş sözə baxmır.

Əzalar yerbəyer pozulub gedir,
Qüvvəsi, qüdrəti azalıb gedir.
İnləyib, sızlayıb, sozalıb gedir,
Ömür sözə baxmır, yaş sözə baxmır.

Qulaq eşitməyir, göz görə bilmir,
Ayaq yeriməyir, əl verə bilmir.
Bağban, ağacından bar dərə bilmir,
Zərgər sözə baxmır, daş sözə baxmır.

Qılınc sovdan düşür, kəsər eyləmir,
Yeyirsən, içirsən səmər eyləmir.
Daha gözəl-göyçək əsər eyləmir,
Kiprik sözə baxmır, qaş sözə baxmır.

Ömür karvanını əyləmək olmur,
Qaçanı qovaraq teyləmək olmur,
Sirri hər yetənə söyləmək olmur,
Yalvarmaq, yaxarmaq, xoş sözə baxmır.

Gələn köç eyləyir, dayanmır hamı,
İnsan ömürboyu çəkənmir kamı.
Sınır boyunduruq, əyilir samı,
Kotan sözə baxmır, xış sözə baxmır.

Nəsillər dalınca gələr nəsillər,
Fəsillər dalınca gələr fəsillər.
Cəmillər dalınca gələr Cəmillər,
Bahar sözə baxmır, qış sözə baxmır.

***Cəmil Əkbər*** 7. 06 – 1986

## 92. SÖZƏ BAXMIR

*VI variant*

Belə imiş qocalığın adəti,
Qollar girdən düşür, əl sözə baxmır.
Əvvəl-axır ucalığın adəti,
Xırman sözə baxmır, vəl sözə baxmır.

Heydən düşüb yorulurmuş heyvan da,
Düz yolundan burulurmuş qaban da.
Haldan düşüb qırılırmış cavan da,
Öküz də yorulur, kəl sözə baxmır.

Yetişir zamanı, bağlanır bazar,
Baş verir xəsdəlik, çoxalır azar.
Yön alır hayana, tələsir güzar?
Külüng sözə baxmır, bel sözə baxmır.

Əqil də, kamal da azalır bir-bir,
Hamıya bəllidir, deyildir bu sirr.
İstər cərgəyə qoş, istərsə "buksir",
Dodaq sözə baxmır, dil sözə baxmır.

Qazanc əldən gedir, nəf də azalır,
Nəşə də, damaq da, kef də azalır.
Müftə də azalır, müf də azalır,
İnci sözə baxmır, ləl sözə baxmır.

Zəmanə bəd gəlir, bəd əsir külək,
Bürüyür dünyanı hiyləgər, tülək,
Hamı birbirinə hey gəlir kələk,
Dövran belə gedir, il sözə baxmır.

Böylə imiş bu həyatın qurğusu,
Cəmil Əkbər agah oldu doğrusu,
Çalışdım olmayım vicdan oğrusu,
Hünər də, zəfər də bil sözə baxmır.

***Cəmil Əkbər*** 8. 04 – 1990

## 93. SÖZÜNƏ BAXMIR

İnsan qocalanda nə hala düşür,
Öz əli-ayağı sözünə baxmır.
Qərq olur fikirə, xəyala düşür,
Öz kefi-damağı sözünə baxmır.

Ağrı gəzir kürəyində, dizlində,
Duman gəlir, tor görünür gözündə,
Hikmətlər olsada şirin sözündə,
Çalıb oynamağı sözünə baxmır.

Azalır həniri, səmiri, küyü,
Cəhrə də paslanıb, əyirmir iyi.
Qırılıb kirişi, saxlamır çüyü,
Kələfi, yumağı sözünə baxmır.

Azalır ağzında qalmayır dadı,
Yüksəlir göylərə ahı-fəryadı.
Gəlməyir qonağı, getməyir yadı,
Küsməyi, ummağı sözünə baxmır.

Atdığı güllələr hədəfə dəymir,
Hərdəfə yan gedir, bir dəfə dəymir,
İnciyə toxunub sədəfə dəymir,
Qalxanı, çomağı sözünə baxmır.

Ey Cəmil, qəm yemə, kefini çək sən,
Qazancını götür, nəfini çək sən,
Zurnanı üfülə, dəfini çək sən,
Neyləyək dimağı sözünə baxmır?

***Cəmil Əkbər*** 7. 07 -1983

## 94. BAXAN YOX

*I variant*

Nə deyəsən el-obaya, mahala,
Eşqə, anda, məhəbbətə baxan yox.
Qiymət yoxdur dərrakəyə, kamala,
Bacarığa, məharətə baxan yox.

Çoxları ilqara dönüklük edir,
Üz tutub həryana yönüklük edir,
Vicdanı, məsləki sönüklük edir,
Sədaqətə, səxavətə baxan yox.

Taytuşdan, çağdaşdan necə küsməyim?
Əllərimi ətəyindən kəsməyim?
Dağ başında tufan olub əsməyim?
İnsanlığa, ləyaqətə baxan yox.

Hayana baxırsan yalanla dolu,
Əqrəblə, iblislə, ilanla dolu.
Saralıb yanağı solanla dolu,
İnsaf, mürvət, kəramətə baxan yox.

Hiyləgər, dələduz, biclər çoxalıb,
Qanuna, qaydaya kəclər çoxalıb,
Sərsəri, kəmağıl, giclər çoxalıb,
Doğru-düzlük, həqiqətə baxan yox.

Bəşər oğlu cəhalətdə boğulur,
Kin-küdurət, ədavətdə boğulur,
Paxıllıqda, xəyanətdə boğulur,
Ədəb-ərkan, nəzakətə baxan yox.

Nə zamandan aralığı qatırlar,
Bəd iş tutub günahlara batırlar.
Vəzifəni ucuz-baha satırlar,
Şan-şöhrətə, şərafətə baxan yox.

Gör nəqədər haqq-nahaqdan ucaldı?
El-obadan qüvvət aldı, güc aldı,
Kişi kimi zəfər çalıb, bac aldı,
Qoçaqlığa, məharətə baxan yox.

Yaman gəlib yaxşılara pis deyir,
Bədxah deyir, zalım deyir, nəs deyir,
Çox eyləsən səsini də kəs deyir,
Nə hünərə, cəsarətə baxan yox.

Belə getsə dünya bizə dar olar,
Mərd ifgidlər gözdən düşər, xar olar.
Ahı-vaylar yer üzündə car olar,
Saf arzuya, pak niyyətə baxan yox.

***Cəmil Əkbər*** 11. 04 – 1998

## 95. BAXAN YOX

*II variant*

Deyirlər əyrilər qazanır müdam,
Doğruluğa, həqiqətə baxan yox.
Oğrular kök atıb uzanır müdam,
İnsanlığa, ləyaqətə baxan yox.

Hər yerdə kef çəkir əyri oğrular,
Baş açmır dünyadan düzlər, doğrular.
Orda-burda təkləyirlər, boğurlar,
Bacarığa, məharətə baxan yox.

Meydan verilibdi başıboşlara,
Vicdanı kəmlərə, qəlbi daşlara.
Filə hücum çəkən alabaşlara,
Şan-şöhrətə, şərafətə baxan yox.

Çalıb çapan qoparanlar qazanır,
Haram zülal çəkə bilən uzanır,
Canı çıxıb sozalanlar sozalır,
Sədaqətə, səxavətə baxan yox.

Abırsızlar, həyasızlar kef edir,
Əqidəsiz qayəsizlər kef edir,
Tər tökməyən havayıdan müf edir,
Ədəb ərkan nəzakətə baxan yox.

Səbr etməkdən üzülübdü canımız,
Korlanıbdı yerbəyerdən qanımız.
Çəkilibdi zülalımız, şanımız,
Dözüm, durum, dəyanətə baxan yox.

Cəmil Əkbər, gəl bu işə darılma,
Hər yetənə meyil salma, vurulma.
Öz yolundan sağa, sola burulma,
Saf arzuya, pak niyyətə baxan yox.

***Cəmil Əkbər*** 26. 01 – 1991

## 96. BİR BAX

Kimlər kimə yol göstərir?
Gərdişə bax, işə bir bax.
Sağ yerinə sol göstərir?
Ayağa bax, başa bir bax.

Bəşər oğlu nə gündədir?
Nə səs-səmir, nə ündədir?
Nə fəhimdə, nə zənddədir?
Qabağa bax, qaşa bir bax.

Kələf yaman dolaşıbdır,
Ağ qaraya bulaşıbdır,
İp ilməyə dolaşıbdır,
Fikir, xəyal, huşa bir bax.

O səmimi ülfət hanı?
Şirin-şəkər söhbət hanı?
İnsaf hanı, mürvət hanı?
Ürəklərdə daşa bir bax.

Zəhlələri tökənlərə,
Qəddimizi bükənlərə,
Dağıdana, sökənlərə,
Tamaha bax, dişə bir bax.

İnsanoğlu pozulubdu,
Doğru tərsə yozulubdu,
Xətir-hörmət azalıbdı,
Adətə, vərdişə bir bax.

Dediyini qanan hanı?
Haqqısayı anan hanı?
Böyük, kiçik sanan hanı?
Xəyalları çaşa bir bax.

Hərkəs dərdə qəmə düşüb,
Enib zildən, bəmə düşüb,
Əyər, əksik, kəmə düşüb,
Ömür-günə, yaşa bir bax.

Əzilləndən əzən çoxdur,
Səbr eyləyib dözən çoxdur.
Öz canından bezən çoxdur,
Zora bir bax, xoşa bir bax.

Birbirinə qəsd eyləyir,
İçməmişdən məst eyləyir.
Kimi-kimə dost eyləyir,
Taya bir bax, tuşa bir bax.

Nə deyəsən bu dövrana?
Bu zəvvara, bu karvana?
Yolgöstərən bu sarvana?
Yaza bir bax, qışa bir bax.

Gör kimlərdir kef eyləyən?
Çalıb-çapıb nəf eyləyən?
Yeyib-içib püf eyləyən?
Kababa bax, şişə bir bax.

Yaxşı pisə qarışıbdır,
Köpək qurdla barışıbdır,
Sürülərə sırışıbdır,
Yamaca bax, döşə bir bax.

Qazanan kim, yeyən kimdir?
Düzəldən kim, əyən kimdir?
Gözlərini döyən kimdir?
Arağa bax, xaşa bir bax.

Bişirən kim, düşürən kim?
Ötürən kim, döşürən kim?
Qusan kimdir, sinirən kim?
Dolmaya bax, aşa bir bax.

Kim itirir, kimsə tapır,
Kim yayınır, kimsə sapır,
Kimlər isə göydə qapır,
Cəsədə bax, leşə bir bax.

Yeyib, içib məzələnən,
Çuval kimi közələnən,
Yumaq kimi çözələnən
Kəlləsi bomboşa bir bax.

El dərdini çəkən Cəmil,
Qamətini bükən Cəmil,
Gözyaşını tökən Cəmil,
Kotana bax, xışa bir bax.

***Cəmil Əkbər*** 3. 04 – 1999

## 97. BİR BAX

Nə deyim zamanın kəc gərdişinə?
Bəd gələn aylara, illərə bir bax.
Hiyləgər, dələduz, bic vərdişinə,
Qədirsiz, qiymətsiz lələrə bir bax.

Hərə bir diyarda gəzib dolanır,
Canından usanıb bezib dolanır.
Tablaşıb birtəhər dözüb dolanır,
Solan qərənfilə, güllərə bir bax.

Bir nəzər yetirin siz bu yerlərə,
Sahibsiz kimsələr, hünərvərlərə,
İgiddən törəyən bu ərənlərə,
Sonasız mat qalan göllərə bir bax.

Göynədir qəlbimi kamanın səsi,
Ahların, nalənin, amanın səsi.
Nəyaman bəd gəlir zamanın səsi?
Könüldə inləyən tellərə bir bax.

Haçandan bəridir ayılmır bəşər,
Yol gedə bilməyir xeyir ilə şər,
İncidir qəlbimi müdam, sərbəsər,
Enişli-oxuşlu zillərə bir bax.

Nəyaman çoxalıb Allah, şəhidlər,
Canlı müqəvvalar, diri meyidlər,
Hər tərəfdə gördüm molla, seyidlər,
Məzara qərq olan çöllərə bir bax.

Nanəcib, namərdlər, naqislər artıb,
Paxıllar, xainlər, xəbislər artıb,
Şərəfsiz, şöhrətsiz varislər artıb,
Alabaş "çəmkirən" fillərə bir bax.

Ədalətlər, həqiqətlər boğulur,
Ədəb-ərkan, nəzakətlər boğulur,
Hərgün yeni cinayətlər doğulur,
Susan daş ürəyə, dllərə bir bax.

İblislər, şeytanlar ara qatırlar,
Dağıdıb, talayıb vara çatırlar.
"Kamil bağban" olub bara çatırlar,
Fitnəyə, fəsada, fellərə bir bax.

İnsanın-insana hiddəti artır,
Kini-küdurəti, nifrəti artır.
Əzab-əziyyəti, zilləti artır,
Bəd əsən tufana, yellərə bir bax.

Könülümün dəryası səddini aşır,
Sığmır məcrasına daşır, hey daşır.
Baxdıqca insanın əqli dolaşır,
Ümmana, daşqına, sellərə bir bax.

Dinləyin biranlıq Cəmil Əkbəri,
Yazdı bu naməni verdi xəbəri.
İstədi ayıltsın məzlum bəşəri,
Korlara, karlara, lallara bir bax.

***Cəmil Əkbər*** 18. 07 – 1995

## 98. BAX

Dövranımız, zəmanəmiz belədir,
Verənə bax, alana bax, alana.
Bacarmayan əzəl gündən kölədir,
Aşıb-daşan kalana bax, kalana.

Meydan açır hiyləgərlər, yaltaqlar,
Kəndirbazlar, hoqqabazlar, şıltaqlar,
El malına qənim çıxan ortaqlar,
Sabınlanıb girənə bax, girənə.

Var tapıblar, hal tapıblar oğrular,
Nömrə tapıb, xal tapıblar oğrular,
Hərbir yana yol tapıblar oğrular,
Harınlaşıb dolana bax, dolana.

Kef çəkirlər, nəf çəkirlər əyrilər,
Deyən yoxdur səhv çəkirlər əyrilər.
Xərc qoymadan müf çəkirlər əyrilər,
Sağ-salamat qalana bax, qalana.

Damarlara sırışıbdır zəlilər,
Əqli-kəmlər, sərsərilər, dəlilər.
Nəvecinə gora gedir ölülər,
Əzrailsiz ölənə bax, ölənə.

Güc verilir peysərlərə, qarına,
Həyasıza, abırsıza, harına.
Qulluq artıb, xanımına, yarına,
Saralana, solana bax, solana.

Qarpız, qovun, yemişini satan var,
Süpürgəni, qəmişini satan var.
Qızılını, gümüşünü satan var,
Ağlayana, gülənə bax, gülənə.

Meydan açıb saxtakarlar nər kimi,
Dolanırlar, kişi kimi, ər kimi.
İşə düşüb inci kimi, zər kimi,
Gözgörəti yalana bax, yalana.

Qənim çıxıb canavarlar qoyuna,
Qalan yoxdur məzlumların hayına.
Heç baxan yox matəminə, vayına,
Pay-püş olan talana bax, talana.

Oğulsansa sən də belə kef eylə,
Gəlir topla, qazanc götür, nəf eylə.
Ehtiyacı, yoxsulluğu məhv eylə,
Hırıldayıb gülənə bax, gülənə.

Həyasızlar eşələnib, ağnayıb,
Bulaq kimi poqquldayıb, qaynayıb.
Zəmanənin havasına oynayıb,
“Bağdaduru” çalana bax, çalana.

***Cəmil Əkbər*** 16. 07 - 1988

## 99. BAX

Hiyləgərlər sadəlövhü aldadır,
Tərəzisi daşına bax, daşına.
Elə sanır yedikləri bal dadır,
Qana batmış dişinə bax, dişinə.

Astarı başqadır, üzü başqadır,
Söhbəti saxtadır, sözü başqadır,
Baxışı, nəzəri, gözü başqadır,
Əməlinə, işinə bax, işinə.

Namərdoğlu mərd igidə pis deyir,
Zalım deyir, bədxah deyir, nəs deyir.
Danışmayın, səsinizi kəs deyir,
Fikir, xəyal, huşuna bax, huşuna.

Kimlərlə oturur, kimlərlə durur?
Kimlərlə yaradır, kimlərlə qurur?
Çalışıb vuruşur, özünü yorur,
Tayına bax, tuşuna bax, tuşuna.

Şər-böhtan danışıb, aranı qatır,
Xalqın hüzurunda günaha batır.
Vətən torpağını gavura satır,
Torpağına, daşına bax, daşına.

Haçandır bəşərə verməyir xeyir,
Düzünü deyəndə xətrinə dəyir.
Əlinə keçəni döşürüb yeyir,
Kababına şişinə bax, şişinə.

Sanır ki, dünyanın yiyəsidir o,
Ağzına gələni deyəsidir o.
Bəzənib, düzənib geyəsidir o,
Üzüyünə, qaşına bax, qaşına.

Anadan olandan belə gün görüb,
Səs-küylər çıxarıb, belə ün görüb.
Beylə güzar edib, beylə yön görüb,
Ömür-günə, yaşına bax, yaşına.

Elləri, obanı çapıb dolanır,
Özünə qəsrlər yapıb dolanır.
Xətadan, bəladan sapıb dolanır,
Qabağına, qaşına bax qaşına.

Baxıb əməlinə utanıb ölmür,
Haçandır gözündən dumanı silmir.
Nəqədər deyirsən anlamır, bilmir,
Qüruruna, döşünə bax, döşünə.

El-obanın nifrətini qazanıb,
Qəzəbini, hiddətini qazanıb.
Qəhərini, küdrətini qazanıb,
Ayağına, başına bax, başına.

***Cəmil Əkbər*** 10. 05 -1999

## 100. QƏLBİMİZİN FƏRQİ

Mənim qəlbimdəki məhəbbətdisə,
Sənin qəlbindəki küdurətə bax.
Mənim qəlbimdəki sədaqətdisə,
Sənin qəlbindəki xəyanətə bax.

Mənim qəlbimdəki ədalətdisə,
Doğruluq, düzgünlük, həqiqətdisə,
İnsanlıq naminə ləyaqətdisə,
Sənin qəlbindəki zərafətə bax.

Mənim qəlbimdəki nəzakətdisə,
Zəriflik, incəlik, məlahətdisə.
Nəcib arzu-istək, xoş niyyətdisə,
Sənin qəlbindəki cəhalətə bax.

Mənim qəlbimdəki güllü-çiçəksə,
Açılmış qönçədən ləçək-ləçəksə.
Hamsı birbirindən gözəl-göyçəksə,
Sənin qəlbindəki üfunətə bax.

Mənim qəlbimdəki bar ağacıdır,
Namus ağacıdır, ar ağacıdır,
Yaşamaq, yaratmaq, var ağacıdır,
Sənin qəlbindəki xəsarətə bax.

Mənim qəlbimdəki ənaətdisə,
Xudadan bəxş olan əmanətdisə,
Ehtiram, etiqat, zəmanətdisə,
Sənin qəlbindəki kəsafətə bax.

Mənim qəlbimdəki kəramətdisə,
Ədəbsə, ərkansa, mərifətdisə,
Ünsiyyət-ülfətdə hərarətdisə,
Sənin qəlbindəki ədavətə bax.

Mənim qəlbimdəki fəzilətdisə,
İnsansa, bəşərsə, cəmiyyətdisə,
Ülviyyət, qüdsiyyət, keyfiyyətdisə,
Sənin qəlbindəki pis adətə bax.

***Cəmil Əkbər*** 16. 06 – 1992

## 101. ZƏMANƏYƏ BAX

Nə deyirsən alan yoxdur vecinə,
Zəmanənin işinə bax, işinə.
Dərdi çəkib salan yoxdur içinə,
Zəmanənin guşinə bax, guşinə.

Böyük-kiçik pəsinənlər qalmayıb,
Eli sayıb ürpənənlər qalmayıb.
Diksinənlər, səksənənlər qalmayıb,
Zəmanənin daşına bax, daşına.

Dövran keçir gör haçandan belədir?
Qanan kəslər qanmazlara kölədir.
Əllərində əyirməyə pilədir,
Zəmanənin başına bax, başına.

Mərd igidlər kor qəpiyə satılır,
Yaxşı-yaman birbirinə qatılır.
Süpürülüb zibil kimi atılır,
Zəmanənin qaşına bax, qaşına.

Bilən yoxdur insanoğlu nə çəkir?
Nə şumlayıb, nə becərib, nə əkir?
Nə axıdır, nə doldurur, nə tökür?
Zəmanənin xışına bax, xışına.

Ürəklərdə gör nəqədər kin yatır?
Şeytan yatır, iblis yatır, cin yatır?
Neçə-neçə məzhəb yatır, din yatır?
Zəmanənin döşünə bax, döşünə.

Ünsiyyətlər gör nəqədər sərt keçir,
Ürəklərdən qüssə keçir, dərd keçir.
Mərd igidin ovqatları pərt keçir,
Zəmanənin qışına bax, qışına.

***Cəmil Əkbər***

## 102. BAX

İlqara-imana dönük nə çoxdur?
Abırsız, həyasız üzə bax, üzə.
Hər səmtə üz tutan yönük nə çoxdur?
Yalana bürünən sözə bax, sözə.

Paxıllar, xainlər, xəbislər də var,
Nanəcib, naxələf, naqislər də var,
Hərcürə yaramaz, varislər də var,
Dolanbac keçidə, izə bax, izə.

Qəflətlər içində yatan oqədər,
Mərdləri-namərdə satan oqədər,
Şər deyib aranı qatan oqədər,
Əyrilər yanında düzə bax, düzə.

Fikirlər, xəyallar dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman.
Canavar qoyuna sırışıb yaman,
Baxışa, nəzərə, gözə bax, gözə.

Gitara, saqsafon meydan açıbdır,
Ozan sənətimiz hara qaçıbdır?
Toylarda görünmür, aşıq köçübdür,
Bəmdə inildəyən saza bax, saza.

Dünyanın nəqədər adamları var?
Cahil, sərsərisi, nadanları var?
Yolunu tərsinə adanları var?
Binamus oğula, qıza bax, qıza.

Zəmanə Cəmili yandırıb yaxır,
Korlayıb əsəbi, qəlbini sıxır,
Eləbil başında şimşəklər çaxır,
Enişə, yoxuşa, düzə bax, düzə.

***Cəmil Əkbər*** 30. 12 – 1997

## 103. BAX

Öz xalqını çalıb-çapıb soyanın,
Fikrinə bax, başına bax, başına.
Sitəm edib, pis günlərə qoyanın,
Xəyalına, huşuna bax huşuna.

Bədəsilin, nanəcibin, naqisin,
Bədniyyətin, naxələfin, xəbisin,
Tamahkirin, acgözlərin, hərisin,
Süfrəsinə, aşına bax aşına.

Sərsərinin, dəngəsərin, giclərin,
Hiyləgərin, dələduzun, biclərin,
İnsanlığa qənim çıxan öclərin,
Vücuduna, leşinə bax, leşinə.

Addımını əyri yola atanın,
Bəd söz deyib, aralığı qatanın,
Onun-bunun kölgəsində yatanın,
Baş-gözünə, qaşına bax, qaşına.

Ədalətdən, həqiqətdən deyənin,
Az işləyib, harın-harın yeyənin,
Oğrun-oğrun, altdan-altdan əyənin,
Sözünə bax, işinə bax, işinə.

Həyasızın, sırtıqların, naqqalın,
Möhtəkirin, alverçinin, baqqalın,
Hinə girən, tülkülərin, çaqqalın,
İncisinə, daşına bax, daşına.

Xeyir verməz, yaramazın, karsızın,
Abırsızın, həyasızın, arsızın,
Söyüd kimi, ulğun kimi barsızın,
Ömrünə bax, yaşına bax, yaşına.

Ellərin dərdini çəkməyənlərin,
Axıdıb gözyaşı tökməyənlərin,
Yerini becərib, əkməyənlərin,
Kotanına, xışına bax, xışına

Şər danışıb aralığı qatanın,
İnsafını, mürvətini satanın,
Min sifətlə məqsədinə çatanın,
Baharına, qışına bax, qışına.

El varıyla aşıb-daşan gədənin,
Yeyib-içən, harınlaşan gədənin,
Peysər tutub, qarınlaşan gədənin,
Sədasına, guşinə bax, guşinə.

Hiyləgərin, dələduzun, yaltağın,
Təlxək kimi, kəndirbazın, şıltağın,
El malına şərik çıxan ortağın,
Yaxasına, döşünə bax, döşünə.

Sürülərə qənim çıxan qurdların,
Qan qaraldıb, ürək sıxan qurdların.
İçdən yeyib, gendən baxan qurdların,
Tamahına, dişinə bax, dişinə.

Elləri, obanı bezdirənlərin,
Salıb əzabına dözdürənlərin,
Vurub iliyini üzdürənlərin,
Zoruna bax, xoşuna bax, xoşuna.

Xeyrə-şərə yaramayan heyvanın,
Dərd-qəm çəkib, zarımayan heyvanın,
Vicdan, məslək aramayan heyvanın,
Dırnağına, xaşına bax, xaşına.

Çaylar vəcdə gəlib daşan zamanda,
Həddi-hüdudunu aşan zamanda,
Sərkərdə yanılıb çaşan zamanda,
Şil-küt olan qoşuna bax, qoşuna.

***Cəmil Əkbər*** 20. 07 -1987

## 104. BAX-BAX

Sən düz görməmisən ayrım Tağını,
Ondakı idraka, kamala bax-bax.
Ala bilməmisən düz sorağını,
Ondakı marama, amala bax-bax.

Kürün kölgəsində gözdəmə onu,
Söküb ilməsini çözdəmə onu.
Bosdan urasıtək üzdəmə onu,
Nurlu çöhrəsinə, camala bax-bax.

Onun babasıdır Misgin Abdalım,
Cahillər əlindən küsgün Abdalım.
Yağdırar başına çisgin, Abdalım,
Ondakı mənaya cəlala bax-bax.

Dəymisən qəlbinə Misgin Vəlinin,
O söz sərrafının, inci ləlinin.
Şeir dünyasının qoca kəlinin,
Səndəki xülyaya, zavala bax-bax.

Tağının qəlbində mənalar yatır,
Hələ kəşf olmamış dünyalar yatır.
Fikir, düşüncələr, röyalar yatır,
Səndəki gicbəsər xəyala bax-bax.

Alimin fikiri el dolandırır,
Bağlar yetişdirir, gül dolandırır.
Əsr yola salır, il dolandırır,
Nəinki sənintək kahala bax-bax.

Anan da sevmişdi ayrım Tağını,
Əridib şam edib ürək yağını.
Bəsləyibdi məhəbbətin bağını,
O abır-həyaya, vüsala bax-bax.

Sən yazan Tağılar burada deyil,
Nə evdə, eşikdə, arada deyil.
Sən deyən cərgədə, sırada deyil,
Saldığın qovğaya, o qala bax-bax.

Tağı dərs alıbdır öz ustadından,
Fəhmin, fərasətin düz ustadından,
Əlli ustadından, yüz ustadından,
Satdığın doşaba, o bala bax-bax.

Salmısan araya qal-qovğa, dava,
Sərsəri, kəmağıl, gicbəsər yava.
Ruhuma yatmayır çaldığın hava,
Tutduğun zurnaya, qavala bax-bax.

Yazdığın əsərin nədir səməri?
Nədir oxuyana xeyri, bəhəri?
Odurki alırsan beylə nəməri,
Sənə nifrət edən ahala bax-bax.

Sən böhtan demisən Tağı adına,
Yaxınına, uzağına, yadına.
Baxmamısan yazdığının dadına,
Elə sırıdığın o kala bax-bax.

Adam unudarmı heç haqqısayı?
Yediyi, içdiyi sovqatı, payı.
Unutsa deyərlər: "A qanmaz ayı",
İçdiyin hörrəyə, o yala bax-bax.

Yazdığın kitabı oxudum mən də,
Salmısan qəlbimi hiddətə, bəndə.
Düşmüsən nifrətdən yaman kəməndə,
Çaldığın avaza, o vala bax-bax.

Adam da elinə lağ edərmi heç?
Buqədər şər deyib ağ edərmi heç?
Milçəyi böyüdüb dağ edərmi heç?
Düşdüyün sevdaya, xəyala bax-bax.

Yolunu, izini azmısan ayə,
Haqqı, həqiqəti yozmusan ayə.
Özünə quyunu qazmısan ayə,
Saldığın cığıra, o yola bax-bax.

Bizdəki Tağılar elə deyildir,
Dastanlar, nağıllar elə deyildir.
Bayatı, ağılar elə deyildir,
Düşdüyün təhərə, minvla bax-bax.

Kamil alim fitnə-fəsad danışmaz,
İtirib əqlini kasad danışmaz.
Salıb aralığa cihad danışmaz,
Getdiyin fitnəyə o felə bax-bax.

Bərəkallah işlətmisən fəndini,
Bəzəmisən Qaramurad kəndini.
Məzəmmətdən açammazsan qəddini,
Yediyin, çörəyə, qoğala bax-bax.

Tağı övladıdır zəmanəsinin,
Oxuyub dərk eylə al naməsini.
Tarixə həkk olan salnaməsini,
Verilən cavaba suala bax-bax.

***Cəmil Əkbər*** 1983

## 105. BAX-BAX

Dövrü-zəmanəyə meydan oxuyan,
Cahil, sərsəriyə, nadana bax-bax.
Hiylə, məkr əriş-arğac toxuyan,
Təlimdən yarımçıq dadana bax-bax.

Əhdini, peymanı pozan çoxalıb,
Şər-böhtan danışıb, yazan çoxalıb.
Ayaqlar altından qazan çoxalıb,
Yolunu tərsinə adana bax-bax.

Dünənki hörmətlər yaddaşda qalmır,
Ötəri həmkar da, yoldaş da qalmır,
Sirdaş da, taytuş da, çağdaş da qalmır,
Haqqısay itirib, udana bax-bax.

Deməklə, yazmaqla qanan kimdiki?
Böyüyü-kiçiyi sanan kimdiki?
Axtarıb, arayıb, anan kimdiki?
Dünyadan bixəbər qabana bax-bax.

Könüllər mülkündə izi qalmayan,
Dillərdə, dodaqda sözü qalmayan,
Ellərə çıxmağa üzü qalmayan,
Nabələd naxırçı, çobana bax-bax.

Bəşərin övladı zülmətə düşüb,
Əzab-əziyyət, zillətə düşüb,
Min bir dərd-bəlaya, hillətə düşüb,
Ahala, cahala, cavana bax-bax.

Danışıb sözünü düz deyən yoxdu,
Məqamı çatanda tez deyən yoxdu.
Hədəfə tuşlanan söz deyən yoxdu,
Hiyləgər, dələduz zəbana bax-bax.

Tutulub qaşqabaq, açılmır eyin,
İstər asta danış, istərsə yeyin,
Nəyaman kütləşib, keyləşib beyin?
Könüllər mülkündə, dumana bax-bax.

Dünən can alanlar, bugün can verir,
Qansoran zəlilər bugün qan verir.
Düşüb eşq-həvəsdən, pərişan verir,
Hökmü-qərara bax, divana bax-bax.

Cəhalət içində qalıb inləmə,
Fikirə, xəyala dalıb inləmə,
“Kərəmi”, “Dilqəmi” çalıb inləmə,
Aləmi seyrə çıx, cahana bax-bax.

Könüllər diyarı qəmə köklənib,
Zildən pəsə düşüb, bəmə köklənib,
Gözlərin didəsi nəmə köklənib,
Aha, naləyə bax, amana bax-bax.

Haçandan bəridir kəsilmir dava,
Zəhərə qarışır tərtəmiz hava,
Bəd işdən əl çəkib deyən yox tova,
İnləyən, sızlayan kamana bax-bax.

Cəmil Əkbər, el-obanı gəz, dolan,
Yorulmaynan, ərinməynən, döz dolan,
Fikirdə, xəyalda çaşma düz dolan,
Şirvana, Milə bax, Muğana bax-bax.

***Cəmil Əkbər*** 14.12. – 1995

## 106. BAX-BAX

Ali məclislərdə insan donunda,
Yurd salıb, yer tutub qalana bax-bax.
Zülal yoxdur, şərbət yoxdur şanında,
Düşüncə, xəyala dalana bax-bax.

Nə eldən ar edir, nə obasından,
Nə yurddan, yurddaşdan, nə yuvasından,
Qulaqlar tutulan nağarasından,
Üfürüb zurnanı çalana bax-bax.

Süpürüb döşürən elin malından,
Sütülündən, dəymişindən, kalından.
Hər nazı-nemətin, küllü-varından,
Közənib, tıxanıb dolana bax-bax.

Öz xalqını qoyun kimi soyana,
Yeyib-içib məsd olana, doyana,
Məzlumları ağlar gözlü qoyana,
Dövləti, sərvəti olana bax-bax.

Əzən yoxdur zalımların başını,
Çatan yoxdur qabağını, qaşını.
Atan yoxdur birdəfəlik daşını,
Əqrəbə-iblisə, ilana bax-bax.

Haqqın yollarını azan çoxalıb,
Ülfət-ünsiyyəti pozan çoxalıb,
Doğrunu tərsinə yozan çoxalıb,
Dölməyə, döngəyə, dalana bax-bax.

Hərə bir biçimdə, hərə bir donda,
Bilən yox insanlıq ondadır, bunda?
Hərə bir damarda, hərə bir qanda,
Saxta müqəvvaya, yalana bax-bax.

Birisi qəm çəkir, biri kef çəkir,
Birisi tər tökür, biri müf çəkir.
Birisi düz dartır, biri səhv çəkir,
Dərdləyib, saralıb solana bax-bax.

Ziddiyyət içində bəşər boğulur,
Birisi məhv olur, biri doğulur.
Birisi sulanır, biri soğulur,
Keçmiş günü yada salana bax-bax.

Yanan yoxdur bezənlərin halına,
Canlarını üzənlərin halına,
Cəmil yanır dözənlərin halına,
Qazanıb verməmiş alana bax-bax.

***Cəmil Əkbər*** 14. 02 - 1992

## 107. BAXMAZDIM

Bilmədim qəlbində kinini sənin,
Yoxsa sənin üzünə də baxmazdım.
Başında dolanan cinini sənin,
Üzün nədir, gözünə də baxmazdım.

Tanıya bilmədim ləyaqətini,
Səxanı, vəfanı, kəramətini,
İnsafı, mürvəti, mərhəmətini,
Yoluna da, izinə də baxmazdım.

Bilib anlamazdım məharətini,
Odunu, közünü hərarətini,
İnsanlıq naminə şərafətini,
Söhbətinə, sözünə də baxmazdım.

Sənin ilə oturmazdım, durmazdım,
Nə özümü, nə də səni yormazdım,
Nə kef-əhval, halını da sormazdım,
Torbana da, duzuna da baxmazdım.

Aldanmazdım qamətinə, boyuna,
Nə gəlməzdim, düyününə, toyuna,
Heç getməzdim xeyir-şərə, vayına,
Oğluna da, qızına da baxmazdım.

Sığınmazdım nə istinə, oduna,
Qohumuna, qardaşına, yadına,
Loğmanına, dərmanına, yoduna,
Oduna da, közünə də baxmazdım.

Sənin ilə mən sevdaya gəlməzdim,
Nə saraya, nə tövləyə gəlməzdim.
Nə kələyə, nə hiyləyə gəlməzdim,
Nə çoxuna, azına da baxmazdım.

Oynamazdım sən çaldığın havaya,
Rast gəlməzdim həngaməyə, davaya,
Həyəcana, nə təlaşa, qovğaya,
Tarına da, sazına da baxmazdım.

***Cəmil Əkbər*** 17. 01 - 1989

## 108. EL GÖZÜYLƏ BAX

İstəsən düz görüb, düz eşidəsən,
Zəhmət çək özünə, el gözüylə bax.
Bir əkib, becərib, yüz götürəsən,
Yoluna, izinə el gözüylə bax.

Car olub düşəsən dilə, dəhana,
Yaraşıq olasan külli-cahana,
Səndən də xalqına qala nişana,
İşinə, sözünə, el gözüylə bax.

Ədəblə xidmət et, bezdirmə xalqı,
Əzab-əziyyətə dözdürmə xalqı,
Dağları, daşları gəzdirmə xalqı,
Ərkinə-nazına el gözüylə bax.

Gözlə hüdudunu ağ eyləməynən,
Nisyəni cəm edib, dağ eyləməynən,
Nəşəni kefini, çağ eyləməynən,
Ağına-bozuna el gözüylə bax.

Qurtarar benzinin xoddan düşərsən,
Löyündən çıxarsan, moddan düşərsən,
Zehindən silinib, yaddan düşərsən,
Qışına, yazına el gözüylə bax.

Həyatda hərkəsin öz izi qalır,
Öz işi, əməli, öz sözü qalır,
Öz dadı, öz tamı, öz duzu qalır,
Dadına, duzuna el gözüylə bax.

Hərkəsin öz hökmü, öz əmri vardır,
Öz səsi, öz küyü, öz səmri vardır,
Alovu, istisi, öz hənri vardır,
Oduna, közünə el gözüylə bax.

Sanma ki, hamıdan ədalətlisən?
İlqarlı, vəfalı, sədaqətlisən?
Sağlam arzulusan, saf niyyətlisən?
Əyrinə, düzünə el gözüylə bax.

Deyirlər el gözü mizan tərəzi,
Yoxdu kimsələrdə qəsdi-qərəzi,
İstər narazı qal, istərsə razı,
Oxu, avazına el gözüylə bax.

Demə ki, öz gözüm bəs eylər mənə,
Öz odum, öz közüm bəs eylər mənə.
Öz oğlum, öz qızım bəs eylər mənə,
Oğluna, qızına el gözüylə bax.

Demə dərə xəlvət, mən də ki, bəyəm,
Əjdaha, begemont, ya da ki, döyəm,
Lap ərşi-əlayam, səmayam, göyəm,
Qışına, yazına el gözilə bax.

Sahibəm dünyaya, Ağanəzərəm,
Belə dolanaram, elə gəzərəm,
Çəkib xirtdəyini kökdən üzərəm,
Qoluna, dizinə el gözilə bax.

Deməki dağ mənəm, aran mənimdir,
Çəkirəm kef-damaq dövran mənimdir,
Seyrinə çıxdığım həryan mənimdir,
Əllinə, yüzünə el gözüylə bax.

Demə dərə xəlvət, mən də ki, bəyəm,
Dünya dağılsada binadan keyəm.
Çalmaqla ötmənəm, bir qırıq neyəm,
Meydanda tozuna el gözüylə bax.

Sanmaki hamıdan qüdrətli sənsən,
Cəsarətli sənsən, cürətli sənsən,
Uçursan yel kimi, sürətli sənsən,
Çoxuna, azına el gözüylə bax.

Demə bülbültəki oxuyan mənəm,
Gül kimi açılan, qoxuyan mənəm,
Məhəbbət xalısın toxuyan mənəm,
Çaldığın sazına el gözüylə bax.

Deməki hamıya sözüm xoş gəlir,
Baxışım xoş gəlir, gözüm xoş gəlir,
Astarım xoş gəlir, üzüm xoş gəlir,
Astarı, üzünə el gözüylə bax.

Ay Cəmil demə ki, hikmət məndədir,
İnci xəzinəsi, sərvət məndədir,
Sərrafım tapılmır, qiymət məndədir,
Yazına, pozuna el gözüylə bax.

***Cəmil Əkbər*** 8. 11 - 1985

## 109. BAXSIN

Bilmirəm heçnədəndeyim, danışım?
Eşidib dinləyən dilimə baxsın.
Bəd gələn zamanla necə barışım?
Gör nələr çəkirik, elimə baxsın.

Gözəl diyarımız parça-paradır,
Taleyi bəd gəlib, bəxti qaradır.
Düşübdür cəncələ, yaman haldadır,
Yanıb yaxılıram, külümə baxsın.

Gör nələr çəkirik cəhalətdə biz?
Ünsiyyət, ülfətdə, qəbahətdə biz?
Qərəzdə, qisasda, xəyanətdə biz?
Bəşərin düşdüyü zülümə baxsın.

Hayana baxırsan qəm içindədir,
Əyərlər, əksiklər, kəm içindədir.
Gözlərin didəsi nəm içindədir,
Bəmdə inildəyən zilimə baxsın.

Eşidib bilənin halı pis olur,
Çoxalıb qovğası, qalı pis olur.
Tirməsi pis olur, şalı pis olur,
Xəzana qərq olan gülümə baxsın.

İnsan birbirindən aralı gəzir,
Şəklənib, xoflanıb qaralı gəzir.
Oralı axtarıb, buralı gəzir,
Şirvana, Muğana, Milimə baxsın.

Baxdıqca insanın xəyalı çaşır.
Qəzəblər kükrəyir, həddini aşır,
Dərdləyib ürəklər, gözyaşı axır,
Dəryaya bənzəyən gölümə baxsın.

Dünyanın kələfi dolaşıb yaman,
İpi ilməsinə culaşıb yaman,
Ağı qarasına qarışıb yaman,
Vaxtsız şəhidlərə, ölümə baxsın.

Nə zaman gəlibdir ay Cəmil Əkbər?
Çoxalıb həryanda qüssə, qəm, kədər,
Çürüyüb, əriyir ömür-gün hədər,
Ötən aya günə, ilimə baxsın.

***Cəmil Əkbər*** 15. 05 – 1998

## 110. BAXIŞLAR

Adi baxışın da öz dili vardır,
Kim deyir, danışmır, laldı baxışlar?
Anlayan kəslərə yüz dili vardır,
Dəymişdi, sütüldü, kaldı baxışlar.

Can verir, can alır o alagözlər,
Qələmqaş altında piyalə gözlər,
Salıbdır gör məni nə hala gözlər?
Eləbil qovğadı, qaldı baxışlar.

Kimisi zərifdir, məlahətlidir,
Hatəm təbiətli, səxavətlidir,
İnsaflı, mürvətli, kəramətlidir,
Eləbil zülaldı, baldı baxışlar.

Qəlbimdə əbədi izi qalıbdır,
Dilimdə söhbəti, sözü qalıbdır,
Sönməyən məşəli, közü qalıbdır,
Əbədi yadigar qaldı baxışlar.

Onun hərbirindən bezməmişəm mən,
Hayıf ki, nazına dözməmişəm mən,
Yaxından duymayıb, sezməmişəm mən,
Əqlimi başımdan aldı baxışlar.

Əfsuski çoxları kama yetmədi,
Dəhanı, dodağı tama yetmədi,
Nahara çatmadı, şama yetmədi,
Xəzana qərq oldu, soldu baxışlar.

Nəqədər mətləbə çata bilmədi?
Möhnəti üstündən ata bilmədi.
Yeridi, yürüdü, tuta bilmədi,
Düşüb xəyallara daldı baxışlar.

Dərdini anlayıb qanan olmadı,
Alışıb oduna yanan olmadı,
Hər eşqin sahibi, Sənan olmadı,
Buludtək qaraldı, doldu baxışlar.

Eləki istəyi sazağa düşdü,
Mətləbdən ayrılıb uzağa düşdü.
Aldandı qarğatək, duzağa düşdü,
Dartıb saçlarını, yoldu baxışlar.

Çoxları bu dərdə dözə bilmədi,
Eşqin ümmanında üzə bilmədi.
Bir ləzzət anlayıb məzə bilmədi,
Dəryatək boşaldı, doldu baxışlar.

Ha baxdı, boylandı, doya bilmədi,
Həsrəti kənara qoya bilmədi,
Günahı, savabı yuya bilmədi,
Arzusu, istəyi boldu baxışlar.

Nəqədər baqidir olacaq bəşər,
Gedəcək, gələcək, qalacaq bəşər,
Bir yandan boşalıb dolacaq bəşər,
Gəlimli-gedimli yoldu baxışlar.

Cəmilin qəlbində yeri qalacaq,
İncisi, sədəfi, zəri qalacaq.
Açandöy heçkəsə, sirri qalacaq,
Məni kəməndinə saldı baxışlar.

***Cəmil Əkbər*** 30.03 – 1991

## 111. BAXILMIR

Zəmanə bəd gəlib Allah amandır,
Doğru-düzlük, həqiqətə baxılmır.
Əhlihal insanın halı yamandır,
İnsanlığa, ləyaqətə baxılmır.

Alan-almağında, satan-satmaqda,
Qovan-qovmağında, tutan-tutmaqda,
Aranı-bərəni qatan-qatmaqda,
Giley-güzar, şikayətə baxılmır.

Dağıdan-dağıdır, sökənlər-sökür,
Bezdirib zəhlələr tökənlər-tökür.
Kefləri-damağı çəkənlər-çəkir,
Törədilən qəbahətə baxılmır.

İnciyən-inciyir, bezənlər-bezir,
Avara dolanıb gəzənlər-gəzir,
Əzab-əziyyətə dözənlər-dözür,
İşgəncəyə, müsibətə baxılmır.

Sahibi-iqtidar kef içindədir,
Gəliri-çıxarı müf içindədir,
Dolaşıb kələfi səhv içindədir,
Küdurətə, ədavətə baxılmır.

Vurulan-vurulur, vuranlar-vurur,
Yıxılan-yıxılır, duranlar-durur.
Zəlitək qanları soranlar-sorur,
Qəsd-qərəzə, xəyanətə baxılmır.

Qazanan-qazanır, yeyənlər-yeyir,
Dağıdan-talayan, əyənlər-əyir,
Toxunub qəlblərə dəyənlər-dəyir,
Xəta-bəla, cinayətə baxılmır.

Etibar, etiqad, inam azalıb,
Peyğəmbər tükənib, imam azalıb,
Xətirdən-hörmətdən ənam azalıb,
Car çəkilən bəyanətə baxılmır.

Haqdan-ədalətdən danışsan da sən,
Sağlam fikirlərə qarışsan da sən,
İnciyib-küssən də, barışsan da sən,
İnsaf-mürvət, kəramətə baxılmır.

İlqara-imana dönüklər artıb,
Kamal sahibinə əniklər artıb.
Vicdana-məsləkə sönüklər artıb,
Sədaqətə, səxavətə baxılmır.

Könüllər mülkündə hiddət çoxalıb,
Qəzəblər çoxalıb, nifrət çoxalıb,
Dərd-azar çoxalıb, zillət çoxalıb,
Ülvi-istək, məhəbbətə baxılmır.

Kim necə istəyir, elə də gəzir,
Elə dərk eyləyib, elə də sezir,
Elə qəvvas olub, elə də üzür,
Ədəb-ərkan, nəzakətə baxılmır.

Deyib-danışmaqla söz eşidilmir,
Çatıb qulaqlara düz eşidilmir.
Ləngiyib-gecikir, tez eşidilmir,
Avamlığa-cəhalətə baxılmır.

Puldu kəsən cığırları, yolları,
Qandalladan biləkləri-qolları,
İşə salan bakirəni, dulları,
Bacarığa, məharətə baxılmır.

Dayısı olanlar başa çəkilir,
Üzüyə salınır, qaşa çəkilir.
Yağlı vəzifəyə, işə çəkilir,
Fərasətə, məharətə baxılmır.

Meydan verilibdir həyasızlara,
Vicdansız, məsləksiz, qayəsizlərə.
Təlimdən kəm-kəsir, dayəsizlərə,
Din-məzhəbə, ibadətə baxılmır.

Saralan-saralır, solanlar-solur,
Fikirə, xəyala dalanlar-dalır,
Əl-ayaq altında qalanlar-dalır,
Xeyirxahlıq, fəzilətə baxılmır.

Düz getməyib, azan çoxdu yolunu,
Eşələyib, qazan çoxdu yolunu.
Qaralayıb, pozan çoxdu yolunu,
Quran-kitab, şəriətə baxılmır.

Zəmanə belədir ay Cəmil Əkbər,
Aqillər kölədir ay Cəmil Əkbər,
Gədələr lələdir ay Cəmil Əkbər,
Daha öyüd-nəsihətə baxılmır.

***Cəmil Əkbər*** 26. 10 – 1995

## 112. BELƏ GÖRMƏDİK

İnsandan-insana hörmət olubdu,
Biz elə görmüşük, belə görmədik.
Sədaqət, səxavət, mürvət olubdu,
Biz elə görmüşük, belə görmədik.

Ağa-ağ deyildi, qaraya-qara,
Sağa-sağ deyildi, yaraya-yara,
Tama-tam deyildi, paraya-para,
Biz elə görmüşük, belə görmədik.

Saxtalar olmadı, yalan olmadı,
Dağıdan, talayan, talan olmadı,
Xəyallar içində solan olmadı,
Biz elə görmüşük, belə görmədik.

Oğrular, əyrilər başa çıxmadı,
Kipriyə sırışıb, qaşa çıxmadı.
Yazda qırıldılar, qışa çıxmadı,
Biz elə görmüşük, belə görmədik.

İnsafı-mürvəti atan öldülər,
Ara qızışdıran, qatan öldülər.
Qərq olub qəflətdə yatan öldülər,
Biz elə görmüşük, belə görmədik.

Xalqını soyanlar, çapan olmadı,
Yoğurub-yapmamış qapan olmadı,
İtirən olmadı, tapan olmadı,
Biz elə görmüşük, belə görmədik.

İnsanlar-insanı çərlətmədilər,
Dağları-daşları hərlətmədilər,
Enişdə-yoxuşda tərlətmədilər,
Biz elə görmüşük, belə görmədik.

Sadəcə yaşadıq, sadə dolandıq,
Sadəcə əkildik, sadə sulandıq,
Sadəcə od aldıq, sadə qalandıq,
Biz elə görmüşük, belə görmədik.

Ağalar susdular, bəylər susdular,
Kütbeyin susdular, keylər susdular,
Kərgədan susdular, döylər susdular,
Biz elə görmüşük, belə görmədik.

Dələduz tülkülər, hiyləgər hara?
Zülümkarlar hara, sitəmkar hara?
Salındı zindana, düşdülər tora,
Biz elə görmüşük, belə görmədik.

Qadın-qadın oldu, kişilər-kişi,
Erkək-erkək oldu, dişilər-dişi.
Bilən arif oldu, bilməyən naşı,
Biz elə görmüşük, belə görmədik.

Oğruya-əyriyə divan tutuldu,
Fürsət verilmədi, yaman tutuldu,
Baxmayıb qocaya, cavan tutuldu,
Biz elə görmüşük, belə görmədik.

Ağlayan-ağladı, gülənlər-güldü,
Dirilən-dirildi, ölənlər-öldü.
Eşidən-eşitdi, bilənlər-bildi,
Biz elə görmüşük, belə görmədik.

Nə böhtan eşitdik, nə şər eşitdik,
Nə altun tanıdıq, nə zər eşitdik,
Kişidən savayı nə nər eşitdik,
Biz elə görmüşük, belə görmədik.

Doğruluq eşitdik, yalan olmadı,
Əqrəblər, əfilər, ilan olmadı,
Gündə bir zurnanı çalan olmadı,
Biz elə görmüşük, belə görmədik.

Kiçiklər böyüyə bəli dedilər,
Sözünə incinin ləli dedilər,
Nəsil-nəcabətin kəli dedilər,
Biz elə görmüşük, belə görmədik.

***Cəmil Əkbər*** 9.09 – 1991

## 113. BELƏ GÖRMƏDİK

Dövrü-zəmanədə şöhrət var idi,
Biz elə görmüşdük, belə görmədik.
İnsandan-insana hörmət var idi,
Biz elə görmüşdük, belə görmədik.

Sayırdıq, seçirdik qocaları da,
Mövqedə hamıdan ucaları da.
Mehriban qardaşı, bacıları da,
Biz elə görmüşdük, belə görmədik.

Bütün millətləri qardaş bilərdik,
Vəfalı dost-tanış, yoldaş bilərdik,
Ən yaxın, mehriban, sirdaş bilərdik,
Biz elə görmüşdük, belə görmədik.

Etibar, etiqad, vəfa bol idi,
Sürməyə nəqədər səfa bol idi,
Dərdlərə dərmanlar, şəfa bol idi,
Biz elə görmüşdük, belə görmədik.

Şüar eyləmişdik beynəlmiləli,
Nəydi məchul qalan, nəydi şübhəli.
Zəmanə xoş idi, həyat gülməli,
Biz elə görmüşdük, belə görmədik.

Obalar, oymaqlar ellər bir idi,
Yaradan biləklər, əllər bir idi,
Fikirlər, xəyallar, dillər bir idi,
Biz elə görmüşdük, belə görmədik.

Hamıya can deyib, can eşidərdik,
Süfrələr açardıq, nan eşidərdik,
Böyüyü-kiçiyi san eşidərdik,
Biz elə görmüşdük, belə görmədik.

Ötüşdü dövranlar, yetişdi zaman,
Heçkəsə vermədi nə fürsət, aman,
Könüllər mülkünü bürüdü duman,
Biz elə görmüşdük, belə görmədik.

Dəyişdi zamanın gərdişi yaman,
Adət, ənənəsi, vərdişi yaman,
Çoxaldı həryanda şər işi yaman,
Biz elə görmüşdük, belə görmədik.

Sayılan var idi, sayan var idi,
İşləri səmtinə qoyan var idi,
Dar gündə insana həyan var idi,
Biz elə görmüşdük, belə görmədik.

Dükan dükan idi, bazar da bazar,
Səfər səfər idi, güzar da güzar.
Nasir nasir idi, yazar da yazar,
Biz elə görmüşdük, belə görmədik.

Millət birbirinə gərəkli idi,
Barlı-bərəkətli, çörəkli idi,
Xoş arzu-istəkli, diləkli idi,
Biz elə görmüşdük, belə görmədik.

Hamı ümid idi sabahkı günə,
Oyanıb qalxırdı xoş səsə, ünə.
Gələrmi görəsən o dövran yenə?
Biz elə görmüşdük, belə görmədik.

Əvvəlki kəramət, səxavət hanı?
Nəciblik, zəriflik, məlahət hanı?
Ədəb-ərkan hanı, nəzakət hanı?
Biz elə görmüşdük, belə görmədik.

Demə tərif edir köhnə zamanı,
Gətirmə könlünə beylə gümanı.
Salmayın araya nahaq davanı,
Biz elə görmüşdük, belə görmədik.

Verən də, alan da az idi onda,
Zəhmətsiz kalan da az idi onda,
Saxtalıq, yalan da az idi onda,
Biz elə görmüşdük, belə görmədik.

Yolunu, izini azan az idi,
Ülfət-ünsiyyəti pozan az idi,
Doğrunu tərsinə yozan az idi,
Biz elə görmüşdük, belə görmədik.

Gecəli-gündüzlü çalışana bax,
Tərləri torpağa qarışana bax,
Biri-birisilə yarışana bax,
Biz elə görmüşdük, belə görmədik.

Kiçik böyükləri pəsinərdi də,
Eşidib adını səksənərdi də,
Bəd işdən çəkinib diksinərdi də,
Biz elə görmüşdük, belə görmədik.

İnsan birbirindən həyalanardı,
Əqidə götürüb qayələnərdi.
Qövr edən yaralar sayalanardı,
Biz elə görmüşdük, belə görmədik.

Meyledən az idi tamaha sarı,
Xətaya, bəlaya, günaha sarı,
Ümid bəsləyərdi sabaha sarı,
Biz elə görmüşdük, belə görmədik.

Ədəb yerindəydi, ərkan yerində,
Bazar yerindəydi, dükan yerində,
Gəmi yerindəydi, sükan yerində,
Biz elə görmüşdük, belə görmədik.

Pozula-pozula bugünə düşdük,
Yozula-yozula nə günə düşdük?
Kələfi dolaşıb, düyünə düşdük,
Biz elə görmüşdük, belə görmədik.

Bəşər övladının dühası vardır,
Mənəvi aləmi, dünyası vardır,
Nəzəri, fikiri, xülyası vardır,
Biz elə görmüşdük, belə görmədik.

Qələbə pozuldu, zəfər pozuldu,
Cəsarət pozuldu, hünər pozuldu.
Nurlu gələcəyə səfər pozuldu,
Biz elə görmüşdük, belə görmədik.

İlahi sən saxla bəşəriyyəti,
Vətən övladını, bu cəmiyyəti,
Yenə bərqərar et səmimiyyəti,
Biz elə görmüşdük, belə görmədik.

Nəyaman dəyişdi, gördüklərimiz,
Eşidib, öyrənib, bildiklərimiz,
Dağıldı, talandı verdiklərimiz,
Biz elə görmüşdük, belə görmədik.

Zəmanə başqadır, anla ay Cəmil,
Az onu kötəklə, yanla ay Cəmil,
Məzəmmət eyləyib danla ay Cəmil,
Biz elə görmüşdük, belə görmədik.

***Cəmil Əkbər*** 9. 09 – 1991

## 114. XƏBƏRSİZ

Yeyirsən, içirsən məzələnirsən,
El-obadan, cəmiyyədən xəbərsiz.
Bəzənib, düzənib təzələnirsən,
İnsanlıqdan, ləyaqətdən xəbərsiz.

Çalırsan, çapırsan, şeşələnirsən,
Düşüb tığ üstünə eşələnirsən,
Eybin açıldıqca pöşələnirsən,
Ədəb-ərkan, mərifətdən xəbərsiz.

Nə məzlum, nə fəqir, yazıq qanırsan,
Nə isti, nə soyuq, sazaq qanırsan,
Nə dost-tanış bilib, uzaq qanırsan,
Sədaqətdən, səxavətdən xəbərsiz.

Əlinə keçəni soyursan zalım,
Yığıb son gününə qoyursan zalım,
Ha yeyib-içirsən, doyursan zalım,
İnsaf-mürvət, kəramətdən xəbərsiz.

Nə çox anlayırsan, nə az qanırsan,
Nə ney anlayırsan, nə saz qanırsan,
Nə mətləb duyursan, nə söz qanırsan,
Ehtiramdan, nəzakətdən xəbərsiz.

Çatışmır kamalın dəlisən, nəsən?
Qansoran həşarət, zəlisən nəsən?
İblisin, şeytanın felisən nəsən?
Xeyirxahlıq, fəzilətdən xəbərsiz.

Beylə xəyallarla hara gedirsən?
Düşüb təhlükəyə, dara gedirsən.
Deyən tələsiyib gora gedirsən?
Bu dövlətdən, cumhuryətdən xəbərsiz.

Millət zillət çəkir, sənsə kefdəsən,
Bazar bahalıqdır, sənsə müftəsən,
Gəlirdə, qazancda, yaxşı nəfdəsən,
Məna-məzmun, məziyyətdən xəbərsiz.

Ellərdən, obadan həyalan biraz,
Oyansın vicdanın, qayələn biraz,
Yaran qövr etməsin, sayalan biraz,
Təriqətdən, şəriətdən xəbərsiz.

Cəmilin qəlbini incitmə nadan,
Təlimi az görüb yarımçıq dadan,
Yolunu-izini tərsinə adan,
Şan-şöhrətdən, şərafətdən xəbərsiz.

***Cəmil Əkbər*** 17. 04 – 1995

## 115. XƏBƏRSİZSƏN

İnciməynən əziz dostum,
Yoldaşından xəbərsizsən.
Deməynənki səndən küsdüm,
Qardaşından xəbərsizsən.

Nəvaxtacan yatacaqsan?
Çamırlığa batacaqsan?
İnsafını atacaqsan?
Mürvətindən xəbərsizsən.

Tamahına aldanmısan,
Orda-burda daldanmısan.
Bədəmələ yollanmısan,
Şöhrətindən xəbərsizsən.

Xətir-hörmət gözləmədin,
Əməlini izləmədin,
Kələfini çözləmədin,
Hörmətindən xəbərsizsən.

Gözləmədin abır-həya,
Təmiz məslək, təmiz qayə,
Alacaqsan yekə payə,
İsmətindən xəbərsizsən.

Tanımırsan yaxşı-pisi,
Nə bədxahı, nə də nəsi.
Nə höcəti, nə də tərsi,
Hikmətindən xəbərsizsən.

Yaxşılara pis də dedin,
Höcət, inad, tərs də dedin,
Oda-közə his də dedin,
Qiymətindən xəbərsizsən.

Şər işlərə uyma bir an,
Oxu kitab, oxu Quran,
Yarat qardaş, etmə viran,
Niyyətindən xəbərsizsən.

Tənbəllikdən tez uzaqlaş,
Axtar, ara, hey soraqlaş,
Bədnəzərdən tez iraqlaş,
Xidmətindən xəbərsizsən.

Zəhmətindən aralanma,
Tənbəllərlə sıralanma,
Ondan-bundan qaralanma,
Zəhmətindən xəbərsizsən.

***Cəmil Əkbər***

## 116. XƏBƏRSİZ OLMA!

Eşidin sözümü ay qardaşlarım,
Xətirdən, hörmətdən xəbərsiz olma!
Ay mehri-ülfətim, ay yoldaşlarım,
İnsafdan, mürvətdən xəbərsiz olma!

Atmaynan dostluğu, əhdi-ilqarı,
Əyməynən qaməti, bu şah vüqarı.
Pozmayın ülfətdə behi-bazarı,
Namusdan, qeyrətdən xəbərsiz olma!

Elini-obanı yadında saxla,
Axtarıb, arayıb yerində yoxla,
Sən harda olsan da qalginan Haqla,
Saf arzu-niyyətdən xəbərsiz olma!

Diqqət ver obalar, ellər nə çəkir?
Xəzana qərq olmuş güllər nə çəkir?
Qarışqa nə çəkir, fillər nə çəkir?
Zəhmətdən, xidmətdən xəbərsiz olma!

Nəqədər insana yatmaq gərəkdir?
Yaxşını-yamana qatmaq gərəkdir?
Mərdləri-namərdə satmaq gərəkdir?
Şərəfdən, şöhrətdən xəbərsiz olma!

Hərkəsi ucaldan öz zəhmətidir,
Elinə qayğısı, öz xidmətidir,
Dözümü, durumu, qətiyyətidir,
Dəyərdən, qiymətdən xəbərsiz olma!

Oturub duranda bilin yerini,
Tanıyın xeyiri, bilin şərini.
Kəsmə mətahını, xərclə zərini,
Ədəbdən, mərfətdən xəbərsiz olma!

Sən harda olsanda qoçaq ol bala!
Bəd işdən, fikirdən qaçaq ol bala!
Gedib kənarda gəz, qaçaq ol bala!
Cəsarət cürətdən xəbərsiz olma!

Tayından-tuşundan qalmaynan dala,
Yayınma qatardan nə sağa, sola,
Zəfərlər təblini çal bala-bala,
İrəli sürətdən xəbərsiz olma!

İnsanı yaşadan məhəbbətidir,
Eşqidir, andıdır, sədaqətidir,
Saf arzu, istəyi, pak niyyətidir,
Bu qüvvə-qüdrətdən xəbərsiz olma!

Nəyi bilməsəndə ədaləti bil,
İnsanlıq naminə ləyaqəti bil.
Bu yolu, bu izi, nihayəti bil,
Haqtan, həqiqətdən xəbərsiz olma!

***Cəmil Əkbər*** 24. 05 – 1989

## 117. DOLANMAZ

Kim oxusa əzəl başdan Quranı?
Haqq Taaladan vəhy olunan fərmanı.
Tapacaqdır hər dərdinə dərmanı,
Ədalətsiz, həqiqətsiz dolanmaz.

Kim oxusa Məhəmmədi, Əlini,
Tapacaqdır yerin-göyün sirrini,
Hərbir işin öz səmtini, çəmini,
Şan-şöhrətsiz, şərafətsiz dolanmaz.

Kim oxusa Nizamini, "Xəmsəni",
Başa düşsə kəlməsində cümləni.
Uzaq bilməz, özgə bilməz kimsəni,
Sədaqətsiz, səxavətsiz dolanmaz.

Kim öyrənsə Seyid Əzimi, Sabiri,
O tapacaq, tökəcəkdir tədbiri,
Çox çəksə də əzab-əzyət, cəbiri,
Dəyanətsiz, qətiyyətsiz dolanmaz.

Kim öyrənsə Nəsrəddini-Tusini,
Çəkəcəkdir cəhli-elmin bəhsini,
Dərəcəkdir nəfəsini, səsini,
İnsaf-mürvət, kəramətsiz dolanmaz.

Kim başvursa Nəvaiyə, Sədiyə,
O qərq olmaz dağa, daşa, gədiyə.
Alacaqdır ünsiyyətdə hədiyyə,
Ədəb-ərkan mərifətsiz dolanmaz.

Kim eşitsə, qəbul etsə Cəmili?
Əsər etsə nəsihəti, dəlili?
Ola bilməz zəmanənin zəlili?
Saf arzusuz, pak niyyətsiz dolanmaz.

***Cəmil Əkbər*** 17. 01 – 1990

## 118. DÜZİYMİŞ

Adam bilib bir nadana söz dedim,
Kaş deməzdim, deməməyim düziymiş.
Yol göstərib, cığır salıb iz dedim,
Kaş deməzdim, deməməyim düziymiş.

Bir süfrə başında çörək də yedik,
Badələr qaldırıb, sağlıq da dedik.
Sandıq ki, günahı, savabı yuduq,
Kaş deməzdim, deməməyim düziymiş.

Çox gədanı tərifləyib öymüşəm,
Boy-buxunun əzizləyib sevmişəm.
O verdiyi zərxaranı geymişəm,
Öyənətən öyməsəydim düziymiş.

Onu-bunu gücsüz bilib döymüşəm,
Ünvanına yerli-yersiz söymüşəm.
Xətirinə toxunmuşam, dəymişəm,
Döydüyümdən döyməsəydim düziymiş.

Sir sözümü hər yetənə danışdım,
Gah xeyrinə, gah şərinə qarışdım,
Əfsuslarki, kef-halını soruşdum,
Bilməyimdən bilməməyim düziymiş.

Bir igidi qərəz üçün əymişəm,
Yemək üçün, çərəz üçün əymişəm,
Məqsəd üçün, mərəz üçün əymişəm,
Əydiyimdən əyməməyim düziymiş.

Cəmil Əkbər birdə belə etmə sən,
Harayına, həşirinə getmə sən,
Bülbül olub qönçəsində ötmə sən,
Etdiyimdən etməməyim düziymiş.

***Cəmil Əkbər*** 1.10 – 1987

## 119. BİLSƏNƏ?

Xaliq verib, gör nə gözəl canın var,
Qədirini-qiymətini bilsənə?
Zülalın var, şərbətin var, şanın var,
Öz borcunu, xidmətini bilsənə?

Salmaynan özünü gözdən buqədər,
Yolaqdan, cığırdan, izdən buqədər.
Məqamı çatmamış, tezdən buqədər,
Xətirini-hörmətini bilsənə?

Baxmırsan dünyanın gərdişlərinə,
Adət-ənənəsi, vərdişlərinə.
Qulluq eyləyirsən hər işlərinə,
Məzmununu, hikmətini bilsənə?

Salmaynan özünü ünvandan, addan,
Çıxmaynan nəzərdən, düşməynən moddan,
Düşməynən ləzzətdən, damaqdan, daddan,
Hörmətini, izzətini bilsənə?

Hər yetənə səxavəti göstərmə,
İnsaf-mürvət, mərhəməti göstərmə.
Sədaqəti, səadəti göstərmə,
İnsafını, mürvətini bilsənə?

Görmək üçün, baxmaq üçün göz verib,
Danışmağa şirin-şəkər söz verib.
Yeriməyə, yüyürməyə diz verib,
Yerişində sürətini bilsənə?

Çalışmağa ayaq verib, əl verib,
Danışmağa dodaq verib, dil verib.
Yaşatmağa, yaratmağa bil verib,
Zəhmətini, xidmətini bilsənə?

Düşünməyə kamal verib, baş verib,
İdrak verib, xəyal verib, huş verib.
Sərraf olsan gövhər verib, daş verib,
Zəhmət çəkib sənətini bilsənə?

***Cəmil Əkbər***

## 120. BİLSƏNƏ?

Yer üzünün ziynətisən, ey insan!
Məzmununu, hikmətini bilsənə?
Şərəfisən, şöhrətisən ey insan!
Dəyərini, qiymətini bilsənə?

Gəl aldanma sən nəfsinə, tamaha,
Yolu vermə qəbahətə, günaha,
Açıq gözlə bir nəzər sal sabaha,
Saf arzunu, niyyətini bilsənə?

Uca Rəbbim yol-ərkanı düz verib,
Çığır salıb, yolaq salıb, iz verib.
Bu dünyanı görmək üçün göz verib,
Ünsiyyəti, ülfətini bilsənə?

Sağa-sola gəl yolunu azma sən,
Ona-buna dərin quyu qazma sən.
Doğru fikri kəc, tərsinə yozma sən,
Öz meylini, öz səmtini bilsənə?

Nizamidir, Fizulidir babamız,
Nigarlardır, Həcərlərdir nənəmiz,
Vərəsəyik, yadigarıq hərəmiz,
Əcdadını, xislətini bilsənə?

Azərbaycan torpağıdır yuvamız,
Öz elimdir, öz yurdumdur, obamız.
Martenadan hərarətli sobamız,
Təpərini, riqqətini bilsənə?

Babalardan namus qalıb, ar qalıb,
Sədaqətli səxavətli yar qalıb.
Tükənməyən, qurtarmayan var qalıb,
Abırını, ismətini bilsənə.

***Cəmil Əkbər*** 1.05 - 1987

## 121. BİLSƏNƏ?

Yaradanın haqqısayı nəqədər?
Dürlü-dürlü sovqat payı nəqədər?
Payız, qışı, yazı, yayı nəqədər?
Nəzərini, diqqətini bilsənə?

Sevmək üçün sinə altda ürək var,
Nəcib-nəcib arzular var, dilək var,
Hurilər var, pərilər var mələk var,
Təpərini, riqqətini bilsənə?

Hərkəsdəyə özü üçün yar verib,
Abır verib, həya verib, ar verib,
Ağıl verib, kamal verib, bar verib,
Abırını, ismətini bilsənə?

Getmək üçün yolaq verib, iz verib,
Eniş verib, yoxuş verib, düz verib.
Utanmağa, qızarmağa üz verib,
Ünsiyyəti, ülfətini bilsənə?

İnsan olan ad qazanar dünyada,
Dostluq edib yad qazanar dünyada,
Ləzzət çəkib dad qazanar dünyada,
Şərəfini, şöhrətini bilsənə!

Eybəcərlik, çirkinlikdən uzaq ol,
Lovğalıqdan, xudbinlikdən uzaq ol.
Qəmginlikdən, bədbinlikdən uzaq ol,
Öz qüvvəni, qüdrətini bilsənə!

***Cəmil Əkbər*** 19. 04 -1987

## 122. HƏRƏ

Hərə bir diyarda, hərə bir yerdə,
Düzəldən düzəldir, əyənlər əyir.
Hərə bir kamalda, hərə bir sərdə,
Demiyən deməyir, deyənlər deyir.

Hərənin bir işə qarışıb başı,
Sarsılıb xəyalı, dağılıb huşu.
Düz çəkmir vicdanda, tərəzi daşı,
Görməyən görməyir, görənlər görür.

Hərə bəslədiyi bağından dərir,
Bostanından dərir, tağından dərir.
Hərə öz borcunu bircürə verir,
Verməyən verməyir, verənlər verir.

Hərə bu dünyada bircürə gəzir,
Bircürə dərk edir, seyredib sezir,
Bircürə tablaşıb, bircürə dözür,
Dözməyən dözməyir, dözənlər dözür.

İnsanam deyənə hörmət edilir,
Kəramət edilir, mürvət edilir.
Qayğı göstərilir, xidmət edilir,
Danmayan danmayır, dananlar danır.

Nəqədər insanlar vədəsiz ölur,
Azarsız, bezarsız, zədəsiz ölür.
Sahibsiz qalaraq dədəsiz ölur,
Ölmayən ölməyır, ölanlər ölur.

Hərə bu dünyada bircürə olur,
Bircürə boşalır, bircürə dolur.
Bircürə açılır, bircürə solur,
Solmayan solmayır, solanlar solur.

Hərə bu dünyanı bircürə qanır,
Qəlbi vicdanının oduna yanır.
Bircürə bezikib, bircür usanır,
Qanmayan qanmayır, qananlar qanır.

Hərə öz adəti, vərdişindədir,
Gəşt edir dövranı, gərdişindədir,
Həyəcan, səksəkə, təşvişindədir,
Anmayan anmayır, ananlar anır.

Hərə bu dünyanı bircürə duyur,
Günahı, savabı bircürə yuyur.
Aldanıb nəfisə, bircürə uyur,
Uymayan uymayır, uyanlar uyur.

Hərə bu dünyada bircürə qalır,
Bircürə düşünüb, xəyala dalır.
Zəmanə sazını kökləyib çalır,
Çalmayan çalmayır, çalanlar çalır.

***Cəmil Əkbər*** 26. 05 – 1993

## 123. FİKİRLƏR

Nəqədər başları dəng eyləmisən?
Ay sərsəm fikirlər, ay gic fikirlər.
Əlin çatmasada, zəng eyləmisən,
Ay xain, ay xəbis, ay kəc fikirlər.

Nəqədər düzləri yana əymisən?
Xətirə toxunub, qəlbə dəymisən?
Zəhmətin haqqını muzdsuz yemisən?
Ay yoxsul fikirlər, ay ac fikirlər.

Nəqədər ağlara qara demisən?
Nəqədər bütövə para demisən?
İnsanlıq, yaxşılıq hara, demisən,
Ay qəddar, ay mənfur, ay ləc fikirlər.

Haqqı, ədaləti itirdin nədən?
Yollarda kol-koslar bitirdin nədən?
Möhnəti boynuna götürdün nədən?
Ay ölü fikirlər, ay linc fikirlər.

Nəqədər ev yıxıb, qapı bağladın?
Əsəblər korlayıb, sinə dağladın.
Arxadan toxundun, üzdən yağladın,
Ay höcət, ay inad, ay öc fikirlər.

Nəqədər insanı zəlil etmisən?
Bədən sağ olsada, əlil etmisən?
Sarsıdıb igidi, məlil etmisən?
Ay çaşbaş fikirlər, ay köç fikirlər.

Nəqədər qəlbləri yaralamısan?
Qılıncsız, qalxansız paralamısan?
Qardaşı-qardaşdan aralamısan?
Hiyləgər, dələduz, ay bic fikirlər.

Özün də bilmədin nə niyyətdəsən,
Hansı qulluqdasan, nə xidmətdəsən.
Nə dəyər-dəyməzdə, nə qiymətdəsən,
Əfsanə fikirlər, ay puç fikirlər.

De sənin faydanı görən oldumu?
Bağında barını dərən oldumu?
Çəkib dövranını sürən oldumu?
Ay barsız, bəhrəsiz, ay hec fikirlər.

İnsan övladının harayına çat,
Hər günü, həftəsi, hər ayına çat,
Könüllər mülkünün sarayına çat,
Ay sərrast düşüncə, ay dinc fikirlər.

***Cəmil Əkbər*** 21. 09 - 1987

## 124. DÜZƏLƏN DEYİL

Hamı düzəlsədə Haqqın yoluna,
Cahillər, nadanlar düzələn deyil.
Atadan, anadan tərbiyəsindən,
Kəm-kəsir dadanlar düzələn deyil.

Ümid bağlamayın nanıkorlara,
Vicdanı önündə günahkarlara,
Övladı-bəşərə, ziyankarlara,
Haqqısay udanlar düzələn deyil.

Deyib-danışmaqla sözqanan deyil,
Haqqı-ədaləti düz qanan deyil,
İşarə tanıyıb, göz qanan deyil,
Tərsinə adanlar düzələn deyil.

***Cəmil Əkbər***

## 125. ÇƏTİNDİR

Ədalətdir səadətin düz yolu,
Bu yol ilə biz getməsək çətindir.
Pak istəyin, xoş adətin düz yolu,
Bu yol ilə biz getməsək çətindir.

Sədaqət insanın şərafətidir,
İnsanlıq elminin məharətidir.
Odudur, közüdür, hərarətidir,
Bu yol ilə biz getməsək çətindir.

Məhəbbət insanın ləyaqətidir,
Xətiri, hörməti, nəzakətidir,
Olmasa başının fəlakətidir,
Bu yol ilə biz getməsək çətindir.

Fəzilət hərkəsə gərəkdir, qardaş,
Dayaqdır, sütundur, dirəkdir qardaş.
Arxadır, həyandır,köməkdir qardaş,
Bu yol ilə biz getməsək çətindir.

Mərifət insanın özündə gərək,
Baxışında gərək, gözündə gərək.
İşində, gücündə, sözündə gərək,
Bu yol ilə biz getməsək çətindir.

Səxavət insanın canında gərək,
Damarında gərək, qanında gərək,
Zülalında gərək, şanında gərək,
Bu yol ilə biz getməsək çətindir.

Həqiqət insanın amalı gərək,
Düşüncə, təfəkkür, kamalı gərək.
Mənəvi gözəllik, camalı gərək,
Bu yol ilə biz getməsək çətindir.

Fərasət insana qol-qanad verir,
İşinə-gücünə o nicat verir,
Koroğlu, Fərhada o isnad verir,
Bu yol ilə biz getməsək çətindir.

Cəsarət hamını ürəkləndirir,
Açıb gözlərini zirəkləndirir.
Dar gündə, məqamda gərəkləndirir,
Bu yol ilə biz getməsək çətindir.

Ülfət-ünsiyyətdə məlahət gərək,
Ətri-ənbər gərək, təravət gərək.
Zəriflik, nəciblik, lətafət gərək,
Bu yol ilə biz getməsək çətindir.

Ləyaqət insanı qanan eyləyir,
Eşqin yollarında Sənan eyləyir,
Hərkəsi hamıya həyan eyləyir,
Bu yol ilə biz getməsək çətindir.

***Cəmil Əkbər***

## 126. ÇƏTİNDİR

İnsanam deyəndə həya gərəkdir,
Abır yoxsa, ismət yoxsa çətindir.
Təlimi düz verən dayə gərəkdir,
Qayğı yoxsa, xidmət yoxsa çətindir.

Könüllər mülkündə riqqət gərəkdir,
İnsandan-insana diqqət gərəkdir,
Çəkdiyi zəhmətə qiymət gərəkdir,
Dəyərlərə qiymət yoxsa çətindir.

Ünsiyyət məqamı hörmət gərəkdir,
Kəramət gərəkdir, mürvət gərəkdir.
Ar-namus gərəkdir, qeyrət gərəkdir,
Nicat yoxsa, nüsrət yoxsa çətindir.

Fikir də, xəyal da düz olmalıdır,
Həyata nur saçan, köz olmalıdır.
Sağlam düşüncələr, söz olmalıdır,
Təmiz istək, niyyət yoxsa çətindir.

Bəşər övladına düz yolgöstərən,
Məqamı çatdıqca tez yolgöstərən,
Bir deyil, beş deyil, yüz yolgöstərən,
Dövlət yoxsa, hökmət yoxsa çətindir.

Hərkəsin işində ədalət gərək,
Doğruluq, düzgünlük, həqiqət gərək.
Sağlam arzu gərək, pak niyyət gərək,
Beylə məzmun, hikmət yoxsa çətindir.

Qiymət verilməli yaxşıya, pisə,
Mərdlərə, namərdə, xoryada, nəsə.
Mərhəmət olmaya, hər yetən kəsə,
Ürəklərdə riqqət yoxsa çətindir.

Kar olan qulaqlar açılmalıdır,
İdrakın ziyası saçılmalıdır,
Bədxah əməllərdən qaçılmalıdır,
Eyham yoxsa, diqqət yoxsa çətindir.

***Cəmil Əkbər*** 12. 03 – 1994

## 127. ÇƏTİNDİR

İnsanlıqda əriş-arğac dolaşıb,
Abır yoxsa, həya yoxsa çətindir.
Düyün düşüb birbirinə culaşıb,
Kömək yoxsa, sayə yoxsa çətindir.

Hamı birbirinə sitəm eyləyir,
Qovalayıb görən hara teyləyir?
Tapılmaz dərdlərə çarə söyləyir,
Məslək yoxsa, qayə yoxsa çətindir.

İnsanoğlu inamını itirib,
Birbirinə ənamını itirib,
Təsib çəkmir, lap hamını itirib,
Quran yoxsa, ayə yoxsa çətindir.

Böyük gərək kiçiklərə bildirə,
Tamahını, nəfisini öldürə,
Fərəh verə, sevinc verə güldürə,
Tərbiyəçi, dayə yoxsa çətindir.

Çoxlarını tanımışam, bilmişəm,
Gah uzaşıb, gah da yaxın gəlmişəm.
Əməlindən gah ağlayıb gülmüşəm,
"Ayə! çəkil"- deyən yoxsa çətindir.

Qanmazlara qan deməklə qanmayır,
Xalqı üçün azacıq da yanmayır.
Bəd işdən, əməldən heç utanmayır,
Zopa yoxsa, paya yoxsa çətindir.

***Cəmil Əkbər*** 4. 08 -1987

## 128. ÇƏTİNDİR

İnsan gərək birbirindən utana,
Həyalanıb utanmırsa çətindir.
Əl atmaya fitnə-fəsad böhtana,
Çəkinmirsə, qısqanmırsa çətindir.

Hərkəs gərək hörmətini gözləsin,
Şərəfini, şöhrətini gözləsin,
İnsafını, mürvətini gözləsin,
Saxlamırsa, gözləmirsə çətindir.

Taytuşlardan, yoldaşlardan ar edə,
Qohumlardan, qardaşlardan ar edə,
Dost-tanışdan, sirdaşlardan ar edə,
Həyalanıb ar etmirsə çətindir.

Hərkəs gərək bəd sözlərdən uzaşa,
Bəd astardan, bəd üzlərdən uzaşa.
Bəd yolaqdan, bəd izlərdən uzaşa,
Kənarlaşıb uzaşmırsa çətindir.

Hərkəs gərək ləyaqətə qovuşa,
Etibara, sədaqətə qovuşa,
Ədalətə, həqiqətə qovuşa,
Yaxın gəlib qovuşmursa çətindir.

İnsan gərək birbirinə yovuşa,
Ömürboyu yola gedə, uyuşa,
Xətalardan, bəlalardan sovuşa,
Yayınaraq sovuşmursa çətindir.

İnsan gərək öz-özünü tanıda,
Ocağını, öz közünü tanıda.
Öz yolunu, öz izini tanıda,
Varlığını tanıtmırsa çətindir.

Hərkəs gərək öz qəlbindən od ala,
Öz işindən, əməyindən ad ala,
Hünərindən, əməlindən şad ola,
Fərəhlənib şad olmursa çətindir.

Hərkəs gərək bu həyatı dərk edə,
Bədəməllər nəki varsa tərk edə.
Birbirinə qardaş kimi ərk edə,
Anlamırsa, dərk etmirsə çətindir.

Cəmil, gərək sözlərini qanalar,
Qiymət verib mənasını alalar,
Məqamında xatırlayıb analar,
Qanan yoxsa, anan yoxsa çətindir.

***Cəmil Əkbər*** 25. 05 - 1987

## 129. NƏ ÇƏTİNDİR?

Kamalsıza kamal vermək,
Nə müşgüldür, nə çətindir?
Məsləksizə amal vermək,
Nə müşgüldür, nə çətindir?

Çirkinlərə gözəl demək,
Şeir yazmaq, qəzəl demək,
Əyrilərə düzəl demək,
Nə müşgüldür, nə çətindir?

Ayaq gəlib sər[8] olarsa,
Tülkü gəlib nər olarsa,
Arvad evdə ər olarsa,
Nə müşgüldür, nə çətindir?

---

[8] Sər (farsça) - baş

Sayan yoxsa ağsaqqalı,
Dərdbiləni, əhlihalı,
Kim kəsəcək qilüqalı?
Nə müşgüldür, nə çətindir?

***Cəmil Əkbər*** 17.04 - 1982

## 130. QƏBİRQAZAN

*İ.B.Əhmədovun "Qəbirqazan" şerinə nəzirə.*

Kişitək yaşamaq çətindir daha,
Mənə də qəbir qaz, ay qəbirqazan.
Mətahı satırlar çox baha daha,
Mənə də qəbir qaz, ay qəbirqazan.

İnsan arasında hörmət azalıb,
Kəramət tükənib, mürvət azalıb.
Mənəvi aləmdən, sərvət azalıb,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Həryanda saxtalıq, yalan çoxalıb,
Oğrular, əyrilər, kalan çoxalıb,
Qazanıb verməmiş, alan çoxalıb,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Gərdişi-dövranda gəzmək çətindir,
Qəmlər dəryasında üzmək çətindir,
Dayanıb tablaşmaq, dözmək çətindir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ləyaqət əhlinə qəsd olur yaman,
Yeməmiş, içməmiş məsd olur yaman.
Mat qalıb bu işə gərdişi-zaman,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ölən kimsələrə ağlayan olur,
Başına qaralar bağlayan olur,
Çəkib sinəsini dağlayan olur,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Böyüyün, kiçiyin yeri bilinmir,
İncisi, sədəfi, zəri bilinmir.
Çəkdiyi zəhməti, təri bilinmir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nə xahiş, təvəqqəm, sözüm keçməyir,
Haqqım, ədalətim, düzüm keçməyir.
Nə işvəm, nə qəmzəm, nazım keçməyir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Belə zəmanədə qalmağa dəyməz,
Düşünüb xəyala dalmağa dəyməz.
İsrafil surunu çalmağa dəyməz,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bu yurddan o yurda köçməyim eydir,
Əcəl şərbətini içməyim eydir,
Burda dayanmaq yox, keçməyim eydir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Xalqa yalan demək bir adət imiş,
Bu da bir bacarıq, fərasət imiş,
Sən demə ibadət siyasət imiş,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Xəzana qərq olub solub gedirəm,
Qara buludtəki dolub gedirəm,
Qəlbimdə “Hicranı”[9] çalıb gedirəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Çəkdiyim zəhmətə yanıb gedirəm,
Dünyanı beləcə qanıb gedirəm.
Vəfalı dostları anıb gedirəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Çıxmışam yaddaşdan, arayanım yox,
Xeyrimə, şərimə yarayanım yox,
Qırıq söküyümü sarıyanım yox,
Mənə də qəbir qaz, ay qəbirqazan.

[9] Hicranı – Azərbaycan aşıqlaının repertuarında olan klassik saz havası

Belə bir mühitdə olmaq əbəsdir,
Fikirə, xəyala dalmaq əbəsdir.
Bu nahaq dünyada qalmaq əbəsdir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Mehriban xalqıma köməyim çatmır,
Qüdrətim tükənib, əməyim çatmır.
Sözlərim, söhbətim, deməyim çatmır,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Vətənə layiqli xidmətim yoxsa,
Nəzəri cəlb edən zəhmətim, yoxsa.
Dildə əzbər olan söhbətim yoxsa,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Könül diyarında izim qalmasa,
Odlu hərarətli, közüm qalmasa,
Dildə dastan olan sözüm qalmasa,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Dünyada havayı tutmayım yeri,
Qalmayım şərəfli öləndən geri.
Basırın torpağa lap diri-diri,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Əlimdən inciyib, bezənlər varsa,
Ağrıma, acıma dözənlər varsa,
Arxamca ağzımı büzənlər varsa,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Qəlbimdən keçəni deyə bilmirəm,
Əynimə yaraşan geyə bilmirəm.
Ürək istəyəndən yeyə bilmirəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bu dövürdə ər kişilər görünmür,
Sözü bütöv nər kişilər görünmür,
El gözündə dür kişilər görünmür,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Dərdimi anlayan insan tapılmır,
Təbiblər görünmür, loğman tapılmır.
Yaram qövr eyləyir, dərman tapılmır,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Dövrü-zəmanənin ləzzəti gedib,
Xətiri, hörməti, izzəti gedib,
Nicatı tükənib, nüsrəti gedib,
Mənə də qəbir qaz, ay qəbirqazan.

İnciyib küsmüşəm belə dövrandan,
Belə qəflə-qatır, belə karvrandan.
Belə başbiləndən, belə sarvandan,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Xalqın dərd-sərindən yaza bilmirsən,
Namərdlərə quyu qaza bilmirsən.
Vurub səf dəsini poza bilmirsən,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Belə ab-havada karsız olmuşam,
Söyüd ağacıtək barsız olmuşam.
Bir dayım yox, iqtidarsız olmuşam,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Fərsiz bir adamam, kimə gərəyəm?
Nə qaş-gözə, nə him-cimə gərəyəm,
Dost-müsahib, nə həmdərdə gərəyəm?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ölüb gedənlərin canı qurtarır,
Dayanır damarda qanı qurtarır.
Zülalı tükənir, şanı qurtarır,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər dost-tanış, yoldaş gedibdir,
Həmkarlar, həmdəmlər, sirdaş gedibdir,
Dayanıb qalmayıb birbaş gedibdir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bir zaman ilhamı alanlar hanı?
Zəfərlər təblini çalanlar hanı?
Dəryatək çalxanıb dolanlar hanı?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Neçə-neçə mərd igidlər köçdülər,
Vaxt-vədəsiz şirin candan keçdilər.
Əcəl şərbətini alıb içdilər,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Həyəcan keçirən canım dincəlsin,
Korlanan əsəbim, qanım dincəlsin.
Pətəkdə zülalım, şanım dincəlsin,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Qoy kefi açılsın darılanların,
İçindən çatdayıb qırılanların,
Məni qısqanaraq yorulanların,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nanəcib, namərdlər baxsın sevinsin,
Şimşəktək gurlayıb çaxsın sevinsin.
Daşqın çaylartəki axsın sevinsin,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Neyləyim, halımı bilən olmadı,
Şənimə sevinib gülən olmadı.
Zalımlar çoxaldı ölən olmadı,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər nanəcib, naqislər gördüm,
Paxıllar, xainlər, xəbislər gördüm,
Acgöz, qarınqulu, hərislər gördüm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər avamlar, nadanlar gördüm,
Təlimdən kəmkəsir dadanlar gördüm,
Yolunu tərsinə adanlar gördüm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər hiyləgər, biclər görmüşəm,
İlqara, imana kəclər görmüşəm.
Qaydaya, qanuna öclər görmüşəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Canilər çoxalıb dözmək çətindir,
Asudə dolanıb gəzmək çətindir,
Həyat çox şirindir bezmək çətindir,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Qəm-kədər yükünü çəkməkdən öldüm,
Gözümün yaşını tökməkdən öldüm.
Qəddimi yay kimi bükməkdən öldüm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ağıla, kamala baxan kimdi ki?
Əqidə, amala baxan kimdi ki?
Mənəvi camala baxan kimdi ki?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ədalətdən danışana nifrət var,
Həqiqətdən danışana xiffət var,
Sədaqətdən danışana hiddət var,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ləyaqət sahibi lağa qoyulur,
Kəfənə bükülüb ağa qoyulur.
Cızdağı çəkilib dağa qoyulur,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nizami, Fizuli köçdü, nəoldu?
Əcəl şərbətini içdi, nəoldu?
Sirat körpüsündən keçdi, nəoldu?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Dünyanı nəqədər tutub duracam?
Onu-bunu topa, daşa tutacam?
Həm özümü, həm özgəni yoracam?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Qalsamda bu işlər düzələn deyil,
Törpüyə gələrək nəzilən deyil.
Nadan haqq yoluna düzələn deyil,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Deməklə sözümü anlayan kimdi?
Özünü qınayıb, danlayan kimdi?
Kötəklə, qırmancla yanlayan kimdi?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Söz-söhbəti dərk edənlər hardadır?
Avamlığı tərk edənlər hardadır?
Zindandadır, qazamatda, dardadır,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Qədiri, qiyməti bilən kimdi ki?
Utanıb, qızarıb, ölən kimdi ki?
Hərdənbir yanıma gələn kimdi ki?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər danışmaq, söz demək olar?
Darıxma, səbr eylə, döz demək olar?
Haqqdan xəbər verib, düz demək olar?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bəlkə boş yerimi onda görələr,
Söz bağımdan dəstə tutub dərələr.
Dəyərimin, qiymətini verələr,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bəlkə məni yada salan tapıla,
Canıyanan, qeydə qalan tapıla,
Sözlərimdən ilham alan tapıla,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Şüşətək qəlbimi qıran-qırıbdır,
Dağı-dağ üstünə vuran-vurubdur.
Məni haldan salıb yoran-yorubdur,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Nəqədər davaya, dalaşa düşək?
Didişib, çəkişək, savaşa düşək?
Həyəcan, səksəkə, təlaşa düşək?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bəlkə tanımayam orda qəm nədir?
Əyərlər, əksiklər, orda kəm nədir?
Pəsdə inildəmək, orda bəm nədir?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Haçandan qüssənin əlində qaldım,
Düşüb dənizində, gölündə qaldım.
Daşqın çaylarında selində qaldım,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ayrı çıxış yolu tapa bilmirəm,
Əlimə keçəni qapa bilmirəm.
Villadan saraylar yapa bilmirəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Zamanın hökmüylə barışanmıram,
Gədələr işinə qarışanmıram.
Düşüb bəhsəbəhsə yarışanmıram,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Daha istəmirəm bu cür yaşamaq,
Xəcil olub, peysərimi qaşımaq.
Yük ağırdı, nə çətindi daşımaq,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Sözlərim, söhbətim elə çatmasa,
Çəmənə, çiçəyə, gülə çatmasa.
Muğana yetişib, Milə çatmasa,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bir insanoğlunun qəlbinə dəysəm,
Bədəməl önündə gözümü döysəm.
Vurub qamətini yaytəki əysəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Cahanda bir kəlmə yalan söz desəm,
Qədirsiz, qiymətsiz, kalan söz desəm,
Araya nifaqı salan söz desəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Xalqın kədərində üzüm sevinsə,
Baxışım, nəzərim, gözüm sevinsə,
Oğulum şadlanıb, qızım sevinsə,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Şər-böhtan danışıb, ülfəti pozsam,
Doğru bir kəlməni tərsinə yozsam,
Haqqı danar olsam, yolumu azsam,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Ləyaqət əhlinə gözümü yumsam,
Dinib-danışmayıb, sözümü yumsam,
Yolunu bağlayıb izini yumsam,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Mənim də oqədər günahım olub,
Hər axşam, günorta, sabahım olub.
Ellərin varına tamahım olub,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Məndə bu dünyada xətasız döyəm,
Nədənsə ənamsız, ətasız döyəm.
Qal-qovğa sarıdan sədasız döyəm,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Hayıfdı məzarı hamıya qazma,
Meşədə, zağada ayıya qazma.
Namərd əmilərə, dayıya qazma,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Gör kimlər olubdu tanıyan məni?
Məzəmmət eyləyən, qınayan məni?
Çəkib imtahanda sınayan məni?
Mənə də qəbir qaz, ay qəbirqazan.

Gör kimlər olubdu başbilənlərim?
Üzük tanıyanım, qaş bilənlərim?
Hərşeyi tərsinə, çaş bilənlərim?
Ona da qəbir qaz, ay qəbirqazan.

Gör kimlər olubdu yolgöstərənim,
Sağımı tanıdan, sol göstərənim.
Qajımı ayırıb, qol göstərənim,
Ona da qəbir qaz, ay qəbirqazan.

Ləyaqət əhlinin sorağı gedib,
Qalmayıb həvəsi, marağı gedib,
Dincliyi pozulub, fərağı gedib,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Mənimtək diridən ölü yaxşıdı,
Qalsa el içində dolu yaxşıdı.
Yanıb  quruyarsa, külü yaxşıdı,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Axirət evini tikən ay kişi,
Tər töküb zəhməti çəkən ay kişi,
Ölənə gözyaşı tökən ay kişi,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bilinsin son mənzil, yerim görünsün,
Dönsün ziyarətə, pirim görünsün,
Xeyirim tanınsın, şərim görünsün,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Bəsdir bu dünyanı dar eylədiyim,
Tərlan mənliyimi sar eylədiyim.
Ellərin içində xar eylədiyim,
Mənə də qəbir qaz, ay qəbirqazan.

Öləndə məzara başdaşı qoyun,
Ağlayın, sızlayın, gözyaşı qoyun,
Nizami babamla yanaşı qoyun,
Mənə də qəbir qaz, ay qəbirqazan.

***Cəmil Əkbər*** 10 – 11 / 06 – 1999

# 131. AZALMIR

Hansı səadətə çatmışıq görən?
Giley-güzar, şikayətlər azalmır.
Cəhalət daşını atmışıq görən?
Düşdüyümüz məşəqqətlər azalmır.

Kim deyir düşünüb qanırıq indi?
Ellərin dərdinə yanırıq indi.
Böyüyü, kiçiyi sanırıq indi,
Addımbaşı qəbahətlər azalmır.

Nəyaman düşünüb, az qanırıq biz,
Az şölə salırıq, az yanırıq biz.
Yaxşı iş görürük, tanınırıq biz,
Qansoranlar, həşarətlər azalmır.

Axtarıb dərdlərə çarə tapmırıq,
Düşmüşük çətinə, dara tapmırıq,
Günümüz olubdu qara tapmırıq,
Dəva-dərman təbabətlər azalmır.

Həryetən gədədən qardaş olmayır,
Vəfalı dost-tanış, yoldaş olmayır,
Nə həmkar, nə həmdəm, sirdaş olmayır,
Xəbisliklər, xəyanətlər azalmır.

İnanma, hamının ürəyi sağdır,
Arzusu, istəyi, diləyi sağdır.
İşləkdi qolları, biləyi sağdır,
Kin-küdurət, ədavətlər azalmır.

Hamı ləzzətdə döy, hamı kefdə döy,
Qazancda, gəlirdə, hamı nəfdə döy.
Zəhmətsiz, xidmətsiz nə də müftə döy,
Xəta-bəla xəsarətlər azalmır.

Yazılası neçə dastanlar durur,
“Şahnamə”, “Xəmsə”lər, “Büstan”lar durur.
Tağı dərilməyə bostanlar durur,
Deyiləsi söz-söhbətlər azalmır.

Dad-hazar edirəm ara vurandan,
Sağlam ürəklərə yara vurandan.
Tərk edib gedəsən hara, vurandan?
Nəs vərdişlər, pis adətlər azalmır.

Yaxamız qurtarmır dava-dalaşdan,
Həyəcan, səksəkə, qorxu, təlaşdan.
Fikiri, zikiri, xəyalı çaşdan,
Talan olan məmləkətlər azalmır.

Nəqədər yazılıb, söz deyilsədə,
Yollar göstərilib, iz deyilsədə,
Məqamı çatanda düz deyilsədə,
Avam qalan cəmaətlər azalmır.

Cəmil, hər obadan söz açılmayıb,
Yolaqlar düşməyib, iz açılmayıb.
Yaman gecikmişdir, tez açılmayıb,
Tüğyan edən cinayətlər azalmır.

***Cəmil Əkbər*** 10. 10 - 1995

## 132. OLMAYAYDI

Əhlihal insanın olması xoşdur,
Cahillər, nadanlar kaş olmayaydı.
Gözlər çaş olsada heç eybi yoxdur,
Fikirlər, xəyallar çaş olmayaydı.

Görmüşük həyatın çoxu-azını,
Kökləyib çalmışıq qəmli sazını,
Yazı yazan elə yaza yazını,
Yaxşılar-yamana tuş olmayaydı.
İnsafını, vicdanını atanlar,

Yaxşıya pis, pisə yaxşı qatanlar,
Şər danışıb aralığı qatanlar,
Qanmazlar qanana baş olmayaydı.

Övladı-bəşərin üzü güləydi,
Oğulu güləydi, qızı güləydi,
Baxışı, nəzəri, gözü güləydi,
Çatılan qabaqlar, qaş olmayaydı.

Hamı zəhmətilə ucala bilə,
Hünər meydanından tac ala bilə,
Yaşayıb, yaradıb qocala bilə,
Gödələn ömürlər, yaş olmayaydı.

Kamal gərək insanların sərində,
Ləl axtara dəryalarda, dərində,
Cıdıra çıxanda köhlən yerində,
Həmədan eşşəyi, toş olmayaydı.

Zimistan dağların başına düşə,
Yamacına düşə, döşünə düşə,
Torpağına yağa, daşına düşə,
Könül diyarında qış olmayaydı.

Qan qaraldıb evlər yıxan kəslərin,
El-obaya xain baxan kəslərin,
Ləyaqətə qənim çıxan kəslərin,
Günü-güzəranı xoş olmayaydı.

Hamının əlləri işə qarışa,
Kotana, dırmığa, xışa qarışa,
Yeməyə, içməyə, aşa qarışa,
Əlləri, ayağı boş olmayaydı.

Hərkəs addımını düzgün ataydı,
Görəydi, biləydi harda xataydı?
Məqamında muradına çataydı,
Sonradan sədd-heyif, kaş olmayaydı.
Ey Cəmil, yolumuz, izimiz haqdır,

Göz görmək üçündür, o niyə oxdur?
Dünyada onsuz da qaradaş çoxdur,
İnsanın ürəyi daş olmayaydı.

***Cəmil Əkbər*** 15-25 / 07 – 1975

## 133. OLMAYAYDI

Təmənna edirəm qoca dünyadan,
Ellərdə söhbətim az olmayaydı.
Köçedib gedəydim, uca dünyadan,
Əyilib qamətim az olmayaydı.

Yaxını-uzağı görə biləydim,
Saldığım bağlardan dərə biləydim,
Aldığım borcları verə biləydim,
Halaldan qismətim az olmayaydı.

Yollarda büdrəyib əyilməyəydim,
Nifrətlə yad olub, söyülməyəydim,
Vicdan əzabında döyülməyəydim,
Qüvvətim, qüdrətim az olmayaydı.

İnsafı-mürvəti atan olmayım,
Şər deyib, aranı qatan olmayım,
Xoryad kölgəsində yatan olmayım,
Abırım, ismətim az olmayaydı.

Nə paxıl olmayam, nə qəlbiqara,
Ağa ağ deyəydim, qaraya-qara.
Uymayam tamaha, düşməyəm tora,
Şərəfim-şöhrətim az olmayaydı.

Xəyal aləmində üzə biləydim,
Könüllər mülkündə gəzə biləydim,
Xalqa zülmedəni əzə biləydim,
Qatilə nifrətim az olmayaydı.

Cəmiləm, yaraşam doğma elimə,
Bülbüllər qonaydı qönçə gülümə,
Sərraflar tapıla söz gövhərimə,
Dəyərim, qiymətim az olmayaydı.

***Cəmil Əkbər*** 1962

## 134. SOLMAMIŞ

Nəqədər bacarsan ədalan, gülüm,
Hüsnü-camalının gülü solmamış.
Ellərdə ad qazan, sədalan gülüm,
Əqil kamalının ləli solmamış.

Əzəl gündən düz qoyulsun əsası,
Qoy ucalsın məhəbbətin binası,
Pərvaz etsin könüllərin sonası,
Çeşməsi quruyub, gölü solmamış.

Dağların döşündə lala gözəldir,
Yaşıl meşələrdə tala gözəldir,
Ananın yanında bala gözəldir,
Pozulub höyürü, dölü solmamış.

Ətir saç ellərə çəmənzarından,
Sevda aləminin ilk nübarından.
Xaliq bəxş eyləyən külli varından,
Çəməni, çiçəyi, çölü solmamış.

Ötüb keçən zamanlara qovuş gəl,
Könüllərdə gümanlara qovuş gəl.
Çeşmələrdən ümmanlara qovuş gəl,
Eşqin-məhəbbətin seli solmamış.

Sədi olub "Büstan"ını yazaydım,
Yazılmamış dastanını yazaydım,
Bostanından tər şamama üzəydim,
Könül rübabımın teli solmamış.

Ülvi-ləyaqətin elə yayılsın,
Düşsün dodaqlara, dilə yayılsın,
Əsrdən adlasın, ilə yayılsın,
Qüvvətin, qüdrətin bəli solmamış.

Axtarıb, arayıb tapın tayını,
Kəsmə sovqatını, göndər payını,
Qaynat samovarı, dəmlə çayını,
Mixəyi, darçını, hili solmamış.

Çaldırın Cəmilə telli sazını,
Dinləyin sözünü, xoş avazını,
Çəkə bilsin gözəllərin nazını,
Kefinin, halının zili solmamış.

***Cəmil Əkbər*** 25 - 28 / 05 – 1986

## 135. YAZ

Ha düşündüm, ha yazdımsa,
Dedilər ki, təzə söz yaz,
Ha sildimsə, ha pozdumsa,
Təzə doğru, təzə düz yaz,

Söhbət açma köhnə dağdan,
Nə bağbandan, nə də bağdan,
Şamamadan, nə də tağdan,
Təzə dağ-daş, təzə düz yaz.

Meyil salma köhnələrə,
Ötüb-keçən səhnələrə,
Su calama dəhnələrə,
Təzə astar, təzə üz yaz.

Dəbdən düşüb yəhər indi,
Nə çəkirsən qəhər indi.
Yol gözləyir səhər indi,
Təzə yol aç, təzə iz yaz.

Nə lazımdır Koroğlular?
Nəbi kimi nər oğlular?
Nizamitək pir oğlular?
Təzə oğul, təzə qız yaz.

Bezikmişik ötən qışdan,
Köhnə üzük, köhnə qaşdan,
Köhnə inci, köhnə daşdan,
Təzə qış yaz, təzə yaz yaz.

Nə lazımdır köhnə hava?
Köhnə qazan, köhnə tava?
Əl çək qardaş, eylə tova,
Təzə kaman, təzə saz yaz.

Əl çək daha keçmişlərdən,
Zəmanəsi ötmüşlərdən,
Ömrü-günü bitmişlərdən,
Təzə qaş yaz, təzə göz yaz.

Söhbət açma köhnə yazdan,
Köhnə çoxdan, köhnə azdan,
Köhnə ərkdən, köhnə nazdan,
Təzə ördək, təzə qaz yaz.

Köhnə düşüb daha moddan,
Çıxıb huşdan, çıxıb yaddan,
Həm damaqdan, həm də daddan,
Təzə torva, təzə duz yaz.

Nə çıxacaq ötən gündən?
Vaxt-vədəsi bitən gündən?
Hədər yerə itən gündən?
Təzə qar yaz, təzə buz yaz.

Zirvələrə qaldırmağa,
İnsanları qandırmağa,
Odu qoyub yandırmağa,
Təzə kabab, təzə köz yaz.

İgid olan bərkə dözər,
Dərk eyləyər, duyub sezər,
Bağlar salıb, meyvə üzər,
Təzə eşib, təzə qaz yaz.

Nə lazımdır Tərəkəmə?
Köhnə dildə kəkələmə?
Mətbuatı ləkələmə,
Təzə tvist, təzə caz yaz.

Elə söz yaz xoşa gəlsin,
Gözə çatsın, qaşa gəlsin,
Oxuyanlar cuşa gəlsin,
Təzə palan, təzə biz yaz.

Cəmil, əl çək nəsihətdən,
Yol gözləmə cəmiyyətdən.
Dözüm-durum, qətiyyətdən,
Təzə ərk yaz, təzə naz yaz.

***Cəmil Əkbər*** 4-5. 08 – 1992

## 136. HƏYAT YOLLARINI DOĞRU GEDƏNLƏR

Həyat yollarını doğru gedənlər,
Nə büdrəyər, nə dolaşar, nə azar.
Mənliyini qoruyanlar, güdənlər,
Nə yanılar, nə səhv edər, nə yozar.

İnsanlığın qədirini bilənlər,
Əməlilə sevinənlər, gülənlər,
Bu cahana xoş məramla gələnlər,
Ünsiyyəti nə sarsıdar, nə pozar.

Sədaqətlə, səxavətlə dolanan,
Ədalətlə, həqiqətlə dolanan,
Ədəb-ərkan, ləyaqətlə dolanan,
Nə dağıdar, nə talayar, nə qazar.

Əsl insan əməlindən utanmaz,
Öz kökündən, təməlindən utanmaz,
Fitnəsindən, nə felindən utanmaz,
Nə bezikməz, nə də deməz dad-hazar.

Vətənə, xalqına sadiq olanlar,
Yetkinləşib pürkamala dolanlar.
Cəmiltək düşünüb kamil olanlar,
Nə şər fikirləşib, nə böhtan yazar.

***Cəmil Əkbər*** 25. 12. -1981

## 137. YAZARDIM

İxtiyar səndə yox, məndə olsaydı,
Zamanı elə yox, belə yazardım.
Yaxşının ömrünü əsrlərilə,
Yamanın ömrünü ilə yazardım.

Sən nökər olsaydın, mən də sahibin,
Görərdim, düzərdim hərbir möhübün,
Sən xəsdə olsaydın, mən də təbibin,
Dərmanı başa yox, dilə yazardım.

Meydanı verərdim kamallılara,
Vicdanı, məsləki, amallılara,
Xuda bəxş etdiyi camallılara,
Qanqalın ömrünü gülə yazardım.

Alimi, loğmanı, səbəbiyyətə,
Elmə tərəqqiyə, mədəniyyətə,
Nəqş edib adını əbədiyyətə,
Kökləyib bəxtini zilə yazardım.

Ən ağır işləri qolu zorluya,
Biləyi, dirsəyi, əli zorluya,
Cöngəsi, öküzü, kəli zorluya,
Arifi, sərrafı lələ yazardım.

Qoymazdım gədələr kişilənməyə,
Məzluma, fəqirə eşələnməyə,
Məğrurluq eyləyib şeşələnməyə,
Qajını ayırıb selə yazardım.

Qoymazdım hökm edə dəllal, baqqallar,
Sərsəri, gicbəsər, sarsaq naqqallar,
Pələng meydanına girə çaqqallar,
Hökmü-sədarəti filə yazardım.

***Cəmil Əkbər*** 30. 05 - 1985

## 138. YAZARDIM

Seyr etsə xəyalım, yazsa qələmim,
Sədaqətdən, səxavətdən yazardım.
Dərk etsə beyinim, coşsa ilhamım,
Pak arzudan, saf niyyaətdən yazardım.

İnsanların xidmətində qalardım,
Küsənlərin küsüsünü alardım,
Düşünərdim, xəyallara dalardım,
Qanacaqdan, mərifətdən yazardım.

Xalqımızı çağırardım insafa,
Yollarında hey çəkərdim mən cəfa,
Olmaz idim həyatımda bivəfa,
Xeyirxahlıq, kəramətdən yazardım.

Düz görərdim, düz gedərdim yolumu,
Tanıyardım həm sağımı, solumu,
Ellər üçün sərf edərdim malımı,
Ülviyyətdən, ünsiyyətdən yazardım.

***Cəmil Əkbər***

## 139. MƏN YAZIM?

Dərd tüğyan eyləyir, qəmim çoxalır,
Məhəbbətdən necə yazım, mən yazım?
Əyərim, əksiyim, kəmim çoxalır,
Səxavətdən necə yazım, mən yazım?

Düşmüşük, qalmışıq nadan əlində,
Təlimdəm kəm-kəsir, dadan əlində.
Yolunu tərsinə adan əlində,
Ləyaqətdən necə yazım, mən yazım?

Hayana baxırsan yalan çoxalıb,
Züy tutub nağara çalan çoxalıb.
Xəzana qərq olub solan çoxalıb,
Həqiqətdən necə yazım, mən yazım?

İlqara-imana dönüklər artıb,
Hər səmtə üz tutan yönüklər artıb,
Ellərin malına əniklər artıb,
Sədaqətdən necə yazım, mən yazım?

Cahil, sərsərilər başa dırmaşır,
Üzüyə salınıb, qaşa dırmaşır.
Bir ha deyil, qoşa-qoşa dırmaşır,
Fərasətdən necə yazım, mən yazım?

İnsanlar nəyaman sırtıq olublar?
Özündən bədgüman, şıltaq olublar.
Nəqədər üzü var, yaltaq olublar,
Cəsarətdən necə yazım, mən yazım?

Bilən yox əqilli, kamallı hanı?
Məsləkli, vicdanlı, amallı hanı?
Çəkidə hamıdan samballı hanı?
Mərifətdən necə yazım, mən yazım?

Yaxşıları seçən yoxdu pislərdən,
Xeyirxahı, bədxahlardan, nəslərdən.
Qızılları gümüşlərdən, mislərdən,
Ləyaqətdən necə yazım, mən yazım?

İnsan birbirinin bədinə gedir,
Özüdə bilməyir nə mətləb güdür?
Hayandan gəlibdir, hayana gedir?
Fəzilətdən necə yazım, mən yazım?

Hamı birbirinin qanını sorur,
Zülalını çəkir, şanını sorur.
Gövhərini sorur, kanını sorur,
Mərhəmətdən necə yazım, mən yazım?

Ar-namus tapılmır, qeyrət azalıb,
İnsaf ərşə çıxıb, mürvət azalıb.
Mənəvi gözəllik, sərvət azalıb,
Kəramətdən necə yazım, mən yazım?

Ellərin dərdinə yanan kimdiki?
Xətiri-hörməti anan kimdiki?
Böyüyü, kiçiyi sanan kimdiki?
Nəzakətdən necə yazım, mən yazım?

İnsanoğlu ləyaqəti itirib,
Sədaqəti, səxavəti itirib.
Ülviyyəti, qüdsiyyəti itirib,
Pak ülfətdən necə yazım, mən yazım?

***Cəmil Əkbər***

## 140. YAZSANA?

İlhamı alanlar, qələm tutanlar,
Deyilməmiş söz-söhbətdən yazsana?
Hədəfə alınsın araqatanlar,
Giley-güzar bu qeybətdən yazsana?

Görmürsənmi bəd dolanır zəmanə?
Sərsərilər, gicbəsərlər, divanə?
Oda yanır gör haçandır pərvanə?
Ədalətdən, həqiqətdən yazsana?

Gündən-günə dövrü-zaman pisləşib,
Qəlizləşib, çətinləşib, nəsləşib.
Höcətləşib, inadlaşıb, tərsləşib,
Nadanlıqdan, cəhalətdən yazsana?

Kəsən yoxdur qal-qovğanı, davanı,
Zəhərlərə bülənd olan havanı.
Araqatan sərsərini, yavanı,
Müsibətdən, fəlakətdən yazsana?

Başdan-başa ünsiyyətlər pozulur,
Nahaq-haqqa, haqq-nahaqqa yozulur.
Ayaq altdan dərin quyu qazılır,
Törədilən fəlakətdən yazsana?

Qələmindən işıq saçıb, nur ələ,
Dəhanından inci səpib, dür ələ.
Tap sərrafı, neçə-neçə zər, ələ,
İnsanlıqdan, ləyaqətdən yazsana?

İlhamını, həvəsini küsdürmə,
Bircə anlıq qələmini susdurma.
Orda-burda gizləndirmə, pusdurma,
Ədəb-ərkan, nəzakətdən yazsana?

Zalımları, qəddarları xar eylə,
Cahilləri, nadanları xar eylə.
Dünyasını başlarına dar eylə,
Xeyirxahlıq, fəzilətdən yazsana?

Ədaləti, həqiqəti gizləmə,
İçin-için inildəmə, sızlama.
Eləbelə qaralama, cızlama,
Doğru-dürüst, həqiqətdən yazsana?

Şair qardaş, meydana çıx amandır,
Görmürsənmi əhvalımız yamandır?
Pozulub düzəlmir, xeyli zamandır,
Düşdüyümüz bu zillətdən yazsana?

Boşboğazı, başıboşu başa sal,
Vicdanı kəm, qəlbidaşı başa sal.
Filə hürən alabaşı başa sal,
Addımbaşı qəbahətdən yazsana?

Görmürsənmi ayaq altda qalan var?
Könül mülkü tarmar olan, talan var?
Bulud kimi qaralan var, dolan var?
Dedi-qodu, şikayətdən yazsana?

Nanəcibi, naqisləri xar eylə,
Xainləri, xəbisləri xar eylə.
Arsız-karsız varisləri xar eylə,
Kin-küdurət, ədavətdən yazsana?

Çoxlarını zirvələrdən endirən,
İlhamını, həvəsini söndürən.
İlqarından-imanından döndərən,
Paxıllıqdan, xəyanətdən yazsana?

Danışmırsan, dillənmirsən haçandır?
Aşıb-daşıb, sellənmirsən haçandır?
Əsib-coşub yellənmirsən haçandır?
Törədilən cinayətdən yazsana?

İzhar edib məchulları bildirsən,
El-obanı sevindirsən güldürsən.
Bədxahları, azğınları öldürsən,
İşıq saçan bəyanətdən yazsana?

Zəmanəni bədnam edən, xar edən,
Tərlanları, şahinləri sar edən.
Dünyamızı başımıza dar edən,
Qəsd-qərəzdən, küdurətdən yazsana?

***Cəmil Əkbər*** 11. 10 – 1995

## 141. NECƏ YAZMAYIM?

İnsanı yaşadan zəhmətdi qardaş,
Mən bu həqiqətdən necə yazmayım?
Yardımdı, qayğıdı, xidmətdi qardaş,
Mən bu ləyaqətdən necə yazmayım?

İnsanı yaşadan dağdı, arandı,
İstidi, soyuqdu, qardı, borandı.
Gecədi, gündüzdü, alatorandı,
Mən bu təbiətdən necə yazmayım?

İnsanın təməli eşq həvəsdir,
Torpaqdı, havadı, sudu, nəfəsdir.
Əzəldən eşitdim belə bir səsdir,
Mən bu məhəbbətdən necə yazmayım?

Həyatın mənası kefdi, deyirlər,
Zəhmətlə qazansan nəfdi, deyirlər.
Kimki anlamayır səhvdi, deyirlər,
Mən bu səadətdən necə yazmayım?

Dünyanın yolçusu gecə-gündüzdür,
Fəhlədir, kəndlidir, quldur, kənizdir.
Arzusu, istəyi, safdır təmizdir,
Mən bu ülviyyətdən necə yazmayım?

Cəmili yaşadan səmimiyyətdir,
Sağlam arzulardır, təmiz niyyətdir,
Ünsiyyət-ülfətdir, əbədiyyətdir,
Mən bu təbiətdən necə yazmayım?

***Cəmil Əkbər***

## 142. YENƏ ŞEİR YAZASIYAM

Nəqədərki, nadanlıq var,
Yenə şeir yazasıyam.
Cəhalət var, avamlıq var,
Yenə şeir yazasıyam.

Məmləkətdə xəyanət var,
Ərizə var, şikayət var,
Ünsiyyətdə qəbahət var,
Yenə şeir yazasıyam.

Əzilən var, əzdirən var,
Bezənlər var, bezdirən var.
Hər əzaba dözdürən var,
Yenə şeir yazasıyam.

Tərsəməssəb adanlar var,
Tamarzılar, dadanlar var,
Qazanmamış udanlar var,
Yenə şeir yazasıyam.

Nəqədərki, qanmayan var,
Haqqısayı anmayan var.
Böyük-kiçik sanmayan var,
Yenə şeir yazasıyam.

Əlayaqda qalanlar var,
Gülyanağı solanlar var,
Saxtalıq var, yalanlar var,
Yenə şeir yazasıyam.

Yollarını azanlar var,
Düzü-tərsə yozanlar var.
Ayaq altdan qazanlar var,
Yenə şeir yazasıyam.

Ürəyi buz, qəlbi daş var,
Vicdanı kəm, fikri çaş var,
Filə hürən alabaş var,
Yenə şeir yazasıyam.

İkiüzlü yaltaqlar var,
Təlxəklər var, şıltaqlar var.
Abırsızlar, sırtıqlar var,
Yenə şeir yazasıyam.

Nəqədərki, ədəbaz var?
Hoqqabaz var, kəndirbaz var?
Hiyləgər var, qumarbaz var?
Yenə şeir yazasıyam.

Nəqədərki, Haqq danılır?
Qanmazlar qanan sanılır?
Yaxşılar yaman sanılır?
Yenə şeir yazasıyam.

Cəmiləm, xalqa gərəyəm,
Sərraf varsa, mən zəriyəm,
El desə bəlkə kiriyəm,
Yenə şeir yazasıyam.
Təzə şeir yazasıyam.

***Cəmil Əkbər*** 24. 07 -1988

## 143. QƏLƏM DOĞRU YAZ!

*I variant*

İnsanoğlu düzə möhtac,
Əyriyə yox, düzə möhtac,
Doğru yola, izə möhtac,
Qələm doğru yaz, doğru yaz!

Düz yazmasan pozularıq,
Tərsəməssəb yozularıq,
Gündən-günə azalarıq,
Qələm doğru yaz, doğru yaz!

Kəc fikiri qanan olmaz,
Haqqısayı anan olmaz,
Böyük-kiçik sanan olmaz,
Qələm doğru yaz, doğru yaz!

Yolda-izdə çaşar hamı,
Hüdudunu aşar hamı,
Od-ocaqsız daşar hamı,
Qələm doğru yaz, doğru yaz!

Aralıqda inam olmaz,
Hörmət- izzət, ənam olmaz.
Etiqaddan binam olmaz,
Qələm doğru yaz, doğru yaz!

Ürəklər də daşa dönər,
Buz bağlayar, qışa dönər.
Fikir, xəyal çaşa dönər,
Qələm doğru yaz, doğru yaz!

Dağları duman bürüyər,
Yaxşını yaman bürüyər.
Könülü güman bürüyər,
Qələm doğru yaz, doğru yaz!

Ünsiyyət, ülfət pozular,
Doğrular tərsə yozular.
Xətirlər hörmət azalar,
Qələm doğru yaz, doğru yaz!

Göydən yerə nur tökülər,
İnci, sədəf, dür tökülər.
Ləl, cəvahir, zər tökülər,
Qələm doğru yaz, doğru yaz!

Qəsd edirlər ədalətə,
Doğru, düzlük, həqiqətə.
İnsanlığa ləyaqətə,
Qələm doğru yaz, doğru yaz!

Abır, ismət düzlükdədir,
Nicat, nüsrət düzlükdədir.
Halal nemət düzlükdədir,
Qələm doğru yaz, doğru yaz!

Qulluq eylə sədaqətə,
İnsaf, mürvəıt, kəramətə.
Ülvü istək, məhəbbətə,
Qələm doğru yaz, doğru yaz!

Eşit, anla gəl Cəmili,
Həqiqətdən ver dəlili.
Möhkəm olsun qoy təməli,
Qələm doğru yaz, doğru yaz!

***Cəmil Əkbər*** 28. 01 – 1998

## 144. QƏLƏM DOĞRU YAZ!

*II variant*

Beyin düşün, düz dərk eylə,
Qələm doğru yaz, doğru yaz!
Dəqiq anla, tez dərk eylə,
Qələm doğru yaz, doğru yaz!

Ay qulaqlar düz eşidin,
Mətləb anla, söz eşidin
İşarədən göz eşidin[10],
Qələm doğru yaz, doğru yaz!

Ay ayaqlar düz yeriyin,
Yorulmayın tez yeriyin,
Sinə gərib döz yeriyin,
Qələm doğru yaz, doğru yaz!

Ay biləklər düz işləyin,
Toyuq-cücəni küşləyin,
Halal qazanıb dişləyin,
Qələm doğru yaz, doğru yaz!

Ay qollarım yorulmayın,
Ona-buna darılmayın.
Əl-ayağa sarılmayın,
Qələm doğru yaz, doğru yaz!

Ay ürəyim düz döyünün,
Bərkə-boşa döz, döyünün,
Səksən, doxsan yüz döyünün,
Qələm doğru yaz, doğru yaz!

Ziyan vurma ünsiyyətə,
Xələl gələr cəmiyyətə.
Saf arzuya, pak niyyətə,
Qələm doğru yaz, doğru yaz!

---

[10] Gecikməyin, tez eşidin,

Əyri yoldan fayda umma,
Süfrə açıb, pay da umma,
Bircə qurtum çay da umma,
Qələm doğru yaz, doğru yaz!

Düz yazmasan pozularıq,
İnləyərik, sozalarıq,[11]
Biz tərsinə yozularıq,
Qələm doğru yaz, doğru yaz!

Düz yazmasan, düz oxunmaz,
Dərin-dayaz üz oxunmaz.
Dilə düşməz, tez oxunmaz,
Qələm doğru yaz, doğru yaz!

Əyri yolun sədası pis,
Qal-qovğası, qadası pis,
Yör-yöndəmi, ədası pis,
Qələm doğru yaz, doğru yaz!

Cəmil Əkbər sənə möhtac,
Doğru səsə, ünə möhtac,
Ha oxusa yenə möhtac,
Qələm doğru yaz, doğru yaz!

***Cəmil Əkbər*** 7.04 – 1993 24.02 – 1991

## 145. YAZ QƏZET

Elimiz, obamız səni gözləyir,
Bu nicatdan, bu nüsrətdən yaz qəzet.
Oxuyub bilənlər səni izləyir,
Bu nicatdan, bu nüsrətdən yaz qəzet.

Nə bacarsan yalan sözdən uzaq ol,
Tezi-geci solan sözdən uzaq ol.
Əlayaqda qalan sözdən uzaq ol,
Ədalətdən, həqiqətdən yaz qəzet.

[11] Gündən-günə azalarıq.

Elə yaz ki, küdurətlər azalsın,
Avamlıqlar, cəhalətlər azalsın,
Giley-güzar, şikayətlər azalsın,
Ülvi istək, məhəbbətdən yaz qəzet.

Oxuduqca kamalımız güc alsın,
Əqidəmiz, amalımız güc alsın.
El-obamız, mahalımız güc alsın,
Sədaqətdən, səxavətdən yaz qəzet.

Qoca başa düşsün, cahal anlasın,
Səhvi varsa öz-özünü danlasın.
Kötəkləsin, qırmaclasın, yanlasın,
Xeyirxahlıq, fəzilətdən yaz qəzet.

Dəfdərini, qələmini işə sal,
Elm əhlini, alimini işə sal.
Yeri-göyü, aləmini işə sal,
Saf arzudan, pak niyyətdən yaz qəzet.

Vətənimin var-dövləti çoxalsın,
Kəmkəsiri, nəyi varsa yoxalsın.
Daş ürəklər muma dönsün, yuxalsın,
Bu mənadan, məziyətdən yaz qəzet.

Yatan varsa qoy qəflətdən ayılsın,
Sədaları eldən-elə yayılsın,
Hər mənası, hər mətləbi duyulsun,
Bu xəbərdən, bəyanatdan yaz qəzet.

Silinsin qəlblərin pası qalmasın,
Qüssəsi, kədəri, yası qalmasın.
Qoy qurusun, gəm dəryası qalmasın,
Bu qüvvətdən, bu qüdrətdən yaz qəzet.

Sinələrdə daş ürəklər qalmasın,
Kəc fikirlər, çaş ürəklər qalmasın,
Mərhəmətsiz boş ürəkər qalmasın,
İnsaf, mürvət, kəramətdən yaz qəzet.

Barıdını quru saxla həmişə,
Fikirini duru saxla həmişə,
Qollarında zoru saxla həmişə,
Bacarıqdan, fərasətdən yaz qəzet.

Yollarını azanları başa sal,
Düzü tərsə yozanları başa sal.
Ünsiyəti pozanları başa sal,
İnsaf, mürvət, kəramətdən yaz qəzet.

Alıb oxuyanın xoşuna gəlsin,
Fikir, xəyalına, huşuna gəlsin.
Çıxıb qənşərinə, tuşuna gəlsin,
İnsanlıqdan, ləyaqətdən yaz qəzet.

Oxuduqca yaralarım sağalsın,
Əyər-əksik parlarım sağalsın.
Bostandakı uraların sağalsın,
Loğmanım ol, təbabətdən yaz qəzet.

İnsanın-insana hörməti artsın,
Qeyrəti çoxalsın, cürəti artsın.
Qayğısı, yardımı, xidməti artsın,
Ədəb-ərkan, nəzakətdən yaz qəzet.

Cəmil Əkbər oxuduqca sevinsin,
Hünərinlə qürrələnsin, öyünsün.
Könül mülkü iftixarla döyünsün,
Bu xidmətdən, bu zəhmətdən yaz qəzet.

***Cəmil Əkbər***

## 146. TƏZƏ ŞEİR YAZMISANMI?

***SUAL CAVAB***

***Sual:*** Bir qız məni görüb deyir,
Təzə şeir yazmısanmı?
Sanki baxıb gülümsəyir,
Yoxsa əhdi pozmusanmı?

***Cavab:*** Dedim, gülüm hər arzular,
Könül sevən tamarzılar,
Min bir kitabsız yazılar,
Məgər şeir deyildirmi?

***Sual:*** Məni görüb sevinərək,
Fərəhlənib öyünərək,
Öz-özünə deyinərək,
Dedi şeir yazmısanmı?

***Cavab:*** Dedim ay qız yerişin də,
Maral kimi duruşun da,
Təbəssümün, gülüşün də,
Məgər şeir deyildirmi?

***Sual:*** Məni tutdu min bir dilə,
Hey üzümə gülə-gülə,
Sığal verib siyah telə,
Dedi şeir yazmısanmı?

***Cavab:*** Dedim, gözəl xoş nəvaziş,
Mehri-ülfət, bu davranlş,
Şirin-şirin de bir danış,
Məgər şeir deyildirmi?

***Sual:*** Şair qəlbi yaman olur,
Gah dağlarda duman olur,
Gah da coşub ümman olur,
Bir de şeir yazmısanmı?

***Cavab:*** Dedim, şeir gözlərində,
Şirin-şəkər sözlərində,
Sən hər məni dindirəndə,
Məgər şeir deyildirmi?

***Sual:*** Gəl başımı yozma, dedi,
Yol-ərkanı azma, dedi,
Öz əhdini pozma, dedi,
Bizə şeir yazmısanmı?

***Cavab:*** Dedim səni görən zaman,
Saçlarını hörən zaman,
Tər qönçədən dərən zaman,
Məgər şeir deyildirmi?

***Cəmil Əkbər*** 15. 09 – 1959

## 147. AYAQ DÜZ YERİ

*I variant*

Yol yoxuşsa, enişsədə,
Ayaq düz yeri, düz yeri.
Dar keçidsə, genişsədə,
Ayaq düz yeri, düz yeri.

Hərbir səmtə yol ayrılır,
Neçə-neçə qol ayrılır.
Sağ ayrılır, sol ayrılır,
Ayaq düz yeri, düz yeri.

Qədəm qoyma əyri yola,
Düşmə qovğa qilüqala.
Elə get ki, xeyri ola,
Ayaq düz yeri, düz yeri.

Qafil olma, bir an naşı,
Ətəyindən tökün daşı,
Gəl axıtmaynan gözyaşı,
Ayaq düz yeri, düz yeri.

Aldanmaynan fitnə-gelə,
Yalan sözə, saxta dilə.
İnsaf eylə, mürvət eylə,
Ayaq düz yeri, düz yeri.

Ölüm eydir yaman addan,
Ah-nalədən, fəqan addan,
Cahil addan, nadan addan,
Ayaq düz yeri, düz yeri.

Yoxdu fayda əyri yoldan,
Özgə yoldan, qeyri yoldan.
Görənməzsən xeyri yoldan,
Ayaq düz yeri, düz yeri.

Doğru yoldan aralanma,
Nə şəklənmə, qaralanma.
Bostan kimi uralanma,
Ayaq düz yeri, düz yeri.

Səadət də düzlükdədir,
Sadaqət də düzlükdədir.
Səxavət də düzlükdədir,
Ayaq düz yeri, düz yeri.

Doğru yolu getmək eydir,
Kim qanmasa, bilsin keydir.
Gicbəsərdir, ya da səydir,
Ayaq düz yeri, düz yeri.

Düz gedənlər yorulmayır,
Sağa-sola burulmayır,
Getsə dizi qırılmayır,
Ayaq düz yeri, düz yeri.

Eşit, dinlə Cəmili sən,
Görüb götür dəlili sən.
İncitməynən zəlili sən,
Ayaq düz yeri, düz yeri.

***Cəmil Əkbər*** 20. 02 – 1991

## 148. AYAQ DÜZ YERİ

*II variant*

Doğru yoldan aralanma,
Ayaq düz yeri, düz yeri.
Ondan bundan qaralanma,
Ayaq düz yeri, düz yeri.

Əyri yoldan yoxdur fayda,
Yoxdur çörək, yoxdur çay da.
Yoxdur sovqat, yoxdur pay da,
Ayaq düz yeri, düz yeri.

Addımını hirsli atma,
Qəzəblənib xırslı atma,
Qərəz ilə qəsdlə atma,
Ayaq düz yeri, düz yeri.

Əyri yolun sədası pis,
Qal-qovğası, qadası pis,
Adı-sanı, ədası pis,
Ayaq düz yeri, düz yeri.

El-obada gəl ad qazan,
Qohum-qardaş, dost, yad qazan,
Göstər yardım, imdad qazan,
Ayaq düz yeri, düz yeri.

Gəz dünyanı hörmətinlə,
İnsafınla, mürvətinlə,
Bu mənəvi sərvətinlə,
Ayaq düz yeri, düz yeri.

Düz gedənlər ucalırlar,
Zəfər çalıb bac alırlar,
El-obadan güc alırlar,
Ayaq düz yeri, düz yeri.

Elə dolan ləyaqətlə,
Ədəb-ərkan nəzakətlə.
Sədaqətlə, səxavətlə,
Ayaq düz yeri, düz yeri.

Gəzmə eldə məzəmmətlə,
Kin-küdurət, ədavətlə,
Cəhalətlə, qəbahətlə,
Ayaq düz yeri, düz yeri.

Şərafət də düzlükdədir,
Təravət də düzlükdədir,
Məharət də düzlükdədir,
Ayaq düz yeri, düz yeri.

Sədaqətdən əsər olmaz,
Səxavətdən kəsər olmaz,
Doğru getsən kəsir olmaz,
Ayaq düz yeri, düz yeri.

Ləyaqətlə ad qazanaq,
Qohum-qardaş, yad qazanaq,
Kef-damaqla şad qazanaq,
Ayaq düz yeri, düz yeri.

Nəzakət də artar inan,
Ədalət də artar inan,
Həqiqət də artar inan,
Ayaq düz yeri, düz yeri.

Doğru getsən el baş əyər,
Günlər, aylar, il baş əyər,
Dəhan, dodaq, dil baş əyər,
Ayaq düz yeri, düz yeri.

Düz getməsən yorularsan,
Sağa-sola burularsan,
Vaxt-vədəsiz qırılarsan,
Ayaq düz yeri, düz yeri.

Haqqa sarı qədəm qoyun,
Çıxartmayın yersiz oyun,
Əyri yoldan daha, doyun,
Ayaq düz yeri, düz yeri.

Qafil olma gəl bixəbər,
Gör nə deyir Cəmil Əkbər?
Oxu, öyrən onu əzbər,
Ayaq düz yeri, düz yeri.

***Cəmil Əkbər*** 20-25. 02 – 1991 7. 04 -1993

## 149. QOYAYDIM

Qadir Allah elə qüdrət verəydi,
Hərkəsdəni öz yerinə qoyaydım.
İşimdə, gücümdə nüsrət verəydi,
Tapa bilib düz yerinə qoyaydım.

Seyr eyləyib uzaqları görəydim,
Dəyərlərə düzgün qiymət verəydim.
Hər işimi məqamında görəydim,
Gecikmədən tez yerinə qoyaydım.

İnsan övladını kama yetirəm,
Eşq-həvəs, min ilhama gətirəm,
Ünsiyyət-ülfəti tama gətirəm,
Süfrə açıb düz yerinə qoyaydım.

Əl uzadıb yardım edəm ellərə,
Peyvənd vuram bağçalarda güllərə,
Heyran olam çəmənlərə, çöllərə,
Dərin-dayaz, üz yerinə qoyaydım.

Bəd əsməsin üstümüzdən küləklər,
Boğulmasın nəcib arzu, diləklər.
Qan qaralıb sıxılmasın ürəklər,
Sağlam edib saz yerinə qoyaydım.

Cəmil Əkbər deyə bilə sözünü,
Ləyaqətə yummayaydı gözünü,
Ağ edəydi el içində üzünü,
Nəzər salıb göz yerinə qoyaydım.

***Cəmil Əkbər*** 25. 12. – 1995

## 150. TƏKCƏ-TƏNHA QOYANMARAM

Qorxuram ki, qəm çəkərsən,
Səni tənha buraxmaram.
Zildən düşüb bəm çəkərsən,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Çatdayarsan, yarılarsan,
İçin-için qırılarsan,
Taleyinə darılarsan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Ürəyinə xal da düşər,
Qovğa düşər, qal da düşər,
İnildəyən val da düşər,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Tez pozular kef-damağın,
Gedər əldən gözəl çağın.
Saralıb solar yanağın,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Həsrətimə dözənməzsən,
Məndən ayrı gəzənməzsən,
Al geyinib bəzənməzsən,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Məndən ayrı ağlayarsan,
Başa qara bağlayarsan,
Sinən üstün dağlayarsan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Könlüm qalar intizarda,
Bu səfərdə, bu güzarda.
Ümid yoxdur beh-bazarda,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Tənhalıqda darıxarsan,
Büdrəyərsən, yıxılarsan,
Üzülərsən, sıxılarsan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram

Xidmətində kimsə dumaz,
Kef-halını kimsə sormaz.
Heç özünü kimsə yormaz,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Qamətini dərd-qəm əyər,
Xətirinə dəyən dəyər,
Geyən geyər, yeyən yeyər,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Xəzan vurub soluxarsan,
Kövrələrsən, doluxarsan,
Bilməm hara yoluxarsan?
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Xiffət çəkib darıxarsan,
Üzülərsən, sıxılarsan,
Büdrəyərsən, yıxılarsan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Qəribliklə yoxdur aram,
Sən hardasan, orda varam,
Zər olana xiridaram,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Ayrılığa dözmür ürək
Dözmür sütun, dözmür dirək,
Dözmür əlim-qolum, bilək,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Naz-qəmzənə dözən olmaz,
Duyan olmaz, sezən olmaz,
Qəm göləndə üzən olmaz,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Sən həmişə mənimləsən,
Gün-güzəran, şənimləsən,
Hay-küyümlə ünümləsən,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Ayrılıqda kim nə tapıb?
Kim nə tikib, nələr yapıb?
Qayaları de kim çapıb?
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Tək əlin də səsi çıxmır,
Sovqatı, müjdəsi çıxmır,
Nə eşqi-həvəsi çıxmır,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Neyləyimki uzaqdasan?
İstidəsən, sazaqdasan,
Bakıdasan, Qazaxdasan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Uzaqlaşma yanıma gəl,
Zülalıma, şanıma gəl,
Damarıma, qanıma gəl,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Harda olsan səninləyəm,
Qarda olsan səninləyəm,
Gorda olsan səninləyəm,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Hər fəsildə yanımdasan,
İliyimdə, canımdasan,
Şərəf, şöhrət şanımdasan,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Yaşayırsan ürəyimdə,
Nəcib arzu-diləyimdə,
Ələnirsən ələyimdə,[12]
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Harda olsan gözümdəsən,
Dilimdəsən, sözümdəsən,
Yolumdasan, izimdəsən,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

Səni hara buraxaram?
Bil ki, sənsiz darıxaram.
Vargəl edib vurnuxaram,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

---

[12] Ağrın gəzir kürəyimdə.

Cəmil Əkbər sənə heyran,
Onda, indi, yenə heyran,
Gəl sən də ol mənə heyran,
Səni yalqız buraxmaram,
Təkcə-tənha qoyanmaram.

***Cəmil Əkbər*** 15. 01 – 1985, 5. 02 – 1995

## 151. ÜRƏYİM

Bir zamanlar dağ-dərələr aşardın,
Ay mənim yorulan, sönən ürəyim.
Bulaq kimi qaynayardın, coşardın,
Ay mənim zirvədən enən ürəyim.

Vaxt var idi sədaqətdən deyərdin,
Ədəb-ərkan, mərifətdən deyərdin.
İnsanlıqdan, ləyaqətdən deyərdin,
Ay mənim buz kimi donan ürəyim.

Bir vaxt vardı yaradardın, qurardın,
Gecə-gec yatardın, tezdən durardın,
Axtarardın, dost-tanışı arardın,
Ay mənim düşünüb, qanan ürəyim.

Bir zamanlar etibardan yazardın,
Əhdi-peyman, düz ilqardan yazardın,
Əl çatmayan şah vüqardan yazardın,
Ay mənim şüşətək sınan ürəyim.

Vaxt var idi dost bilirdin hamını,
Yandırardın haqdan yanan şamını,
Böyləliklə ötürərdin kamını,
Ay mənim qısqanıb, sinən ürəyim.

Bir vaxt vardı şənlənərdin, gülərdin,
Ağlayanın gözyaşını silərdin,
Çox könüldən keçənləri bilərdin,
Ay mənim kiriyib, dinən ürəyim.

Bir zamanlar məhəbbətə qul idin,
İnsaf-mürvət kəramətə qul idin.
Nəcibliyə, nəzakətə qul idin,
Eşqi-məhəbbəti danan ürəyim.

Niyə danışmırsan, neyçün susmusan?
Kimdən incimisən, kimdən küsmüsən?
Hansı ətəklərdən əli kəsmisən,
Ay mənim şam kimi yanan ürəyim.

Sən Cəmil Əkbərin sinəsindəsən,
Bahar təbiətli nəfəsindəsən,
Haqqın, ədalətin həvəsindəsən,
Ay mənim arayıb, anan ürəyim.

***Cəmil Əkbər*** 29. 08 – 1990

## 152. ÜRƏYİMİ

Qadir Allah budur səndən diləyim,
Təpəyə döndərmə dağ ürəyimi.
Hayanda olsam da sən ol köməyim,
Vurub zədələmə, sağ ürəyimi.

Yetişsin meyvəsi barı çox olsun,
Alması, heyvası, narı çox olsun.
Namusu, qeyrəti arı çox olsun,
Kol-kosa çevirmə bağ ürəyimi.

Ellərin içində fərəhlə gəzim,
Uğurlu güzarla, səfərlə gəzim.
Hünərlə, təpərlə, zəfərlə gəzim,
Salma ləkələrə ağ ürəyimi.

Dövrü-zəmanədə kefimi pozma,
Qazancı, gəliri, nəfimi pozma.
Zurna, qavalımı, dəfimi pozma,
Əriyib, çürütmə yağ ürəyimi.

Gözəl günlərimi qəmə döndərmə,
Zildən pəsə salıb, bəmə döndərmə.
Gözümün didəsin nəmə döndərmə,
Pozma əhvalımı, çağ ürəyimi.

Kökü bir olsa da, min butaq olsun,
Yüz min saray olsun, min otaq olsun,
Qoy Cəmil ellərdə bu sayaq olsun,
Məhsulsuz eyləmə tağ ürəyimi.

***Cəmil Əkbər*** 27. 10 – 1995

## 153. ÜRƏYİMDƏSƏN

Gözlərin gözümdən uzaq olsa da,
Qəlbimdə yerin var, ürəyimdəsən,
Məhəbbət bağımda sazaq olsa da,
Arzu-istəyimdə, diləyimdəsən.

Bilirəm eşqini, məhəbbətini,
Əhdini, andını, sədaqətini,
Ədəb-ərkanını, nəzakətini,
Sanıram işimdə, əməyimdəsən.

Sən mənim eşqimdə, məhəbbətimdə,
Dözüm-durumumda, dəyanətimdə,
Fəhmim, fərasətim, ləyaqətimdə,
Qolumda, dizimdə, biləyimdəsən.

Süzülüb qəlbimə nəyaman axdın?
Çevrilib üzümə ay aman baxdın,
Atdın yay-oxunu, kamanı taxdın,
Xəlbirim, şadaram, ələyimdəsən.

Sən mənim varlığım, taleyim, bəxtim,
Eşqin sarayında qurulu təxtim,
Yarım-yaraşığım, bəzəyim, rəxtim,
Didəmdə, gözümdə, eynəyimdəsən.

Nəqədər canımda canım var gülüm,
Döyünən qəlbim var, qanım var gülüm,
Zülalım, şəkərim, şanım var gülüm,
Qolum, qanadımda, lələyimdəsən.

Könül dəftərimdə saxlaram səni,
Hərzaman yad edib, yoxlaram səni,
Qönçə bənövşətək qoxlaram səni,
Məhəbbət nənnimdə, bələyimdəsən.

Nəqədər əhdim var, düz ilqarım var?
Əyilmək bilməyən şah vüqarım var?
Özümün-özümə ixtiyarım var?
Sanıram hərzaman köməyimdəsən.

***Cəmil Əkbər*** 15. 09 - 1993

## 154. ÜRƏYİMDƏDİR

Dostlar ürəyimi boş anlamayın,
Əyri düşünməyin, çaş anlamayın,
Arzusuz, istəksiz daş anlamayın,
Dünyanın möhnəti ürəyimdədir.

Mənəm zəmanənin qaya çapanı,
Kərəmi, Məcnunu, Fərhad, Sənanı,
Eşqə məftun olan donuz çobanı,
Ülvi-məhəbbəti ürəyimdədir.

Əzəldən vurğunam elin sözünə,
Onun tərəzisi, onun gözünə,
Onun cığırına, onun izinə,
Namusu, qeyrəti ürəyimdədir.

Şirətək çəkilib sorulmamışam,
Bükülüb kökündən qırılmamışam,
Əzilib, sıxıllıb yorulmamışam,
Ellərin cürəti ürəyimdədir.

Xəyalım dolanır aranı, dağı,
Axtarır, arayır bağçanı, bağı.
Gözəldi, qəşəngdi gəncliyin çağı,
İşığın sürəti ürəyimdədir.

Cahilin ədası, nadanın sözü,
Yandırır qəlbimi ocağı, közü,
Namərdin astarı, mərdlərin üzü,
Sərrafın qiyməti ürəyimdədir.

***Cəmil Əkbər***

## 155. ÜRƏYİM MƏNİM

El-oba eşqinə, Vətən eşqinə,
Vuran ürəklərdir, ürəyim mənim.
Dar gündə haraya yetən eşqinə,
Quran ürəklərdi, ürəyim mənim.

Doğru-düzlük həqiqətin eşqinə,
İnsaf-mürvət, kəramətin eşqinə,
Sədaqətin, səxavətin eşqinə,
Duran ürəklərdi, ürəyim mənim.

Müqəddəs saxlayan ağsaqqalını,
Dərin düşüncəli pürkamalını.
Dərdbilən, hal-əhli, nur camalını,
Soran ürəklidi, ürəyim mənim.

Ülvü-istək məhəbbətdən ötəri,
Xeyirxahlıq, fəzilətdən ötəri.
Ədəb-ərkan, nəzakətdən ötəri,
Yoran ürəklərdi, ürəyim mənim.

Ay Cəmil, qəbahət zəncirlərini,
Küdurət, ədavət zəncirlərini,
Nadanlıq, cəhalət zəncirlərini,
Qıran ürəklərdi, ürəyim mənim.

***Cəmil Əkbər*** 21. 10 - 1994

## 156. ÜRƏK VAR

Ürək var, nə desən əsər eyləməz,
Etibar göstərməz kəsər eyləməz.

Ürək var anlayır, düşünür, qanır,
Böyüyü-kiçiyi yad edib anır.

Ürək var soyuyub, buz kimi donub,
Eləbil qar-çovğun başına qonub.

Ürək var alışıb od kimi yanır,
Eşqi-məhəbbəti qoşa dayanır.

Ürək var ağlayır, dərdi-qəm çəkir,
Havadan, buluddan sorub nəm çəkir.

Ürək var düşünmür, anlamır, qanmır,
Dünya alışsada bir tükü yanmır.

Ürək var min dəfə boşalıb dolur,
Çiçəktək açılıb, gül kimi solur,

Ürək var qaynayan coşğun bulaqdır,
Sədaqət, səxavət calaq-calaqdır.

Ürək var vurmayıb dursa yaxşıdır,
Ürək var yaşayıb qursa yaxşıdır.

Ürək var ürəklər calanasıdır,
Ürək var oduntək qalanasıdır.

Ürək var eləbil cənnət bağıdır,
Ürək var bəladır, sinə dağıdır.

Ürək var içindən karvanlar keçə,
Eşq-məhəbbətlə sarvanlar keçə.

Ürək var üstündən yol açılmayıb,
Məhəbbət gülləri bol açılmayıb.

Ürək var ürəklər dayağıdır o,
Ürək var şan-şəhrət mayağıdır o.

Ürək var ki, ürəklərin naxışıdır,
Arzuların, diləklərin baxışıdır.

Ürək var ki, heyvan ondan yaxşıdır,
Çoşqa nədir, "kaban" ondan yaxşıdır.

Ürək var ki, o zirəkdən zirəkdir,
Yol göstərir, o hamıya gərəkdir.

Ürək var ki, əriməyib buzu heç,
Tək birinə bərabər döy, yüzü heç.

Ürək var ki, məhəbbətlə döyünür,
İlqar, iman, sədaqətlə döyünür.

Ürək də var nifrət ilə döyünür,
Qəzəb ilə, hiddət ilə döyünür.

Ürək var ki, sədaqətə yol açır,
İnsanlığa, ləyaqətə yol acır,

Ürək də var xəyanətə yol açır,
Avamlığa, cəhalətə yol açır.

***Cəmil Əkbər***

## 157. ƏSL ÜRƏK

Əsl ürək o ürəkdir,
Məhəbbətlə o döyünür.
Döyəcləmir nala, mıxa,
Sədaqətlə o döyünür.

Haqdan ayrı gəzə bilmir,
Tab gətirib dözə bilmir,
Kef-damaqlar, məzə bilmir,
Ədalətlə o döyünür.

Kəc xəyallar çaşdırmayır,
Hüdudunu aşdırmayır,
Qaynatmayır, daşdırmayır,
Həqiqətlə o döyünür.

Sayır, seçir ağsaqqalı,
Dərdbiləni, əhlihalı.
Artırmayır dərd-məlalı,
Nəzakətlə o döyünür.

Unutmayır kəraməti,
Hatəmdəki səxavəti,
Xeyirxahlıq fəziləti,
Şərafətlə o döyünür.

İnsanları bezdirməyir,
Dağı-daşı gəzdirməyir,
Müsibətə dözdürməyir,
Mərhəmətlə o döyünür.

El üstündə zil köklənib,
Müxək, darçın, hil köklənib,
Oxu, öyrən, bil köklənib,
Cəmiyyətlə o döyünür.

Qan qaraltmır, evlər yıxmır,
Oğrun-oğrun xain baxmır,
Heçkimsəyə qənim çıxmır,
Keyfiyyətlə o döyünür.

Gecə-gündüz o yatmayır,
Şər deyib, ara qatmayır.
Mərdi-namərdə satmayır,
Cəsarətlə o döyünür.

Əsl ürək o ürəkdir,
Çirkinlikdən uzaqdadır,
Yersiz-yersiz  lovğalıqdan,
Xudbinlikdən uzaqdadır.

Gecə-gündüz dərk eyləyir,
Avamlığı tərk eyləyir,
Çoxlarına görk eyləyir,
Nadanlıqdan uzaqdadır.

Meyl etməyir naqisliyə,
Acgözlüyə, hərisliyə,
Xainliyə, xəbisliyə,
Bədniyyətdən uzaqdadır.

O xoşlayır məlahəti,
Tər qönçədə təravəti,
Ünsiyyətdə hərarəti,
Nəs adətdən uzaqdadır.

Əsl ürək o ürəkdir,
Cahillərdən gendə durur,
Daldalarda, tində durur,
Qəbahətdən uzaqdadır.

Ömürboyu böhtan bilmir,
İblis, əqrəb, şeytan bilmir.
Vicdan, məslək satan bilmir,
Xəyanətdən uzaqdadır.

Əsl ürək o ürəkdir,
O arzudur, o diləkdir.
O xidmətdir, o köməkdir,
Fəlakətdən uzaqdadır.

Əsl ürək o ürəkdir,
Cəmil, o təbib, loğmandır,
O qərardır, o fərmandır,
Müsibətdən uzaqdadır.

***Cəmil Əkbər*** 18. 09 – 1996

## 158. ÜRƏK DÖZMÜR

Ürək dözmür hiyləgərə, dələduza,
Soyuqqanlı biganəyə, qəlbi buza.

Ürək dözmür nə qəzəbə, küdurətə,
Giley-güzar çəkişməyə, ədavətə.

Ürək dözmür nadanlığa, cəhalətə,
Xəta-bəla, nöqsanlara, qəbahətə.

Ürək dözmür sərsəriyə, giclərə də,
Xainlərə, xəbislərə, kəclərə də,
Fırıldağa, kələkbaza, biclərə də,
Tərsəməssəb inadlara, öclərə də.

Ürək dözmür yaramaza, pislərə də,
Bədxahlara, zalımlara, nəslərə də.
İşi başqa, sözü başqa olanlara,
Yolu başqa, izi başqa olanlara.

Ürək dözmür ilqarına dönüklərə,
El malını talayana, əniklərə,
Saxtalara, müqəvvaya, yalançıya,
Dağıdana, sökənlərə, talançıya.

Ürək dözmür ədaləti boğanlara,
Doğruluğu, həqiqəti boğanlara,
İnsanlığı, ləyaqəti boğanlara,
Ədəb, ərkan nəzakəti boğanlara,

Ürək dözmür cahillərə, nadanlara,
Haqqısayı sümürərək udanlara,
Tərbiyədən alayarı dadanlara,
Addımını tərsəməssəb adanlara.

Ürək dözmür acgözlərə, hərislərə,
Nanəcibə, naməirdlərə, xəbislərə.

Ürək dözmür, dözə bilmir əyriliyə,
Dönüklüyə, süniliyə, qeyriliyə.

Ürək dözmür, dözə bilmir xəyanətə,
Çəkişməyə, didişməyə, ədavətə.

Ürək dözmür, dözə bilmir cinayətə,
Dedi-qodu, giley-güzar, şikayətə.

Ürək dözmür, dözə bilmir gədəliyə,
Əqli-kəmə, sərsəriyə, zədəliyə.

Ürək dözmür, dözə bilmir ədəbaza,
Lovğalara, danbatlara, modabaza.

Ürək dözmür, dözə bilmir naqqallara,
Ucuz alıb, baha satan baqqallara,
Dadamala, gödən yırtan çaqqallara,
Möhtəkirə, alverçiyə, dəllallara.

Ürək dözmür, dözə bilmir cəhalətə,
Zalımlığa, qəddarlığa, rəzalətə.

***Cəmil Əkbər*** 1. 04 – 1993

## 159. AXTAR

Heçkəsdən özünə haray gözləmə,
Hərnə istəyirsən özündə axtar.
Qəsrlər, qalalar, saray gözləmə,
Axtarıb yolunda, izində axtar.

Taledən inciyib bəxtindən küsmə,
Tacından əl çəkib, təxtindən küsmə.
Geyimdən, keçimdən, rəxtindən küsmə,
Yalan-yanlıcında, düzündə axtar.

Gül-çiçək gözləmə qış aylarından,
Kotansız, dırmıqsız xış aylarından,
İş-güc aylarından, boş aylarından,
Baharın fəslində, yazında axtar.

Hamı verənməyir ana laylası,
Ananın fəryadı, ana naləsi.
Ana gül-çiçəyi, ana laləsi,
Get ana ərkində, nazında axtar.

***Cəmil Əkbər***

## 160. AXTARIR

Könül quşum qalxıb abı-havaya,
Çarəsiz dərdlərə dərman axtarır.
Zülmə, əziyyətə, qala, qovğaya,
Son qoyan müqəddəs fərman axtarır.

Oxuyun, öyrənin, tanıyın bilin,
Havayı gözyaşı tökməyin, silin.
Qəfəs düşmənidir şeyda bülbülün,
Özünə azadlıq, orman axtarır.

Könlüm müştaq olub haqq-ədalətə,
Çalışır son qoya hər səfalətə,
Söyür avamlığa, hey cəhalətə,
Dərdinə hal olan loğman axtarır.

Azadlıq, səadət carçısı oldum,
Bəzən gül açaraq, bəzən də soldum,
Bir yandan axaraq, bir yandan doldum,
Cəmil qəvvas olub, ümman axtarır.

***Cəmil Əkbər*** 1958

## 161. AXTARIRIQ

Yalanlardan cana doyub,
Ədaləti axtarırıq.
Cəsəddəki qana doyub,
Həqiqəti axtarırıq.

Qəbahətdə bezə-bezə,
Müsibətə dözə-dözə,
Dağı-daşı gəzə-gəzə,
Səadəti axtarırıq.

Ünsiyyəti poza-poza,
Düzü tərsə yoza-yoza,
Şər-böhtanı yaza-yaza,
Nəzakəti axtarırıq.

Əzazıllıq edə-edə,
Tərsə-məssəb gedə-gedə,
Onu-bunu güdə-güdə,
Saf niyyəti axtarırıq.

Seçilməyir yaxşı pisdən,
Gümüş, qalay, qızıl, misdən,
Ayrılmayır qərəz-qəsdən,
Fəziləti axtarırıq.

İlqarından dönə-dönə,
Zirvələrdən enə-enə,
Orda-burda sinə-sinə,
Məharəti axtarırıq.

Bu dünyanı sezə-sezə,
Canımızı üzə-üzə,
Sinə gərib dözə-dözə,
Sədaqəti axtarırıq.

Yaxşıya pis qata-qata,
Günahlara bata-bata,
İnsafını ata-ata,
Nihayəti axtarırıq.

Gecə-gündüz Cəmil Əkbər,
Oxu, öyrən ver bir xəbər,
Düşün, dərk et, yaz müxtəsər,
Səxavəti axtarırıq.

***Cəmil Əkbər*** 22. 01 – 1998

## 162. AXTARIRAM

Haçandan gəzirəm mən bu elləri,
Bülbüləm bağlarda gül axtarıram.
Axtardım, aradım dərin gölləri,
Qəvvasam dəryada ləl axtarıram.

Ömürdən nəqədər gün yola saldım,
Qəmgin yola saldım, şən yola saldım.
Duman yola saldım, çən yola saldım,
Zəfəran, zəncəfil, hil axtarıram.

Ağardı saqqalım, ağardı başım,
Tutuldu qabağım, çatıldı qaşım.
Dağıldı qalmadı, xəyalım, huşum,
Səksənə çatmağa il axtarıram.

Vətənimin hər diyarı gözəldir,
Cah-cəlalı, küllü-varı gözəldir,
Təzə-təzə hər nübarı gözəldir,
Muğan axtarıram, Mil axtarıram.

Basmasın tarlanı alaq otları,
Gicitkansayağı dalaq otları,
Tikanlar, qanqallar, ulaq otları,
Torpaq şumlamağa bel axtarıram.

Dəyməsin qəlbimə nadan, sərsəri,
Özümə gəlmirəm haçandan bəri.
Tapılmır sözümə layiq müştəri,
Ruhumu oxşayan dil axtarıram.

Şirincə kəlamlar, söz həvəsliyəm,
Məni ram eyləyən göz həvəsliyəm,
Köklənib çalmağa saz həvəsliyəm,
Ən zərif, ən incə tel axtarıram.

Cahil, sərsərilər bezdirib məni,
Salıb əziyyətə dözdürüb məni.
Dağları-daşları gəzdirib məni,
Qərq olub getməyə sel axtarıram.

Qaralıb, qarsıxıb, tüstülənmişəm,
Tablaşa bilməyib, xəsdələnmişəm.
Darıxıb nəyaman istilənmişəm?
Sərin meh gəzirəm, yel axtarıram.

Zəmanə bəd gəlib, qəmim çoxalıb,
Zilim kökdən düşüb, bəmim çoxalıb.
Əyərim, əksiyim, kəmim çoxalıb,
Üzməyə dərya yox, göl axtarıram.

***Cəmil Əkbər*** 24. 12 -1995

## 163. AXTARIRAM

Hər insanın əməlində,
Bünövrəsi, təməlində,
Doğulduğu nəsilində,
Dədə-baba əsilində,
Mən şərafət axtarıram,
Mən ləyaqət axtarıram.

Hərbirkəsin ülfətində,
Sözlərində, söhbətində,
Abırında, ismətində,
Nəki varsa xislətində,
Mən nəzakət axtarıram,
Mən fəzilət axtarıram.

Hərbirkəsin ürəyində,
Arzusunda, diləyində,
Xəlbirində, ələyində,
Qanadında, lələyində,
Mən gözəllik axtarıram,
Mən lətafət axtarıram.

Oturanda, duranda da,
Yaradanda, quranda da,
Sifətində, üzündə də,
Yolağında, izində də,
Mən məlahət axtarıram,
Mən fərasət axtarıram.

Cavanda da, qocada da,
Mövqeyində ucada da,
Bacıda da, qardaşda da,
Taytuşda da, yoldaşda da,
Mən məharət axtarıram,
Mən cəsarət axtarıram.

Obamızda, elimizdə,
Bağımızda, gülümüzdə,
Yerdə-göydə, cəmiyyətdə.
Kainatda, təbiətdə,
Mən hərarət axtarıram.
Mən lətafət axtarıram,

Hər arzuda, hər niyyətdə,
Dəyərlərə hər qiymətdə,
Seyrə çıxıb gəzməkdə də,
Möhübləri düzməkdə də,
Mən fərasət axtarıram,
Mən xoş halət axtarıram,

İnsanların kamalında,
Əqidəsi, amalında,
Tutarında, sambalında,
Qocasında, cahalında,
Mən sədaqət axtarıram,
Mən səxavət axtarıram.

Qoy itməsin haqqısaylar,
Nə sovqatlar, nə də paylar,
Süfrə-çörək, nə də çaylar,
Gözəl keçsin hərbir aylar,
Mən xoş adət axtarıram,
Mən səadət axtarıram.

***Cəmil Əkbər*** 3. 04 – 1991

## 164. VƏHDƏTİNİ AXTARIRAM

Amalınla amalımın,
Kamalınla kamalımın,
Camalınla camalımın,
Vəhdətini axtarıram.

Xislətinlə-xislətimin,
Qismətinlə-qismətimin,
İsmətinlə-ismətimin,
Vəhdətini axtarıram.

Naxışınla naxışımın,
Baxışınla baxışımın,
Çıxışınla-çıxışımın,
Vəhdətini axtarıram.

Qeyrətinlə qeyrətimin,
Cürətinlə cürətimin,
Sürətinlə sürətimin,
Vəhdətini axtarıram.

Dəyərinlə dəyərimin,
Qiymətinlə qiymətimin,
Zinətinlə zinətimin,
Vəhdətini axtarıram.

Hörmətinlə hörmətimin,
Sərvətinlə sərvətimin,
Şöhrətinlə şöhrətimin,
Vəhdətini axtarıram.

Duruşunla-duruşumun,
Qaçışınla-qaçışımın,
Uçuşunla-uçuşumun,
Vəhdətini axtarıram.

Fəsilinlə-fəsilimin,
Əsilinlə-əsilimin,
Nəsilinlə nəsilimin,
Vəhdətini axtarıram.

Gərdişinlə-gərdişimin,
Vərdişinlə-vərdişimin,
Adətinlə-adətimin,
Vəhdətini axtarıram.
Tapanmıram, tapanmıram.

***Cəmil Əkbər*** 1970

## 165. AXTARMASIN

Ünsiyyət-ülfəti pozan nadürüst,
Dilimdə, sözümdə yer axtarmasın.
Şər-böhtan danışıb yazan naxələf,
Yolumda-izimdə yer axtarmasın.

İnsafı-mürvəti atan gədələr,
Vicdanı, məsləki satan gədələr,
Qərq olub qəflətdə yatan gədələr,
Didəmdə, gözümdə yer axtarmasın.

Haqqa-ədalətə kəc olan kəslər,
Xəyanət eyləyən, öc olan kəslər,
İtirib əqlini gic olan kəslər,
Qışımda, yazımda yer axtarmasın.

Haqqısayı sümürənlər, udanlar,
Təlim-tərbiyədən yarı dadanlar,
Yolu-izi tərsəməssəb adanlar,
Dağımda-düzümdə yer axtarmasın.

Kimki, ləyaqəti görmək istəmir,
Onun bəhrəsindən dərmək istəmir,
Aldığı borcları vermək istəmir,
Torbamda, duzumda yer axtarmasın.

Eşqə-məhəbbətə dönük olanlar,
Hər səmtə üz tutub, yönük olanlar,
Namusa, qeyrətə ənik olanlar,
Odumda-közümdə yer axtarmasın.

İşarə anlayıb göz qanmayanlar,
Oxuyub öyrənib söz qanmayanlar,
Mənanı-mətləbi düz qanmayanlar,
Tarımda, sazımda yer axtarmasın.

Yaxşını-yamandan seçə bilməyən,
Mərifət şərbətin içə bilməyən,
Şərəflə dünyadan keçə bilməyən,
Ərkimdə, nazımda yer axtarmasın.

Kimki, darılırsa kölgəmə mənim,
Dişini qıcayır dingəmə mənim,
Gözünü tikirsə bölgəmə mənim,
Çoxumda, sazımda yer axtarmasın.

Tarlanı bürüyən alaq otları,
Gicitkənsayağı dalaq otları,
Tikanlar, qanqallar, ulaq otları,
Qajımda, bazımda yer axtarmasın.

Lovğa, yekəxana, ədabaz kəslər,
Özümdən bədgüman, modabaz kəslər,
Hiyləgər, dələduz, kələkbaz kəslər,
Astarım, üzümdə yer axtarmasın.

Namusunu, qeyrətini atanlar,
Namərdliklə məqsədinə çatanlar,
Şər danışıb aralığı qatanlar,
Oğlumda, qızımda yer axtarmasın.

Ay Cəmil, hərkəslə oturub durma,
Hər yetən kəslərlə yaratma, qurma.
Özgəni incidib, özünü yorma,
Qoy ipək, bezimdə yer axtarmasın.

***Cəmil Əkbər*** 13. 11 – 1992

## 166. QALACAQSAN?!

Ay Vətəndaş nəvaxtacan?!
Cəhalətdə qalacaqsan.
Anlamayıb haçanacan?!
Qəbahətdə qalacaqsan.

Nəvaxtacan susacaqsan?
Yediyini qusacaqsan,
Orda-burda pusacaqsan,
Üfunətdə qalacaqsan?!

Qəflətlərdə yata-yata,
Günahlara bata-bata,
Vicdanını sata-sata,
Ədavətdə qalacaqsan?!

Düşəcəksən əyri yola,
Haqdan dönüb, qeyri yola,
Kim verəcək xeyri yola?
Cinayətdə qalacaqsan?!

Uyacaqsan naqisliyə,
Xainliyə, xəbisliyə,
Acgözlüyə, hərisliyə,
Küdurətdə qalacaqsan?!

İnsanlıqdan qaça-qaça,
Özgə yurda köçə-köçə,
Qanad alıb uça-uça,
Müsibətdə qalacaqsan?!

Nəvaxtacan cılızlaşıb?
Məzlumlaşıb, yalqızlaşıb?
Həqiqətdən uzaqlaşıb,
Səfalətdə qalacaqsan?!

Aralığı qata-qata,
Şər işləri tuta-tuta,
İnsafını ata-ata,
Zəlalətdə qalacaqsan?!

Veyil-veyil, gəzə-gəzə,
Sinə gərib dözə-dözə,
Ürəyini üzə-üzə,
Şikayətdə qalacaqsan?!

Sataşaraq ona-buna,
Düşəcəksən dondan-dona,
Solacaqsan sondan-sona,
Əziyyətdə qalacaqsan?!

Eşitməyib Cəmili sən,
Kök sahibi, əsili sən,
Gül-çiçəkli fəsili sən,
Bədniyyətdə qalacaqsan?!

***Cəmil Əkbər*** 24. 08 – 1994

## 167. ƏLLƏRİM

Səni and verirəm duz-çörəyimə,
Yol göstərmə hər nadana əllərim.
Təmiz vicdanıma, pak ürəyimə,
Bais olma nahaq qana əllərim.

Dağıtmaqdan, talamaqdan uzaq ol,
Onu-bunu dolamaqdan uzaq ol,
Altdan-altdan qalamaqdan uzaq ol,
Gözəllik ver bu cahana əllərim.

Hər yetənlə ülfət edib, durma gəl,
Karvanını axıradək sürmə gəl,
Əhval tutub kef-halını sorma gəl,
Gətirginən bir bəhanə əllərim.

Bəd fikirdən, bədniyyətdən uzaqlaş,
Giley-güzar hər qeybətdən uzaqlaş,
Dedi-qodu, şikayətdən uzaqlaş,
Nəzər yetir haq-divanə əllərim.

Abırla, ismətlə, hörmətlə yaşa,
İnsafla, vicdanla, mürvətlə yaşa,
Namusla, iffətlə, qeyrətlə yaşa,
Yadigar qoy bir nişana, əllərim.

Güclü olsan gücsüzləri yada sal,
Varlı ikən kasıbları yada sal,
Atlısansa piyadanı yada sal,
Aldanmaynan şöhrət-şana əllərim.

Ay Cəmil yaşayıb elə qocalkı?
Elə hünər göstər, elə ucal kı?
Elə zəfər çalıb, elə bac al kı?
Unutmasın qoy zəmanə, əllərim.

***Cəmil Əkbər*** 5. 08 – 1983

## 168. AMANDIR ETMƏSİN

İgidlər xasına bəylik yaraşır,
Amandır gədələr, bəylik etməsin.
Körpə uşaqlara səylik yaraşır,
Amandır dədələr, səylik etməsin.

Xəsis kimsələrin əli açılmaz,
Xeyir danışmağa dili açılmaz,
Ənaət etməyə gülü açılmaz,
Amandır Hatəmlər göylük etməsin.

Nadan sərsərilər key ola bilər,
Əqidə, vicdanı səy ola bilər,
Axır aqibətdə zay ola bilər,
Amandır qananlar keylik etməsin.

Acgözlər, hərislər zaylıq eyləyər,
Qəsd edib canına caylıq eyləyər,
Şıltaqlıq eyləyər, naylıq eyləyər,
Amandıq ariflər zaylıq etməsin.

Cahaldan nə desən gözləmək olar,
Nöqsan kələfini çözləmək olar,
Hər addımbaşında izləmək olar,
Amandır ustadlar çiylik etməsin.

Ulğunda qaydadır əyilə bilər,
Qatlanıb, qırılıb, döyülə bilər,
Karsız ağac kimi söyülə bilər,
Amandır palıdlar, şöylük etməsin.

Mən Cəmil Əkbərəm, ey olan olsun,
Halal zəhmətilə bay olan olsun,
Qaranlıq gecədə ay olan olsun,
Amandır quldurlar eylik etməsin.

***Cəmil Əkbər*** 7. 09 – 1986, 7. 06 – 1991

## 169. YUYANMAZ

Nəyaman çirklənib, ləkələmişik?
Bu kiri nə Araz, Kür də yuyanmaz.
Biri-birimizdən şübhələnmişik,
Bu dərdi nə inci, dür də yuyammaz.

Ünsiyyət-ülfətin dadı qalmayıb,
İgidəm deyənin adı qalmayıb,
İstisi azalıb, odu qalmayıb,
Onu yağış nədir, qar da yuyammaz.

Dünyanın malına tamah eylədik,
Bəşər qarşısında günah eylədik,
Çətinə düşdükcə ah-vay eylədik,
Onu möcüzələr, sir də yuyammaz.

Düha sahibləri, lağa qoyulub,
Çəkilib cızdağı, dağa qoyulub,
Kəfənə bükülüb, ağa qoyulub,
Onu Məkkə nədir, pir də yuyammaz.

Hayana baxırsan xəyanət artıb,
Gileylər, güzarlar, şikayət artıb,
Törənib xətalar, cinayət artıb,
Onu xeyir nədir, şər də yuyammaz.

Çoxları yolundan əyilib gedib,
Ünvanı dalınca söyülüb gedib,
Vicdanı önündə döyülüb gedib,
Onu nə güc-qüvvət,  gir də yuyanmaz.

Oqədər tozlara bulaşmışıq ki,
Düyünə düşmüşük, dolaşmışıq ki,
Bədxah əməllərə alışmışıq ki,
Onu sərraf nədir, zər də yuyammaz.

Dönüb müqəvvaya karsız  çoxalıb,
Söyüdtək, ulğuntək barsız çoxalıb.
Həyasız, ismətsiz, arsız çoxalıb,
Onu Segah-Zabul, Şur da yuyanmaz.

Aləmi-bəşəri qəhər boğubdur
Dərd-məlal, qəm-qüssə, kədər boğubdur,
Dillərdə, dodaqda zəhər boğubdur,
Onu kaman nədir, tar da yuyanmaz.

Hiyləgər, dələduz, biclər çoxdur, çox,
Qanuna, qaydaya kəclər çoxdur, çox,
Kəmağıl, kütbeyin, giclər çoxdur, çox,
Onu sısqa nədir, gur da yuyanmaz.

Oqədər sırtılıb, pozulmuşuq ki,
Çevrilib tərsinə yozulmuşuq ki,
Ayrılıb qatardan üzülmüşük ki,
Onu nə xoşhaxoş, zor da yuyanmaz.

Oqədər yaxşılar pisə qarışıb,
Zalıma, bədxaha, nəsə qarışıb,
Höcətə, inada, tərsə qarışıb,
Onu arvad nədi, ər də yuyanmaz.

Dağılıb sökdülər himimizi də,
Qırdılar, atdılar simimizi də,
Qalmayıb kimsəmiz, kimimizi də,
Ağlamaq, sızlamaq, zar da yuyanmaz.

Çoxları bihudə hərlənib getdi,
Birtəhər dolanıb, girlənib getdi,
Bəzənib, düzənib, zərlənib getdi,
Nəqədər çalışsaq, tər də yuyanmaz.

Yazdım ki, hərkəsin özünü görək,
Doğrusunu görək, düzünü görək,
Yolunu tanıyıb, izini görək,
İsrafil çaldığı sur da yuyammaz.

İtirib kamalı süstləşmişik biz,
Korafəhim olub, kütləşmişik biz,
Dönüb müqəvvaya, bütləşmişik biz,
Onu yoldaş nədi, yar da yuyanaz.

Nəola sözlərim əsər eyləyə,
Bir fayda yetirib, səmər eyləyə,
Ovxara gətirib kəsər eyləyə,
Namus kara yetməz, ar da yuyanmaz.

Nanəcib, naxələf, çirkin dolandı,
Lovğa, yekəxana, xudbin dolandı,
Pozmadı halını, nikbin dolandı,
Nəqədər yığılsa, var da yuyanmaz.

Mat qalıb bu işə dəryalar, dəniz,
Bir insan övladı tapılmır təmiz,
Olsada xətiri, hörməti əziz,
Sısqalar yuyanmaz, gur da yuyanmaz.

Ay Cəmil yolunu, izini azma,
Şər-böhtan danışıb, sözünü yazma,
İlqarını atıb, imanı pozma,
Məzar bağışlamaz, gor da yuyammaz.

***Cəmil Əkbər*** 2- 7. 09 – 1996

## 170. BU

*I variant*

Dövrü-zəmanədən şikayətim var,
Dinləyin nə sözdü, nə söhbətdi bu?
Eşidən kəslərə şikayətim var,
Necə həyacandı, nə heyrətdi bu?

Hayana baxırsan alaq otudur,
Gicitkansayağı dalaqotudur.
Tikanlar, qanqallar ulaqotudur,
Necə bəxşeyişdi, ənaətdi bu?

Haçandan bəridir kəsilmir dava,
Zəhərə qarışır tərtəmiz hava.
Düzəlmir yoluna sərsəri, yava,
Necə avamlıqdı, cəhalətdi bu?

Ədaləti, həqiqəti boğurlar,
İnsanlığı, ləyaqəti boğurlar,
Saf arzunu, pak niyyəti boğurlar,
Necə müsibətdi, fəlakətdi bu?

Nəqədər yaxşıya pisdi dedilər,
Zalımdı, bədxahdı, nəsdi dedilər,
Qızıla, gümüşə misdi dedilər,
Necə vilayətdi, məmləkətdi bu?

Əvvəlki Kərəmlər, Əslilər hanı?
Məcnunlar tapılmır, Leylilər hanı?
Sənanlar, Fərhadlar, Şirinlər hanı?
Necə eşq-həvəsdi, məhəbbətdi bu?

Hiyləgər, dələduz, biclər çoxalıb,
İlqara, imana kəclər çoxalıb.
Qanuna, qaydaya öclər çoxalıb,
Necə ədəb-ərkan, şəriətdi bu?

Çəkilən zəhmətin bəhrəsi artmır,
İşləmir darağı, cəhrəsi artmır,
Qatığı çalxanmır, nəhrəsi artmır,
Necə kəllədardı, ziraətdi bu?

Oxuyan çoxalır, nadanlar artır,
Yolunu tərsinə adanlar artır,
Təlimdən yarımçıq dadanlar artır,
Necə təlimatdı, qiraətdi bu?

Oğrular, əyrilər Haca gedirlər,
Nəyaman sussayıb taca gedirlər,
Əyməyib vüqarı, uca gedirlər,
Necə etiqaddı, ziyarətdi bu?

Hər yetən gədələr çəkilir başa,
Yerləşir üzüyə, salınır qaşa.
Həryanda hörmət var, gəlirlər xoşa,
Necə bacarıqdı, məharətdi bu?

Nəqədər dühanı gözdən saldılar,
Yolundan çıxardıb, izdən saldılar.
Fürsət vermədilər, tezdən saldılar,
Necə istehzadı, həqarətdi bu?

İnsanlar nəyaman pozulub gedir?
Doğrular tərsinə yozulub gedir?
Xətir də, hörmət də azalıb gedir?
Necə ünsiyyətdi, nə ülfətdi bu?

Əzilən-əzilir, əzənlər əzir,
Avara dolanıb gəzənlər-gəzir.
İnciyən-inciyir, bezənlər-bezir,
Necə iqtidardı, sədarətdi bu?

Dağıdan-dağıdır, sökənlər-sökür,
Gözünün yaşını tökənlər-tökür.
Əyib qamətini bükənlər-bükür,
Necə bəraətdi, səadətdi bu?

Deyib-danışmaqla söz əsər etmir,
Doğru əsər etmir, düz əsər etmir,
Gecikir nəyaman yaz əsər etmir,
Necə ədəb-ərkan, nəzakətdi bu?

Daha sayan yoxdur ağsaqqalları,
Dərin düşüncəni, pürkamalları,
Nurani, ağbirçək, əhlihalları,
Necə ibadətdi, itaətdi bu?

Kəsilmir qal-qovğa, verməyir ara,
Sağalmaq bilməyir, göynəyir yara.
Başını götürüb gedəsən hara?
Necə giley-güzar, şikayətdi bu?

Şər deyib aranı qatanlar çoxdur,
Vicdanı, məsləki satanlar çoxdur,
Qərq olub qəflətdə yatanlar çoxdur,
Necə haq-divandı, ədalətdi bu?

Asan-asmağında, kəsən-kəsməkdə,
İnciyən-inciyir, küsən-küsməkdə,
Sümürən-sümürür, qusan-qusmaqda,
Necə xeyirxahlıq, fəzilətdi bu?

Verilən suallar bilirəm çoxdur,
Yüz loğman yığılsa cavabı yoxdur.
Bu sözlər yalan döy, hamısı haxdır,
Necə dərd-azardı, qəbahətdi bu?

Avamlıq, cəhalət qəlbimə dəyir,
Vurub qamətimi, qəddimi əyir.
İnlədir, sızladır, verməyir xeyir,
Nə qüssə-kədərdi, nə möhnətdi bu?

Deyib başa salın, Cəmil Əkbəri,
Alsın məlumatı, olsun xəbəri.
Çəkməsin havayı qüssə-qəhəri,
Necə xəyanətdi, cinayətdi bu?

***Cəmil Əkbər*** 1994-1995

**171. BU**

*II variant*

Haqqı tapdalamaq, yalan söz demək,
Ən böyük xətadır, qəbahətdi bu.
Xalqı zülmə salıb tablaş, döz demək,
Cinayət, rəzalət, xəyanətdi bu.

Yaxşını-yamandan seçə bilməmək,
Boylara xələti biçə bilməmək,
Doğru-düz yollarla keçə bilməmək,
Avamlıq, nadanlıq, cəhalətdi bu.

Saxta fikirlərlə xalqı çaşdırmaq,
Çıxardıb məcradan onu aşdırmaq,
Qəzəbini, şiddətini daşdırmaq,
İşgəncə, əzabdı, zəlalətdi bu.

Ünsiyyət-ülfətdə yanılırıqsa,
Xatirdən silinib danılırıqsa,
Nifrətlə yad olub, anılırıqsa,
Böyük bədnamçılıq, xəcalətdi bu.

Düşünüb, dərk edib, qanmırıqsa biz,
Xətiri-hörməti anmırıqsa biz,
Böyüyü-kiçiyi sanmırıqsa biz,
Dəhşət, müsibətdi, fəlakətdi bu.

Elin nəzərində ucalmırıqsa,
Zəfərlər çalaraq, bac almırıqsa,
Şərəflə yaşayıb, qocalmırıqsa,
Necə gün-güzəran, səadətdi bu?

Zəhmətin barını yeyə bilməsək,
Toxuyub, tikərək geyə bilməsək,
Sözü məqamında deyə bilməsək,
Necə fərasətdi, məharətdi bu?

Könül diyarında izimiz yoxsa,
İsti, hənirimiz, közümüz yoxsa,
Qəlbləri oxşayan sözümüz yoxsa,
De necə hünərdi, cəsarətdi bu?

Heçkəs yollarını azıb getməsin,
İlqarı-imanı pozub getməsin,
Doğrunu tərsinə yozub getməsin,
Gileydi-güzardı, şikayətdi bu.

İnsanam deyəndə mürvət gərəkdir,
Ar-namus gərəkdir, qeyrət gərəkdir,
Mənəvi zənginlik, sərvət gərəkdir,
Ədəbdi, ərkandı, nəzakətdi bu.

İnsansan-insandan aralı gəzmə,
Qəlbi xoflu gəzmə, qaralı gəzmə,
Oralı axtarma, buralı gəzmə,
Kindi, küdurətdi, ədavətdi bu.

Gəlin el-obada həyalı gəzək,
Məsləkli, vicdanlı, qayəli gəzək,
Qədəmi uğurlu, sayəli gəzək,
Ən doğru çağrışdı, bəyanətdi bu.

Ay Cəmil insanı hörmətli edən,
Şərafətli edən, şöhrətli edən,
Kəramətli edən, mürvətli edən,
Sevgidi, istəkdi, məhəbbətdi bu.

***Cəmil Əkbər*** 6. 01 – 1995

## 172. BU

*III variant*

Desələr dünyada sevdiyin nədir?
Deyərdim ədalət, həqiqətdi bu.
Tərif eyləyərək, öydüyün nədir?
Deyərdim insanlıq, ləyaqətdi bu.

Desələr qəlbinə yatan de nədir?
Yetişib qulağa çatan de nədir?
Ağlına-huşuna batan de nədir?
Ədəbdi, ərkandı, nəzakətdi bu.

Desələr qəlbində nə məsgən salıb?
Atalar sözündən nə yadda qalıb?
Nələr oxşayıbdır, nə ələ alıb?
Sədaqət, səxavət, kəramətdi bu.

Sinəmdə qövr edib daim çağlayan,
Ümidini Haqq-dərgaha bağlayan,
Daşa dəyib sızıldayan, ağlayan,
Arzudu, istəkdi, pak niyyətdi bu.

Gecə-gündüz dərdi-qəmin çəkdiyim,
Qamətimi kaman edib bükdüyüm,
İçin-için gözyaşımı tökdüyüm,
Ellərdi, obadı, cəmiyyətdi bu.

Yaşadıb saxlayan Cəmil Əkbəri,
Yetmişə yaxındır illərdən bəri,
Tanıdıb, eyləyib dillər əzbəri,
İnsafdı, mürvətdi, mərhəmətdi bu.

***Cəmil Əkbər*** 28. 01 - 1995

## 173. BU

*IV variant*

Desələır dünyada sevdiyin nədir?
Deyərdim düzlükdü, həqiqətdi bu.
Qürurla danışıb öydüyün nədir?
Deyərdim insanlıq, ləyaqətdi bu.

Desələr qəlbinə yatan nə oldu?
Yetişib qulağa çatan nə oldu?
Könlünə iz salıb batan nə oldu?
Ədəbdi, ərkandı, nəzakətdi bu.

Desələr dərdini çəkdiyin nədir?
Əyib vüqarını bükdüyün nədir?
Gözünün yaşını tökdüyün nədir?
Deyərdim bəşərdir, cəmiyyətdi bu.

Desələr şəstinə dəyən nə oldu?
Vurub qamətini əyən nə oldu?
Haqqını-sayını yeyən nə oldu?
Deyərdim avamlıq, qəbahətdi bu.

Desələr qəmini artıran nədir?
Qaşı-qabağını çatdıran nədir?
Gəmini dəryada batıran nədir?
Deyərdim paxıllıq, xəyanətdi bu.

Desələr insanı qocaldan nədir?
İnlədib, sızladıb, sozaldan nədir?
Yeyərək içini azaldan nədir?
Deyərdim nadanlıq, cəhalətdi bu.

Desələr insanı əridən nədir?
Dəmirtək pasladıb çürüdən nədir?
Tozlarda, torpaqda sürüdən nədir?
Deyərdimki giley, şikayətdi bu.

Desələr ülfəti pozan nə oldu?
Ayaqlar altını qazan nə oldu?
Şər-böhtan danışıb yazan nə oldu?
Deyərdim küdurət, ədavətdi bu.

Desələr Cəmili ucaldan nədir?
Səksənə, doxsana qocaldan nədir?
Qoruyub saxlayan, yaşadan nədir?
Dözümdü, durumdu, dəyanətdi bu.

***Cəmil Əkbər*** 17. 04 – 1995

## 174. BU

*V variant*

Ay insan, urvatdan salma sözünü,
Nə gley-güzardı, nə qeybətdi bu?
İtirib əqlini, yumma gözünü,
Nə dedi-qodudur, nə söhbətdi bu?

Nəqədər davaya, dalaşa düşdün,
Həyəcan, səksəkə, təlaşa düşdün,
Vurhavur, çalhaçal, savaşa düşdün,
Çəkdiyin nə əzab, nə zillətdi bu?

Keçdin hüdudunu, həddini aşdın,
Çıxıb əndazədən nəyaman daşdın?
Fikirdə, xəyalda dolaşdın, çaşdın,
Bu necə bər-bəzək, nə zinətdi bu?

Şər deyib, danışıb aranı qatdın,
Qərq olub qəflətdə yatdın, hey yatdın,
Savab qazanmadın, günaha batdın,
Çəkdiyin dərd-qüssə, nə möhnətdi bu?

Elin nəzərindən, gözdən düşürsən,
Gün çeşdə qalxmamış, tezdən düşürsən,
Yolundan çıxırsan, izdən düşürsən,
Aldığın nə cəza, nə töhmətdi bu?

Gör haçandan cəhalətdə qalmısan?
Avamlıqda, qəbahətdə qalmısan?
Küdurətdə, ədavətdə qalmısan?
Qazancın nifrətdi, nə hiddətdi bu?

Özün də bilmirsən hara gedirsən?
Yön alıb çətinə, dara gedirsən?
İlişib kəməndə, tora gedirsən?
Nə arzu-istəkdi, nə niyyətdi bu?

Seyredib uzağı görəbilmirsən,
Bağ salıb barını dərə bilmirsən,
Aldığın borçları verə bilmirsən,
Bu necə qayğıdı, nə xidmətdi bu?

İnciyən-inciyir, bezənlər-bezir,
Düşünən-düşünür, sezənlər-sezir,
Səbr edib tablaşıb dözənlər-dözür,
Necə şərafətdi, nə şöhrətdi bu?

Xainlikdən, xəbislikdən doymadın,
Nanəciblik, naqislikdən doymadın,
Acgözlükdən, xəsislikdən doymadın,
Bu nə məna-məzmun, nə hikmətdi bu?

Ünsiyyət-ülfətlər pozulub gedir,
Doğrular tərsinə yozulub gedir,
İnsanlıq, ləyaqət azalıb gedir,
Necə dozüm-durum, dəyanətdi bu?

Sinəyə nəqədər dağ-düyün vurdun?
İncidib insanı bezdirib yordun?
Dayanıb pusquda, torunu qurdun?
De necə cəfadır, nə zəhmətdi bu?

Nəqədər insanı ağlar qoyursan?
Çəkib sinəsinə dağlar qoyursan?
Qapılar, bacalar, bağlar qoyursan?
Necə arzu-istək, məhəbbətdi bu?

Hər yetən gədələr başa çəkilir,
Yol tapıb, iz tapıb işə çəkilir,
Salınıb üzüyə qaşa çəkilir,
Necə iqtidardı, sədarətdi bu?

Dağıdan talayan yeyənlər yeyir,
Vurhavur sökənlər, əyənlər əyir,
Bəzənib, düzənib geyənlər geyir,
Necə bacarıqdı, məharətdi bu?

Hiyləgər, dələduz, bic əyyamıdır,
İlqara-imana kəc əyyamıdır,
Qanuna, qaydaya öc əyyamıdır,
Necə ibadətdi, ziyarətdi bu?

***Cəmil Əkbər***

## 175. BU

*VII variant*

İnsan birbirini zülmətə salır,
Necə ünsiyyətdi, nə ülfətdi bu?
İşgəncə, müsibət, zillətə salır,
Necə arzu-istək, məhəbbətdi bu?

Eləbil zəlidir, qanını sorur,
Zülalını çəkir şanını sorur,
Haqq-nahaq incidib, canını sorur,
Necə mərhəmətdi, nə hörmətdi bu?

Salıb çətinliyə, bezdirir nədən?
Dağları-daşları gəzdirir nədən?
Əzab-əziyyətə dözdürür nədən?
Necə ədəb-ərkan, nəzakətdi bu?

Hər addımbaşında qəlbə dəyirlər,
Şah vüqarı, dağ qaməti əyirlər,
Haqqısayı sümürərək yeyirlər,
Necə xeyirxahlıq, fəzilətdi bu?

Hayana baxırsan nadan görünür,
Təlimdən kəm-kəsir dadan görünür,
Yolunu tərsinə adan görünür,
Necə avamlıqdı, cəhalətdi bu?

Heçkəs öz yoluyla düzünə getmir,
Baxıb ustadların sözünə getmir,
Yoluna boylanıb izinə getmir,
Necə müsibətdi, fəlakətdi bu?

Haqqa, ədalətə baxan kimdi ki?
Şimşəktək gurlayıb, çaxan kimdi ki?
Azacıq qəlbini sıxan kimdi ki?
Necə sədaqətdi, səxavətdi bu?

Zalımlar məzluma qəsd eyləyirlər,
Yeməmiş, içməmiş məsd eyləyirlər,
Çevirib astarı üst eyləyirlər,
Necə incəlikdi, məlahətdi bu?

Araya-bərəyə dava salırlar,
Zəhərə qarışmış hava salırlar,
Könüldə əqrəbə yuva salırlar,
Neçə yol-ərkana dəlalətdi bu?

İnsan birbirini qırıb qurtardı,
Dağı sinəsinə vurub qurtardı,
Bezdirdi, dözdürdü, yorub qurtardı,
Bu necə nöqsandı, qəbahətdi bu?

Haçandan bəridir davalar kəsmir,
Zəhərə qarışmış havalar kəsmir,
Əqli-kəmlər kəsmir, yavalar kəsmir,
Bu nə küdurətdi, ədavətdi bu?

Bahar gəlib xalısını toxumur,
Gül-çiçəyin ətirləri qoxumur,
Şeyda bülbül vəcdə gəlib oxumur,
Necə gülüstandı, təravətdi bu?

Qanmazlar qananın evini yıxır,
Qaraldıb qanını, qəlbini sıxır,
Bədinə çalışıb, sonuna çıxır,
Necə bacarıqdı, məharətdi bu?

Əcəli çatmamış ölənlər ölür,
Gözünün yaşını silənlər silir,
Bağrının başını dələnlər dəlir,
Necə qəddarlıqdı, xəyanətdi bu?

Nəqədər ağlayır, nəqədər gülür,
Nəqədər dirilir, nəqədər ölür,
Gözünün yaşını silənlər-silir,
Bu necə şan-şöhrət, şərafətdi bu?

Bəşərin övladı zülmətə qalır,
Düşüb dərd-azara, zillətə qalır,
Sağalmır yarası, hillətə qalır,
Necə bacarıqdı, fərasətdi bu?

Ha dedilər, ha yazdılar, bilmirsən,
Gözlərindən dumanını silmirsən,
Utanmırsan, qızarmırsan, ölmürsən,
Necə məlumatdı, bəyanətdi bu?

Şəhərlər, qəsəbə, kəndlər dağılır,
Qalalar, qəsrlər, bəndlər dağılır,
Həndəvar sökülür, sədlər dağılır,
De necə hünərdi, cəsarətdi bu?

Çoxları qəflətdən ayıla bilmir,
Doğru, düz yoluna qoyula bilmir,
Günahı yuyulub, silinə bilmir,
Necə ehtiramdı, mərhəmətdi bu?

Nəqədər yazılıb, oxuyan hanı?
Onun ətirini qoxuyan hanı?
Ərişlər, arğaclar toxuyan hanı?
Bu necə təlimdı, qiraətdi bu?

Hamı birbirinə baxıb pozulur,
Canını odlara yaxıb pozulur,
Qəlbini daraldıb, sıxıb pozulur,
Necə xəsdəlikdi, siraətdi bu?

Namərdlər çoxalıb nə tüğyan edir,
Əqrəblər, iblislər qəlbləri didir,
Özü də bilməyir nə mətləb güdür?
Necə şəriətdi, nə Tövrətdi bu?

Hamı birbirinə yalan deyirlər,
Boğazdan yuxarı kalan deyirlər,
Dağıdıb sökməkdən plan deyirlər,
Çəkilən nə zəhmət, nə xidmətdi bu?

Nəyaman çoxalıb araqatanlar?
Minbir sifət ilə vara çatanlar?
Dostu dəyər-dəyməzinə satanlar?
Nə arzu-istəkdi, nə niyyətdi bu?

Xainlər, xəbislər oqədər artıb?
Nanəcib, naqislər oqədər artıb?
Acgözlər, hərislər oqədər artıb?
Necə məmləkətdi, vilayətdi bu?

Bir deyil, beş deyil nadan bəndələr,
Haqqısay sümürüb udan bəndələr.
Yolunu tərsinə adan bəndələr,
Necə avamlıqdı, cəhalətdi bu?

Verilən maaşla dolanmaq olmur,
Könüldən-könülə calanmaq olmur,
Yağ yeyib, bal yeyib sulanmaq olmur,
Haqq-məzənnə, nə muzd, nə qiymətdi bu?

Oğrular, əyrilər vara çatırlar,
Almaya, heyvaya, nara çatırlar,
Şərəf, şöhrət, iftixara çatırlar,
Necə dövrü-zaman, cəmiyyətdi bu?

Düha sahibləri gözdən salındı,
Söhbətdən salındı, sözdən salındı,
Yolundan qovuldu, izdən salındı,
Necə məzhəkədi, zərafətdi bu?

İnsan birbirinin bədinə gedir,
Özü də biməyir nə məqsəd güdür,
Xainlik, xəbislik qəlbləri didir,
Bu nə məna-məzmun, nə hikmətdi bu?

Əvvəlki Məcnunlar, Kərəmlər hanı?
Əslilər, Leylilər, Şirinlər hanı?
Eşqə fəda gedən nəsillər hanı?
Bu necə əhd-peyman nə söhbətdi bu?

Vətəndaş Vətəndən qaçıb gedirlər,
Özgə diyarlara köçüb gedirlər,
Qanadı tutduqca uçub gedirlər,
Necə vərəsədi, vəliəhddi bu?

Kimə nə deyirsən hirsinə dəyir,
Əslinə, nəslinə, cinsinə dəyir,
Toxunub yağırına, kirsinə dəyir,
Hansı yola-izə dəlalətdi bu?

Bədəməl sahibi utanıb ölmür,
Elləri obanı, pəsinib ölmür,
Bir tövbə eyləyib çəkinib ölmür,
Necə peşmançılıq, xəcalətdi bu?

Nadürüst gədələr ara qatırlar,
Əlaman eyləyib vara çatırlar,
İlişib kəməndə, tora çatırlar,
Necə məxluqatdı, nə millətdi bu?

Cəmil Əkbər buminvalla pozulma,
İnildəmə, sızıldama, sozalma.
Bircə misqal nə əksilmə, azalma,
Desinlər nə gözəl mətanətdi bu?

***Cəmil Əkbər*** 5. 06 - 1994

## 176. BU

*Prof.N.Ə.Səfərovun 70 illiyinə*

Yetmiş il yaşamaq zərafət deyil,
Dözümdü, durumdu, dəyanətdi bu.
Kim deyər bu hünər, məharət deyil?
Yenilməz iradə, qətiyyətdi bu.

Biz nələr görmüşük ötən illərdə,
Arzuya, murada, yetən illərdə,
Arada-bərədə itən illərdə,
Bacarıq, fərasət, məharətdi bu.

Yaşatmaq, yaratmaq adi iş deyil,
Adi fikir, xəyal, adi huş deyil,
Adi payız deyil, adi qış deyil,
Arzudu, həvəsdi, məhəbbətdi bu.

Hamı zirvələrə ucala bilmir,
Şərəflə yaşayıb qocala bilmir,
Ellərə söykənib, güc ala bilmir,
Böyük səxavətdi, sədaqətdi bu.

Çoxları cəhd etdi, yaşa çatmadı,
İdraklı, zəkalı başa çatmadı,
Payızdan adlayıb, qışa çatmadı,
Xoş arzu-istəkdi, pak niyyətdi bu.

Hamı el yanında hörmət qazanmır,
Şərafət qazanmır, şöhrət qazanmır,
Mənəvi gözəllik, sərvət qazanmır,
İnsafdı, mürvətdi, kəramətdi bu.

Hər mənəm deyənlər ad qazanmayır,
Ünsiyyət-ülfətdə yad qazanmayır.
Çalışır, vuruşur dad qazanmayır,
Düzlük, doğruluqdu, həqiqətdi bu.

Yubliyarın ocağına yığışmaq,
Bir ürəyə yol taparaq sığışmaq,
Həmrəy olub, yekdil olub uyuşmaq,
Nə gözəl ibadət, ziyarətdi bu?

Arzuya, istəyə, murada çatmaq,
Layiqli ünvana, bir ada çatmaq,
Haraya yetişib, imdada çatmaq,
Nə gözəl qismətdi, səadətdi bu?

Dövrü-zəmanənin qədrini bilək,
İlqara-imana qayıdıb gələk,
Bir yerdə şənlənək, birlikdə gülək,
Nəsildən-nəsilə əmanətdi bu.

Yetmiş nədir, səksəni də qarşıla,
Məqam gəlsin doxsanı da qarşıla,
Görə bilək, yüz yaşı da qarşıla,
Nə gözəl xəbərdi, bəyanətdi bu.

Adın-sanın el içində dağ olsun,
Həyat boyu canın-başın sağ olsun,
Qoy üzün də pambıq kimi ağ olsun,
Gözəl ənənədi, xoş adətdi bu.

Belədir əzəldən dünyanın işi,
Zamanın qərarı, hökmü-gərdişi.
Anlayıb dərk etsin bunu hər kişi,
Əzəmət, dəyanət, ləyaqətdi bu.

Sözlər ərməğandır, qəbul eyləsən,
Nəzərə alaraq məqbul eyləsən,
Sən özün bilərsən, məchul eyləsən,
Əsl qəhrəmanlıq, şücaətdi bu.

***Cəmil Əkbər*** 12. 01 – 1996

## 177. AYRILIQ DƏMİDİR, YOXSA NƏDİR BU?

Ürəyim ağrayır, başım hərlənir,
Ayrılıq dəmidir, yoxsa nədir bu?
Xəyalım çaşıbdır, huşum girləmir,
Ayrılıq dəmidir, yoxsa nədir bu?

Nadanlıq çoxalıb, dözə bilmirəm,
Elləri, obanı gəzə bilmirəm.
Çəkdiyim qəm-kədər, məzə bilmirəm,
Ayrılıq dəmidir, yoxsa nədir bu?

Baxdıqca gərdişə ürək bulanır,
Yaralarım göz-göz olub sulanır.
Bağrım başı yerbəyerdən talanır,
Ayrılıq dəmidir, yoxsa nədir bu?

İnsanam deyəndə vəfa qalmayıb,
Düşünən, dərk edən, qafa qalmayıb,
Xoş ömür sürməyə səfa qalmayıb,
Ayrılıq dəmidir, yoxsa nədir bu?

***Cəmil Əkbər*** 10. 08 – 1994

## 178. NƏ GƏRDİŞDİ BU?

Eyinlər açılmır, üzlər gülməyir,
Necə dövrü-zaman, nə gərdişdi bu?
Dağlar nalə çəkir, düzlər gülməyir,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Toxunub qəlblərə dəyən oqədər?
Düzələn işləri əyən oqədər?
Yoğurub-yapmamış yeyən oqədər?
Necə dövrü-zaman, nə gərdişdi bu?

Bilinmir insanın qədir-qiyməti,
Etsəndə xahişi, çəksən minnəti.
Toxunur daşlara saf məhəbbəti,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər vədəsiz ağardı başlar?
Tutuldu qabaqlar, çatıldı qaşlar,
Öldülər, qalmadı taytuş, çağdaşlar,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər yaxşını, pis anladılar,
Höcət anladılar, tərs anladılar.
Bədxah tanıdılar, nəs anladılar,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Üzlərdə-gözlərdə həya azalıb,
Əqidə azalıb, qayə azalıb,
Təlimi düz verən dayə azalıb,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Çox hörmət sahibi hörmətdən düşdü,
Dəyərlər sahibi qiymətdən düşdü,
Bərbəzək sahibi, zinətdən düşdü,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər ucalan endi zirvədən,
Nəqədər danışdı, dindi zirvədən.
Dayanıb durmadı, döndü zirvədən,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər açılan saraldı, soldu,
Buludtək qaraldı, boşaldı doldu,
Üzülüb qatardan daldeydə qaldı,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər gələnlər durmadı getdi,
Dövranı başadək vurmadı getdi.
Tikib yaratmadı, qurmadı getdi,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Nəqədər igidin beli büküldü,
Haldan düşüb, zəhlələri töküldü,
Sinəsinə dağ-düyünlər çəkildi,
Necə dövrü-zaman, nə gərdişdi bu?

İnsafdan, mürvətdən qalmayıb əsər,
Qanundan-qaydadan qalmayıb kəsər,
Ünsiyyət-ülfətdə tapılmır səmər,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Çoxu çaşıb kamalını itirib,
Əqidəni, amalını itirib.
Tutarını, sambalını itirib,
Necə dövrü-zaman, nə gərdişdi bu?

Dünyamız belədir, ay Cəmil Əkbər,
Çəkdirir insana qüssə, qəm, kədər,
Nəqədər qüvvələr sərf oldu, hədər,
Necə dövrü-zaman nə gərdişdi bu?

***Cəmil Əkbər*** 10. 06 – 1995

## 179. A FƏRSİZ OĞUL?

Başında Nizami kəlamı yoxdur,
De kimə çəkmisən a fərsiz oğul?
Qərar, qətnaməsi, məramı yoxdur,
De kimə çəkmisən a fərsiz oğul?

Babamız Koroğlu, nənəmiz Nigar,
Sədası yayılıb diyarbadiyar,
Bu kökə çəkənlər olub bəxtiyar,
De kimə çəkmisən a fərsiz oğul?

Vidadi, Vaqifin nəfəsi gəlmir,
Eşqi, məhəbbəti, həvəsi gəlmir,
Kiriyib, susubdur heç səsi gəlmir,
De kimə çəkmisən a fərsiz oğul?

Sözündə Sabirin duzu görünmür,
Saldığı yolları, izi görünmür,
Dəyənək, kötəyi, bizi görünmür,
De kimə çəkmisən a fərsiz oğul?

Sinəndə Vurğunun ürəyi yoxdur,
Arzusu, istəyi, diləyi yoxdur,
Qayğısı, yardımı, köməyi yoxdur,
De kimə çəkmisən a fərsiz oğul?

Ulu babalara bənzərin yoxdur,
Diqqətin, fikirin, nəzərin yoxdur.
Fəhim-fərasətin, becərin yoxdur,
De kimə çəkmisən a fərsiz oğul?

Səbəb nədir təzə "Xəmsə" yazılmır?
El-obaya, bizə "Xəmsə" yazılmır?
Doğrulara, düzə "Xəmsə" yazılmır?
De kimə çəkmisən a fərsiz oğul?

Qəflətdən ayılıb oyanmayırsan,
Ziyanın nuruyla boyanmayırsan,
Yüksək zirvələrdə dayanmayırsan,
De kimə çəkmisən a fərsiz oğul?

İdrak sahibinə biganə oldun,
De hansı odlara pərvanə oldun?
Nə üçün buqədər divanə oldun?
De kimə çəkmisən a fərsiz oğul?

Haçandan bəridir kara gəlmirsən,
Qönçədə açılıb, bara gəlmirsən,
İxtiyara, iqtidara gəlmirsən,
De kimə çəkmisən a fərsiz oğul?

Ulu babalara çəkənməmisən,
Saldığı bağlardan əkənməmisən,
Tərini onlartək tökənməmisən,
De kimə çəkmisən a fərsiz oğul?

Fərli oğul babalardan öyrənər,
Ellər gəzər, obalardan öyrənər,
Halal yurddan, yuvalardan öyrənər,
De kimə çəkmisən a fərsiz oğul?

Çəkdi əzabını bu millət sənin,
Bu ellər, obalar, bu xilqət sənin,
Al Cəmil Əkbərdən bu töhmət sənin,
De kimə çəkmisən a fərsiz oğul?

***Cəmil Əkbər*** 15. 05 – 1996

## 180. KARA YETMƏSƏ

Güzaran yaxşı keçməz,
İşlər yaman tərsləşər,
Höcətləşər, nəsləşər,
Zəhmət qoldan yapışıb,
Xidmət kara yetməsə.

Ad-sanımız ucalmaz,
Mərd igidlər bac almaz,
Ləyaqətlə qocalmaz,
Hörmət qoldan yapışıb,
İzzət kara yetməsə.

Yaxşı, yaman seçilməz,
Boya xələt biçilməz,
Yolla düzgün keçilməz,
Namus qoldan tutmasa,
Qeyrət kara yetməsə.

Ünsiyyətlər pozular,
Düz əyriyə yozular,
İnildəyər sozalar,
Şərəf qoldan tutmasa,
Şöhrət kara yetməsə.

Baş qaldırıb həyasız,
Qayəsizlər çoxalar,
Gözümüzə ox olar,
Abır qoldan tutmasa,
İsmət kara yetməsə.

Ürək də ürək olmaz,
Dilək də dilək olmaz,
Heç kimə gərək olmaz,
Təpər hökmü verməsə,
Riqqət kara yetməsə.

İnsanoğlu düzəlməz,
Törpülənib nəzilməz,
Deyilənlər sezilməz,
Nəzər qoldan tutmasa,
Diqqət kara yetməsə.

Addımbaşı qəbahət,
Kin-küdurət artacaq,
Yavı kimi yortacaq,
Dəyər qoldan yapışıb,
Qiymət kara yetməsə.

Dava, dalaş, səksəkə,
Yerbəyerdən çoxalar,
Başımıza qaxılar,
Arzu qoldan yapışıb,
Niyyət kara yetməsə.

Cəmil Əkbər solarsan,
Bulud kimi dolarsan,
Əl-ayaqda qalarsan,
Nicat qoldan yapışıb,
Nüsrət kara yetməsə.

***Cəmil Əkbər*** 12. 06. – 1997

## 181. NƏDİ?

Sağsağanlar, qarğaların yanında,
Çəmən nədi, çiçək nədi, gül nədi?
Baş ağrıdan darğaların yanında,
Oba nədi, oymaq nədi, el nədi?

Cahil-sərsərilər, nadan yanında,
Təlimdən yarımçıq dadan yanında,
Yolunu tərsinə adan yanında,
Oxu nədi, öyrən nədi, bil nədi?

Tüfeylilər, tənbəllərin yanında,
Həyat üçün əngəllərin yanında,
Dava salan cəncəllərin yanında,
Yaşa nədi, yarat nədi, qal nədi?

Ha desən də, anlamazlar yanında,
Öz-özünü danlamazlar yanında,
Kötəkləməz, yanlamazlar yanında,
Xahiş nədi, minnət nədi, dil nədi?

Milçəklərin, məkəslərin yanında,
Nanəciblər, nakəslərin yanında,
Xainlərin, xəbislərin yanında,
Şəkər nədi, zülal nədi, bal nədi?

Cəmil Əkbər, nə lazımdı çox demək?
Qaşa-gözə kaman demək, ox demək.
Açа-gicə, yalavaca tox demək,
Tirmə nədi, qumaş nədi, şal nədi,

***Cəmil Əkbər***

## 182. BİZİMDİR

Yer üzündə yaxşı-yaman hər nə var,
Xeyir də bizimdir, şər də bizimdir.
Göy səmada çisgə, duman hər nə var,
Günəş də, atəş də, nur da bizimdir.

Ölən, ölməyənlər, qalan hər nə var,
Açılan hər nə var, solan hər nə var,
Fikirə, xəyala dalan hər nə var,
Cavan da, qoca da, pir də bizimdir.

Gözəl də, çirkin də, pis də nə varsa,
Sadə də, xudbin də, nəs də nə varsa,
Qızıl da, gümüş də, mis də nə varsa,
Karlar da, lallar da, kor da bizimdir.

Tanınıb, seçilib, bilinməyənlər,
Xəlbir, şadarada ələnməyənlər,
Yanına gedilib, gəlinmiyənlər,
Neçə məchul qalan sir də bizimdir.

Şər-böhtan danışıb başımı qatma,
Dağıdıb fikrimi, huşumu qatma,
Artırıb dərdimi, qaşımı qatma,
İnci də, sədəf də, zər də bizimdir.

Bu xalqdan utanıb pəsinmək gərək,
Çəkinib, qısqanıb diksinmək gərək,
Düşüb vahiməyə səksənmək gərək,
Qüvvət də, qüdrət də, zor da bizimdir.

Yeyib içiləni unutma barı,
Getmə uzaqlara gəl bizə sarı,
Çoxaldaq hər yerdə dövləti varı,
Alma da, heyva da, nar da bizimdir.

Nə çıxar vurhavur, bu çalhaçaldan?
Xətadan, bəladan, bu qilüqaldan?
Qurtaraq bu eli dərddən, məlaldan,
Hiylə də, məkr də, tor da bizimdir.

İnciyib-küsənlər, uman hərnə var,
Könüllər mülkündə, güman hərnə var.
İnləyən telli saz, kaman hərnə var,
Peyvənd də bizimdir, cır da bizimdir.

Gəlin insanları qəhərləməyək,
Qaraldıb qanını zəhərləməyək,
Salıb haldan-hala təhərləməyək,
Kəfən də bizimdir, gor da bizimdir.

Biri-birimizdən aralanmayaq,
Oralı axtarıb buralanmayaq.
Dəstəyə bölünüb sıralanmayaq,
Sazəndə, xanəndə, tar da bizimdir.

Ağlayan özgə döy, gülən özgə döy,
Gözünün yaşını silən özgə döy,
Bağrının başını dələn özgə döy,
Tərlan da, şahin də, sar da bizimdir.

Sən məni, mən səni hədələməyək,
Vurub qol-budağın pedələməyək,
Sındırıb qəlbini zədələməyək,
Yoldaş da bizimdir, yar da bizimdir.

Biri-birimizə ləkə yaxmayaq,
Olanı, qalanı başa qaxmayaq.
Şimşək olub kəlləsindən çaxmayaq,
Namus da, qeyrət də, ar da bizimdir.

***Cəmil Əkbər*** 12. 05 – 1997

## 183. GÜL DƏ GÜLDÜKİ

Heçkimsə yaxşıya pisdi deməsin,
Tikan tikandısa, gül də güldüki.
Qızıla, gümüşə, misdi deməsin,
İnci incidisə, ləl də ləldiki.

Dağlar dağ görünür, dərələr dərə,
Yamaclar, bərəlgə, bərələr bərə.
Kürələr kürədir, kərələr kərə,
İnsan insandısa, mal da maldıkı.

Gedənlər getdilər, gələnlər gəldi,
Bilməyən bilmədi, bilənlər bildi.
Gözündən dumanı silənlər sildi,
Cığır cığırdısa, yol da yolduki.

Nəqədər çalışdı, vuruşdu bəşər,
Durdular üz-üzə xeyir ilə şər,
Umdular, küsdülər daim sərbəsər,
Qovğa qovğadısa, qal da qaldıki,

Çəkilən zəhmətin barı bir deyil,
Alması, heyvası, narı bir deyil.
Qohumu, qardaşı, yarı bir deyil,
Sətin sətindisə, şal da şaldıki.

Hər gülün, çiçəyin ətiri başqa,
Hər insanoğlunun xətiri başqa,
Kitabda, dəftərdə sətiri başqa,
Darçın darçındısa, hil də hildiki.

Çox mənəm deyənlər ucalanmadı,
Öldü, gəncliyində qocalanmadı.
Zəfər dünyasından bac alanmadı,
Böcək böcəkdisə, fil də fildiki.

Hərənin özünün bir adı vardır,
Öz duzu, öz tamı, öz dadı vardır,
Öz ahı-naləsi, fəryadı vardır,
Oba obadısa, el də eldiki.

Düzə düz deyildi, əyriyə əyri,
Yada yad deyildi, qeyriyə qeyri.
Heçkəsə dəymədi çoxunun xeyri,
Fitnə fitnədisə, fel də feldiki.

Hərkəsin həyatda yeri bilindi,
Açılıb tez-geci sirri bilindi,
Çəkdiyi zəhməti, təri bilindi,
Dərya dəryadısa, göl də göldüki.

Belədir ay Cəmil dünyanın işi,
Keçirib həyəcan, çəkmə təşvişi,
Belədir zamanın dövrü-gərdişi,
Rüstəm Rüstəmdisə, Zal da Zaldıkı.

***Cəmil Əkbər*** 14. 05 – 1997

## 184. DAĞLARIN

Nanıkor oğlunu, qızını görüb,
Çatıldı qabağı, qaşı dağların.
Yersiz ədasını, nazını görüb,
Sarsıldı xəyalı, huşu dağların.

Üstünü kəsəndə qara buludlar,
Çəkdilər dəsini ora buludlar,
Tapmadı dərdinə çarə buludlar,
Car oldu leysanı-yaşı dağların.

Tərlanını, şahinini qırdılar,
Qova-qova haldan salıb yordular,
Sinəsinə dağ-düyünlər vurdular,
Susubdur alıcı quşu dağların.

Yaxşılar da, yamanlar da sığındı,
Çiskələr də, dumanlar da sığındı,
Küsənlər də, umanlar da sığındı,
Hörmətdi-izzətdi işi dağların.

Cahillərdən, nadanlardan usandı,
Haqqısayı udanlardan usandı,
Öz qarnını güdənlərdən usandı,
Olmayıb ülfəti, xoşu dağların.

Qaçaqdan-quldurdan zədələndi də,
Döyülüb, tapdanıb pedələndi də,
Yersiz söz eşidib hədələndi də,
Ağardı saqqalı-başı dağların.

Onun vüqarına darıldılar da,
Qısqanıb içindən yarıldılar da,
Çatdayıb, partlayıb, qırıldılar da,
Sındırıb qəlbini naşı dağların.

Kimki seçənmədi yaxşını-pisdən?
Qalayı gümüşdən, qızılı misdən?
Xeyirxah kəsləri, bədxahdan, nəsdən?
Yağıbdı başına daşı dağların.

Cəmil Əkbər, gəl çox getmə dərinə,
Qulluq eylə haq-dərgahın pirinə,
Əlin çatmaz məchul qalan sirinə,
Uludan uludur yaşı dağların.

***Cəmil Əkbər*** 27. 08 – 1999

## 185. DAĞLARIN

Oğlunu, qızını nanıkor görcək,
Çatıldı qabağı, qaşı dağların,
Tüfeyli, avara, ziyankar görcək,
Dağıldı sərindən huşu dağların.

Üstünü aldıqca qara buludlar,
Çəkdikcə dəsini ora buludlar,
Etmədi dərdinə çarə buludlar,
Töküldü gözündən yaşı dağların.

Haradan bir qüssə, kədər yeyincə,
Hüsnünə sığmayan xəbər yeyincə,
Zərbələr alaraq hədər, yeyincə,
Ağardı saqqalı, başı dağların.

Kamal sahibinə hörməti oldu,
Kəraməti oldu, mürvəti oldu,
Xoş abı-havası, neməti oldu,
Eyninə gəlmədi naşı dağların.

İnsafını atanları gördükcə,
Vicdanını satanları gördükcə,
Qəflətlərdə yatanları gördükcə,
İnləyir torpağı, daşı dağların.

Cəmil Əkbər, gəl çox getmə dərinə,
Əlin çatmaz Haqq-dərgahın sirrinə,
Qulluq eylə qadir mövlam, pirinə,
Bilinmir neçədir yaşı dağların.

***Cəmil Əkbər*** 26. 08 -1999

## 186. DAĞLARDA-DAĞLARDA

Burxanc otu, Kəkotu var,
Bizim dağlarda-dağlarda.
Yol üstündə yolotu var,
Bizim dağlarda-dağlarda.

Gör nə gözəl qananlar var?
Mehri-ülfət insanlar var,
Haqqısayı ananlar var,
Bizim dağlarda-dağlarda.

Qayalarda Kəklik də var,
Talalarda Əlik də var,
Sərin mehli külək də var,
Bizim dağlarda-dağlarda.

Durna gözlü çəmənlər var,
Könül açan meşələr var,
Gör nə gözəl guşələr var?
Bizim dağlarda-dağlarda.

Sərin sulu buz bulaq var,
Kığ, balqırğan, quzqulaq var,
Birbirinə göz-qulaq var,
Bizim dağlarda-dağlarda.

Dürlü-dürlü bar yetişir,
Alma-armud, nar yetişir,
Namus, qeyrət, ar yetişir,
Bizim dağlarda-dağlarda.

Qəlbə yatan havası var,
Sürmək üçün səfası var,
Min bir dərdə dəvası var,
Bizim dağlarda-dağlarda.

Əyilməyən vüqarı var,
Hərbir növdən nübarı var,
Ov görməmiş şikarı var,
Bizim dağlarda-dağlarda.

Novruzgülü, tər bənövşə,
Könül açar yaz həmişə,
Gəl özün gör, düş təşvişə,
Bizim dağlarda-dağlarda.

Burda dinlə telli sazı,
Ruha yatan xoş avazı,
Açılar könlünün yazı,
Bizim dağlarda-dağlarda.

“Turşsu”yu var, “Narzan”ı var,
Xanəndəsi, tarzəni var,
Oxuyanı, yazanı var,
Bizim dağlarda-dağlarda.

Eniş də var, yoxuş da var,
Məğrur-məğrur baxış da var,
Təbiətdən naxış da var,
Bizim dağlarda-dağlarda.

Yüz yaşadək qocalarsan,
Zəfər çalıb, bac alarsan,
Əməlindən güc alarsan,
Bizim dağlarda-dağlarda.

Cəmil Əkbər dolub yaşa,
Payızdan addayıb qışa.
Saz çalıbdır coşa-coşa,
Bizim dağlarda-dağlarda.

***Cəmil Əkbər*** 10. 06 – 1996

## 187. DAĞLAR

Sən loğmansan, mən xəsdəyəm,
Qövr eyləyir yara dağlar.
Karvan gedir yol üstəyəm,
Eylə dərdə çara dağlar.

Gedə-gedə uzaqlaşdım,
Gözlərindən iraqlaşdım,
Gələnlərdən soraqlaşdım,
Əlim çatmır qara dağlar.

Zirvələrdə gözüm qaldı,
Cığırlarda izim qaldı,
Deyilməmiş sözüm qaldı,
Ünü salım hara dağlar?

Bərəlgəndə sürünməsəm,
Dumanında bürünməsəm,
Yaylağında görünməsəm,
Özün axtar-ara dağlar.

Könül istər gəlib gəzsin,
Çiçəklərdən qönçə düzsün,
Xətir görsün, möhüb düzsün,
Kəsilməsin ara dağlar.

Gündən-günə azalıram,
Haldan düşüb sozalıram,
Sarsılıram, pozuluram,
Qalanıram nara dağlar.

Harda qaldı cavan çağım?
Çal-çağırım, oynamağım,
Saraldı bostanda tağım,
Gözə dəymir ura, dağlar.

Sərin sulu buz-bulaq ol,
Kığ, baldırğan, quzqulaq ol,
Mənsiz özün göz-qulaq ol,
Sevgilimə, yara dağlar.

Tər qönçəndən üzənmirəm,
Möhübünü düzənmirəm,
Oylağında gəzənmirəm,
Çıxanmıram ora dağlar.

Meh gətirsin küləklərin,
Enib gəlsin əliklərin,
Qaqqıldaşsın kəkliklərin,
Məskən olma sara dağlar.

Sinə dolu arzu-dilək,
Dada yetsin huri-mələk,
Qoyma gəlib zalım fələk,
İliyimi vura dağlar.

Gəl Cəmilin tut qolundan,
Daş-kəsəyi at yolundan,
Zaman keçib sağ-solundan,
Qoyma onu yora dağlar.

***Cəmil Əkbər*** 4-25. 05 – 1985

## 188. DAĞLAR

Qismət olsun yenə gəlim görüşüm,
Heyranam zirvənə, başına dağlar.
Durnagözlü bulaqlarla öpüşüm,
Bələnim şehinin yaşına dağlar.

Köçəri quş kimi gəlib-getməyəm,
Biranlıq suyundan içib getməyəm,
Köksümü dərməmiş qaçıb getməyəm,
Alaçıq quraydım döşünə dağlar.

Səndən üzülməyə əlim, ayağım,
Olaydım hərzaman əziz qonağın,
Ey doğma diyarım, gözəl oylağım,
Gəlirsən hərzaman xoşuma dağlar.

Yeyəydim döşündə quzey qarından,
Sinəndə bəslənən hər nübarından,
Nazı-nemətindən, külli-varından,
Azuqə toplayam qışıma dağlar.

Şahin kimi qıy vuraydım, uçaydım,
Qanadımı səmalarda açaydım,
Bircə anda şikarımı qucaydım,
Bənzəyəm alıcı quşuna dağlar.

Əməm ləblərindən buz bulaqların,
Kığın, baldırğanın, quzqulaqların,
Beçənin balıyla, kərə yağların,
Çatdıram yaşımı yaşına dağlar.

Boranların, tufanların əsməsin,
Nə səbrini, qərarını kəsməsin,
Eşidəndə sözlərimdən küsməsin,
Nə deyim, nə yazım qışına dağlar?

Başındakı dumanların dağılsın,
Könlündəki gumanların dağılsın,
Bədxahların, yamanların dağılsın,
Dəyib-toxunmasın huşuna dağlar.

Pozulmasın xoş dövranın gərdişin,
Qoy var olsun ilhamıma peşkəşin,
Şairləri coşdurmaqdı vərdişin,
Nicat ver Cəmilin işinə dağlar.

***Cəmil Əkbər*** 1977

## 189. DAĞLAR

Bilən yoxdu tarixini,
De neçədir yaşın dağlar?
Əl-ətəyin yaşıl bağdır,
Nədən ağdır başın dağlar?

Səndə gəzir ahu, ceyran,
Sirrinə qalmışam heyran.
Səndə sürmək üçün dövran,
Vuruşmuşdur  qoşun, dağlar.

İstəyirəm səndə gəzim,
Qalıb çiçəyini üzüm,
Baxmaqla doymayır gözüm,
Səndən gəlir xoşum dağlar.

Şır-şır axır bulaqların,
Könül açır oylaqların,
Nə gözəldir yaylaqların?
Cəh-cəh vurur quşun dağlar.

Gəlib-keçdim ətəyindən,
Arı qaçmır pətəyindən,
Qaçaq-quldur kötəyindən,
Azad olub coşan dağlar.

Təsvirinə dilim çatmır,
Çox ucasan əlim çatmır,
Başın qardır, gülün bitmir,
İtirmisən huşun  dağlar.

El-obadan aralısan,
Yoxsa dərddən yaralısan,
Yazda, yayda da qarlısan,
Soyuq keçir qışın, dağlar.

Açılmayıb lalə, gülün,
Ötüşmür şeyda bülbülün,
Yoxdur sənin deyən dilin,
Az bilinir işin dağlar.

Daha oyan, indi yazdır?
Dilimdəki xoş avazdır,
Əlimdəki telli sazdır,
Gül-çiçəyi heşan dağlar.

Sərin havalar səndədir,
Qayaların yerindədir,
Dərələrin dərindədir,
Var eniş-yoxuşun dağlar.

Səndə gördüm tərlanları,
Lalə, nərgiz, çəmənzarı,
Bülənd olub göyə sarı,
Hər tərəfdən başın dağlar.

Döşündən küləklər əsir,
Hərdən yağır, hərdən kəsir,
Cəmil sənə əsir-yesir,
Nə çatılıb qaşın dağlar?

***Cəmil Əkbər*** 1956

## 190 .DAĞLAR

Görüb, bilib duyanmasan,
Qəflətlərdən oyanmasan,
Hüzurunda dayanmasan,
Qorxuram ki, küsə dağlar.

Vəfalıdır vəfalıya,
Səfalıdır səfalıya,
İlhamlıdır qafalıya,
Demək istər nəsə dağlar.

Vüqarını bildirməynən,
Şənləndirib güldürməynən,
Xeyirxahı öldürməynən,
Görünməynən nəsə dağlar.

Qoy hər işin düz gətirsin,
Gecikməsin tez gətirsin,
Şair dostlar söz gətirsin,
Yığval versin tərsə dağlar.

Nə vüqarlı, camallısan?
Məsləhətli, amallısan?
Düşüncəli kamallısan?
Toxunmasın hirsə dağlar.

Zirvəsində dumanı var,
Könülündə gümanı var,
Çox küsəni, umanı var,
Demək istər nəsə dağlar.

Nə qocalma, nə qarıma,
İnildəmə, nə zarıma,
Vüqar gətir vüqarıma,
Götürməynən əsa dağlar.

Cəmil sənlə öyünəndir,
Sevincinə sevinəndir,
Qəlbi sənlə döyünəndir,
Batma qəmə-yasa dağlar.

***Cəmil Əkbər***

## 191. BU DAĞLARIN, O DAĞLARIN

Əzəmətli vüqarı var,
Bu dağların, o dağların.
Neçə təzə nübarı var,
Bu dağların, o dağların.

Enişi var, yoxuşu var,
Məğrur-məğrur baxışı var,
Təbiətdən naxışı var,
Bu dağların, o dağların.

Gözüm qalıb zirvəsində,
Təpəsində, dərəsində,
Nələr yatır sinəsində?
Bu dağların, o dağların.

Pozulmayan baratı var,
Toy-düyünü, büsatı var,
Koroğlusu, Qıratı var,
Bu dağların, o dağların.

Çiçəklərdən çələngi var,
Kahalarda pələngi var,[13]
Fərhadı var, külüngü var,
Bu dağların, o dağların.

Yamyaşıl bir ormanı var,
Min bir dərdə dərmanı var,
Oxumamış loğmanı var,
Bu dağların, o dağların.

Könül açır mənzərəsi,
Yal-yamacı, dağ-dərəsi,
Göyə dəyir minarəsi,
Bu dağların, o dağların.

Ələsgəri, İmanı var,
Şəmşiri var, Qurbanı var,
Vətənoğlu  Bəhmanı var,
Bu dağların, o dağların.

Tufanı var, boranı var,
Çisgini var, dumanı var,
Min birdərdə dərmanı var,
Bu dağların, o dağların.

[13]Ov görməmiş  pələngi var,

Gör nə təmiz havası var?
Çox dərdlərə dəvası var,
Quş qonmayan qayası var,
Bu dağların, o dağların.

Dostu, yarı buludlardır,
Durna gözlü bulaqlardır,
Pərvanəsi tərlanlardır,
Bu dağların, o dağların.

Heyran oldum meşəsinə,
Hər küncünə, guşəsinə,
Səcdə qıldım çeşməsinə,
Bu dağların, o dağların.

Qar saxlayır quzeyləri,
"Gəl gör" deyir güneyləri,
Qayalardır muzeyləri,
Bu dağların, o dağların.

Milyon ildir hərəsində,
Təpəsində, dərəsində,
Ovçu gəzir bərəsində,
Bu dağların, o dağların.

Yaşıl tala, meşəsi var,
Durna gözlü çeşməsi var,
Şəlalədən şüşəsi var,
Bu dağların, o dağların.

Rəngisolmaz lalası var,
Əlik dolu talası var,
Topdağıtmaz qalası var,
Bu dağların, o dağların.

Buludlardır sərvanları,
Gəlib-keçir karvanları,
Tütək çalır çobanları,
Bu dağların, o dağların.

Cavadı[14] var, Vəlisi[15] var,
Mehdixanı[16], Əlisi[17] var,
Nadiri[18] var, İlyası[19] var,
Bu dağların, o dağların.

Cəmil, bir gün solasısan,
Sən solsan da qalasısan,
Unudulmaz balasısan,
Bu dağların, o dağların.

***Cəmil Əkbər*** 1964 - 1977

## 192. NEYLİM?

Ağarmaq istəmir saçım, saqqalım,
Zəmanə ağardır başımı neylim?
Gedir kef-damağım, gəlir məlalım,
Tökür gözlərimin yaşımı neylim?

Gədə-güdə ayaq alır üstümə,
Toxunurlar mənliyimə, şəsdimə,
Xainliklə giribdilər qəsdimə,
Öldürür könlümün quşunu neylim?

Lotu-potu kef eyləyir maşında,
Nə olsun ki, kamalı yox başında?
Etibar qalmayıb dost, yoldaşın da,
Sındırır qəlbimin daşını neylim?

Bu dərdə tablaşıb dözərmi ürək?
Ömür-gün keçirib yaşayıb görək,
Zəhmətlə bağ salıb meyvəsin dərək,
Az qalır itirəm, huşumu neylim?

---

[14] Cavad - Daşkəsən, Gədəbəy mahalında tanınmış el şairi
[15] Vəli – Gədəbəyin məşhur elşairi və aşığı Miskinli Vəli Bayramov nəzərdə tutulur.
[16] Mehdixan – Kəlbəcər elinin saz-söz ustadı
[17] Əli – Kəlbəcər –Göyçə elinin məşhur şairi Əli Qurbanov (Dastançı) nəzərdə tutulur.
[18] Nadir - Gədəbəy elinin tanınmış el şairi həkim Nadir Əliyev
[19] İlyas - Azərbaycanın məşhur şairi İlyas Tapdıq nəzərdə tutulur.

Cəmiləm qəlbimə vururlar yara,
Günəşli günümü edirlər qara,
Bir ümidim qalıb Pərvərdigara,
Alırlar əlimdən yaşımı neylim?

***Cəmil Əkbər*** 1976

## 193. NEYLƏYİM?

Eşqim, məhəbbətim azalıb gedir,
Verməyir qəlbimə coşu, neyləyim?
Qüvvətim, qüdrətim sozalıb gedir,
Tükənir sərimin huşu neyləyim?

Sərsəri, nadanlar giclər əlindən,
Fitnəkar, dələduz, biclər əlindən,
Haqqa, ədalətə öclər əlindən,
Göynəyir qəlbimin başı neyləyim?

Tanınmır soykökü, bilən yox zatı,
Əzəldən, binadan kökündən lotu,
Başına salan yox kəndirlə, çatı,
Toxunur şəsdimə naşı, neyləyim?

Deyən yox şeytana, iblisə lənət,
Nanəcib, alçağa, naqisə lənət,
Paxıla, xainə, xəbisə lənət,
Tökmür ətəyindən daşı neyləyim?

Könlümün çəkdiyi qəmdir, kədərdir,
Əzəldən belədir, o sərbəsərdir,
Əzab-əziyyətdir, zülmü-qəhərdir,
Qurumur gözümün yaşı neyləyim?

Cəmilin istəyi pakdır, təmizdir,
Xəyalı ümmandır, qəlbi dənizdir,
Xeyirxah kimsələr doğma, əzizdir,
Gəlməyir hamıya xoşu  neyləyim?

***Cəmil Əkbər*** 5. 04 - 1982

## 194. NEYLƏYİM?

İnsanoğlu yaranandan bəridir,
Qurban gedir cəhalətə neyləyim?
İbtidadan daranandan bəridir,
Qurban gedir qəbahətə neyləyim?

Birbirinin əsəbini korlayır,
Bərkə-boşa dara salır zorlayır,
Sinəsinə odu qoyub qorlayır,
Qurban gedir ədavətə neyləyim?

Addımbaşı  al qanını qaraldır,
Zülmə salıb gen dünyanı daraldır.
Xəzan olub bağlarını saraldır,
Qurban gedir küdurətə neyləyim?

Gör haçandan ürəklərdə kin yatır?
İblis yatır, şeytan yatır, cin yatır,
Duman çöküb, çisgin yatır, çən yatır,
Qurban gedir xəyanətə neyləyim?

Bir deyildir, beş deyildir oğrular,
O səbəbdən azalmayır ağrılar,
Əzab çəkir Haqq sevənlər, doğrular,
Qurban gedir cəhalətə neyləyim?

Başa keçib hökm eyləyir nadanlar,
Tərbiyədən dadar-doymaz dadanlar.
Haqqısayı sümürənlər, udanlar,
Qurban gedir sədarətə neyləyim?

Çoxlarının verilməyir qiyməti,
Düzdə qalır çəkdikləri zəhməti,
Görünməyir, bilinməyir xidməti,
Qurban gedir fəlakətə neyləyim?

Xain-xəbis ləyaqəti danırlar,
Bacarığı, məharəti danırlar,
Cəmil Əkbər, cəsarəti danırlar,
Qurban gedir zəlalətə neyləyim?

***Cəmil Əkbər*** 10. 11 – 1993

## 195. NEYLƏYİM?

Nəqədər yatmışam xaki-qəflətdə,
Qalmışam dallardan-dala neyləyim?
Keçibdir günlərim sözdə-söhbətdə,
Düşmüşəm qovğaya, qala neyləyim?

Anadan olandan xəbis olmadım,
Nanəcib, naxələf, naqis olmadım,
Ellərin malına həris olmadım,
Sussamadım vara-hala neyləyim?

Zəmanə bəd gldi, dövran pis getdi,
Çaşıbdı yolunu karvan pis getdi,
İtirdi əqlini sarvan pis getdi,
Bu vurhavur, çalhaçala neyləyim?

Pozulur ünsiyyət, qızışır dava,
Qatırlar aranı sərsəri, yava,
Qaralıb buludlar, açılmır hava,
Daşkəsək düzülür yola neyləyim?

Uymuşam zamanın gərdişinə mən,
Sərsəri, kəmağıl vərdişinə mən,
İnciynən düzülən zərdişinə mən,
Baxmırlar qabağa-dala neyləyim?

Haçandan bəridir çatılıb qaşım?
Dərdləyib ürəyim, ağrıyır başım?
Sarsıyıb xəyalım, dağılıb huşum?
Pulum çatmır yağa-bala neyləyim?

Gərdişi-zəmanə qocaltdı məni,
İnlətdi, sızlatdı sozaltdı məni,
Günbəgün əritdi, azaltdı məni,
Sinəmdə inləyən vala neyləyim?

Aldanıb hiyləyə, xülyaya daldım,
Odurki axırda bugünə qaldım,
Könül rübabımı kökləyib çaldım,
Tikilib gözlərim yola neyləyim?

Ənənəmi, adətimi dandılar,
Ellər sevən sənətimi dandılar,
Məzmunumu, hikmətimi dandılar,
Salıblar fitnəyə-felə neyləyim?

Kim qınayır qoy qınasın Cəmili,
Tanımayan qoy tanısın Cəmili.
Məzəmmətlə qoy yanısın Cəmili,
Köç edirəm bala-bala neyləyim?

***Cəmil Əkbər*** 19. 04 – 1996

## 196. NEYLƏYİM?

Üzümüzdə heç qalmayıb həyamız,
Tapdalanır hər ismətim neyləyim?
Halal-haram qatqarışıq mayamız,
O, bu yeyir hər qismətim, neyləyim?

Çalıb-çapır var toplayır oğrular,
Künc-bucaqdan boylanırlar doğrular.
Dərd çəkməkdən başdan qalxır ağrılar,
Eşidilmir şikayətim neyləyim?

Lotu-potu dövran sürür maşında,
Nə olsun ki, kamalı yox başında,
Belə dərdə bağrı çatlar daşın da,
Dözə bilmir xasiyyətim, neyləyim?

Nanəciblər ayaq alır üstümə,
Toxunurlar mənliyimə, şəstimə,
Bais olur başdan qalxan tüsdümə,
Görəbilmir ləyaqətim neyləyim?

Yeyib-içir, dövran sürür kalanlar,
Nəvecinə, gül yanağı solanlar,
Gəlib çıxmır qeydimizə qalanlar,
Tapdalanır həqiqətim neyləyim?

Komunnadan danışmaqdan yoruldum,
Xeyrə-şərə qarışmaqdan yoruldum,
Nadanlarla vuruşmaqdan yoruldum,
Əsər etmir məsləhətim, neyləyim?

El dərdini çəkə-çəkə qocaldım,
Öz qəddimi bükə-bükə qocaldım,
Bağrım başım sökə-sökə qocaldım,
Əldən gedir şəxsiyyətim neyləyim?

Xiridar yox ləl-cəvahir daşına,
Toxunurlar ürəyimin başına,
Acıyan yox gözlərimin yaşına,
Nə olsun ki, var hikmətim neyləyim?

Kömək etdim kimsəsizə, yazığa,
Fərq qoymadım nə yaxına, uzağa,
Mən düşmərəm hər tufana, sazağa,
Daşa dəyir məhəbbətim, neyləyim?

Mərd insanlar zinətidir ellərin,
Sonalardır bər-bəzəyi göllərin,
Bülbüllərdir nəğməkarı güllərin,
Ona vardır hər hörmətim, neyləyim?

***Cəmil Əkbər*** 1975

## 197. NEYLƏYİM?

Yanımdan keçərkən gözəl afətim,
Qanrılıb baxmayım, baxım neyləyim?
Eşq-məhəbbətlə nə zərafətim?
Yandırıb qəlbimi, yaxım neyləyim?

Sataşdı gözümə o nazlı sənəm,
Eləbil od aldı, alışdı sinəm,
Əriyib gedirəm, sanki mum mənəm,
Axmayım neyləyim, axım neyləyim?

Dağların köksündə çeşməyə döndüm,
Ciyərim od aldı, içməyə dondüm,
Buludlar içində şimşəyə döndüm,
Çaxmayım neyləyim, çaxım neyləyim?

Cəmiləm, gözəllik divanəsiyəm,
Oduna alışan pərvanəsiyəm,
Aşiqəm məşuqun divanəsiyəm,
Başına qaxmayım, qaxım neyləyim?

***Cəmil Əkbər***

## 198. TAPAMMASAM BƏS NEYLƏYİM?

Axtardığım ədalətdi,
Tapammasam bəs neyləyim?
Doğru, düzlük, həqiqətdi,
Tapammasam bəs neyləyim?

Gözləyirəm şərafəti,
Sədaqəti, səxavəti,
Xeyirxahlıq, fəziləti,
Tapammasam bəs neyləyim?

Soraqladım sədaqəti,
Bacarığı, məharəti,
Fərasəti, cəsarəti,
Tapammasam bəs neyləyim?

Mən gəzdiyim nəzakətdir,
Ülvi istək, məhəbbətdir,
Əbədiyyət, nihayətdir,
Tapammasam bəs neyləyim?

Mən gəzirəm mehri-ülfət,
Mehribanlıq, səmimiyyət,
Təmiz arzu, təmiz niyyət,
Tapammasam bəs neyləyim?

Soraq etdim ləyaqəti,
Dözüm-durum, qətiyyəti.
Doğru- dürüst bəyanəti,
Tapammasam bəs neyləyim?

Mən gəzdiyim mərifətdir,
İlqar-iman şəriətdir,
Qayda-qanun, təriqətdir,
Tapammasam bəs neyləyim?

Axtardığım haqqı-saydır,
Halal süfrə, halal paydır,
Gündüz günəş, gecə aydır,
Tapammasam bəs neyləyim?

Vurulduğum alagözdür,
Qaymaq dodaq, lalə üzdür.
Şirin ləhcə, şirin sözdür,
Tapammasam bəs neyləyim?

Bir vəfalı dost gəzirəm,
Bir qafalı dost gəzirəm,
Mən səfalı dost gəzirəm,
Tapammasam bəs neyləyim?

Mən gəzdiyim namus, ardır,
Yaxşı yoldaş, yaxşı yardır.
Yoxsa dünya laldır, kardır?
Tapammasam bəs neyləyim?

***Cəmil Əkbər*** 6. 10 -1995

## 199. NEYLƏSİN?

Qanın xarabdırsa, genin xarabsa,
Loğmandan incimə, dərman neyləsin?
Qəzəbin, hiddətin, kinin xarabsa,
Haqq-divan neyləsin, fərman neyləsin?

Düşüncə, dərrakə, kamal qıtdırsa,
Əqidə qəhətsə, amal qıtdırsa,
Görkəmin, yöndəmin, camal qıtdırsa,
Din-məzhəb neyləsin, iman neyləsin?

Qəlbində məhəbbət alovu yoxsa,
Təpərin, riqqətin cilovu yoxsa,
Qaynağı, qarmağı, tilovu yoxsa,
Dəftərlər, kitablar, dastan neyləsin?

Başında, huşunda yoxdursa əsər,
Dərrakə, idrakdan yoxdursa kəsər.
Hamı üz döndərib inciyib küsər,
Əcdadın neyləsin, baban neyləsin?

Olmasa öz eşqin, öz məhəbbətin,
Düz andın, düz əhdin, düz məhəbbətin,
Qaynayıb daşmasa tez məhəbbətin,
Vətənin neyləsin, oban neyləsin?

Dəyirman bildiyin eyləyəcəkdir,
Daşı öz səmtinə hərlənəcəkdir,
Çaxçax çox acizdi, girlənəcəkdir,
De dingi neyləsin, daban neyləsin?

***Cəmil Əkbər*** 7. 03 – 1988

## 200. NEYLƏSİN?

Yesə çörəyini nanıkor gədə,
Xörəyin neyləsin, aşın neyləsin?
Xəyanət eyləsə ilqara, vədə,
Xəyalın çaşmasın, huşun neyləsin?

Qədrini bilməsə dostun, yoldaşın,
Həmkarın, həmdəmin, yaxın sirdaşın,
Ruhu oxşamasa həyat yoldaşın,
Saqqal ağarmasın, başın neyləsin?

Nadanlarla düşər olsa güzarın,
Sağalarmı qövr eyləyən azarın?
Dürr olsada bağlanacaq bazarın,
Gövhərin neyləsin, daşın neyləsin?

Yol getməsə hodaq ilə məjgəlin,
Düz çəkənməz nə öküzün, nə kəlin,
Çalışmaqla bəhrə verməz əməlin,
Kotanın neyləsin, xışın neyləsin?

Kəsilməsə qal-qovğalar, davalar,
Zəhərlərə bülənd olan havalar,
Meydan açsa sərsərilər, yavalar,
Ömür gödəlməsin, yaşın neyləsin?

Cahil sərsərilər qəlbə dəyirsə,
Vurub qamətini yaytək əyirsə,
Haqqısayı sümürərək yeyirsə,
Qabaq tutulmasın, qaşın neyləsin?

Qanmazlara tapşıranda qananı,
Yerli-yesiz salacaqdır davanı,
Zəhərləyib korlayacaq havanı,
Sərkərdə çaşanda, qoşun neyləsin?

Cəmil, qalsan divanələr əlində,
İnsanlığa biganələr əlində,
Yanacaqsan pərvanələr selində,
Fəhimin neyləsin, guşin neyləsin?

***Cəmil Əkbər*** 15. 10 -1980

## 201. NEYLƏSİN?

Çalıb-çapan ağa kimi dolanır,
Çalmayanlar, çapmayanlar neyləsin?
Yeyib-içib, peyvənd olub sulanır,
Yağlı kökə tapmayanlar neyləsin?

Oğru-əyri vara, hala çatırlar,
Var-dövlətə, cah-cəlala çatırlar,
Bacarmayan dərd-məlala çatırlar,
"Fərasəti" olmayanlar neyləsin?

Hiyləgərlər, dələduzlar yaşayır,
Vicdanıkəm, qəlbi buzlar yaşayır,
İlqarakəm vəfasızlar yaşayır,
"Məharəti!" olmayanlar neyləsin?

İxtiyarlı, sədarətli yaşayır,
Hökmü keçən, kəsarətli yaşayır.
Qorxmaz-ülkməz cəsarətli yaşayır,
"Cəsarəti" olmayanlar neyləsin?

Bu zamanda həyasızın kefidir,
Qazancıdır, gəliridir, nəfidir,
Zurnasıdır, qavalıdır dəfidir,
Abırlılar, həyalılar neyləsin?

Abırlını, ismətlini sevən yox,
Halal süfrə, qismətlini sevən yox,
Qəlbi təmiz xislətlini sevən yox,
Əqidəli, qayəlilər neyləsin?

İndi meydan nadanlara verilib,
Yolunu tərs adanlara verilib.
Haqqısayı udanlara verilib,
Tərbiyəli, dayəlilər neyləsin?

Vecinə döy abırsızın, arsızın,
Söyüd kimi, ulğun kimi barsızın,
Müqəvvanın, biganənin karsızın,
Arlı, karlı, barlı yazıq neyləsin?

Bu zəmanə dələduzun, bicindi,
İlqarına, imanına kəcindi,
Sərsərinin, kəmağılın, gicindi,
Kamallılar, amallılar neyləsin?

***Cəmil Əkbər*** 17. 06 – 1994

## 202. NEYLƏSİN?

Göylər yerə leysanını tökəndə,
Çaylar daşıb bulanmasın  neyləsin?
Qara bulud dağ başına çökəndə,
Sellər suya calanmasın neyləsin?

Can üzülür nadanların əlində,
Haqqısayı udanların əlində,
Azğın, pozğun adamların əlində,
Olan-qalan talanmasın neyləsin?

Görə-görə ünsiyyəti pozurlar,
Yolu-izi sağa-sola azırlar,
Düzü əyri, əyrini düz yozurlar,
Gözlər baxıb sulanmasın neyləsin?

İnsaf-mürvət yerbəyerdən atılır,
Vicdan, məslək addımbaşı satılır,
Yaxşıya pis, pisə yaxşı qatılır,
Fikir, xəyal dolanmasın neyləsin?

Haqsızlığın qabağını alan yox,
Haqqısayı bir yadına salan yox,
Yazıq xalqın qayğısına qalan yox,
Hara gəldi yollanmasın neyləsin?

Hərkəsdəni öz yoluna qoyan yox,
Çəkib səmtə düz yoluna qoyan yox,
Daşan nəhri tez yoluna qoyan yox,
Kükrəməsin, sellənməsin neyləsin?

“Papaların” kölgəsində yatan çox,
Sulanan çox, cücərən çox, bitən çox,
Yata-yata məqsədinə çatan çox,
Yeyib-içib şellənməsin neyləsin?

Çoxu məvaciblə dolana bilmir,
Yeyərək, içərək sulana bilmir.
Düşüb eşq oduna qalana bilmir,
Oğru-əyri pullanmasın neyləsin?

Bu dərddən qardaşım susa bilmərəm,
Gedib daldalarda pusa bilmərəm,
Səsimi içimdə qısa bilmərəm,
Cəmil Əkbər dillənməsin neyləsin?

***Cəmil Əkbər*** 21. 11 – 1992

## 203. NEYLƏSİN?

Hərkəsin özünün başı gərəkdir,
Özgə düşüncəsi, başı neyləsin?
Vicdan tərəzisi, daşı gərəkdir,
Özgə tərəzisi, daşı neyləsin?

Hər ilin özünün qışı gərəkdir,
Hər hodaq məjgəlin xışı gərəkdir,
Yeməyə hərkəsin aşı gərəkdir,
Özgənin süfrəsi, aşı neyləsin?

Hər könül mülkünün öz quşu gərək,
Hər mehri-ülfətin öz xoşu gərək,
Kamal sahibinin öz guşi gərək,
Özgə könüllərin quşu neyləsin?

Hərkəsin idrakı, huşu gərəkdir,
Hər məğrur sinənin döşü gərəkdir,
Hər igid ömrünün yaşı gərəkdir,
Özgə idrakının huşu neyləsin?

Ay Cəmil, az düşün yorma özünü,
Sındırma özünü, qırma özünü,
Öldürmə özünü, vurma özünü,
Özgə ömürlərin yaşı neyləsin?

***Cəmil Əkbər*** 14. 05 – 1988

## 204. NEYLƏSİN?

Anan səni çox eybəcər doğubsa,
Danışmaq neyləsin, demək neyləsin?
Avamlıqda, cəhalətdə boğubsa,
Hay-həşir neyləsin, kömək neyləsin?

Çatmırsa hövsələn, yetmirsə səbr,
Yaranmış xilqətə olmusan cəbr,
Deyirlər qozbeli düzəldər qəbir,
Dəyənək neyləsin, kötək neyləsin?

Xalqının nanıkor övladısansa,
İgid əvəzində xoryadısansa,
Ahu-fəqanısan, fəryadısansa,
Xoş arzu-istəklər, dilək neyləsin?

Ellərin varından doymursa gözün,
Doymursa ocağın, doymursa közün,
Doymursa söhbətin, doymursa sözün,
İştahın neyləsin, yemək neyləsin?

Bir adam ki, öz yanından qanmayır,
Dərk eyləyib, öz canından yanmayır,
Öz kökündən, öz kanından anmayır,
Dalaşmaq neyləsin, söymək neyləsin?

Bir adam ki, gördüyünü götürmür,
Bağ calayıb, peyvənd edib bitirmir,
Estafeti əldən-ələ ötürmür,
Qınamaq, məzəmmət, döymək neyləsin?

***Cəmil Əkbər*** 10. 05 - 1988

## 205. NEYLƏSİN?

Tərbiyə oqədər pozulubduki,
Valideyn neyləsin, dayə neyləsin?
Doğrular tərsinə yozulubduki,
Əqidə neyləsin, qayə neyləsin?

Abır ərşə çıxıb, ismət tükənib,
Vicdanlı, məsləkli xislət tükənib,
Ünsiyyət-ülfətdə hikmət tükənib,
Ar-namus neyləsin, həya neyləsin?

Oğruluq, əyrilik, haramlıq artıb,
Yaxşılıq azalıb, yamanlıq artıb,
Fikirdə, xəyalda dumanlıq artıb,
Halaldan kəsb olan mayə neyləsin?

Oqədər incəlib zərifləşmişik,
İtirib kamalı hərifləşmişik,
Öcəşib, didişib təpikləşmişik,
Dəyənək, kötəklər, paya neyləsin?

***Cəmil Əkbər*** 14. 09 – 1989

## 206. YAZIQ NEYLƏSİN?

Baş var düşüncəli, baş var kamallı,
Baş da var karsızdı, yazıq neyləsin?
Baş var əqidəli, baş var amallı,
Baş da var barsızdı, yazıq neyləsin?

Baş var ismətlidir, baş var həyalı,
Baş var əqidəli, baş var qayəli,
Hara getsə qədəmləri sayəli,
Baş da var arsızdı, yazıq neyləsin?

Baş var ki, ellərdə varı bəllidir,
Namusu, qeyrəti, arı bəllidir,
İftixarı, iqtidarı bəllidir,
Baş da var varsızdı, yazıq neyləsin?

Baş var ki, şöhrəti elə bəllidir,
Aylara, günlərə, ilə bəllidir,
Muğana, Şirvana, Milə bəllidir,
Baş da var hırsızdı, yazıq neyləsin?

Baş var ki, dünyada şöhrəti bəlli,
Xidməti, qayğısı, hörməti bəlli,
İnsafı, vicdanı, mürvəti bəlli,
Baş da var girsizdi, yazıq neyləsin?

Baş var ki, hamıda əməyi vardır,
Qayğısı, yardımı, köməyi vardır,
Nəcib arzuları, diləyi vardır,
Baş da var gücsüzdü, yazıq neyləsin?

Baş var ki, aranı, dağı bəllidir,
Bağbanı məşhurdur, bağı bəllidir,
Bostanı yetişib, tağı bəllidir,
Baş da var narsızdı, yazıq neyləsin?

Baş var ki, ağızdan dürdü tökdüyü,
İncisi, sədəfi, zərdi tökdüyü,
Danışdıqca min bir sirdi tökdüyü,
Baş da var kasaddı, yazıq neyləsin?

***Cəmil Əkbər*** 29.12 – 1999

## 207. YAZIQ NEYLƏSİN?

Qazanan qzanır, yeyənlər-yeyir,
Gözü yolda qalan yazıq neyləsin?
Düzəldən-düzəldir, əyənlər-əyir,
Xəyallara dalan yazıq  neyləsin?

Əzilən-əzilir, əzənlər-əzir,
İnciyən-inciyir, bezənlər-bezir,
Darıxan-darıxır, dözənlər-dözür,
Açan-açır, solan yazıq neyləsin?

Bazar bahalıqdır, girişmək olmur,
Birtəhər yanından ötüşmək olmur,
Dostlarla-tanışla görüşmək olmur,
Satan-satır, alan yazıq neyləsin?

Çoxları bu dərdə dözə bilməyir,
Fərəhlə dolanıb gəzə bilməyir,
Dövranı xoş keçmir, məzə bilməyir,
Ölən-ölür, qalan yazıq neyləsin?

Körpəlikdən dayəsini itirən,
Arxasını, sayəsini itirən,
Doğru-düzgün mayəsini itirən,
Könül mülkü talan yazıq neyləsin?

Ay Cəmil, bu dünya kimiyə kefdir,
Qazancı-gəliri, yerbəyer müfdür,
Çaldığı zurnadır, qavaldır, dəfdir,
Qəm sazını çalan yazıq neyləsin?

***Cəmil Əkbər*** 10. 01 - 1994

## 208. VƏTƏN YAZIQ NEYLƏSİN?

Sahibi var hər obanın, hər elin,
Vətəndaşsız Vətən yazıq neyləsin?
Ətiri var hər çiçəyin, hər gülün,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Vətən görsə övladını naxələf,
Öz borcunu verənməsə naxələf.
Bəsləmədən barı dərsə naxələf,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Baş götürüb hamı qaçsa Vətəndən,
Didərgintək hamı köçsə Vətəndən,
Yad ellərə hamı uçsa Vətəndən,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Bu nə hay-həşirdir, nə qaçha-qaçdır?
Qanadı tutduqca nə uçha-uçdur?
Necə barxanadır, nə köçha-köçdür,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Vətən süfrəmizdir, Vətən çörəkdir,
Bəşər övladına daim gərəkdir,
Onun naz-neməti vuran ürəkdir,
Vətəndaşsız Vətən yazıq neyləsin?

Mərd igid oğuldur, Vətən anadır,
Vətən sığıncaqdır, Vətən binadır,
Kim qoyub-qaçırsa, bilsin zinadır,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Vətən torpağına xəyanət olmaz,
Vətəni tərk etmək, cəhalət olmaz,
Buqədər qəbahət, fəlakət olmaz,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Vətən bizə, biz Vətənə gərəyik,
Vətən bizə, biz Vətənə dirəyik,
Vətən bizə, biz Vətənə köməyik,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Bizdən ayrı qəribsəyir o yerlər,
Vəfasıza gülümsəyir o yerlər.
Təpikləyir, dümsükləyir o yerlər,
Vətəndaşsız Vətən yazıq  neyləsin?

Cəmil Əkbər, sən də Vətən oğlusan,
Bülbültəki bağda ötən oğlusan,
Yeyib-içən, sən də bitən oğlusan,
Vətəndaşsız Vətən yazıq neyləsin?

***Cəmil Əkbər***

## 209. BAŞQADIR

Axar çaylar daşıb ümman olsa da,
Hər daşqının məharəti başqadır,
Hamı bilib alim, loğman olsada,
Hər insanın səxavəti başqadır.

Günlər keçib, ay dolanıb batsa da,
Şirin dilim hansı eldə ötsə də,
Bağban bağı calaq-calaq etsə də,
Hər meyvənin lətafəti başqadır.

Hökmü verən bizə zaman olsa da,
Aralıqda yaxşı-yaman olsa da,
Hamı bilib alim, loğman olsa da,
Hərkəsdənin səxavəti başqadır.

Nəqədər üzünə gülən olsada,
Dərdindən hal olub bilən olsada,
Yanına çox gedib-gələn olsada,
Hər insanın məhəbbəti başqadır.

Külək əsib, yağış yağıb, gün düşsə,
Sınan könül qaynayıb da bitişsə,
Şeyda bülbül vəcdə gəlib ötüşsə,
Hər çiçəyin təravəti başqadır.

Nəqədər el-oba gəzmişəm bilin!
Almasın, heyvasın üzmüşəm bilin!
Yaxşıya-yamana dözmüşəm bilin!
Hərəsinin əhvalatı başqadır.

Fələk məni təkcə-tənha qoysa da,
Dost-tanışlar usansada, doysa da,
Çoxlu könül birbirinə uysa da,
Hərkəsdənin həmsöhbəti başqadır.

Anadan olubsan qoçaq olgunan,
Düşmənin gözünə bıçaq olgunan,
Yayın bədəməldən, qaçaq olgunan,
Hərbir işin xəcaləti başqadır.

Ey Cəmil, insanın hamsı bir deyil,
Nurani, ağsaqqal, nə də pir deyil,
Nə danıb gizlədək, buki sir deyil?
Adı-sanı, şərafəti başqadır.

***Cəmil Əkbər*** 21. 05 - 1956 Kislovodsk.

## 210. BAŞQADIR

Hər sinə altında bir ürək vurur,
Sevdası başqadır, eşqi başqadır.
Hərəsi bircürə yaradıb-qurur,
Təpəri başqadır, məşqi başqadır.

Hərkəsin öz yurdu, öz eli vardır,
Hər dağın, dərənin öz seli vardır,
Hər bağın-bağçanın öz gülü vardır,
Ətiri, ənbəri, müşkü başqadır.

Ey Cəmil, hər qəlbin öz ahəngi var,
Əyri ahəngi var, düz ahəngi var,
Dərin ahəngi var, üz ahəngi var,
Sarayı başqadır, köşkü başqadır.

***Cəmil Əkbər*** 1986

## 211. BAŞQADIR

Hamının istəyi bir ola bilmir,
Hər insanın məhəbbəti başqadır.
İnciyə çevrilib, zər ola bilmir,
Hər insanın ləyaqəti başqadır.

Hərənin özünün kəraməti var,
İnsanlıq naminə əlaməti var,
Bəxşeyiş, ənamı, ənaəti var,
Sədaqəti, səxavəti başqadır.

Biri düzü sevir, birisi yalan,
Birisi açandır, birisi solan,
Birisi gedəndir, birisi qalan,
Hərkəsdənin dəyanəti başqadır.

Biri haqdan, ədalətdən danışır,
Doğru-düzlük, həqiqətdən danışır,
Xeyirxahlıq, fəzilətdən danışır,
Eylədiyi bəyanatı başqadır.

Birisi istidir, birisi soyuq,
Birisi müqəvva, birisi oyuq,
Birisi xoruzdur, birisi toyuq,
Fərasəti, cəsarəti başqadır.

Hiyləgər, dələduz, bic olan da var,
İlqara-imana kəc olan da var,
Qanuna-qaydaya öc olan da var,
İşgəncəsi, müsibəti başqadır.

Birisi karlıdır, birisi qıtdır,
Biri bərbəzəkli, birisi lütdür,
Birisi diribaş, birisi kütdür,
Odu-közü, hərarəti başqadır.

Birisi dağıdır, birisi tikir,
Birisi düzəldir, birisi sökür,
Birisi kef çəkir, birisi fikir,
Kəraməti, bu nüsrəti başqadır.

İnsanam deyəni tanımaq olmur,
Hər addımbaşında sınamaq olmur.
Gətirib xəyala unamaq olmur,
Ənənəsi, xasiyyəti başqadır.

Hərə bir biçimdə, başqa dondadır,
Bilinmir insanlıq onda, bundadır,
Günah hüceyrədə, gendə, qandadır,
Hərkəsdənin nəcabəti başqadır.

Fələk hər insanı bir yerdən qırıb,
Çəkib sinələrə dağ-düyün vurub,
Eləbil hamının qəsdinə durub,
Zəlaləti, fəlakəti başqadır.

Hərkəs lovğalanıb, ədalanmasın,
Hay-küy çıxararaq sədalanmasın,
Ayıbdır ellərdən gədalanmasın,
Hərkəsdənin qəbahəti başqadır.

Hərə dərk eyləyib bircürə qanır,
Bircürə alışıb, bircürə yanır,
Böyüyü-kiçiyi bircürə sanır,
Hərkəsdənin təlimatı başqadır.

Yaradan hərəyə bircür pay verib,
Kimə günəş verib, kimə ay verib,
Kimiyə bir damla, kimə çay verib,
Dəm-dəstgahı, şəraiti başqadır.

Cəmil Əkbər, tək doğulub anadan,
İbtidadan, əzəl gündən, binadan,
Ona tay-bərabər deyildir asan,
İnsaf, mürvət mərhəməti başqadır.

***Cəmil Əkbər*** 28.12. – 199

## 212. BAŞQA-BAŞQADIR

Torpaq həmin torpaq, yer də həmin yer,
Bəs nədən sərvəti başqa-başqadır?
Zəhmət həmin zəhmət, tər də həmin tər,
Bəs nədən dövləti başqa-başqadır?

Aran o arandır, dağ da o dağdır,
Bağça o bağçadır, bağ da o bağdır,
Bostan o bostandır, tağ da o tağdır,
Bəs nədən neməti başqa-başqadır?

Çəmən o çəməndir, çöl də o çöldür,
Dərya o dəryadır, kol da o koldur,
Qollar o qollardır, əl də o əldir,
Bəs nədən qüdrəti başqa-başqadır?

Yoldaş o yoldaşdır, qardaş o qardaş,
Həmkar o həmkardır, sirdaş o sirdaş,
Taytuş o taytuşdur, çağdaş o çağdaş,
Bəs nədən xisləti başqa-başqadır?

Yaxşılar o yaxşı, yaman o yaman,
Dərman o dərmandır, loğman o loğman,
Bəşər o bəşərdər, insan o insan,
Bəs nədən hörməti başqa-başqadır?

Arzular o arzu, dilək o dilək,
Xəlbirlər o xəlbir, ələk o ələk,
İstəklər o istək, ürək o ürək,
Bəs nədən mürvəti başqa-başqadır?

Enişlər yoxuşlar, düzlər o düzlər,
Oğullar o oğul, qızlar o qızlar,
Yanaqlar o yanaq, üzlər o üzlər,
Bəs nədən isməti başqa-başqadır?

Xeyirlər o xeyir, şərlər o şərdir,
İgidlər o igid, nərlər o nərdir,
Kişilər o kişi, ərlər o ərdir,
Bəs nədən niyyəti başqa-başqadır?

Yollar o yollardır, izlər o izlər,
Baxışlar o baxış, gözlər o gözlər,
Dodaqlar o dodaq, dillər o dildir,
Bəs nədən söhbəti başqa-başqadır?

Sahil o sahildir, sükan o sükan,
Bazar o bazardır, dükan o dükan,
Fürsət o fürsətdir, imkan o imkan,
Bəs nədən xidməti başqa-başqadır?

Aylar o aylardır, illər o illər,
Çəmən o çəməndir, çöllər o çöllər,
Çiçəklər o çiçək, güllər o güllər,
Bəs nədən şərbəti başqa-başqadır?

Yoldaş o yoldaşdır, yar da o yardır,
Ağac o ağacdır, bar da o bardır,
Hayva o hayvadır, nar da o nardır,
Bəs nədən ləzzəti başqa-başqadır?

Dəqiqə, saat da, gün də o gündür,
Duman da, çiskin də, çən də o çəndir,
Haray da, həşir də, ün də o ündür,
Bəs nədən nəşəti başqa-başqadır?

Beyin o beyindir, baş da o başdır,
Kipriklər o kiprik, qaş da o qaşdır,
Ömür də o ömür, yaş da o yaşdır,
Bəs nədən diqqəti başqa-başqadır?

Tufan o tufandır, yel də o yeldir,
Daşqın o daşqındır, sel də o seldir,
Aylar o aylardır, il də o ildir,
Bəs nədən hikməti başqa-başqadır?

Vətən həmin Vətən, el həmin eldir,
Bülbül həmin bülbül, gül həmin güldür,
Karvan həmin karvan, yol həmin yoldur,
Bəs nədən nüsrəti başqa-başqadır?

Bu dünya əzəldən zorla xoşundur,
Onu zəbt eyləyən güclü qoşundur,
Top-tüfəngdi, silah, odlu maşındı,
Zərbəsi, sürəti başqa-başqadır.

Muğan o Muğandır, Mil də o Mildir,
İnci o incidir, ləl də o ləldir,
Naxır o naxırdır, kəl də o kəldir,
Bəs nədən şöhrəti başqa-başqadır?

***Cəmil Əkbər*** 17. 12 -1995

## 213. BAŞQA-BAŞQADIR

Dünyanın karı da, lalı da vardır,
Dəymişi, sütülü, kalı da vardır,
Şəkəri, şərbəti, balı da vardır,
Dəyəri, qiyməti başqa-başqadır.

Ağa da, nökər də, bəy də dolanır,
Aqil də, sayıl da, səy də dolanır,
Kütbeyin, kəmağıl, key də dolanır,
Cəsarət, cürəti başqa-başqadır.

Bu bəşər, bu xilqət hamı bir deyil,
Nə dadı, nə duzu, tamı bir deyil,
Günahı da savabı da bir deyil,
Fəhmi-fərasəti başqa-başqadır.

Fələyin işinə nə demək olar?
Nə onu saxlamaq, əyləmək olar,
Nə sirri açaraq söyləmək olar,
Xuda ənaəti başqa-başqadır.

Dəyişib ay Cəmil dünyanın işi,
Adət-ənənəsi, məşqi, vərdişi,
Dövrü-zəmanənin gözəl gərdişi,
Hökmü, sədarəti başqa-başqadır.

***Cəmil Əkbər*** 24. / 12 -1995

## 214. BAŞQA-BAŞQADIR

Torpaq o torpaq döy, yer o yer deyil,
Dövləti, sərvəti başqa-başqadır.
Zəhmət o zəhmət döy, tər o tər deyil,
Qüvvəsi, qüdrəti başqa-başqadır.

Nə aran o aran, nə dağ o dağdır,
Nə bağça o bağça, nə bağ o bağdır,
Nə bostan o bostan, nə tağ o tağdır,
Hər nazı-neməti başqa-başqadır.

Nə Vətən o Vətən, nə el o eldir,
Nə tufan, qasırğa, nə yel o yeldir,
Nə dəhan, nə dodaq, nə dil o dildir,
Nicatı, nüsrəti başqa-başqadır.

Nə bəşər o bəşər, insan o insan,
Nə təbib o təbib, loğman o loğman,
Nə küsən, inciyən, uman o uman,
Zəhməti, xidməti başqa-başqadır.

Nə dərya o dərya, nə göl o göldür,
Nə daşqın o daşqın, nə sel o seldir,
Nə aylar o aydır, nə il o ildir,
Mənası, hikməti başqa-başqadır.

Nə Muğan o Muğan, nə Mil o Mildir,
Nə darçın o darçın, nə hil o hildir,
Nə sərraf o sərraf, nə ləl o ləldir,
Dəyəri, qiyməti başqa-başqadır.

Nə yollar o yoldur, nə iz o izdir,
Nə baxış o baxış, nə üz o üzdür,
Nə şair o şair, nə söz o sözdür,
Kəlamı, söhbəti başqa-başqadır.

Çəmən o çəmən döy, çöl o çöl deyil,
Nə sağım o sağ döy, sol o sol deyil,
Nə qollar o qoldur, əl o əl deyil,
Şərəfi, şöhrəti başqa-başqadır.

Nə dövran o dövran, zaman o zaman,
Nə bazar o bazar, dükan o dükan,
Nə sahil o sahil, sükan o sükan,
Arzusu, niyyəti başqa-başqadır.

Yoldaş o yoldaş döy, qardaş o qardaş,
Həmkar o həmkar döy, sirdaş o sirdaş,
Taytuş o taytuş döy, çağdaş o çağdaş,
Varlığı, xisləti başqa-başqadır.

Nə beyin o beyin, nə baş o başdır,
Nə xəyal o xəyal, nə huş o huşdur,
Nə bahar o bahar, nə qış o qışdır,
Nəzəri, diqqəti başqa-başqadır.

Nə igid o igid, nə ər o ərdir,
Nə inci, nə sədəf, nə zər o zərdir,
Kişi o kişi döy, nə ər o ərdir,
Cəsarət cürəti başqa-başqadır.

Ləpir o ləpir döy, nə iz o izdir,
Nə dərə, təpələr, nə düz o düzdür,
Nə yatax, nə ahır, nə küz o küzdür,
Baxdıqca ləzzəti başqa-başqadır.

Ocaq o ocaq döy, köz də o köz döy,
Baxış o baxış döy, göz də o göz döy,
Yanaq o yanaq döy, üz də o üz döy,
Abırı, isməti başqa-başqadır.

Nə xəlbir, şadara, ələk o ələk,
Nə arzu istəklər, dilək o dilək,
Nə sinə o sinə, ürək o ürək,
İnsafı-mürvəti başqa-başqadır.

Cəmil, nə dağ o dağ, duman o duman,
Nə küsən o küsən, uman o uman,
Nə dövran o dövran, zaman o zaman,
İntizar, həsrəti başqa-başqadır.

***Cəmil Əkbər*** 17. 12 – 1995

## 215. BAŞQADIR

Qəribə insanlar çıxıb meydana,
Abırı, isməti, üzü başqadır.
Qoy açım sirrini, deyim mərdana,
Könüllər mülkündə izi başqadır.

Tərsinə dolanır, düz yola gəlmir,
İtitrib həyanı, üz yola gəlmir,
Yalvarıb-yaxarsan, tez yola gəlmir,
Aranı, dağları, düzü başqadır.

Fitnə sahibidir, fel sahibidir,
Tülküdən alıbdır, dil sahibidir,
Dağıdıb, talayan el sahibidir,
Fikiri, xəyalı, sözü başqadır.

Necə məxluqatdır gəlib dünyaya,
Qapılıb hərcürə fikir, xülyaya,
Uyubdur qəflətdə yuxu, röyaya,
Nəzəri, diqqəti, gözü başqadır.

Alovuna yandıq, oduna yandıq,
Qohumuna yandıq, yadına yandıq,
Tamı zəhər daddı, dadına yandıq,
Həniri, istisi, közü başqadır.

Ayları, illəri, fəsli bəd olub,
Əcdadı, soykökü, nəsli bəd olub,
Genindən qanından, əsli bəd olub,
Avazı başqadır, sazı başqadır.

Övladı-bəşərdir, hamı bir deyil,
Nurani, ağsaqqal, hamı pir deyil,
Hərkəsə bəllidir, bu ki, sir deyil,
Oğulu başqadır, qızı başqadır.

Dərdini qanan yox Cəmil Əkbərin,
Deyən yox sözünə "ay sədd afərin",
Axtarıb, arayan, bilən yox yerin.
Çəkən yox ərkini, nazı başqadır.

***Cəmil Əkbər*** 29.03 – 1998

## 216. BİLMƏMİŞƏM

Başımı iş-gücə qatıb getmişəm,
Olubdu saqqalım çal, bilməmişəm.
Uyuyub qəflətdə yatıb getmişəm,
Əyilib qamətim dal, bilməmişəm.

Ürəkdən keçəni danışmayanlar,
Axtarıb-arayıb soruşmayanlar,
Vicdanla-məsləklə barışmayanlar,
Var imiş nəqədər mal, bilməmişəm.

Nəqədər cahilin nazına dözdüm?
Yersiz söhbətinə-sözünə dözdüm?
Cığırına dözdüm, izinə dözdüm?
Törədib nəqədər qal, bilməmişəm?

Qəlbimin başına yara dəyibdir,
Ləkələr düşübdür, qara dəyibdir.
Bilmədim nə zaman, hara dəyibdir?
Salınıb qəlbimə xal, bilməmişəm.

Hissim oyanmadı bicliyə sarı,
Yersiz hərəkətə, gicliyə sarı,
Qəddarlıq, bədxahlıq, öclüyə sarı,
Nömrələr işlədib, xal bilməmişəm.

Məhəbbət yelkənim toxunub daşa,
Nəvaxtdır özümə gəlmirəm haşa?
Daha etibar yox dosta-yoldaşa,
İnləyir qəlbimdə val, bilməmişəm.

Haqqın-ədalətin sözünə baxdım,
Ocağına baxdım, közünə baxdım,
Düşüb cığırına, izinə baxdım,
Dumanlı, çisginli yol bilməmişəm.

Çoxları sözünü deyə bilmədi,
Halal nemətini yeyə bilmədi,
Günahı, savabı yuya bilmədi,
Nəqədər var imiş lal, bilməmişəm?

İnsan övladında məhəbbət olar,
Sədaqət, səxavət, kəramət olar,
Mərifət tapılar, ləyaqət olar,
Əhlihal insanı kal bilməmişəm.

Fikirim, xəyalım, yolum düz olub,
Vicdanım, məsləkim tərtəmiz olub,
Əməlim işimlə üzbəüz olub,
Tirməyə sussayıb, şal bilməmişəm.

Özümün şorunu yağ anlamışam,
Arzu-diləyimi sağ anlamışam,
Kefimi, damağı çağ anlamışam,
Özgə doşabını bal bilməmişəm.

Meylimi salmışam mehribanlığa,
Məhəbbət, sədaqət, istiqanlığa,
Sülhə, səadətə, firavanlığa,
Qovğa tanımayıb, qal bilməmişəm.

Kimsədə olmadı qəsdi-qərəzim,
Doğru yol göstərdi ağıl mərkəzim.
Düz çəkib qəlbimdə vicdan tərəzi,
Başqa bir təmənna, hal bilməmişəm.

Öyrənib-öyrətmək sənətim oldu,
Məqsədim, amalım, niyyətim oldu,
Elin mükafatı qiymətim oldu,
Bağlar becərmişəm, kol bilməmişəm.

Xalqıma ədəblə xidmət etmişəm,
Əlimdən gələni hörmət etmişəm,
Ar-namus gözləyib, qeyrət etmişəm,
Etdiyim mürvəti bol bilməmişəm.

Ellərin varına həris olmadım,
Acgözlük eyləyib, xəbis olmadım,
Ünsiyyət məqamı naqis olmadım,
Altuna aldanıb, ləl bilməmişəm.

Şər-böhtan danışıb ara vurmadım,
Nahaqdan qəlblərə yara vurmadım,
Vicdana ləkələr, qara vurmadım,
Dostluq məqamında fel bilməmişəm.

Nifrət eyləmişəm bədniyyətlərə,
Xainlik, xəbislik, xəyanətlərə,
Çamırlıq, bataqlıq, üfunətlərə,
Qəvvasam ümmanı, göl bilməmişəm.

Mən Cəmil Əkbərəm düşsəmdə ünə,
Haqqın mayasından qurmuşam binə,
Demişəm, deyirəm, deyəcəm yenə,
Ədalıq, lovğalıq, bil bilməmişəm.

***Cəmil Əkbər*** 28.11– 1987, 1-8. 12 – 1987

## 217. BİLMƏMİŞƏM

Ədəblə, ərkanla dolanmışam mən,
Qovğa salmamışam, qal bilməmişəm.
Peyvənd olunmuşam, calanmışam mən,
Özgə iz tanıyıb yol bilməmişəm.

Olmadı kimsədə qəsdim, qərəzim,
Düz  çəkdi qəlbimdə vicdan tərəzim,
Nə fitnə-fəsadım, nə də mərəzim,
Sağa əyilməyib, sol bilməmişəm.

İnandım dünyanın ədalətinə,
Doğruluq, düzgünlük, həqiqətinə,
Sədaqət, səxavət, kəramətinə,
Özgə xəyalları, bil bilməmişəm.

Öyrənib öyrətmək sənətim oldu,
Ənənəm, vərdişim adətim oldu,
Pak arzum, istəyim, niyyətim oldu,
Bağlar becərmişəm, kol bilməmişəm.

Qəlbimə yatmadı bədniyyət mənim,
Çamırlıq, bataqlıq, üfunət mənim,
Xainlik, xəbislik, xəyanət mənim,
Dəymiş axtarmışam, kal bilməmişəm.

İdrakım işləyib dərinliklərə,
Çəkilib getməmiş sərinliklərə,
Xəyalım uçubdur ənginliklərə,
Ümman qəvvasıyam, göl bilməmişəm.

Elimə, xalqıma xidmət etmişəm,
Əlimdən gələni hörmət etmişəm,
Ar-namus gözləyib, qeyrət etmişəm,
İnsafı-mürvəti bol bilməmişəm.

Hissim oyanmadı bicliyə sarı,
Sərsəri, dəngəsər gicliyə sarı,
İnsanlıq naminə öclüyə sarı,
Nömrələr işlədib, xal bilməmişəm.

Fikirim, xəyalım, yolum düz olub,
Əməlim işimlə üzbəüz olub,
Əynimə geydiyim sadə bez olub,
Al-qumaş tanıyıb, şal bilməmişəm.

Qəlbimə toxunub keyoğlu keylər,
Xəsisoğlu xəsis, göy oğlu göylər,
Gic oğlu gicbəsər, səyoğlu səylər,
İnləyib qəlbimdə val, bilməmişəm.

***Cəmil Əkbər*** 8.12 – 1987

## 218. BİLƏNMƏMİŞƏM

Hayıf ötən günlər, keçən saatlar,
Qədir-qiymətini bilənməmişəm.
Ey gözəl əyyamlar, dövrü-büsatlar,
Gözümdən dumanı silənməmişəm.

Dərdləyib ürəyim, ağarıb başım,
Sarsıyıb xəyalım, dağılıb huşum,
Tutulub qabağım, çatılıb qaşım,
Baxıb zəmanəyə gülənməmişəm.

Nəqədər vaxt-vədə hədərə getdi,
Qərq olub qüssəyə, kədərə getdi,
Düşüb iztiraba, qəhərə getdi,
Bixəbər olmuşam bilənməmişəm.

Ünsiyyət-ülfətdə gendə dolandım,
Dalanda, döngədə, tində dolandım,
Dumanda, çisgində, çəndə dolandım,
Üz tutb yaxına gələnməmişəm.

Əzab-əziyyətdə hillətdə qaldım,
Düşərək çətinə zillətdə qaldım,
Cəhalət içində zülmətdə qaldım,
Xəlbir, şadarada ələnməmişəm.

Nəqədər kiriyib susub getmişəm?
İnciyib bezmişəm, küsüb getmişəm?
Arada-bərədə pusub getmişəm?
Məqamı çatdıqca dillənməmişəm.

Oqədər qönçədə qalıb solmuşam,
Zilləyib gözümü yolda qalmışam,
Fikirlərə, xəyallara dalmışam,
Buludtək boşalıb sellənməmişəm.

Boylanıb baxmışam uzaqlara mən,
Əl atdım məzluma, yazıqlara mən,
Düşmüşəm bu yolda sazaqlara mən,
Toplaşıb bir yerdə göllənməmişəm.

Anadan olandan gözü tox oldum,
Fikiri, xəyalı, sözü tox oldum,
Nə danım, gizlədim, düzü tox oldum,
Tamaha qul olub sülənməmişəm.

Dünyada oqədər qəbahət gördüm,
Hər addımbaşında ədavət gördüm,
Paxıllıq, xainlik, xəyanət gördüm,
Tablaşıb dözmüşəm, ölənməmişəm.

Fikirə, xəyala dalıb getmişəm,
Sazımı bəm üstə çalıb getmişəm,
Xəzana qərq olub solub getmişəm,
Haçandır özümə gələnməmişəm.

Gözümü açandan zəhmət oğluyam,
Bəşər övladına xidmət oğluyam,
Ar-namus oğluyam, qeyrət oğluyam,
Özgə var-halına bələnməmişəm.

Mən Cəmil Əkbərəm, halaldı mayam,
Üfunət bilməyən axar bir çayam,
Nütfəsi düz kimsələrə arxayam,
Haram tikələrlə şellənməmişəm.

***Cəmil Əkbər*** 12. 03 -1997

## 219. ÖZÜMƏ ÇATMIR

*I variant*

Mənim hörmətimi görən çox olub,
Bəs nədən hörmətim özümə çatmır?
Onun bağlarından dərən çox olub,
Özümün sərvətim özümə çatmır?

Çəkmişəm təsibin qeyrət əhlinin,
Şərafət əhlinin, şöhrət əhlinin,
Cəsarət əhlinin, cürət əhlinin,
Bəs nədən heyrətim özümə çatmır?

Ehtiram göstərdim zəhmət əhlinə,
Qayğıkeş, cəfakeş, xidmət əhlinə,
Pak arzu, istəklər, niyyət əhlinə,
Bəs nədən zəhmətim özümə çatmır?

Təzim eyləmişəm kamal əhlinə,
Əqidə əhlinə, amal əhlinə,
Mənəvi gözəllik, camal əhlinə,
Bəs nədən riqqətim özümə çatmır?

Nəqədər dost-tanış aramışam da,
Xeyrinə, şərinə yaramışam da,
Qövr edən yaranı sarımışam da,
Bəs nədən ülfətim özümə çatmır?

Nəqədər söz dedim başıboşlara,
Vicdanı kəmlərə, qəlbi daşlara,
Fillərə hürüşən alabaşlara,
Sözlərim, söhbətim közümə çatmır?

Nə deyim, danışım dövrü-gərdişə?
Beylə ənənəyə, beylə vərdişə?
Beylə əyləncəyə, beylə görüşə?
Ülvi-məhəbbətim özümə çatmır.

Açılmır qaşqabaq, açılmır eyin,
Nəyaman kütləşib, keyləşib beyin,
İtirib əqlini, səyləşib zehin,
Səxam-sədaqətim özümə çatmır.

Üzlərdə, gözlərdə həya görünmür,
Əqidə azalıb, qayə görünmür,
İnsandan-insana sayə görünmür,
Tərtəmiz xislətim özümə çatmır.

Ağıl gözdən düşüb, baş da azalıb,
Xəyalım gətirmir, huş da azalıb,
Ömür sona çatır, yaş da azalıb,
Nəzərim, diqqətim özümə çatmır.

Eşidib bilənlər həyalaşırlar,
Məsləkə gələrək qayələşirlər,
Haraya çatırlar, sayələşirlər,
Niyə öz ismətim özümə çatmır?

İnsan birbirinə pis gözlə baxır,
Bədxah gözlə baxır, nəs gözlə baxır,
İnad gözlə baxır, tərs gözlə baxır,
Nicatım, nüsrətim özümə çatmır.

Özgə gözəlliyi məni məsd edir,
Məni məftun edir, mənə qəsd edir,
Eləbil ərk edir, mənə şəsd edir,
Özümdə gözəllik özümə çatmır.

Özgənin var-halı selə dönsədə,
Toplaşıb biryerə gölə dönsədə,
Volqa, Yeniseyə, Nilə dönsədə,
Özümün neməti özümə çatmır.

Özgə korluğundan qəhərlənmişəm,
Yeyib-içməmişəm zəhərlənmişəm,
Haldan-hala düşüb təhərlənmişəm,
Özümün korluğum özümə çatmır.

Dostun karlığından bezmişəm daha,
Gedib kənarlarda gəzmişəm daha.
Nəqədər cəfaya dözmüşəm daha?
Özümün karlığım, özümə çatmır.

Özgə qəbahəti incitdi məni,
Özgə cəhaləti incitdi məni,
Özgə ədavəti incitdi məni,
Özcə cəhalətim özümə çatmır.

Mənə yardım olan özgə köməkdir,
Sinəmdə döyünən özgə ürəkdir,
Yediyim-içdiyim özgə çörəkdir,
Niyə öz çörəyim özümə çatmır?

Sahibi-dövrandır, hər yolnan ötən,
Hərcürə cücərən, hərcürə bitən,
Hərcürə tapılan, hərcürə itən,
Fəhmim-fərasətim özümə çatmır.

Nəyaman kütləşib, keyləşib bəşər?
İtirib əqlini səyləşib bəşər?
Gör harda dayanıb, əyləşib bəşər?
İmkanım, fürsətim özümə çatmır.

Nədeyim, danışım, özüm bilmirəm?
Duyum, dərk eyləyim, sezim bilmirəm?
Nəqədər tablaşım, dözüm bilmirəm?
Qüvvətim, qüdrətim özümə çatmır.

Bizi çaşbaş salan özgə niyyətdir,
Özgə nəzarətdir, özgə diqqətdir,
Özgə ənənədir, özgə adətdir,
Özümün adətim özümə çatmır.

Nifrətim sonsuzdur kamalı-kəmə,
Vicdanı, məsləki amalı-kəmə,
Obası, oymağı, mahalı-kəmə,
Özümün xidmətim özümə çatmır?

Çəkilən zəhmətə qiymət verilmir,
Qayğı göstərilmir, hörmət edilmir,
Kəramət edilmir, mürvət edilmir,
Dövlətim, sərvətim özümə çatmır.

Salırlar qəlbimi eşq həvəsdən,
Taytuşla, yoldaşla hey bəhsəbəhsdən,
Dəyirlər xətrimə qərəzlə, qəsdən,
Ülvi məhəbbətim özümə çatmır?

Özgə kamalından pay umuruq biz,
Çörək gözləyirik, çay umuruq biz,
Bahar gözləyirik, yay umuruq biz,
Özümün kamalı özümə çatmır.

Mənim heyrətimi hamı dinləyir,
Hamı qeyzə gəlir, hamı inləyir,
Qövr eyləyib yaralarım simləyir,
Özümün heyrəti özümə çatmır.

Mənim keyliyimi hamı anlasın,
Məzəmmət eyləsin, hamı danlasın,
Kötəkləyib, qırmanclayıb, yanlasın,
Özümün keyliyim özümə çatmır.

Mənim nöqsanımı görənlər çoxdur,
Onun bəhrəsini dərənlər çoxdur,
Onun cavabını verənlər çoxdur,
Özümün nöqsanım özümə çatmır.

Özgə çörəyinə möhtac olmuşuq,
Hiylə, kələyinə möhtac olmuşuq,
Xəlbir, ələyinə möhtac olmuşuq,
Öz xəlbir, ələyim özümə çatmır?

Biri-birimizdən aralanmışıq,
Dərilib bostantək uralanmışıq,
Şəklənib nəyaman qaralanmışıq?
Özümün nicatım özümə çatmır?

Özgə xəyallarla yaşayırıq biz,
Zülmətin yükünü daşıyırıq biz,
Qızardıb peysəri, qaşayırıq biz,
Özümün şöhrətim özümə çatmır?

Ünsiyyət-ülfətdən uzaqlaşmışıq,
Get-gedə soyuyub sazaxlaşmışam,
Odurki buqədər yazıqlaşmışıq,
Özümün hiddətim özümə çatmır?

Mənim qeybətimi hamı dinləyər,
Hamı qeyzə gəlib, hamı inləyər,
Qövr eyləyib yaraları simləyər,
Niyə öz istəyim özümə çatmır?

İndi  ürəklərdə özgə həvəs var,
Özgə abı-hava, özgə nəfəs var,
Özgə zümzümələr, özgə bir səs var,
Özümün həvəsi özümə çatmır?

***Cəmil Əkbər***      18. 01 – 1996

## 220. ÖZÜMƏ ÇATMIR

*II variant*

Çörək bişiririk özgə unundan,
Özümün çörəyim özümə çatmır.
Toyuq saxlayırıq özgə dənindən,
Özümün kəpəyim özümə çatmır.

Yediyim-içdiyim özgə xörəkdir,
Mənə əl uzadan özgə biləkdir,
Özgə məhəbbətdir, özgə istəkdir,
Özümün ürəyi özümə çatmır.

Məni zülmə salan özgə diləkdir,
Özgə hiylələrdir, özgə kələkdir,
Özgə qasırğadır, özgə küləkdir,
Özümün diləyi özümə çatmır.

Mənə hökm eyləyən özgə kamaldır,
Özgə əqidədir, özgə amaldır,
Özgə el-obadır, özgə mahaldır,
Özümün kamalı özümə çatmır.

Bizə kömək edən özgə zəhmətdir,
Özgə qayğılardır, özgə xidmətdir,
Özgə kəramətdir, özgə mürvətdir,
Özümün zəhməti özümə çatmır.

İndi gördüyümüz özgə xidmətdir,
Özgə dəm-dəstgahdır, özgə nemətdir,
Özgə bərbəzəkdir, özgə zinətdir,
Nədən öz zinətim özümə çatmır?

Çəkilən zəhmətə qiymət verilmir,
Ləyaqət əhlinə hörmət edilmir,
Mərhəmət edilmir, mürvət edilmir,
Özümün xidməti özümə çatmır.

Bizə yol göstərir kamalı-kəmlər,
Vicdanı, məsləki, amalı kəmlər,
Mənəvi varlığı, camalı kəmlər,
Özümün amalı özümə çatmır.

Nəyaman bəd gəlib dövrü-zəmanə?
Dağlar bələnibdir çisgin, dumana,
Gələn yox məssəbə, dinə, imana,
Pak arzu-niyyətim özümə çatmır.

Salırlar insanı eşq-həvəsdən,
Eləbil qərəzlə, qisasla, qəsddən,
Xoşum gəlmir xaric ötən bu səsdən,
Məlahətli səsim özümə çatmır.

Nə deyim, danışım ellər eşitsin?
Dəryalar, dənizlər, göllər eşitsin?
Çəmənlər, çiçəklər, güllər eşitsin?
Hörmətim, izzətim özümə çatmır.

Ləyaqət əhlini gözdən salırlar,
Yolundan çıxarıb, izdən salırlar,
Abırdan, həyadan, üzdən salırlar,
Şərəfim-şöhrətim özümə çatmır.

İsmət sahibini arsız edirlər,
Salıb mövqeindən karsız edirlər,
Qırıb budağını barsız edirlər,
Namusum, qeyrətim özümə çatmır.

Düha sahibini sözə qoyurlar,
Çöllərə salırlar, düzə qoyurlar,
Dondurub qəlbini buza qoyurlar,
Cəsarət-cürətim özümə çatmır.

Nəyaman kütləşib, keyləşmişik biz?
İtirib əqlini səyləşmişik biz?
Harada dayanıb əyləşmişik biz?
Öz adət xislətim özümə çatmır.

Beyin dumanlanıb, qulaq karlaşıb,
Uzağı seyr edən gözlər korlaşıb,
Əşrəfi-məxluqat yaman cırlaşıb,
Özümün söhbəti özümə çatmır.

Nə deyim, danışım özüm bilmirəm?
Hayanı dolanım, gəzim bilmirəm?
Tablaşım, dayanım, dözüm bilmirəm?
Qüvvətim-qüdrətim özümə çatmır.

Sayıb-seçən yoxdu hikmət əhlini,
Kəramət əhlini, mürvət əhlini,
Mənəvi gözəllik, sərvət əhlini,
Dəyərim, qiymətim özümə çatmır.

Ay Cəmil, nəyaman bəddir zəmanə,
Salıbdılar könülləri gümana,
Baxan yoxdu din-məzhəbə, imana,
Eşqim, məhəbbətim özümə çatmır.

***Cəmil Əkbər*** 1. 01 – 1996

## 221. ÖZÜMƏ ÇATMIR?

*III variant*

Süfrəmdə yeyilən özgə çörəkdir,
Niyə öz çörəyim özümə çatmır?
Sinəmdə döyünən özgə ürəkdir,
Niyə öz ürəyim özümə çatmır?

Hər qəlbdə özgə eşq, özgə həvəsdir,
Ögey havalardır, yad bir nəfəsdir,
Özgə zənguləbdir,  yabancı səsdir,
Niyə öz həvəsim özümə çatmır?

Özgə xəyallarla yaşayırıq biz,
Çəkərək yükləri daşıyırıq biz,
Peysəri qızardıb qaşıyırıq biz,
Niyə öz istəyim özümə çatmır?

Bizə yolgöstərən özgə diləkdir,
Özgə hiylələrdir, özgə kələkdir,
Özgə qasırğadır, özgə küləkdir,
Niyə öz diləyim özümə çatmır?

Özgə kamalından kamal umuram,
Əqidə umuram, amal umuram,
Mənəvi gözəllik, camal umuram,
Niyə öz kamalım özümə çatmır?

Bazarda satılan yabancı maldır,
Özgə tirmə, qumaş, yabançı şaldır,
Özgə doşablardır, yabançı baldır,
Niyə öz bəhməzim özümə çatmır?

Soyumdan, kökümdən aralanmışıq,
Oralı sayılıb, buralanmışıq,
Biri-birimizdən qaralanmışıq,
Niyə öz hikmətim özümə çatmır?

Meydanda görünən özgə xidmətdir,
Özgə dəmdəstgahdır, özgə sərvətdir,
Yalançı bər-bəzək, özgə zinətdir,
Niyə öz zinətim özümə çatmır?

Ünsiyyət-ülfətdən uzaqlaşmışıq,
Soyuya-soyuya sazaqlaşmışıq,
Ay aman nəqədər yazıqlaşmışıq?
Niyə öz istəyim, özümə çatmır?

Gördüyümüz rəftar, özgə hörmətdir,
Özgə kəramətdir, özgə mürvətdir,
Özgə giley-güzar, özgə qeybətdir,
Niyə öz hörmətim, özümə çatmır.

Eşidə-eşidə karlaşmışıq biz?
Gözlər görə-görə korlaşmışıq biz?
Nəyaman buqədər cırlaşmışıq biz?
Niyə öz söhbətim, özümə çatmır?

Nəyaman buqədər dəyişmişik biz?
Adət-ənənədən süyüşmüşük biz,
Gedib özgələrə uyuşmuşuq biz,
Niyə öz adətim özümə çatmır?

Zəmanə dəyişib, dövran dəyişib,
Sarvanlar dəyişib, karvan dəyişib,
Axınlar dəyişib, cəryan dəyişib,
Niyə öz sarvanım özümə çatmır?

Mənə qəsd eyləyən özgə əllərdir,
Özgə söhbətlərdir, özgə dillərdir,
Özgə topallardır, özgə şillərdir,
Niyə öz nüsrətim özümə çatmır?

Ləyaqət əhlinə hörmət edilmir,
Mərhəmət edilmir, mürvət edilmir,
Adları çəkilmir, söhbət edilmir,
Niyə öz şöhrətim özümə çatmır?

Toylarda çalınan özgə alətdir,
Özgə həngamədir, bu nə halətdir,
Özgə yamsılama, özgə qələtdir,
Niyə öz alətim özümə çatmır?

Əynimə geydiyim özgə xələtdir,
Özgənin mirası, özgə zillətdir,
Özgə dərd-azardır, özgə hillətdir,
Niyə öz xələtim özümə çatmır?

Süfrəmdə yeyilən özgə yağıdır, yağ,
Özgə zəhrimardı, özgə ağıdır, ağ,
Sinəmə çəkilən özgə dağdır, dağ,
Niyə öz nemətim, özümə çatmır?

Nəyaman buqədər kütləşmişik biz?
Dönüb müqəvvaya bütləşmişik biz?
Əqildən, kamaldan qıtlaşmışıq biz?
Niyə öz kamalım özümə çatmır?

Qiymət verilməyir zəhmət əhlinə,
Qayğıkeş, cəfakeş, xidmət əhlinə,
Pak arzu, istəklər, niyyət əhlinə
Niyə öz sərvətim özümə çatmır?

Dilimdə səslənən sözlər özgədir,
Yolumda görünən izlər özgədir,
Züryət də dəyişib, qızlar özgədir,
Niyə el qızlarım özümə çatmır?

Süfrəmə qoyulan özgə pendirdi,
Çörəyi bişirən özgə təndirdi,
Boynuma salınan özgə kəndirdi,
Niyə öz pendirim özümə çatmır?

Nəqədər yolundan dönüb getmişik,
Qaraldıb, qarsıxıb, sönüb getmişik,
Zirvədən aşağı enib getmişik,
Niyə öz idrakım özümə çatmır?

Hayanda qalıbdır öz kamalımız?
Elimiz, obamız, öz mahalımız?
Özümün nuranim, öz cahalımız?
Niyə öz ahalım özümə çatmır?

Gəlin milli ənənəni qoruyaq,
Milli adət, dəbdəbəni qoruyaq,
Həm babanı, həm nənəni qoruyaq,
Niyə öz ənənəm özümə çatmır?

Düşünüb dərk etmək, o duymaq deyil,
Qaymaq da zay olub, o qaymaq deyil,
Qaysafa, Qayğanaq, o Quymaq deyil,
Niyə öz duymağım özümə çatmır?

Gəlin ey cəmaət özümə gələk,
Dönək Haqq yoluna, izimə gələk,
Dağına, daşıma, düzümə gələk,
Niyə öz yol-izim özümə çatmır?

Gəlin qiymət verək qoca sazıma,
Hamıdan zirvədə uca sazıma,
Bəzirgan sazıma, xoca sazıma,
Niyə öz avazım özümə çatmır?

Gəlin qiymət verək öz sözümüzə,
Nur-işıq gətirək öz gözümüzə,
Düzgün təlim verək öz-özümüzə,
Niyə öz təlimim özümə çatmır?

Özgənin malından bizə mal olmaz,
Özgə tirməsindən bizə şal olmaz,
Özgə sirkəsindən bizə bal olmaz,
Niyə öz malımız özümə çatmır?

Salıblar qəlbimi eşq həvəsdən,
Taytuşla, yoldaşla hey bəhsəbəhsdən,
Toxunub şəsdimə  qərəzlə, qəsdən,
Niyə məhəbbətim özümə çatmır?

Bəsdir, özgələrin izilə getmək,
Aldanıb fikrinə, sözüylə getmək,
Baxışıyla getmək, gözüylə getmək,
Niyə öz gözlərim özümə çatmır?

Yolu aza-aza hara gedirik?
Çətinə düşürük, dara gedirik.
Kəməndə ilişib, tora gedirik,
Niyə öz yolağım özümə çatmır?

Bülbülikən qarğalara uymayaq,
Kovxalara, darğalara uymayaq.
Çalağana, qırğılara uymayaq,
Niyə öz cəhlimim özümə çatmır?

Mənim qeybətimi hamı dinləsin,
Yaraları qövr eyləyib simləsin,
Ofuldayıb, sızıldayıb, inləsin,
Niyə öz qeybətim özümə çatmır?

Mənim keyliyimi hamı anlayır,
Görən, bilən məzəmmətlə danlayır.
Kötəkləyib, qırmanclayıb, yanlayır,
Niyə öz keyliyim özümə çatmır?

Nəyaman kütləşib, keyləşmişik biz,
İtirib əqlimi səyləşmişik biz,
Harada dayanıb əyləşmişik biz?
Niyə öz nicatım, özümə çatmır?

Bizi məyus edən özgə niyyətdir,
Özgə nəzarətdir, özgə diqqətdir
Özgə ənənədir, özgə adətdir,
Niyə öz adətim özümə çatmır?

Çəkilən zəhmətə qiymət verilmir,
Möhüblər düzülmür, xətir görülmür,
Nədən öz bağımın barı dərilmir?
Niyə öz xidmətim özümə çatmır?

Nə deyim, danışım ellər eşitsin,
Dəryalar, dənizlər, göllər eşitsin,
Oyansın qarışqa, fillər eşitsin,
Niyə öz izzətim özümə çatmır?

Həya sahibini arsız sanırlar,
Xeyirsiz, faydasız, karsız sanırlar,
Qırıb budağını barsız sanırlar,
Niyə öz qeyrətim özümə çatmır?

Düha sahibini sözə qoyurlar,
Çöllərə salırlar, düzə qoyurlar,
Qəlbini söndürüb buza qoyurlar,
Niyə öz cürətim özümə çatmır?

Sahibi-dövrandır hər yolnan ötən,
Hər cür cücərənlər, hərcürə bitən,
Hərcürə tanınan, hərcürə itən,
Niyə öz qiymətim özümə çatmır?

Həyası olanlar arsız görünür,
Xeyirsiz, faydasız, karsız görünür,
Söyüd ağacıtək barsız görünür,
Niyə öz dəyərim  özümə çatmır?

Nəyaman kütləşib, keyləşib bəşər,
İtirib əqlini səyləşib bəşər,
Gör harda dayanıb, əyləşib bəşər?
Niyə öz fürsətim özümə çatmır?

Nə deyim, danışım, özüm bilmirəm?
Hayana üz tutum, gəzim bilmirəm?
Nəqədər tablaşım, dözüm bilmirəm?
Niyə öz qüdrətim özümə çatmır.

Üzlərdə, gözlərdə həya görünmür,
Əqidə azalıb, qayə görünmür,
İnsandan-insana sayə görünmür,
Niyə öz xislətim özümə çatmır?

Bu bəşər övladı divanələşib,
Laqeyid olubdur, biganələşib,
Kişilər nəyaman zənanələşib?
Niyə öz diqqətim özümə çatmır?

Nə deyək, nə deyək dövrü-zəmanə,
Xəyallar düşübdür başqa gümana
Könül dağım bürələnib dumana,
Niyə öz şərəfim özümə çatmır.

Ay Cəmil, nəyaman bəddir zəmanə,
Salıblar könlünü aha-amana,
Baxan yoxdu din-məzhəbə, imana,
Niyə öz abırım, ismətim özümə çatmır?

***Cəmil Əkbər*** 1-18-19. 01 – 1996

## 222. SAZ

Dəmə kökləyirəm dəm üstə ötür,
Həmdəmim, həmkarım sirdaşımdı saz.
Bəmə kökləyirəm bəm üstə ötür,
Hayana gedirəm yoldaşımdı saz.

Mən onu sevirəm, o məni sevir,
Eləbil bülbüldü gülşəni sevir,
Elin avazıdır, el şəni sevir,
Dostum, arkadaşım, qardaşımdı saz.

Əsrlər keçsə də qalasıyıq biz,
Ellərin nəbzini çalasıyıq biz.
Qapılıb xəyala dalasıyıq biz,
Həmyaşıd, taytuşum, sirdaşımdı saz.

***Cəmil Əkbər*** 22. 10 – 1992

## 223. TELLİ SAZIM

Mən köçüb getsəm də fani dünyadan,
Sən yaşa, salamat qal telli sazım.
Soruşub deyin ki, hanı dünyadan?
Arabir yadına sal telli sazım.

Aşıq dostlarımın sinəsində gəz,
Bahar təbiətli nəfəsində gəz,
Toyların düyünün həvəsində gəz,
Qalma künc-bucaqda lal, telli sazım.

Gitara, saksafon səni sıxmasın,
Məclisinə ayağını basmasın,
Ozan sənətimə qənim çıxmasın,
Sənə çevirməsin dal telli sazım.

"Yanıq Kərəmi"ni bir dilə gətir,
Salıb təlatümə zəlzələ gətir,
Könüllər mülkünə vəlvələ gətir,
Düşsədə qoy düşsün xal telli sazım.

İncə pərdələrin zərif telindən,
Böyük ustadların şirin dilindən,
"Sarıtel", "Mixəyi", "İncə gülü"ndən,
Süzülsün məclisə bal telli sazım.

Tufanda, sazaxda, qarda olsan da,
Çətinə düşəndə, darda olsan da,
Yaxında, uzaqda harda olsan da?
Cəmilin könlünü al telli sazım.

***Cəmil Əkbər***

## 224. SAZDA

Kökləyib çaldıqca, çağlayıb daşır,
Sanırsan dağların seli var sazda.
Sığmır məcrasına, həddini aşır,
Eləbil çayların Nili var sazda.

Aparır xəyalı dərinliklərə.
Fəzadan-səmaya, ənginliklərə,
Dənizdən dəryaya, dərinliklərə,
Eləbil baharın fəsli var sazda.

Çalanda Ədalət, Kamandar, Əmrah,
Açılıb könüllər olmazmı gümrah?
Sənətin meydanı qalmazmı şahrah?
Eləbil incinin ləli var sazda.

Tahirlə-Zöhrənin sevişmələri,
Valeh Zərnigarın deyişmələri,
Namərdlə mərdlərin döyüşmələri,
Eləbil sevdanın yolu var sazda.

Qulaq as çalanda Dəmiri dinlə,
Ötürüb köksünü, daxilən inlə,
Doldurma qəlbini qəzəblə, kinlə,
Eləbil həsrətin gölü var sazda.

Nalələr çıxarır, bəm köklənəndə,
"Dilqəmi" üstündə qəm köklənəndə,
Gözlərin didəsi nəm köklənəndə,
Eləbil Kərəmin külü var sazda.

İncədir, zərifdir, kövrəkdir səsi,
Şirindir avazı, xoşdur ləhcəsi,
Yayılır həryana xoş təranəsi,
Eləbil bülbülün dili var sazda.

Ellərin içində xətirlənir o,
Könüldən-könülə sətirlənir o,
Sənət aləmində ətirlənir o,
Eləbil Göyçənin gülü var sazda.

Azaflı çalanda ovsunlanırsan,
Törpülər vurulur, cilalanırsan,
Sənətin mehrilə həyalanırsan,
Eləbil Leyli var, Əsli var sazda.

Qulaq as "Dübeyt"i, "Gəraylı"sına,
"Təcnis", "Cəlili"yə, "Ruhani"sinə,
"Hicran Kərəmi"si, "Divani"sinə,
Eləbil Məcnunun çölü var sazda.

Kamandar çalanda ürəklənirsən,
Ruha qida gəlir, müdrikləşirsən,
Gözlərin açılır, zirəkləşirsən,
Elə bir Koroğlu nəsli var sazda.

Saraclı çalanda ədalanırsan,
Fərəhlə, sevinclə qidalanırsan,
Eşqin tüğyan edir sevdalanırsan,
Eləbil səbanın yeli var sazda.

***Cəmil Əkbər*** 1980

## 225. TELLİ SAZIMDA

Ustadlar əlində çağlayıb daşır,
Dağların seli var telli sazımda.
Sığmır məcrasına, həddini aşır,
Çayların Nili var, telli sazımda.

Dinləyib duyduqca onu min kərə,
Könüllər yad olur qəmə, kədərə,
Canlanır qarşında gözəl mənzərə,
Baharın fəsli var, telli sazımda.

Çaldıqca "Sarıtel", "El havası"nı,
Məclisə gətirir dağ havasını,
Verir könüllərə öz səfasını,
Səbanın yeli var, telli sazımda.

Huşunu aparır dərinliklərə,
İstiyə, soyuğa, sərinliklərə,
Sədası yayılır ənginliklərə,
Ələsgər əli var, telli sazımda.

Sərraf qiymət verir sözə, sənətə.
Pərdələrdə naxışlanan zinətə,
Əhsən deyir belə xalqa, millətə,
Sənətin ləli var, telli sazımda.

Tahirlə-Zöhrənin sevişmələri,
Valeh, Zərnigarın deyişmələri,
Namərdlə-mərdlərin döyüşmələri,
Sevdanın yolu var, telli sazımda.

Eşqin, məhəbbətin carçısıdır o,
Ülvi sədaqətin carçısıdır o,
Ülfət-ünsiyyətin carçısıdır o,
Fərhadın qolu var telli sazımda.

Onu gör nəqədər ustadlar çalıb?
Dost-doğma tanışlar, ya yadlar çalıb,
Ah-aman eyləyən fəryadlar çalıb,
Ələsgər, Alı var telli sazımda.

Gözəldir avazı, şirin ləhcəsi,
Ruhumu oxşayır, xoş təranəsi,
Nəqədər zərifdir, incədir səsi,
Bülbülün dili var, telli sazımda.

Eləbil məhəbbət divanəsidir,
Odlara qərq olan pərvanəsidir,
Sənət incisinin dürdanəsidir,
Bağların gülü var, telli sazımda.

Elin məclisində xətirlənir o,
Könüldən-könülə sətirlənir o,
Bahar müjdəsilə ətirlənir o,
Göyçənin gülü var, telli sazımda

Kökləyib əlinə alan zamanda,
Düşünüb xəyala dalan zamanda,
“Divani”, “Misri”ni çalan  zamanda,
Koroğlu nəsili var, telli sazımda.

Səni bəndə salıb ovsunlayar da,
Ruha sığal çəkər, cilalayar da,
Əl edib, gəl deyib, haraylayar da,
Leyli var, Əsli var, telli sazımda.

Elin şənliyində gəl onu dinlə,
Qəlbin gumanlansın dərin hüzünlə,
“Dilqəm”çalınanda daxilən inlə,
Vurğun  qəzəli var, telli sazımda.

Eləbil qüdrətdən mayalanıbdır,
Abırdan, ismətdən qayələnibdir,
Zənən xeylağından həyalanıbdır,
Gəncə gözəli var telli sazımda.

Sanırsan, şikarda yaralanıbdır,
Eşqin zərbəsindən paralanıbdır,
Aşiq məşuqundan aralanıbdır,
Həsrətin gölü var, telli sazımda.

Vaxt olur pəs ötür, bəmə köklənir,
Vay-şivən qoparır, qəmə köklənir,
Gözlərin didəsi nəmə köklənir,
Kərəmin külü var, telli sazımda.

Sərraf olan qiymət verər sənətə,
Pərdələrdə naxışlanan zinətə,
Əhsən deyər belə xalqa, millətə,
Gövhərin ləli var telli sazımda.

Ay Cəmil qulaq as, “Gəraylı”sına,
“Şərili”, “Cəlili”, “Ruhani”sinə,
“Zarıncı”, “Hicranı”, “Kərəmi”sinə,
Məcnunun çölü var, telli sazımda.

***Cəmil Əkbər*** 1980

## 226. TELLİ SAZIMA

Onda ədalət də, həqiqət də var,
Onda gözəllik də, ləyaqət də var,
Onda əvvəl-axır, nihayət də var,
Könlümü bağladım telli sazıma.

Onda neçə-neçə dastanlar yatır,
“Gülüstan”lar yatır, “Büstan”lar yatır,
Neçə bağlar yatır, bostanlar yatır,
Könlümü bağladım telli sazıma.

Onda gör nəqədər Kərəmlər vardır?
Leylilər, Əslilər, Dilqəmlər vardır?
El dərdi çəkməkdən, vərəmlər vardır?
Könlümü bağladım telli sazıma.

Ustadların kamalları ondadır,
Əqidəsi, amalları ondadır,
Mənəviyyat, camalları ondadır,
Könlümü bağladım telli sazıma.

Keçəl həmzə, Koroğlular var onda,
Mərd igidlər, nər oğlular var onda,
Sərraf seçən zər oğlular var onda,
Könlümü  bağladım telli sazıma.

Özgə musiqini qana bilmədim,
Alışıb oduna yana bilmədim,
Gizlədib fikrimi dana bilmədim,
Könlümü bağladım telli sazıma.

Odur ilhamımı qanadlandıran,
Mənə həvəs verən inadlandıran,
Boşaldan, dolduran silahlandıran,
Könlümü  bağladım telli sazıma.

Mən onu çaldıqca kama yetişdim,
Zülala qonaraq, şama yetişdim,
Qafqazı dolandım, Bama[20] yetişdim,
Könlümü bağladım telli sazıma.

O mənə doğmadır, mən ona əziz,
O mənə hakimdir, mən ona kəniz.
O mənə çeşmədir, mən ona dəniz,
Könlümü bağladım telli sazıma.

O ulu xalqımın yadigarıdır,
Fərəhi, sevinci, iftixarıdır,
Sənət dünyasının şah vüqarıdır,
Könlümü bağladım telli sazıma.

Qınayarmı oba məni, el məni?
Unudarmı aylar məni, il məni?
Apararmı çaylar məni, sel məni?
Könlümü bağladım telli sazıma.

Eşitsin səsimi hər dağ, hər dərə,
Görünsün hamıya gözəl mənzərə,
Odur həyan olan Cəmil Əkbərə,
Könlümü bağladım telli sazıma.

***Cəmil Əkbər*** 23. 07 -1989

## 227. SAZIM

Ellərin, obanın məclislərində,
Əllərdə yaraşıq olasan sazım.
Dostların toyunda, şənliklərində,
Ellər havasını çalasan sazım.

[20] Bam – Sibirdə bir bölgə

Ruhumuza, qanımıza girərək,
Əl çatmayan bir aləmi görərək,
Min bir avazını qəlbə verərək,
Miskin könülləri alasan sazım.

Ürəkdə qalmasın arzun, murazın,
Çalsın müğənnilər coşsun avazın.
Gədəbəy elində Kiçik Qafqazın,
Qoynunda xəyala dalasan sazım.

Cəmilin xeyirxah arzu, niyyəti,
Xalqımın şərəfli mədəniyyəti,
Sevinci, nəşəsi, incəsənəti,
Tarixdən-tarixə qalasan sazım.

***Cəmil Əkbər***

## 228. TELLİ SAZ MƏNİM

Ana laylasıtək həzin səsi var,
Qəlbimi ram etdi telli saz mənim.
Bahar təbiətli xoş nəfəsi var,
Qəlbimi ram etdi telli saz mənim.

Bu gözəl aləmin seyrinə daldım,
Onun xülyasıyla boşaldım, doldum,
Gül kimi açıldım, onunla soldum,
Qəlbimi ram etdi telli saz mənim.

Onda neçə-neçə “Kərəmi” vardır,
Biçarə Yəhyası, “Dilqəmi” vardır,
Yaxını, uzağı, həmdəmi vardır,
Qəlbimi ram etdi telli saz mənim.

Onunla elimin seyrinə daldım,
Dəniztək çalxandım, dəryatək doldum.
Dağlara, daşlara ünümü saldım,
Qəlbimi ram etdi telli saz mənim.

Mən onun xəsdəsi, o mənə məlhəm,
Mən ona vəfalı, o mənə həmdəm,
Nəqədər çalındı, getmədi zəhləm,
Qəlbimi ram etdi telli saz mənim.

O məni oxşadı, mən onu qandım,
O məni yad etdi, mən onu andım,
Onu sadiq sandım, vəfalı sandım,
Qəlbimi ram etdi telli saz mənim.

Onda "Yurd yeri" var, "Naxçıvanı" var,
Onda "İbrahimi", "Baş divani" var,
"Göyçə gülü", "Cəngi", "İrəvanı" var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda "Misri" də var, "Şəruru" da var,
"Qaraçı" havası, "Cəlili" də var,
Onda "Sarıtel" var, "Dübeyti" də var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda neçə-neçə el havası var,
"Müxəyi" havası, gül havası var,
Nəqədər dərdlərin bil dəvası var,
Qəlbimi ram etdi telli saz mənim.

Mən onu eşitdim, o məni duydu,
Mən ona vuruldum, o mənə uydu,
Mən onu tanıtdım, o məni yaydı,
Qəlbimi ram etdi telli saz mənim.

Onun laylasında həvəsə gəldim,
Bahar təbiətli nəfəsə gəldim,
Bülbüllə qoşaşıb səs-səsə gəldim,
Qəlbimi ram etdi telli saz mənim.

Qəlbimin telidir onun telləri,
Onun pərdələri, onun gülləri,
Onun xoş avazı, tuti dilləri,
Qəlbimi ram etdi telli saz mənim.

Divani kökündə zilə gətirdi,
Tapıb məramını dilə gətirdi,
Eləbil bülbülü gülə gətirdi,
Qəlbimi ram etdi telli saz mənim.

Baxıb bu güzgüdə özümü gördüm,
Baba yollarında izimi gördüm,
Söhbətimi gördüm, sözümü gördüm,
Qəlbimi ram etdi telli saz mənim.

Onda "Müxəmməs" də, "Divani" də var,
Onda "Bayramı" var, "Nəcəfi" də var,
Onda "Şah Xətai", "Heydəri" də var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda "Təcnis" də var, "Bəhmanı" da var,
Onda "İbrahimi", "Sultanı" da var,
Onda "Keşiş oğlu", "Mənsuri"də var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda zəriflik də, məlahət də var,
Onda şirinlik də, lətafət də var,
Onda hərarət də, təravət də var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda məhəbbət də, ədavət də var,
Onda məşəqqət də, qiyamət də var,
Onda əvvəl-axır, nihayət də var,
Qəlbimi ram etdi telli saz mənim.

Onda neçə-neçə dastanlar yatır,
"Gülüstan"lar yatır, "Büstanlar" yatır,
Sənət fədaisi aslanlar yatır,
Qəlbimi ram etdi telli saz mənim.

Dədə Qorqud, Koroğlular ondadır,
Neçə igid, nər oğulular ondadır,
Gövhər-kanlar, zər oğlular ondadır,
Qəlbimi ram etdi telli saz mənim.

Dəstgah onda, məzə onda, dəm onda,
Qüssə onda, kədər onda, qəm onda,
Nalə, şivən, fəqan onda, bəm onda,
Qəlbimi ram etdi telli saz mənim.

Dinlədikcə  “Ovşarını”, “Təcnisi”,
Şən etdikcə toy-düyünü, məclisi,
Balabançı söylədikcə hədisi,
Qəlbimi ram etdi telli saz mənim.

Odur ilhamımı qanadlandıran,
Mənə qüvvət verən, inadlandıran,
Cürət, qeyrət verən, silahlandıran,
Qəlbimi ram etdi telli saz mənim.

Mən onu çaldıqca kama yetişdim,
Dönüb pərvanəyə, şama yetişdim,
Gəşt edib Qafqazı, Bama yetişdim,
Qəlbimi ram etdi telli saz mənim.

O mənə doğmadır, mən ona əziz,
O mənə hakimdir, mən ona kəniz,
Mən ona çeşməyəm, o mənə dəniz,
Qəlbimi ram etdi telli saz mənim.

Ozan babamızın yadigarıdır,
Fərəhi, sevinci, iftixarıdır,
O ulu xalqımın şah vüqarıdır,
Qəlbimi ram etdi telli saz mənim.

Onda Şah İsmayıl, Ərəbzəngi var,
“Koroğlu” nəfəsli “Misri”, “Cəngi” var,
Sənət dünyamızın hər ahəngi var,
Qəlbimi ram etdi telli saz mənim.

Qınamasın oba məni, el məni?
Unudarmı aylar məni, il məni?
Apararmı çaylar məni, sel məni?
Qəlbimi ram etdi telli saz mənim.

Eşitsin səsimi hər dağ, hər dərə,
On dəfə, yüz dəfə, yüzminbir dəfə,
Odur həyan olan Cəmil Əkbərə,
Qəlbimi ram etdi telli saz mənim.

***Cəmil Əkbər*** 26. 12 - 1989

## 229. ARALANMAYIN

Oxuyan müğənni, çalan sazəndə,
Sədəfli sazımdan aralanmayın.
Məclisə toplaşan arif, danəndə,
Milli havamızdan aralanmayın.

Sazəndar çalmağı Qurbandan öyrən,
Əhməddən, Əhsəndən, Bəhramdan öyrən,
Oxuyan Bülbüldən, Cabbardan öyrən,
Sənət dünyamızdan aralanmayın.

Çağırın məclisə gəlsin Ələsgər,
Zəkası xəzinə, sinəsi dəftər,
Əmrahla-Kamandar, Şəmşirlə-Əkbər,
Bülbül avazımdan aralanmayın.

Çalsın “El havası”, çalsın “Dilqəmi”,
“Zarıncı”, “Əhmədi”, “Yanıq Kərəmi”,
Doldurub söndürün odlu sinəmi,
Milli ehzazımdan aralanmayın.

Milli musiqimdə axtarın kefi,
Axtarın ləzzəti, götürün nəfi,
Koroğlu cəngində gətirin dəfi,
Qara zurnamızdan aralanmayın.

Deməyin xoş gəlir təzə modalar,
Köhnəlib gedibdir, keçmiş havalar,
Ondan həzz alıbdır ata-babalar,
Əzəl binamızdan aralanmayın.

Sanmayın xoşlamır, özgə havanı,
Gətirmə könlünə belə gümanı,
Salmayın araya nahaq davanı,
Öz ərki-nazımdan aralanmayın.

Cəmil ilhamını sazdan alıbdır,
Şerdən alıbdır, sözdən alıbdır,
Mənalı baxışdan, gözdən alıbdır,
Ana laylamızdan aralanmayın.

***Cəmil Əkbər*** 1976

## 230. NƏ DEYİR?

Aşıq qardaş sazı ələ alarkən,
Təzənə bilirmi, tellər nə deyir?
Həzin-həzin havalardan çalarkən,
Pərdələr duyurmu, əllər nə deyir?

Dərsini almayan öz babasından,
Əsl babasından, düz babasından,
Sənət babasından, söz babasından,
Bilərmi əsrlər, illər nə deyir?

İnsafını, vicdanını atana,
Yaxşıya pis, pisə yaxşı qatana,
Min sifətlə məqsədinə çatana,
Görəsən obalar, ellər nə deyir?

Ayaq yol göstərsə sərin yerində,
Arvad hökm edərsə, ərin yerində,
Tülkü meydan açsa şirin yerində,
Görəsən kərgədan, fillər nə deyir?

Qarğalar desə ki, gül həvəsliyəm,
Şirin avazlıyam, xoş nəfəsliyəm,
Çəmən həvəsliyəm, çöl həvəsliyəm,
Görəsən bülbüllər, güllər nə deyir?

Cəmiləm elləri gəzmək istərəm,
Onun cəfasına dözmək istərəm,
Xəyal gəmisində üzmək istərəm,
Görəsən sonalar, göllər nə deyir?

***Cəmil Əkbər*** 1966, 20.11 - 1980

## 231. ƏL ÇƏKİN

Ey tamahkar, ey acgözlər amandır,
Soyhasoydan, alhaaldan əl çəkin.
Soyulanın halı müşkül, yamandır,
Harınlıqdan, çalhaçaldan əl çəkin.

İnsafa gəl, rəhm eyləyin insana,
Əl uzadıb kömək edin hüryana,
Zəli kimi sırışmayın al qana,
Sorhasordan, yolhayoldan əl çəkin.

Bu dünya çox görüb qansoranları,
Xalqın sərvətindən quduranları,
Gah vurulanları, gah vuranları,
Vurhavurdan, gilüqaldan əl çəkin.

Az susayın bu dünyanın malına,
Dəymişinə, lalığına, kalına,
Nəzər salın əməlinin dalına,
Törədilən dərd-bəladan əl çəkin.

Ellərə lazımdır əmin-amanlıq,
Ədəblə otur-dur, göstər adamlıq.
Bacarsan hörmət et, etmə yamanlıq,
Bədəməldən, əyri yoldan əl çəkin

Nahaq yerdən gözyaşını tökməyin,
Mərd igidin vüqarını bükməyin,
Pis adətin xəcalətin çəkməyin,
Nəs fikirdən, kəc xəyaldan əl çəkin.

Bir nəzər sal həyatının yoluna,
Əməlinin əvvəlinə, sonuna,
Aldanmaynan qüvvətinə, qoluna,
Daşdan-qaşdan, haram puldan əl çəkin.

Cəmil, məna axtar hər doğru sözdə,
Sədaqət, səxavət taparsan düzdə,
Halal zəhmətinlə geyinsən bez də,
Müftə olan tirmə-şaldan əl çəkin.

***Cəmil Əkbər*** 16. 11 -1975

## 232. GÜLMƏLİDİR

Alaqarğa bülbül olub,
Əcəb işdir, gülməlidir.
Gülün işi müşkül olub,
Dərd içində ölməlidir.

Xeyir işlər şərə dönüb,
Tülkü, çaqqal şirə dönüb,
Gədə-güdə nərə dönüb,
İşi kimlər görməlidir?

Qaralara ağ deyilir,
Təpələrə dağ deyilir,
Kol-koslara bağ deyilir,
Şəri bəs kim kəsməlidir?

Kefi çəkir dələduzlar,
Vicdanı daş, qəlbi buzlar,
İnsan olan yanar, sızlar,
Bu dərdi kim bölməlidir?

Çalıb-çapan kalan olur,
Doğru sözlər yalan olur,
Bağrımbaşı talan olur,
Gözümü kim silməlidir?

Kimə desək sözümüzü,
Vurub tökər gözümüzü.
Qatlayarlar dizimizi,
Derlər[21] gültək solmalıdır.

Aşıb-daşıb acgöz, həris,
Paxıl, xain, namərd, naqis,
Qəlbiqara, iblis, xəbis,
Görən kimin əməlidir?

Gözlər niyə kor olubdur?
Qulaq sağır, kar olubdur,
Gen dünyamız dar olubdur,
Bunu hamı bilməlidir.

***Cəmil Əkbər*** 1980

## 233. QƏHƏTSƏ

İnsanoğlu birbirinə pis olar,
Ədəb-ərkan, mərifətdən qəhətsə.
Bədxah olar, qəddar olar, nəs olar,
Sədaqətdən, səxavətdən qəhətsə.

Bəd hərlənər, bəd oturar, bəd durar,
Bəd yaşayar, bəd yaradar, bəd qurar,
Mizan alıb bəd tuşlayıb, bəd vurar,
İnsaf-mürvət, kəramətdən qəhətsə.

Gözəlliklər pis görünər gözünə,
Qiymət qoymaz özgəsinə, özünə.
Su calanar ocağına, közünə,
İnsanlıqdan, ləyaqətdən qəhətsə.

[21] Derlər – Deyərlər kəlməsinin qısaldılmış variantı

Nə xətir gözləyər, nə hörmət qanar,
Nə öyüd götürər, nəsihət qanar,
Nə el məzəmməti, nə töhmət qanar,
Nəcib istək, məhəbbətdən qəhətsə.

Nə sözün söhbətin əsəri olar?
Xeyiri, faydası, səməri olar?
Qılıncı, qalxanı, kəsəri olar?
Bacarıqdan, məharətdən qəhətsə.

Ha çəksəndə haq yoluna çıxanmaz,
Ədalətə, həqiqətə baxanmaz,
Xəcil olub ürəyini sıxanmaz,
Abır, həya, ar, ismətdən qəhətsə.

Könül bulağının gözü kor olar,
Söhbəti lal olar, sözü kor olar.
Ocağı yandırmaz, közü kor olar,
Saf arzudan, pak niyyətdən qəhətsə.

Becərməklə, bəsləməklə yetişməz,
Çağırmaqla, səsləməklə yetişməz.
Məzəmmətlə, pisləməklə yetişməz,
Əsl kökdən, nəcabətdən qəhətsə.

***Cəmil Əkbər***

## 234. İNANMA!

Diqqət yetir zəmanənin işinə,
Sərraf yoxsa, behbazara inanma,
Bərkdə-boşda dostları vur dişinə,
Vəfasıza, biilqara inanma!

Ömürboyu qul olmasan sənətə,
Son qoyulmaz dərdi-qəmə, möhnətə.
Yüyürməklə çatanmazsan cənnətə,
Şan-şöhrətə, iftixara inanma!

Əyri yolla kim çatarsa murada?
İtib-batar tezi-geci arada.
Qövr eyləyər ürəklərdə yara da,
Düşəcəkdir intizara, inanma!

Aldanmayın hər yetənin felinə,
Yağlı-yağlı sözlərinə, dilinə,
Bağçasına, bülbülünə, gülünə,
Xain-xəbis, günahkara inanma!

Ayaq basma yaramazın izinə,
Məhəl qoyma söhbətinə, sözünə.
Qazan asma ocağına, közünə,
Hər pozğuna, azğınlara inanma!

Xidmət eylə ədəb-ərkan, hörmətə,
Sədaqətə, səxavətə, mürvətə,
Çatacaqsan halallıqla nemətə,
Qansızlara, zülümkara inanma!

Əsəblər korlayıb, qaraltma qanı,
Üzüb əldən niyə salırsan canı?
Atma mürvətini, atma vicdanı,
İnsafsıza, sitəmkara inanma!

Asmağa, kəsməyə olmaynan xumar,
Bəsləyib özünə az eylə tumar,
Axmaq köpək Qaysafadan[22] pay umar,
Səyyad olub hər şikara inanma!

İnsanın mənliyi əməlindədir,
Əslində, zatında nəsilindədir,
Bünövrəsindədir, təməlindədir,
Kök xarabsa butaqlara inanma!

[22] Qaysafa - Quru ərikləri yumşaltmaq üçün bir gecədə suya qoyurlar. Səhər eyni suda tavada qaynadılır və üzərinə kərə yağı tökülür. Az odda qızılı rəng alana qədər bişirilir. Bu yemək növünə “Qaysafa” deyilir.

İlqarında duran deyil hər adam,
Fitnə adam, fəsad adam, şər adam.
Hər bəzənən, hər düzənən zər adam,
Vuracaqdır qəlbə yara inanma!

Yazdıqlarım, dediklərim sir deyil,
Hər yetirən imam deyil, pir deyil,
İgid deyil, kişi deyil, ər deyil,
Salar səni ora-bura inanma!

Doğru görün düz döyünən ürəyi,
Arzuları, əməlləri, diləyi,
İtirməynən haqqısayı çörəyi,
Qədirbilməz nanıkora inanma!

Azadlığa, səadətə bağlanın,
İnsaf, mürvət, kəramətə bağlanın,
Bu adətə, ənənəyə bağlanın,
Nə zindana, nə də dara inanma!

Bəhrə verməz hərkəsdənin əməli,
Ola bilmir yaratdığı məzəli.
Görünməyir nə axırı, əzəli,
Ustad xamsa, sənətkara inanma!

Birkimsəki düz olmasın binadan,
Mayalansın yanyörədən zinadan.
Pozğun olar əzəl gündən, anadan,
Bir çiçəyə, çəmənzara inanma!

Hərkəsdənin öz qeyrəti, arı var,
Öz mənliyi, ləyaqəti, varı var,
Öz taytuşu, yoldaşı var, yarı var,
Hər görünən zilxumara inanma!

Hərənin öz gücü, öz imkanı var,
Nizam tərəzisi, öz dükanı var,
Öz yurdu-yuvası, öz məkanı var,
Səmalarsız tərlanlara inanma!

Toz-torpaqda civildəşər sərçələr,
Zibillikdə eşələnər dirçələr,
Yarasalar qanad açar gecələr,
Zirvələrsiz şahinlərə inanma!

Ad qazanıb dildən-dilə düşməsən,
Diyar-diyar, eldən-elə düşməsən,
Bülbül olub güldən-gülə düşməsən,
Qoyacağın yadigara inanma!

Qəlbini Haqq ilə düz eyləməsən,
Cığırlar salmasan, iz eyləməsən,
Elə nəzər salıb, göz eyləməsən,
Tapacağın xeyir-kara inanma!

Mərdliklə ucalan zirvədən enmir,
Alışıb yansada sönmür ki, sönmür,
Əhdi-peymanından dönmür ki, dönmür,
İblislərə, şeytanlara inanma!

Sözlərindən xəyallara dalginan,
Anaya bax, balasını alginan,
Bu hikməti tez yadına salginan,
Südü zaysa övladlara inanma.

Böyük, kiçik sayılmayan yerlərdə,
Xoş sədalar yayılmayan yerlərdə,
Sərxoşları ayılmayan yerlərdə,
O torpağa, o diyara inanma!

Başa çəkmə hər azğını, pozğunu,
Hər qatili, hər qulduru, quzğunu,
Yaraşmırsa formasına məzmunu,
Hər sığala, hər tumara inanma!

Sərrast eşit, doğru tanı Cəmili,
İncitməsin nəsihəti, dəlili,
Olmamışdan əməlinin zəlili,
Hər yetirən insanlara inanma!

***Cəmil Əkbər*** 5. 01. 1981.

## 235. ƏYYAMIDIR

*I variant*

Həryanda çoxalıb fırıldaq, kələk,
Eləbil dələduz, bic əyyamıdır.
Mat qalıb hurilər, susubdur mələk,
Divanə, sərsəri, gic əyyamıdır.

Qalmayıb arada haqqısay, hörmət,
Nə vicdan, nə məslək, nədəki qeyrət.
Çoxalıb küdurət, artıbdır hiddət,
Başını götürüb qaç əyyamıdır.

Qarğa bülbül olur, sərçələr qarğa,
Müdriklər mütidir, gədalar darğa,
Nə deyək gərdişə, nə deyək çarxa?
Yığşır barxananı, köç əyyamıdır.

Pis yaxşıya, yaxşı pisə qatılır,
Dəyərinə, dəyməzinə satılır,
Qaşqabaqlar düyünlənir, çatılır,
Didişmə, çəkişmə, öc əyyamıdır.

Yaranan arzuya çatmaq istəyir.
Dünya nemətindən dadmaq istəyir,
Sümürüb büsbütün udmaq istəyir,
Eləbil göz-könül, ac əyyamıdır.

Müqəddəs fikirlər sahibsiz qalıb,
Baxımsız bağ kimi saralıb, solub,
Övladı-bəşərin yuxuya dalıb,
Al, zəhər camını iç əyyamıdır.

Gücü olan gücsüzləri incidir,
Yunu qırxıb, dərisini qıcıdır,
Yalvartdırır, yaxartdırır, yoncudur,
Başına oyunlar aç əyyamıdır.

Ədəbsiz lovğalar, ədəbaz artıb,
Hiyləgər tülkülər, kəndirbaz artıb.
Hoqqabazlar artıb, modabaz artıb,
Boylara xələtlər biç əyyamıdır.

Həryanda gədalar çıxıbdır taxta,
Çatıbdı taleyə, iqbala, baxta,
Al qanım olubdur laxtaba-laxta.
Axmağın başına tac əyyamıdır.

Oğrular, quldurlar yoldaş olubdur,
Ən yaxın həmdəmlər, sirdaş olubdur,
Canciyər, dostdoğma qardaş olubdur,
Dayanma yanında, uç əyyamıdır.

Hünər sahibinə verilmir qiymət,
Verilmir səltənət, verilmir zinət,
Məkrli şeytana, iblisə lənət,
Eləbil dünyanın puç əyyamıdır.

Cəmil çalış hər yetənə enmə sən,
İlqarından, imanından dönmə sən,
Hamı yanıb, hamı sönsə, sönmə sən,
Zəkandan şüanı saç əyyamıdır.

***Cəmil Əkbər*** 10. 06 – 1982

## 236. ƏYYAMIDIR

*II variant*

Hökmedir həryanda fırıldaq, kələk,
Eləbil hiyləgər, bic əyyamıdır.
Daşlara toxunur çox arzu dilək,
Sərsəri, divanə, gic əyyamıdır.

Zalım qatil, məzlumları incidir,
Əzib, sıxıb yalvartdırır, yoncudur,
Vurub salır, başı üstə şingidir,
Zor hakim olubdur, güc əyyamıdır.

Düşünən yox irəlini, gerini,
Kamal ilə dolduran yox sərini,
Tutan yoxdur mövqeyini, yerini,
Götürüb başını qaç əyyamıdır.

Yaxşı pisə, pis yaxşıya qarışır,
Mərd namərdlə, namərd mərdlə vuruşur,
Ürəklər qəm yeyir, odsuz alışır,
İnsan birbirilə öc əyyamıdır.

Acgözlər var-hala çatmaq istəyir,
Bacarsa dünyanı udmaq istəyir,
Yeriyib, yüyürüb tutmaq istəyir,
Eləbil min illik, ac əyyamıdır.

Müqəddəs fikirlər sahibsiz qalıb,
Çuvarsız bağ kimi saralıb, solub,
Bəşərin övladı yuxuya dalıb,
Götürüb zəhəri iç əyyamıdır.

Lovğa, yekəxana, ədəbaza bax,
Hiyləgər tülküyə, kələkbaza bax,
Kəndirbaz, hoqqabaz, modabaza bax,
Boyuna xələtlər biç əyyamıdır.

Cahillər, nadanlar çıxıbdır taxta,
Yetişib iqbala, taleyə, baxta,
Alqanım olubdur laxtabalaxta.
Dəngəsər başlarda tac əyyamıdır.

Oğrular, quldurlar qardaş olubdur,
Dost-doğma, canhacan, yoldaş olubdur,
Həmfikir olubdur, sirdaş olubdur,
Baş götür dünyadan qaç əyyamıdır.

Kamal sahibinə verilmir qiymət,
Verilmir səltənət, edilmir hörmət,
Məkrli şeytana, iblisə lənət,
Sanırsan dünyanı puç əyyamıdır.

Ey Cəmil, sənsada yolundan dönmə,
Zirvədən, mövqedən alçalma, enmə.
Hamı kül olsada, sənsada sönmə,
İdrakdan ziyanı saç əyyamıdır.

***Cəmil Əkbər*** 10. 06 – 1982

## 237. ƏYYAMIDIR

*III variant*

Yaman qarışıbdır dövrü-zəmanə,
Hiyləgər, dələduz, bic əyyamıdır.
Baxan yox məzhəbə, dinə, imana,
İlqara-imana kəc əyyamıdır.

Baxan yoxdur dərrakəyə, kamala,
Əqidə, məsləkə, nə də amala,
Zahirdəki zühur edən camala,
Sərsəri, kəmağıl, gic əyyamıdır.

Ədaləti, həqiqəti sayan yox,
Ədəb-ərkan, mərifəti sayan yox,
Quran-kitab, şəriəti sayan yox,
Qanuna-qaydaya öc əyyamıdır.

Bəşərin içində qanan azalıb,
Ellərin dərdinə yanan azalıb,
Kərəmlər, Məcnunlar, Sənan azalıb,
Başını götürüb qaç əyyamıdır.

Bacarsan göylərdən yerlərə enmə,
İnsan övladıyla danışma, dinmə,
Susub orda-burda, daldada sinmə,
Şahintək səmada uç əyyamıdır.

Deməki dünyada kef çəkəcəyəm,
Qazanc götürəcəm, nəf çəkəcəyəm,
Zəhmətsiz, xidmətsiz müf çəkəcəyəm,
Əcəl şərbətini iç əyyamıdır.

Baxdıqca qaralır insanın qanı,
Sarsıyır varlığı, üzülür canı,
Süzülür zülalı, əriyir şamı,
Doymuşam canıma, heç əyyamıdır.

Deyəsən dünyanın ləzzəti qaçıb,
Xətiri-hörməti, izzəti qaçıb,
Mənası, məzmunu, hikməti qaçıb,
Cəmil, daha durma köç əyyamıdır.

***Cəmil Əkbər*** 10. 11 – 1993

## 238. GÖDƏLİB

Görəsən, biləsən səbəbdir, nədir?
İnsaf yoxa çıxır, mürvət gödəlib.
Zalımlıq, qəddarlıq qəlbimi didir,
Namus ərşə çıxır, qeyrət gödəlib.

Abır əldən çıxır, həya azalır,
Amal xırdalanır, qayə azalır,
Qərəz-təmənnasız dayə azalır,
Ülfət dayazlaşıb, ismət gödəlib.

Ədalət naminə çalışan azdır,
Məzlumun halını soruşan azdır,
Kişitək işləyən, vuruşan azdır,
Ərzaq qıtlıq edir, nemət gödəlib.

Düşünüb xəyala dalanlar azdır,
Yetişib kamala dolanlar azdır.
İncik könülləri alanlar azdır,
Xahiş eşidilmir, minnət gödəlib.

Hökmedir təxtində gədələr yaman,
Dəyir ürəklərə zədələr yaman,
Çoxalır haqq-nahaq hədələr yaman,
Gedibdi damaqdan ləzzət gödəlib.

Gözlənilmir ədəb-ərkan yol indi,
Hökm eyləyir altun indi, pul indi,
Əyri düşüb cığır indi, yol indi,
Nadan sərraf olub, qiymət gödəlib.

***Cəmil Əkbər*** 1981

## 239. BU MİLLƏT

*I variant*

Nuranini, ağsaqqalı sayan yox,
Nə kor imiş, nə kar imiş bu millət?
Dərdbiləni, əhlihalı sayan yox,
Nə kor imiş, nə kar imiş bu millət?

Hərkəsdənin xidmətini görən yox,
El xeyrinə zəhmətini görən yox,
Məqamında qiymətini verən yox,
Nə kor imiş, nə kar imiş bu millət?

Bürüdü tarlanı alaq otları,
Gicitkansayağı dalaq otları,
Tikanlar, qanqallar, ulaq otları,
Nə kor imiş, nə kar imiş bu millət?

Hərə bir diyarda naqqallıq edir,
Açıbdır bazarı, baqqallıq edir,
Tülkü hinə girib çaqqallıq edir,
Nə kor imiş, nə kar imiş bu millət?

Gör haçandan cəhalətdə qalıbdır?
Avamlığa, qəbahətdə qalıbdır?
Paxıllığa, xəyanətdə qalıbdır?
Nə kor imiş, nə kar imiş bu millət?

Salıbdı bəşəri dara gədələr,
Eyləyir günləri qara gədələr,
Tapmayır dərdlərə çara gədələr,
Nə kor imiş, nə kar imiş bu millət?

Oğruluq, əyrilik, cinayət artır,
Gileylər, güzarlar, şikayət artır,
Müsibət törəyir, fəlakət artır,
Nə kor imiş, nə kar imiş bu millət?

Anlamır, düşünmür nəzakət nədir.
İncəlik, zəriflik, məlahət nədir.
Ədəb-ərkan nədir, mərifət nədir.
Nə kor imiş, nə kar imiş bu millət?

Qananından nadanları çox imiş,
Haqqısayı udanları çox imiş,
Tərsəməssəb adanları çox imiş,
Nə kor imiş, nə kar imiş bu millət?

Nə Nizami, Fizulini öyrənmir,
Nə Sabiri, nə Hadini öyrənmir,
Seyid-Əzimi Şirvanini öyrənmir,
Nə kor imiş, nə kar imiş bu millət?

Sızlayana, ağlayana baxan yox,
Sinəsini dağlayana baxan yox,
Dərd əlindən çağlayana baxan yox,
Nə kor imiş, nə kar imiş bu millət?

Birisi qazanır, digəri yeyir,
Birisi toxuyur, digəri geyir,
Birisi düzəldir, digəri əyir,
Nə kor imiş, nə kar imiş bu millət?

Əsəbləri korlayanlar çoxalır,
Onu-bunu xorlayanlar çoxalır,
Hissimizi zorlayanlar çoxalır,
Nə kor imiş, nə kar imiş bu millət?

Kimdi qulaq asan sözə-söhbətə?
Saf arzu-istəyə, pak məhəbbətə?
Sağlam fikirlərə, təmiz niyyətə?
Nə kor imiş, nə kar imiş bu millət?

Hərə öz işində, öz kefindədir,
Öz gəlir-çıxarı, öz nəfindədir,
Öz zurna-qavalı, öz dəfindədir,
Nə kor imiş, nə kar imiş bu millət.

Nə vətən sayan var, nə el qanan var,
Nə çəmən, nə çiçək, nə gül qanan var,
Nə söz eşidən var, nə dil qanan var,
Nə kor imiş, nə kar imiş bu millət?

Ayırıb seçməyir yaxşını-pisdən,
Tüstünü, dumandan, yağmuru sisdən.
Qalayı gümüşdən, qızılı misdən,
Nə kor imiş, nə kar imiş bu millət?

Ağa qara deyir, qaralara ağ,
Dağa təpə deyir, dərələrə dağ,
Bağa kol-kos deyir, kol-koslara bağ,
Nə kor imiş, nə kar imiş bu millət?

Sağalmır, qövr edir yara nə vaxtdan,
Tapılmır dərdinə çara nə vaxtdan,
Qatıbdır başını para nəvaxtdan,
Nə kor imiş, nə kar imiş bu millət?

Tərlan balasına sardı deyirlər,
Zaydı əsli-nəsli, cırdı deyirlər,
Güllü-gülüstana xardı deyirlər,
Nə kor imiş, nə kar imiş bu millət?

Nəqədər doğruya yalan dedilər,
Dövlətin varını talan etdilər,
Düzü qoyub əyri yolla getdilər,
Nə kor imiş, nə kar imiş bu millət?

Nəqədər gözələ çirkin dedilər?
Nəqədər sadəyə, xudbin dedilər?
Nəqədər nikbinə, bədbin dedilər?
Nə kor imiş, nə kar imiş bu millət?

Birisi bezdirdi, birisi bezdi,
Birisi üzüldü, birisi üzdü,
Birisi dözdürdü, birisi dözdü,
Nə kor imiş, nə kar imiş bu millət?

Biri digərini qırdı qurtardı,
Salıb dağa-daşa yordu qurtardı,
Dağı sinəsinə vurdu qurtardı,
Nə kor imiş, nə kar imiş bu millət?

Saf ülfəti-ünsiyyəti pozdular,
Doğruları-əyrilərə yozdular,
Ayaq altdan eşələyib qazdılar,
Nə kor imiş, nə kar imiş bu millət.

Gör haçandan düz yoluna gələnmir,
Uzun ildir dərd-qəm çəkir, gülənmir.
Ha deyirsən öyrənənmir, bilənmir,
Nə kor imiş, nə kar imiş bu millət?

Gör haçandan qəflətlərdə yatır hey,
Şər danışıb aralığı qatır hey.
Ucuz alıb, baha-baha satır hey,
Nə kor imiş, nə kar imiş bu millət?

Birbirini vaxt-vədəsiz öldürür,
Düşmənləri sevindirir, güldürür.
Aşkar edib mənliyini bildirir,
Nə kor imiş, nə kar imiş bu millət?

Dühaların heykəlini götürdü,
Ünvanını qaraladı, itirdi.
Yer-yurdunda  çayır-çəmən bitirdi,
Nə kor imiş, nə kar imiş bu millət?

Gör haçandan cəhalətdən çıxmayır?
Avamlıqdan, qəbahətdən çıxmayır?
Kin-küdurət, ədavətdən çıxmayır?
Nə kor imiş, nə kar imiş bu millət?

Salırlar araya qalmaqal, dava,
Zəhərə qarışır tərtəmiz hava.
Gəlir hakim olur sərsəri, yava,
Nə kor imiş, nə kar imiş bu millət?

Ha deyirsən öyrənən yox, bilən yox,
Ağlayırsan, gözyaşını silən yox,
Əhval tutub bir yanına gələn yox,
Nə kor imiş, nə kar imiş bu millət?

Alan-almağında, satan satmaqda,
Üzən-üzməyində, batan-batmaqda.
Qərq olub qəflətdə yatan-yatmaqda,
Nə kor imiş, nə kar imiş bu millət.

İnsafını atanlara dözdülər,
Vətənini satanlara dözdülər,
Günahlara batanlara dözdülər,
Nə kor imiş, nə kar imiş bu millət?

Könüllərə dəyənlərə dözdülər,
Qazanmamış yeyənlərə dözdülər,
Yolu-izi əyənlərə dözdülər,
Nə kor imiş, nə kar imiş bu millət?

Yaxşılara pis deyənə dözdülər,
Xeyirxaha nəs deyənə dözdülər.
Qızıllara mis deyənə dözdülər,
Nə kor imiş, nə kar imiş bu millət?

Əhlikefə, divanəyə dözdülər,
Laqeyidə, biganəyə dözdülər.
Oda yanan pərvanəyə dözdülər,
Nə kor imiş, nə kar imiş bu millət?

Gör haçandan açılmayır gözləri?
Tutulubdur qaşqabağı, üzləri,
Qulaqları dəng eyləyir sözləri,
Nə kor imiş, nə kar imiş bu millət?

Yerli-yersiz ədasına bax bunun,
Ad-sanına, sədasına bax bunun.
Şux bəzənib, modasına bax bunun,
Nə kor imiş, nə kar imiş bu millət?

Üz-gözündə qalmayıbdır həyası,
İtgin düşüb əqidəsi, qayəsi,
Harda qalıb təlim verən dayəsi?
Nə kor imiş, nə kar imiş bu millət.

Gör kimi qaldırdı, gör kimi yıxdı,
Kimləri rədd edib sonuna çıxdı,
Salıb zindanlara zülmətdə sıxdı,
Nə kor imiş, nə kar imiş bu millət?

Nəqədər dağıldı, söküldü getdi,
Yay kimi qaməti büküldü getdi,
Sinəyə dağ-düyün çəkildi getdi,
Nə kor imiş, nə kar imiş bu millət.

Göstərirsən, gör deyirsən görməyir,
Çağırırsan, gəl deyirsən gəlməyir.
Öyrədirsən, öyrənməyir, bilməyir,
Nə kor imiş, nə kar imiş bu millət?

Nə dərrakə, nə kamala baxan var?
Nə əqidə, nə amala baxan var?
Nə el-oba, nə mahala baxan var?
Nə kor imiş, nə kar imiş bu millət?

Cəmil, sən də bu millətin oğlusan,
Bu varlığın, bu xilqətin oğlusan,
Bu məzmunun, bu hikmətin oğlusan,
Nə kor imiş, nə kar imiş bu millət.

***Cəmil Əkbər*** 30. 11 -1993

## 240. BU MİLLƏT

*II variant*

İçindəki xəbisliyi görənmir,
Acgözlüyü, hərisliyi görənmir,
Naxələflik, naqisliyi görənmir,
Nə kor imiş, nə kar imiş bu millət?

Bəslədiyi bağçaları dərənmir,
Dəstə tutub pünhan yerə sərənmir,
Öz aldığı borclarını verənmir,
Nə kor imiş, nə kar imiş bu millət?

Cərgəsində nadanları saxlayır,
O nə desə sözlərini haxlayır,
Nə axtarıb, araşdırıb yoxlayır,
Nə kor imiş, nə kar imiş bu millət?

Yeyib-içir yalquzaqlar kef edir,
Çalıb-çapıb özü üçün nəf edir,
Kimdi deyən quldurlara səhv edir?
Nə kor imiş, nə kar imiş bu millət?

Oğruluqdur, əyrilikdir peşəsi,
Daşa dönüb qəlbindəki şüşəsi,
O səbəbdən çox ağırdır şələsi,
Nə kor imiş, nə kar imiş bu millət?

Ədaləti, həqiqəti görənmir,
İnsanlığı, ləyaqəti görənmir,
Məna dolu məziyyəti görənmir,
Nə kor imiş, nə kar imiş bu millət?

Birbirinin xətirinə dəyirlər,
Vüqarını, qamətini əyirlər,
Sondan-sona gözlərini döyürlər,
Nə kor imiş, nə kar imiş bu millət?

Var-halını müflis edib soyurlar,
Ha yeyirlər, ha içirlər doymurlar,
Birbirini ağlar günə qoyurlar,
Nə kor imiş, nə kar imiş bu millət?

Dəsdəsində dələduzlar bəslənir,
Vicdanıkəm, qəlbibuzlar bəslənir,
Ağzıqara yalquzaqlar bəslənir,
Nə kor imiş, nə kar imiş bu millət?

***Cəmil Əkbər*** 30. 11 -1993

## 241. İNSANIN

Azğınların, quzğunların əlindən,
Gör başına nələr gəldi insanın?
Quldurların, pozğunların əlindən,
Gör başına nələr gəldi insanın?

Sülh pozuldu dava-dalaş başlandı,
Qanlı döyüş, savaş, vuruş başlandı,
Qorxu, hürkü min bir təlaş başlandı,
Gör başına nələr gəldi insanın?

Birbirini məhv eyləyib qırdılar,
Atışdılar, tutaşdılar, vurdular,
Pərən-pərən salındılar ordular,
Gör başına nələr gəldi insanın?

Dağıdıldı, talan oldu var-dövlət,
Yazıq bəşər çox çəkdilər zəlalət,
Bəla oldu yer üzünə pis halət,
Gör başına nələr gəldi insanın?

Top nərəsi qulaqları batırdı,
Ah-nalələr ərş üzünə çatırdı,
İgidləri yerə sərdi, yatırdı,
Gör başına nələr gəldi insanın?

Arzu, istək, xoş diləklər pozuldu,
Haq-ədalət tərsəməssəb yozuldu,
Neçə-neçə yeni məzar qazıldı?
Gör başına nələr gəldi insanın?

Neçələri vaxt-vədəsiz qocaldı,
Dərd içində yetimlikdən, bac aldı.
Fəqirliyin zirvəsinə ucaldı,
Gör başına nələr gəldi insanın?

Gəncliyimiz davalarda boğuldu,
Sanki insan ölmək üçün doğuldu,
Çox qurğular viran oldu, dağıldı,
Gör başına nələr gəldi insanın?

Neçə baxış, görən gözlər çaş oldu.
Didələrdən axan qanlı yaş oldu,
Hiss-həyəcan, neçə ürək daş oldu,
Gör başına nələr gəldi insanın?

Xam xəyallar parçalandı, töküldü,
Qurulanlar, tikilənlər söküldü,
Şax qamətlər kaman kimi büküldü,
Gör başına nələr gəldi insanın?

Gör nəqədər qırıldılar vədəsiz?
İtdi-batdı, səs-səmirsiz, sədasız.
Tifil-yavru böyüdülər dədəsiz,
Gör başına nələr gəldi insanın?

Yollara baxmaqdan yoruldu gözlər,
Qocalıb qarıdı gəlinlər, qızlar,
Saraldı yanaqlar, soluxdu üzlər,
Gör başına nələr gəldi insanın?

Nəqədər talelər toxundu daşa?
Arzular, istəklər yetmədi başa?
Nələr gəlmədiki bəlalı başa?
Gör başına nələr gəldi insanın?

Bombalardan yaralandı torpaqlar,
Mehmanından aralandı yaylaqlar,
Umdu, küsdü, qaralandı oylaqlar,
Gör başına nələr gəldi insanın?

Nəqədər cavanlar qocalanmadı,
Mövqe tutammadı ucalanmadı,
Ömür sarayından tac alammadı,
Gör başına nələr gəldi insanın?

Milyonları şil-küt etdi davalar.
Top-tüfəkdən zəhərləndi havalar,
Həsrət qaldı öz oğluna obalar,
Gör başına nələr gəldi insanın?

Göydən yerə od ələdi mərmilər,
Dəryalarda qərq oldular gəmilər.
Alovlanıb külə döndü zəmilər.
Gör başına nələr gəldi insanın?

Neçələri döyüşlərdən gəlmədi,
Ana-bacıların üzü gülmədi.
Bir əhval soruşub halın bilmədi,
Gör başına nələr gəldi insanın?

Yazıq insan dönə-dönə soyuldu,
Neçə gözlər yerli-dibli oyuldu,
Yüzü, mini bir məzara qoyuldu.
Gör başına nələr gəldi insanın?

Baxılmadı ədəb, ərkan, hörmətə,
Zülm edildi neçə xalqa, millətə,
İnsanoğlu necə dözsün zillətə?
Gör başına nələr gəldi insanın?

Yetim-yesir, dul qalanlar çoxaldı,
Topal, çolaq, şil olanlar çoxaldı,
Ah-nalədən kül olanlar çoxaldı,
Gör başına nələr gəldi insanın?

Viran qaldı neçə-neçə qəsrlər,
Xalqı boğdu ehtiyaclar, kəsirlər.
Yad ellərdə nələr çəkdi əsirlər,
Gör başına nələr gəldi insanın?

Ana-bacı sinəsini dağladı,
Yasa batıb, başa qara bağladı.
İnildədi, sızıldadı, ağladı,
Gör başına nələr gəldi insanın?

Keçdi günlər, ötdü illər, keçdi ay,
Qopdu şivən, artdı nalə, artdı vay.
Artdı  hicran, artdı nisgil, artdı ah,
Gör başına nələr gəldi insanın?

Nifrət olsun davaları salana,
Şəhid qanı töküb ilham alana.
Özü üçün "zəfər marşı" çalana,
Gör başına nələr gəldi insanın?

Ey insanlar davalara son qoyaq!
Zəhərlənmiş havalara son qoyaq!
Daha yetər, yavalara son qoyaq!
Gör başına nələr gəldi insanın?

Yer üzündə törəməsin vəlvələ,
Bu dünyanı dağıtmasın zəlzələ.
İnsanoğlu gəlin verək ələlə,
Gör başına nələr gəldi insanın?

***Cəmil Əkbər***

## 242. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI

*I variant*

Paylandı dünyanın nazı-neməti,
Kimiyə çatmadı, kimiyə çatdı.
Qalmadı arada heçbir sərvəti.
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyada gözəl, çirkin də,
Mat qaldı bu işə sadə, xudbin də,
Əhlikef olan da, bikef, bədbin də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimisi ac oldu, kimi tox oldu,
Kimi bikef oldu, kimi şux oldu,
Kimi mömin oldu, kimi şeyx oldu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kiminin yanında zurna çalındı,
Kiminin dərisi yaman qalındı,
Kimisi mülayım, kimi zalımdı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimisi anladı xətir-hörməti,
Kəramət əhlini, insaf-mürvəti,
Anladı şərəfi, şanı, şöhrəti,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxunun peysəri, dərisi qalın,
İrəlisi qalın, gerisi qalın,
İlhamın şahini, pərisi qalın,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dünyada nəqədər söz deyən oldu?
Tablaşıb, səbr edən, döz deyən oldu?
Səksən deyən oldu, yüz deyən oldu?
Kimiyə çatmadı, kimiyə çatdı.

Bu dünya çoxuna zurna, qavaldı,
Sanırki əfsanə, yalan nağıldı,
Davadı, dalaşdı, qovğadı qaldı,
Kimiyə çatmadı, kimiyə çatdı.

***Cəmil Əkbər*** 20-24 / 05-1993

## 243. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI

*II variant*

Paylandı dünyanın nazı-neməti,
Kimiyə çatmadı, kimiyə çatdı
Sahibsiz qalmadı heçbir sərvəti,
Kimiyə çatmadı, kimiyə çatdı.

Ədalət də, həqiqət də paylandı,
Ədəb-ərkan, nəzakət də paylandı,
İnsanlıq da, ləyaqət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əqidə paylandı, amal paylandı,
Düşüncə, dərrakə, kamal paylandı,
Mənəvi gözəllik, camal paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əmilər paylandı, dayı paylandı,
Sovqatı paylandı, payı paylandı,
Çörəyi paylandı, çayı paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bacarıq da, məharət də paylandı,
Zirəklik də, fərasət də paylandı,
İgidlik də, cəsarət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dövlət də, sərvət də, var da paylandı,
Namus da, qeyrət də, ar da paylandı,
Sevgili-canan da, yar da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Avamlıq da, cəhalət də paylandı,
Addımbaşı qəbahət də paylandı,
Kin-küdurət, ədavət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nanəciblik, naqislik də paylandı,
Naxələflik, nacinslik də paylandı,
Xainlik də, xəbislik də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Cavanlıq da, qocalıq da paylandı,
Şan-şöhrət də, ucalıq da paylandı,
Vəzirlik də, xocalıq da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın dürdanəsi də,
İnci danəsi də, zərdanəsi də,
Toxumluq qalmadı bir danəsi də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın düz ilqarı da,
Şirin töhvələri, ilk nübarı da,
Aşiqi, məşuqu, vəfadarı da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Xoşbəxtlik də, səadət də paylandı,
Gözəl vərdiş, xoş adət də paylandı,
Haqq-talaya ibadət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Onu paylayana nə demək olar?
Nə yardım göstərmək, nə kömək olar?
Nə damlamaq olar, nə döymək olar?
Kimiyə çatmadı, kimiyə çatdı.

Alimin, loğmanın gözəl sözləri,
Qoşma, gəraylısı, qəzəl sözləri,
Səndən də, məndən də əzəl sözləri,
Kimiyə çatmadı, kimiyə çatdı.

Süzülüb gedəndə o alagözlər,
Fikirə, xəyala dalanda gözlər,
Çəkib qılıncını çalanda gözlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dünyada oqədər söz deyilibki,
Səbr edib, tablaşıb, döz deyilibki,
Yerində ölçülüb düz deyilibki,
Kimiyə çatmadı, kimiyə çatdı.

Hərə bu dünyanı bircürə sezdi,
Bircürə tablaşdı, bircürə dözdü,
Zaman dəryasında bircürə üzdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əzəldən belədir dünyanın işi,
Dövrü zəmanənin qurğu, gərdişi,
Kimiyə ət verdi, kimiyə şişi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxunun gətirdi taleyi, bəxti,
Artdı şan-şöhrəti, quruldu təxti,
Dolandı zamanı, yetişdi vaxti,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı idrakın, nurun ziyası,
Çoxunun üstünə düşdü sayəsi,
Yayıldı ellərdə dayı kölgəsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Ülviyyət də, qüdsiyyət də, paylandı,
Xeyirxahlıq, fəzilət də paylandı,
Sağlam fikir, pak niyyət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı gözəlin alagözləri,
Qaymaq dodaqları, lalə üzləri,
Qəlbləri ram edən şirin sözləri,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları yarıdı dostdan, tanışdan,
Həmkardan, həmdəmdən, yaxın yoldaşdan,
Qohum əqrəbadan, bacı-qardaşdan,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın şərafəti də,
Ətiri-gülüstan, təravəti də,
İstisi, soyuğu, hərarəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dünyada oqədər söz deyildiki,
Anla deyildiki, sez deyildiki,
Səbr edib, tablaşıb, döz deyildiki,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gözəllik də, çirkinlik də paylandı,
Sadəlik də, xudbinlik də paylandı,
Nikbinlik də, bədbinlik də  paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Salınan yolaqlar, cığırlar, izlər,
Yalanlar, saxtalar, əyrilər, düzlər,
Söylənən fikirlər, deyilən sözlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə dağ düşdü, kimiyə aran,
Kimiyə münbitli, kimiyə şoran,
Kimiyə işıq, gün, kimiyə toran,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı qızıl da, gümüş də, mis də,
Şirin avazlar da, zəngulə, səs də,
Paylandı eşq-həvəs, dəstəbədəstə,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları çox şeydən, aralı qaldı,
Qəlbi xoflu qaldı, qaralı qaldı,
Dünyanın qüssəsi, məlalı qaldı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nəşə də paylandı, kef də paylandı,
Zurna da, qaval da, dəf də paylandı,
Zəhmətsiz, xidmətsiz, müftə paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Zülal da, şəkər də, bal da paylandı.
Dəymiş də, sütül də, kal da paylandı,
Tirmə də, qədək də, şal da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimi pay alanda qabağa düşdü,
Kimi də gecikdi uzağa düşdü,
Tufana, borana, sazağa düşdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Günah pay alanda, pay verəndəmi?
Süfrə açandamı, çay verəndəmi?
Bahar paylayanda, yay verəndəmi?
Kimiyə çatmadı, kimiyə çatdı.

Bu dünya belədir ay Cəmil Əkbər,
Bacar heç çəkməynən nə qəm, nə kədər,
Bir az yaz, sözlərin olsun müxtəsər,
Kimiyə çatmadı, kimiyə çatdı.

***Cəmil Əkbər*** 31. 12 - 1994

## 244. KİMİYƏ ÇATMADI, KİMİYƏ ÇATDI

*III variant*

Dünyanın paylandı nazı-neməti,
Kimiyə çatmadı, kimiyə çatdı.
Paylandı saf eşqi, pak məhəbbəti,
Kimiyə çatmadı, kimiyə çatdı.

Sədaqət də, səxavətdə paylandı,
İnsaf-mürvət, kəramət də paylandı,
İnsanlıq da, ləyaqət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı şərafət, şöhrət də bir gün,
Paylandı ar-namus, qeyrət də bir gün,
Fəhim-fərasət də, cürət də bir gün,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dövlət də paylandı, var da paylandı,
Qohum da, qardaş da, yar da paylandı,
İffət, namus, qeyrət, ar da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı abır da, həya da bilin,
Əqidə, məslək də, qayə də bilin,
Təlimi düz verən dayə də bilin,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bölündü torpaq da, bölündü daş da,
Kabab da, dolma da, bozbaş da, aş da,
Bozartma, cızbız da, araq da, xaş da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı yurd-yuva, paylandı mahal,
Paylandı gözəllik, mənəvi camal,
Çox oldu arada inciyən, kahal,
Kimiyə çatmadı, kimiyə çatdı.

Qoçaqlıq da fərasət də paylandı,
Mərdanəlik, cəsarət də paylandı,
İxtiyar da, sədarət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Bölündü, paylandı dünyada hər şey,
Həm inci, həm sədəf, ləl-gövhər zər şey,
Qalmadı arada-bərədə bir şey,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın ədaləti də,
Doğruluq, düzlüyü, həqiqəti də,
Ədəbi, ərkanı, mərifəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gileylər, güzarlar, tənəli sözlər,
O köntöy baxışlar, ox kimi gözlər,
Tutulmuş qabaqlar, turşumuş üzlər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxunun taleyi, işi gətirdi,
Kotanı işlədi, xışı gətirdi,
Baharı xoş gəldi, qışı gətirdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Ayağı gətirdi, başı gətirdi,
Fikiri, xəyalı, huşu gətirdi,
Qalmadı dünyada naşı, gətirdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı sağlamlıq, azar da bir gün,
Sərdabə, başdaşı, məzar da bir gün,
Bağlandı dükan da, bazar da bir gün,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə hərşeydən təzə verildi,
Kimiyə kef-damaq məzə verildi,
Kimiyə ən ağır cəza verildi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı dünyanın gözəlləri də,
Şeiri, dastanı, qəzəlləri də,
Xəzana qərq olan xəzəlləri də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dözüm, durum, dəyanət də paylandı,
Haqdan gələn bəyanət də paylandı,
Paxıllıq da, xəyanət də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Zülal da, şəkər də, şan da paylandı,
Damar da paylandı, qan da da paylandı,
Cəsəd də paylandı, can da paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Əyri də paylandı, düz də paylandı,
Dərin də, dayaz da, üz də paylandı,
Qaşlar da paylandı, göz də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları dünyadan əliboş getdi,
Sözləri-söhbəti diliboş getdi,
Günləri, həftəsi, ayı boş getdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Yaxşılıqlar, pisliklər də paylandı,
Xeyirxahlıq, bədxahlıq da paylandı,
Mülayimlik, tərsliklər də paylandı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylanan payladı, bölənlər böldü,
Ağlayan-ağladı, gülənlər-güldü,
Bilməyən bilmədi, bilənlər bildi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Yaradan Xaliqin nicat, nüsrəti,
Üstündən kəsmədi nəzər, diqqəti,
Saxladı bəşəri bu cəmiyyəti,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimi alha-alda qabağa düşdü,
Kimi də gecikdi, uzağa düşdü,
Çovğuna, borana, sazağa düşdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə az oldu, kimə çox oldu,
Kimiyə var oldu, kimə yox oldu,
Gözləri, könülü tamam tox oldu,
Kimiyə çatmadı, kimiyə çatdı.

İnsanın-insana mərhəməti də,
İlqarı-imanı kəraməti də,
Ədəbi-ərkanı, nəzakəti də,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gödələn ömür də, kəsilən yaş da,
İnləyən ürək də, ağrıyan baş da.
Tutulan qabaq da, çatılan qaş da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxunun gətirdi taleyi, bəxti,
Artdı şan-şöhrəti, quruldu təxti,
Dolandı dövranı, xoş keçdi vaxtı,
Kimiyə çatmadı, kimiyə çatdı.

İnsan idrakının nuru, ziyası,
Çoxunun üstünə, düşdü sayəsi,
Qaynata yardımı, dayı kölgəsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nurani, ağsaqqal, qocalıq çağı,
Xətirli, hörmətli ucalıq çağı,
Vəzirlik, vəkillik, xocalıq çağı,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları nə gördü onu götürdü,
Özü peyvənd vurub, bağı bitirdi,
Çoxu da peysərə vurdu, ötürdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Günah alandamı, pay verəndəmi?
Çörək paylayanda, çay verəndəmi?
Pis iş görəndəmi, zay verəndəmi?
Kimiyə çatmadı, kimiyə çatdı.

Hamı bu həyatda növbəyə durdu,
Yalvardı, yaxardı boynunu burdu,
Çoxları havayı özünü yordu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Saralan yanaqlar, solan yanaqlar,
Gözlərin yaşıyla dolan yanaqlar,
İntizar içində qalan yanaqlar,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxalan qəm-qüssə, çəkilən kədər,
Dəhşətli ağrılar, acılar, qəhər,
İncitdi çoxunu hər axşam, səhər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nə deyim danışım, söyləyim daha?
Çoxu müftə aldı, çoxları baha.
Nəqədər qərq oldu qarğışa, aha?
Kimiyə çatmadı, kimiyə çatdı.

Dühaya, dahiyə, lağ da etdilər,
Çıxıb əndazədən ağ da etdilər,
Kefləri, damağı çağ da etdilər,
Kimiyə çatmadı, kimiyə çatdı.

Habilin kamanı, Əmrahın sazı,
Bülbülün, Şəmşirin, Xanın avazı,
Gəlmədi xoşuna çoxunun duzu,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gözəl bağçaların, dağın havası,
Loğmansız, təbibsiz oldu dəvası,
Nurani atanın xeyir-duası,
Kimiyə çatmadı, kimiyə çatdı.

Nəqədər dolandı halal varıyla?
Koroğlusayağı öz Nigarıyla?
Öz əhdi-peymanı, düz ilqarıyla?
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları yaşadı şan-şöhrət ilə,
Saf arzu istəyi, pak niyyətilə,
Dözümü-durumu, qətiyyətilə,
Kimiyə çatmadı, kimiyə çatdı.

Ata nəvazişi, ana laylası,
Ey süddən verilən mey piyaləsi,
Dağlarda gül üstə düşən jaləsi,
Kimiyə çatmadı, kimiyə çatdı.

Çoxları dünyada yarıdı getdi,
İşi düz gətirdi, sarıdı getdi,
Çoxu da inlədi, zarıdı getdi,
Kimiyə çatmadı, kimiyə çatdı.

İnciyən incidi, bezənlər bezdi,
Anlayan anladı, sezənlər sezdi,
Səbr edib, tablaşıb, dözənlər dözdü,
Kimiyə çatmadı, kimiyə çatdı.

Gərdişi-dövrana nə demək olar?
Nə tutub saxlamaq, əyləmək olar?
Nə danlamaq olar, nə söymək olar?
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı ismət də, namus da, ar da,
Səmimi dost-tanış, vəfalı yar da,
Yetişdi bağlarda, heyva da, nar da,
Kimiyə çatmadı, kimiyə çatdı.

Paylandı sağlamlıq, azar da bir gün,
Sərdabə, başdaşı, məzar da bir gün,
Bağlandı dükan da, bazar da bir gün,
Kimiyə çatmadı, kimiyə çatdı.

Kimiyə dağ düşdü, kimiyə aran,
Kimiyə münbitli, kimiyə şoran,
Kimiyə abadlıq, kimiyə viran,
Kimiyə çatmadı, kimiyə çatdı.

Dünyanın işinə nə demək olar?
Nə yardım eyləmək, nə kömək olar?
Nə saxlamaq olar, əyləmək olar?
Kimiyə çatmadı, kimiyə çatdı.

Ay Cəmil, belədir dünyanın işi,
Adət-ənənəsi, budur vərdişi,
Nə həyəcan keçir, nə də təşvişi,
Kimiyə çatmadı, kimiyə çatdı.

***Cəmil Əkbər*** 11. 06 – 1994

## 245. ÇATDI

Hayıf, anlamaza deyilən sözə,
Nə beyninə batdı, nə huşa çatdı.
Dayanıb dursanda onla üz-üzə,
Nə kipriyə yetdi, nə qaşa çatdı,

Əfsus, xoş arzudan qopan sözlərə,
İncidən qalalar yapan sözlərə,
Hədəfə dəyməyən, sapan sözlərə,
Nə hiss-həyəcana, nə huşa çatdı.

Kümbəzə qoz kimi dəydi, qayıtdı,
Qəddi-qamətini əydi, qayıtdı,
Mat qalıb gözünü döydü, qayıtdı,
Nə sərrafa yetdi, nə daşa çatdı.

Sədheyif havayı deyilən sözə,
Tərsinə yozulub, əyilən sözə,
Qəlblərə toxunub, dəyilən sözə,
Nə könülə yatdı, nə guşa çatdı.

Od tutub ocaqsız alışdı, yandı,
Düşüb çamırlığa qarışdı, yandı,
Ay Cəmil, küsməmiş barışdı, yandı,
Nə sona yetişdi, nə başa çatdı.

***Cəmil Əkbər***

## 246. MƏNƏ ÇATMADI

Hayıf o şərəfə, o şöhrətə ki,
O sənə yetişdi, mənə çatmadı,
Zəngin xəzinəyə, o sərvətə ki,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o bacarıq, fərasətə ki,
O cürə hünərə, cəsarətə ki,
İxtiyar, hüquqa, sədarətə ki,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o idraka, o kamala ki,
Əqidə, məsləkə, o amala ki,
O yörə-yöndəmə, o camala ki,
O sənə yetişdi, mənə çatmadı.

O məna, məzmuna, o hikmətə bax.
O tale, yığvala o qismətə bax,
O cürə varlığa, o xislətə bax,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o var-hala, o dövlətə ki,
O cahi-cəlala, o sərvətə ki,
İlahi bəxş edən o nemətə ki,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o aylara, o illərə ki,
O çəmən, o çiçək, o güllərə ki,
O inci, sədəfə, o ləllərə ki,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o ləzzətə, o kef-damağa,
Çalıb-çağırmağa, o oynamağa,
O aşıb-daşmağa, o qaynamağa,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf gül yanağa, o xətti-xala,
O boya-buxuna, o mah camala,
Dodağı zülala, ləbləri bala,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf gül əndama, lalə buxağa,
Mərmər sinəliyə, qaymaq dodağa,
Sözqanan, dərdbilən, o əhlihala,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o xətirə, o hörmətə ki,
İnsafa, mürvətə, kəramətə ki,
Haqqa, ədalətə, həqiqətə ki,
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o ədəbə, o nəzakətə,
Nəciblik, zəriflik, o məlahətə,
Sədaqət, səxavət, o kəramətə,
O sənə yetişdi, mənə çatmadı.

Nə deyim dövranın kəc gərdişinə?
Hiyləgər, dələduz, bic vərdişinə?
Sərsəri, kəmağıl, gic gərdişinə?
O sənə yetişdi, mənə çatmadı.

Hayıf o ev-eşik, o imarətə,
O dəmə-dəstgaha, o qiyamətə,
O toya-düyünə, o ziyafətə,
O sənə yetişdi, mənə çatmadı.

Heyif o günlərə, o saatlara,
Dövrü-zəmanəyə, o büsatlara,
Yeyilən, içilən nəbatatlara,
O sənə yetişdi, mənə çatmadı.

Nəyaxşı dünyanın naqisliyi də,
Paxıllıq, xainlik, xəbisliyi də,
Acgöz, qarınqulu, hərisliyi də,
O sənə yetişdi, mənə çatmadı.

Yaxşıki təlxəklik, şıltaqlıq etmək,
Həm abırsız olmaq, sırtıqlıq etmək,
Haldan-hala düşüb, yaltaqlıq etmək,
O sənə yetişdi, mənə çatmadı.

Yaxşıki ismətsiz, həyasız oldun,
Məsləksiz, vicdansız, qayəsiz oldun,
Ulğuntək, söyüd tək sayəsiz oldun,
O sənə yetişdi, mənə çatmadı.

Nə deyim yazılan hökmü-qərara?
Yaradan xaliqə, pərvərdigara?
Sən hara, tutduğun o mövqe hara?
O sənə yetişdi, mənə çatmadı.

Dünyanın nəqədər ədavəti var?
Kini-küdurəti, xəyanəti var?
Gileyi, güzarı, şikayəti var?
O sənə yetişdi, mənə çatmadı.

Cəmil Əkbər küsənən döy, sənə bil,
Qoşulan döy, hər səs-küyə, ünə bil,
Çox demişəm bir də deyim yenə bil,
O sənə yetişdi, mənə çatmadı.

***Cəmil Əkbər*** 31. 08 - 1991

## 247. MƏNİM DÖY

Hayıf o şöhrətə, o şərafətə,
Qismət, nəsib sənin imiş, mənim döy.
Ətiri-behiştə, o təravətə,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf o mövqeyə, o tacı-təxtə,
Taleyə, iqbala, o bəxtə-bəxtə,
Sizə Novruz bahar, bizə qar, şaxta,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf o ixtiyar, o sədarətə,
Hüquqi-şərifə, səlahiyyətə,
O hökmü-qərara, o bəraətə,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf o ellərə, bu mahala ki,
Düşüncə, dərrakə, o kamala ki,
O cür arzulara, o amala ki,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf o var-hala, o dövlətə ki,
O mal- mülk, xəzinə, o sərvətə ki,
O cahi-cəlala, o nemətə ki,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf mərmər sinə, qönçə buxağa,
Kaş çıxa mənimlə qol-boyun dağa,
Canımı verərdim, alsa sadağa,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf gülyanağa, o xətti-xala,
O qələmqaşlıya, gözləri ala,
Qədirbilənlərə, o əhlihala,
Qismət, nəsib sənin imiş, mənim döy.

Hayıf o xətirə, o hörmətə ki,
Ədəbə-ərkana, mərifətə ki,
Zəriflik, nəciblik, təravətə ki,
Qismət, nəsib sənin imiş, mənim döy.

Cəmil Əkbər küsənən döy, bil sənə,
Diksinən döy, səksənən döy, bil sənə,
Ürpənən döy, pəsinən döy bil sənə,
Qismət, nəsib sənin imiş, mənim döy.

***Cəmil Əkbər*** 16.06-1991

## 248. ÇATMADI

*I variant*

Sosializm bizdən kamal istədi,
Səndə, məndə, nədə onda çatmadı.
Mənəvi gözəllik, camal istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Dərk edib, anlayan, qanan istədi,
Ellərin dərdinə yanan istədi,
Xətiri, hörməti anan istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Firəvan yaşamaq, qurmaq istədi,
Zülmün zəncirini qırmaq istədi,
Sülhün keşiyində durmaq istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Oxumaq, öyrənmək, bilmək istədi,
Sağlam  arzu-istək, dilək istədi,
Hünər meydanında gülmək istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Hərkəsdən hamıya kömək dilədi,
Tər tökmək istədi, əmək dilədi,
Güclü qollar, möhkəm bilək dilədi,
Səndə, məndə, nədə onda çatmadı.

Ellərə, obaya xidmət istədi,
Vicdan, məslək, xətir-hörmət istədi,
Mənalar, məzmunlar, hikmət istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Əlbirlik, həmrəylik, birlik istədi,
Mehribanlıq, səmimilik istədi,
Çox incəlik, çox zəriflik istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Ədəb-ərkan, nəzakət də istədi,
Xeyirxahlıq, fəzilət də istədi,
Bacarıq da, fərasət də istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Əlbirlik, həmrəylik, birlik istədi,
Çəsarət, fərasət, hünər istədi,
Könüllər mülkündən təpər istədi, [23]
Səndə, məndə, nədə onda çatmadı.

Sosializm bizdən hikmət istədi,
Pak arzular, təmiz niyyət istədi,
Dəyərlərə düzgün qiymət istədi,
Səndə, məndə, nədə onda çatmadı.

---

[23] Səadət naminə zəfər istədi,

Aranı-bərəni qatan çoxaldı,
Vicdanı, məsləki satan çoxaldı,
Qan tökübgünaha batan çoxaldı,
Səndə, məndə, nədə onda çatmadı.

Zəmanə tərsinə dönübdü daha.
Yanan çox ocaqlar sönübdü daha.
Sinələrə dağlar vurubdu yaman,
Səndə, məndə, nədə onda çatmadı.

Bu dövran səni də yordu ay Cəmil,
Bütün ümidini qırdı ay Cəmil,
Eləbil qəsdinə durdu ay Cəmil.
Səndə, məndə, nədə onda çatmadı.

***Cəmil Əkbər*** 15. 02 – 1991, 2.05 – 1995

## 249. ÇATMADI

*II variant*

Zəmanəmiz bizdən kamal gözlədi,
Səndə, məndə, nədə onda çatmadı.
Əqidə gözlədi, amal gözlədi,
Səndə, məndə, nədə onda çatmadı.

Dərk edib anlayan, qanan istədi,
Ellərin dərdinə yanan istədi,
Haqqısay axtarıb, anan istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Hərkəsdən hamıya kömək istədi,
Qurub yaratmağa əmək istədi,
Qazanıb gətirmək, yemək istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Səadət naminə xidmət istədi,
Kəramət istədi, mürvət istədi,
Mərhəmət istədi, hörmət istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Dözüm, durum, dəyanət də istədi,
Doğru-dürüst bəyanət də istədi,
Bacarıq da, fərasət də istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Dedilər hamıda ləyaqət gərək,
Doğruluq, düzgünlük, həqiqət gərək,
Saf arzu, pak istək, məhəbbət gərək,
Səndə, məndə, nədə onda çatmadı.

Ədəb, ərkan, nəzakət də istədi,
Sədaqət də, səxavət də istədi,
Xeyirxahlıq, fəzilət də istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Düşüncə, dərrakə, bilik istədi,
Zirvəyə qalxmağa lələk istədi,
Yorulmayan qollar, bilək istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Əlbirlik, həmrəylik, birlik istədi,
Doğru-düzlük, həqiqilik istədi,
Mehri-ülfət, səmimilik istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Cəsarət, fərasət, hünər istədi,
İnsanpərvər, vətənpərvər istədi,
Gələcəyə gözəl səfər istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Dövranımız bizdən hünər istədi,
Ürəkdə iftixar, təpər istədi,
Qələbə istədi, zəfər istədi,
Səndə, məndə, nədə onda çatmadı.

İnsandan-insana nicat istədi,
Gözəl dövran, qurğu, büsat istədi,
Çalışdı, vuruşdu, heyhat istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Xəsdə sağalmağa loğman istədi,
Hökmü düz çıxaran fərman istədi,
Dərdi azaltmağa dərman istədi,
Səndə, məndə, nədə onda çatmadı.

Yaxşıya pisə də qiymət istədi,
Bir nəzər yetirmək, diqqət istədi,
Sağlam fikir, təmiz niyyət istədi,
Səndə, məndə, nədə onda çatmadı.

O gözəl fikirlər getdi, neyləyim?
Yerində kol-koslar bitdi, neyləyim?
Çəkilən zəhmətlər itdi neyləyim?
Səndə, məndə, nədə onda çatmadı.

Zəmanə nəyaman pozuldu Çəmil?
Cırlaşdı, əksildi, azaldı Çəmil?
Doğrular tərsinə yozuldu Çəmil?
Səndə, məndə, nədə onda çatmadı.

***Cəmil Əkbər*** 11. 08 – 1992

## 250. ÇATMADI

Nəqədər söz yazıb şeir dedimsə?
Anlayana düz qanana çatmadı.
Xalqıma verməyə xeyir dedimsə?
Dərk edənə, düz qanana çatmadı.

Nəqədər dedimsə əsərsiz oldu,
Faydasız göründü, kəsrərsiz oldu,
Mükafat almadı, nəmərsiz oldu,
Dərin-dəyaz, üz qanana çatmadı.

Nəqədər sözümü nadanlar uddu?
Yolunu tərsinə adanlar uddu?
Təlimdən yarımçıq dadanlar uddu?
İşarədən göz qanana çatmadı.

Dedim söz bağımın ormanı ola,
Qövr edən dərdlərə dərmanı ola,
Hökmü düz işləyən fərmanı ola,
Fikir verib tez qanana çatmadı.

Özüm də bilmədim nədən yazım ki?
Necə təsvir edib, necə yozum ki?
Necə dərk eyləyib, necə sezim ki?
Dad bilənə, duz qanana çatmadı.

Nə yazıb deyəsən key oğlu-keyə?
Xəsis oğlu xəsis, göy oğlu-göyə?
Əqrəb oğlu əqrəb, döy oğlu-döyə?
Səksən, doxsan, yüz qanana çatmadı.

Axtardım, tapmadım söz sərrafımı,
Fəhmin-fərasətin öz sərrafını,
Vicdanın, məsləkin düz sərrafını,
Yol bilənə, iz qanana çatmadı.

***Cəmil Əkbər*** 24.06 – 1992

## 251. ÇATMADI

Çoxunun zəhməti hədərə getdi,
İnsanlığa, ləyaqətə çatmadı.
Nəqədər kənd gəzdi, şəhərə getdi,
Doğru-düzlük, həqiqətə çatmadı.

Dolandı dünyanı, biçarə gəzdi,
Keçirdi günləri, avarə gəzdi,
Tapmadı dərdinə bir çarə gəzdi,
Şan-şöhrətə, şərafətə çatmadı.

Murada yetmədi, yarıda qaldı,
İnlədi, sızladı zarıda qaldı,
Yemədi, içmədi varı da qaldı,
Təlim alıb qiraətə çatmadı.

Girləndi birtəhər, tənbəlsayağı,
Yük oldu bəşərə əngəlsayağı,
Törətdi qalmaqal, cəncəlsayağı,
Bacarığa, məharətə çatmadı.

Kölgədə hərləndi, tində dolandı,
Qəzəbdə, hiddətdə, kində dolandı,
Qocaldı, qarıdı, sində dolandı,
Nə fəhimə, fərasətə çatmadı.

Ülfət-ünsiyyətdə səylik eylədi,
İtirib əqlini keylik eylədi,
Xainlik, xəbislik, zaylıq eylədi,
Sədaqətə, səxavətə çatmadı.

Qəlbində əqrəblər, iblis oynadı,
Paxıllıq kök saldı, xəbis oynadı,
Nanəcib, namərdlər, naqis oynadı,
Saf arzuya, pak niyyətə çatmadı.

Acıqla, qərəzlə, hiddətlə gəzdi,
Kin ilə dolandı, nifrətlə gəzdi,
Tutuldu qabağı, xiffətlə gəzdi,
Ülvi-istək, məhəbbətə çatmadı.

Dövlət də, sərvət də, var da topladı,
Yoldaş da topladı, yar da topladı,
Hiylə də, məkr də, tor da topladı,
Ədəb-ərkan, mərifətə çatmadı.

Nifrət olsun yaramaza, karsıza,
Söyüdtəki, ulğuntəki, barsıza,
Abırsıza, ismətsizə, arsıza,
Xeyirxahlıq, fəzilətə çatmadı.

***Cəmil Əkbər*** 13. 10 – 1993

## 252. BİLSİN

Eşidin Vəlini[24], dinləyin məni,
Cavanı tanısın, qocanı bilsin.
Dağlara, daşlara qoy salsın ünü,
Seyr etsin zirvəni, ucanı bilsin.

İnsan olan kamalına güc versin,
Əqidəsi, amalına güc versin,
El-obası, mahalına güc versin,
Tanısın yaxşını, yamanı bilsin.

Heçkəs aldanmasın cah-cəlalına,
Sərsəm fikirinə, kəc xəyalına,
Qolunun gücünə, varı-halına,
Baxsın yol-ərkana, imanı bilsin.

Atalar sözünə ağız büzməsin,
Perik düşüb uzaqlarda gəzməsin,
Əllərini ətəyindən üzməsin,
Oxusun, öyrənsin, tam onu bilsin.

Hərkəs ustadından dərsin almasa,
Dediyini tez yadına salmasa,
Zəhmət çəkib el qeydinə qalmasa,
Ariflər tanıyar xam, onu bilsin.

Hər insanoğluna pisdi deməsin,
Xaindi, xəbisdi, nəsdi deməsin,
Höcətdi, inaddı, tərsdi deməsin,
Cahil gədələri, nadanı bilsin.

Həryetən kəslərlə yoldaş olmasın,
Canhacan olmasın, qardaş olmasın,
Açıb dərd-sərini sirdaş olmasın,
Təlimdən yarımçıq dadanı bilsin.

---

[24]Gədəbəy elinin məşhur aşığı, Miskinli şair Vəli Bayramov nəzərdə tutulur

Çox mənəm deyənə bəli deməsin,
İncinin, sədəfin ləli deməsin,
Çəmənin, çiçəyin gülü deməsin,
Haqqısay sümürüb udanı bilsin.

Hər könül mülkünü zil anlamasın,
Hər sısqa bulağı Nil anlamasın,
Hər sinədöyəni fil anlamasın,
İnləyən, sızlayan kamanı bilsin.

Hərkəs məqamında danışsın gərək,
Küsüb, inciyibsə barışsın gərək,
Ellərin xeyrinə qarışsın gərək,
Seyr etsin dünyanı, zamanı bilsin.

Hər yetən səs salıb, başı qatmasın,
Amandır nabələd, naşı qatmasın,
Töksün ətəyindən daşı, qatmasın,
Çaldığı zurnanı, havanı bilsin.

Töküb qabağını, çatmasın qaşı,
Oturub-duranda olmasın naşı,
Quru alışanda yandırar daşı,
Salmasın qal-qovğa, davanı bilsin.

Kimki boş keçirsə baharı, yayı,
Bilməsə qədrini hər ötən ayı,
Azalar qisməti, tükənər payı,
Qışdada tapanmaz samanı bilsin.

Ünsiyyət-ülfəti pozmasın heçkəs,
Yolunu-izini azmasın heçkəs,
Doğrunu əyriyə yozmasın heçkəs,
Oxusun Quranı, kitabı bilsin.

Kimin dərdi varsa, dərmanı da var,
Hökmü qərarı da, fərmanı da var,
Tarlası, zəmisi, xırmanı da var,
Həkimi, loğmanı, dərmanı bilsin.

Sısqaca bulaqlar ləpələnməsin,
Dağlara, daşlara səpələnməsin,
Dağılıb həryana qəlpələnməsin,
Dənizi, dəryanı, ümmanı bilsin.

Ayıbdır ellərdən gədələnməsin,
Lovğalıq eyləyib ədalanmasın,
Pis adla yad olub sədalanmasın,
İnsafı, mürvəti, imanı bilsin.

Eşidən anlasın Cəmil Əkbəri,
Götürsün ovxarı, alsın kəsəri,
Təlim-tərbiyədən olsun xəbəri,
Düşünüb, dərk edən, qananı bilsin.

***Cəmil Əkbər*** 3. 03 -1993

**253. BİLSİN!**

Deyin gədələrə, havalanmasın,
İxtiyar əlindən alınar bilsin!
İtirib əqlini yavalanmasın,
Vurulub yerlərə salınar bilsin!

Deməsin ağayam dövrü-zamana,
Hökmümü verərəm cümlə-cahana,
Salaram hamını aha-amana,
Zəmisi yarımçıq çalınar bilsin!

Özünü dartmasın, darğalanmasın,
Baxıb kölgəsinə lovğalanmasın,
Deməsin ümmanam, dalğalanmasın,
Gen dünya başına dolanar, bilsin!

Ellərdən ayıbdır ədalanmasın,
Nifrətlə yad olub sədalanmasın,
Deyin daha yetər, gədalanmasın,
İnsantək yaşayıb, dolanar bilsin!

Döyüb sinəsinə kişilənməsin,
Varıyla-halıyla eşələnməsin,
Dərsi veriləndə pöşələnməsin,
Qaz kimi tükləri yolunar bilsin!

Görsün çox yurd-yuva tamam boş qalıb,
Yerində kalafa, çürük daş qalıb,
Xərabə üstündə kor bayquş qalıb,
Düşüb dar məzara, ilənər bilsin!

Yetməz imdadına doğma qardaşı,
Taytuşu, həmkarı, dostu, yoldaşı,
Mehriban həmdəmi, yaxın sirdaşı,
Ona da "toy-düyün çalınar" bilsin!

Pozular növrağı, cahi-cəlalı,
Üzər varlığını dərdi-məlalı.
Sarsıyar əhvalı, dəyişər halı,
Kainat gözündə qaralar bilsin!

Ellərin şəninə xain çıxanın,
Əsəblər korlayıb, ürək sıxanın,
Qapılar bağlayıb, evlər yıxanın,
Özünün var-halı çalınar bilsin!

Qoşulub tamahla etməsin bəhsi,
Pozular qatarı, səfi, dəsdəsi,
Qalmaz ürəyində eşqi, həvəsi,
Məhəbbət diyarı talanar bilsin!

Qəssab əti kəsib, piy axtarmasın,
Kababa çəkməyə çiy axtarmasın,
Ellərə yaymağa iy axtarmasın,
Atılıb yerlərə tullanar bilsin!

Yolunu düz getsin, sayıqlamasın,
Tapdayıb örüşü ayaqlamasın,
Meydanı boş görüb oynaqlamasın,
Noxtadan bir küncə bağlanar, bilsin!

Boşboğazlıq edib, sayıqlamasın,
Baxıb dövranına oynaqlamasın,
Məzlumu, fəqiri ayaqlamasın,
Gözünün işığı tutular, bilsin!

Duranmaz, zirvədən aşağı enər,
Qayıdıb qatarı geriyə dönər,
Kəhkəşan ulduzu biranda sönər,
Qərq olub odlara qalanar bilsin!

Bədxahlar, zalımlar əriyib gedər,
Ürəyi dərdləyib, çürüyüb gedər,
Sürünə-sürünə yeriyib gedər,
Gözləri nəm çəkib sulanar bilsin!

Çoxlarının yurd-yuvası boş qalıb,
Qəlb yerində bir quruca daş qalıb,
Əməlindən sərsəm qalıb, çaş qalıb,
Sümsünüb arada yalanar, bilsin!

Görünər gözlərə bisəmər, yasar,
Yediyin sinirməz, qaytarıb qusar,
Utanıb, qızarıb lal olub susar,
Sıxılıb ürəyi bulanar bilsin!

Naxələf övladdan dayı da küsər,
Sovqatı inciyər, payı da küsər,
Çörəyi də küsər, çayı da küsər,
Gedib bir kənarda dolanar bilsin!

Bağban kamil olsa bağı saralmaz,
Bostanı, dirriyi, tağı saralmaz,
Aranı, yaylağı, dağı saralmaz,
Haqqın dərgahından sulanar bilsin!

Eşidib Cəmildən hikmət götürən,
Məna, məzmun, abır-ismət götürən,
Xətirlər qazanıb hörmət götürən,
İnşallah yaşayıb dolanar bilsin!

***Cəmil Əkbər*** 17. 11-1985; 9.12 – 1985; 25. 10 – 1987

## 254. BİZDƏ VAR

*I variant*

*Səs salma yatanlar ayılar, qoy hələ yatsın,*
*Yatmışları razı deyiləm kimsə oyatsın.*
*Tək-tək ayılan varsa da haq dadıma çatsın,*
*Mən salim olum, cümlə-cahan batsa da batsın,*
*Millət necə tarac olur-olsun nə işim var?*
*Düşmənlərə möhtac olur-olsun nə işim var?*

**M.Ə.Sabir.**

*Kim nə deyər bizdə olan qeyrətə?*
*Qeyrətimiz bəllidir hər millətə.*

**M.Ə.Sabir.**
***Rəhmət sənə ay ustad!***

İncidəcək bu dərd bizi sərbəsər,
Dedi-qodu bu söhbətki bizdə var,
Görə bilməz bəşər ondan bir səmər,
Giley-güzar, bu qeybətki bizdə var.

Hələ çox çəkəcək başımız bəla,
Düşərik qovğaya, düşərik qala,
Qərq olluq kədərə, dərdə, məlala,
Naqis övlad, bu züryətki bizdə var.

Hər insanoğluyla barışmaq olmur,
Kefini-halını soruşmaq olmur,
Xeyrinə-şərinə qarışmaq olmur,
Kin-küdurət, bu nifrət ki, bizdə var.

Hələ çox igidlər tora düşəcək,
Çətinə, zülümə, dara düşəcək,
Tufana, borana, qara düşəcək,
Xəta-bəla, qəbahətki bizdə var.

Cahillər alimə inana bilməz,
Düşsədə çətinə unana bilməz,
Sayılıb, seçilib, tanına bilməz,
Beylə təlim, qiraət ki, bizdə var.

El-obada əzbər olmaz sözümüz,
Könüllərdə nəqş olunmaz izimiz,
Ha yusaqda ağ olanmaz üzümüz,
Bu abırki, bu ismətki bizdə var.

Yaxşılar yamana qarışıb gedir,
Köpəklər qurdlarla barışıb gedir,
Alyanaq soluxub, qırışıb gedir,
Saxta diplom, bu sənəd ki, bizdə var.

İnsan övladıyla barışmaq olmaz,
Kefini-halını soruşmaq olmaz,
Xeyrinə, şərinə qarışmaq olmaz,
Bu qəzəbki, bu hiddətki bizdə var.

Hələ çox davalar, dalaş olacaq,
Qorxu, səksəkələr, təlaş olacaq,
Qal-qovğa törəyib, savaş olacaq,
Beylə hədis, çinayətki bizdə var.

Hələ çox aranı qatan olacaq,
Mərdləri namərdə satan olacaq,
Vicdanı, məsləki atan olacaq,
Bu namuski, bu qeyrətki bizdə var.

Hələ çox çətinə dözəcəyik biz,
Həm inciyib, küsüb bezəcəyik biz,
Sındırıb qəlbləri üzəcəyik biz,
Bu qəsd-qərəz, bu sitəm ki, bizdə var.

Hələ al qanımız çox qaralacaq,
Gen dünya başlara çox daralacaq,
Ləyaqət tağları çox saralacaq,
Bu ünsiyyət, bu ülfətki bizdə var.

Hələ çox ucalıb enən olacaq,
İlqardan, imandan dönən olacaq,
Məhşər ayağında dinən olacaq,
Bu müsibət, fəlakət ki, bizdə var.

Əsrlər keçsə də anlayanmarıq,
Cahili, nadanı danlayanmarıq,
Kötəklə, qırmancla yanlayanmarıq,
Bu fəhmki, fərasətki bizdə var.

Hələ çox danlanıb söyüləcəyik,
Oyana-buyana əyiləcəyik,
Əzilib, sıxılıb döyüləcəyik,
Bu "xoşbəxtlik", "səadət" ki, bizdə var.

Hələ çox döyülüb, əziləcəyik,
Yaman günə düşüb nəziləcəyik,
Ayrılıb qatardan üzüləcəyik,
Bu təbiət, xasiyyətki  bizdə var.

Hələ çox inciyən, bezən olacaq,
Əzab, əziyyətə dözən olacaq,
Əlini əllərdən üzən olacaq,
Bu məzəmmət, bu minnətki bizdə var.

Ünsiyyət-ülfətdə qardaşlıq olmaz,
Səmimiyyət olmaz, yoldaşlıq olmaz,
Mehri-ülfət olmaz, sirdaşlıq olmaz,
Beylə fərman, bu töhmətki bizdə var.

Hələ çox bulanıb durulacayıq,
Şirətək çəkilib sorulacayıq,
Dağılıb, sökülüb qurulacayıq,
Bu xətalar, bu qələtki bizdə var.

Tərpənmərik, yerimizdə sayarıq,
Fitnələrə, fəsadlara uyarıq,
Çoxlarını ağlar gözlü qoyarıq,
Bu vərdişki, bu adətki bizdə var.

Qəlbimizdə cövlan edər kinimiz,
Başımızda tüğyan edər cinimiz,
Məğdur qalıb İslamımız, dinimiz?
Etiqadsız  ziyarətki bizdə var.

Hələ çox vüqarlar əyiləcəkdir,
Ünvanlar dalınca söyüləcəkdir,
Qəlblərə toxunub dəyiləcəkdir,
Bu “qanacaq”, “mərifətki” bizdə var.

Hələ çox boşalıb, dolan olacaq,
Əl-ayaq altında qalan olacaq,
Xəzana qərq olub, solan olacaq,
Bu satqınlıq, xəyanət ki, bizdə var.

İnciyib, bezikib, küsən olacaq,
Əlini-əllərdən kəsən olacaq,
Çox yeyib-içənlər, qusan olacaq,
Bu zülümki, bu zillətki bizdə var.

Hələ çox sızlayıb, inləyəcəyik,
Qövr edib yarası simləyəcəyik,
Xaric nəğmələri çox dinləyəcəyik,
Bu “bacarıq”, “məharətki” bizdə var.

Hər yetən gədələr düz ola bilməz,
Düzəlib yoluna, tez ola bilməz,
Elinə-obaya göz ola bilməz,
Bu mütilik, itaətki bizdə var.

Hələ çox aranı qatan olacaq,
Qaşları, qabağı çatan olacaq,
Haqqı aralıqda batan olacaq,
Bu ixtiyar, sədarətki bizdə var.

Hələ çox qırılıb söküləcəyik,
Dağılıb yerlərə töküləcəyik,
Yay kimi əyilib, büküləcəyik,
Bu “insafki”, bu  “mürvətki” bizdə var.

Nəqədər səhvləri buraxacayıq?
Kələf dolaşdıqca darıxacayıq,
Yanılıb çaşaraq karıxacayıq,
Bu vücudki, bu cəsətki bizdə var.

Hələ çox igidlər əldən gedəcək,
Düşəcək taqətdən, dildən gedəcək,
Silinib obadan, eldən gedəcək,
Beylə nicat, bu nüsrətki bizdə var.

Gedə-gedə nazı-nemət azalar,
Məna, məzmun, mahiyyət də azalar,
Kəmiyyət də, keyfiyyət də azalar,
Karsız, barsız bu zəhmətki bizdə var.

Hələ çox qapılar bağlı qalacaq,
Sinələr düyünlü, dağlı qalacaq,
Dastanlar yazılıb, nağlı[25] qalacaq,
Əyri yola dəlalət ki, bizdə var.

Çəkilən zəhmət də hədərdir, hədər,
Bürüyər aləmi qüssə, qəm kədər,
Mənalı günümüz mənasız gedər,
Bu nadanlıq, cəhalətki bizdə var.

Ləyaqət əhlinə lağ ediləcək,
Günahsız sinəyə dağ çəkiləcək,
Yurdunda qanqaldan bağ əkiləcək,
Bu bədəsil, nəcabətki bizdə var.

Ünsiyyət-ülfətdə ədalət olmaz,
Doğruluq, dürüstlük həqiqət olmaz,
Nəciblik, zəriflik, məlahət olmaz,
Bu qal-qovğa, şərait ki bizdə var.

[25] Nağlı – nağıl

Alim də, loğman da gözdən düşəcək,
Yolaqdan çıxacaq, izdən düşəcək,
Gün çeşdə qalxmamış tezdən düşəcək,
Bu "xətirki", bu "hörmətki" bizdə var.

Hələ çox arxadan deyən olacaq,
Sümürüb haqqısay yeyən olacaq,
Toxunub qəlblərə dəyən olacaq,
Bu həngamə, hekayətki bizdə var.

Deməklə sözün də əsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur,
Düşübdür ovxardan, kəsəri yoxdur,
Bu tayfaki, bu millətki bizdə var.

İnsan birbirilə barışa bilməz,
Kefini, halını soruşa bilməz,
Xətadan, bəladan sovuşa bilməz,
Bu davranış, hərəkətki bizdə var.

Nəqədər desələr qanan deyilik,
Yaxşının halına yanan deyilik,
Haqqısay axtarıb, anan deyilik,
Bu bəyanət, xitabətki bizdə var.

Qaranlıq səmada ay olanmarıq,
Ulduza, günəşə tay olanmarıq,
Yetişib arzuya bay olanmarıq,
Bu tərpəniş, bu sürətki bizdə var.

Baxıb əməlindən utanan olmaz,
Pəsinib, çəkinən, qısqanan olmaz,
Ürpəşib diksinən, səksənən olmaz,
Gəvəzəlik, şikayətki bizdə var

Qövr edəcək, sızıldayar yara da,
Axtarmaqla tapılan döy çara da,
İtib-batar halal zəhmət arada,
Bu məzənnə, bu qiymətki bizdə var.

Kim deyəcək, deyiləsi sözləri?
Kim açacaq qarov olan gözləri?
Qəflətlərdən ayıldacaq bizləri?
Bu çəkişmə, ədavətki bizdə var.

Qövr edib bədəni incidər yara,
Gəzməklə bu dərdə tapılmaz çara,
İstərsən dağları-daşları ara,
Beylə dərman, təbabətki bizdə var.

Hələ çoxlarına pis deyiləcək,
Bədxah deyiləcək, nəs deyiləcək,
"Danışma, səsini kəs" deyiləcək,
Bu ədəbki, nəzakətki bizdə var.

Kim deyər işimiz öz yerindədir?
Səliqə-sahmanda, düz yerindədir?
Söhbət yerindədir, söz yerindədir?
Bu yoxsulluq, səfalətki bizdə var.

İnsan birbirinə yovuşa bilməz,
Xətadan, bəladan sovuşa bilməz,
Qaynayıb, qarışıb qovuşa bilməz,
Beylə insaf, kəramətki bizdə var.

Söz-söhbətdə nə həqiqət olacaq,
Xeyirxahlıq, nə fəzilət olacaq,
Nə nəciblik, nə məlahət olacaq,
Bu gərginlik, bu siqlətki bizdə var.

İnsan birbirindən kam ala bilməz,
Şərafət qazanıb, nam ala bilməz,
Süfrələr açaraq tam ala bilməz,
Sərsəm xəyal, bədniyyətki bizdə var.

Düşünüb, dərk edib qana bilmirik,
Yad edib haqqısay ana bilmirik,
Eybinə kor olub, sına bilmirik,
Bu alçaqlıq, rəzalətki bizdə var.

İnsan birbirini şən görə bilməz,
Xətadan, bəladan gen görə bilməz,
Dövranı xoş keçib, gün görə bilməz,
Bu ənənə, bu adətki bizdə var.

İnciyib küsəcək qardaş, qardaşdan,
Həmkar həmkarından, yoldaş-yoldaşdan,
Taytuş-taytuşundan, çağdaş-çağdaşdan,
Bu sədəqət, səxavətki bizdə var.

Əsrlər keçsədə düzələnmərik,
Halal zəhmət çəkib, təzələnmərik,
Həyatda kef çəkib, məzələnmərik,
Bu təbiət, bu xislətki bizdə var.

Açılandöy qabağımız, qaşımız,
Düz işləməz, tərəzimiz, daşımız,
Çox bəlalar çəkəcəkdir başımız,
Alışveriş, bu rüşvətki bizdə var.

Heç açılmır qabağımız, qaşımız,
Qurtaran döy bu cəncəldən başımız,
Buminvalla sərt keçəcək qışımız,
İçimizdə bu hillətki bizdə var.

Hələ çox ürəklər inləyəcəkdir,
Ahları, naləni dinləyəcəkdir,
Qövr edib yaralar simləyəcəkdir,
Bu xətalar, xəsarət ki, bizdə var.

Hələ qəsdimizdə duran olacaq,
İlantək, çayantək vuran olacaq,
Çəkib alqanları soran olacaq,
Bu müzürlü həşərat ki, bizdə var.

Üzlərdə-gözlərdə həya görünməz,
Əqidə görünməz, qayə görünməz,
İnsandan-insana sayə görünməz,
Bu bədbəxtlik, bədxahlıqki bizdə var.

Həsrət qallıq ətə, suya, yağa da,
Bostandakı şamamalı tağa da,
Sətinə də, qədəyə də, ağa da,
Bu kəllədar, ziraət ki, bizdə var

Ünsiyyət-ülfətlər pozulacaqdır,
Doğrular tərsinə yozulacaqdır,
Ayaqlar altından qazılacaqdır,
Ləyaqətə bu hörmətki bizdə var.

Nə Kərəm olacaq, nə Əsli belə,
Nə Məcnun, nə Fərhad, nə Leyli belə,
Nə eşqi-həvəsi, nə meyli belə,
Bu istəkki, məhəbbətki bizdə var.

Bu vərdişlə gedənmərik uzağa,
Düçar olluq qasırğaya, sazağa,
Rəhm edilməz məzlumlara, yazığa,
Bədxah niyyət, xasiyətki bizdə var.

Yerimizdə təpik vurub sayarıq,
Çoxlarını ağlar gözlü qoyarıq,
Lovğalığa, dambatlığa uyarıq,
Bu cəsarət, bu cürətki bizdə var.

Nəqədər qazansaq yetəsi deyil,
Becərib bəsləsək bitəsi deyil,
Bəs edib hamıya çatası deyil,
Bu dəbdəbə, bu zinət ki, bizdə var.

Oxu bu sözləri olma bixəbər,
Keçirmə günləri karsız, bisəmər,
Kim səni tanıyar ay Cəmil Əkbər?
Bu nəzər ki, bu diqqət ki, bizdə var.

***Cəmil Əkbər*** 15-30 / 06 -1992

## 255. BİZDƏ VAR

*II variant*

Hələ çox çəkəcək bu qovğa-qallar,
Bu nadanlıq, cəhalətki bizdə var.
Bu sərsəm fikirlər, bu kəc xəyallar,
Bu nöqsanlar, qəbahət ki bizdə var.

Kəsilən deyildir dava-dalaşlar,
Səksəkə, həyəcan, qorxu təlaşlar,
Fillərə hürürsə bu alabaşlar,
Bu ənənə, bu adət ki bizdə var.

Hələ çox çəkəcək saxta ədalar,
Ağrıdacaq baş-beyini gədalar,
Bizi dəng edəcək xaric sədalar,
Bu paxıllıq, xəyanət ki, bizdə var.

Hələ çox çəkəcək bu didişmələr,
Vurhavur, qırhaqır, bu çəkişmələr,
O yana, bu yana bu gedişmələr,
Bu tinyətki, bu niyyət ki, bizdə var.

Hələ çox saralıb-solan olacaq,
Fikirə-xəyala dolan olacaq,
Gözləri yollarda qalan olacaq,
Bu bacarıq, məharət ki, bizdə var.

Hələ çox qəflətdə yatan olacaq,
Vicdanı-məsləki satan olacaq,
Üfunət gölünə batan olacaq,
Kin-küdurət, ədavət ki, bizdə var.

Hələ çox ağaran başlar olacaq,
Tutulub-çatılan qaşlar olacaq,
Gödəlib, kəsilən yaşlar olacaq,
Giley-güzar şikayətki bizdə var.

Hələ çox zirvədən enən olacaq,
Qaralıb, qarsıxıb sönən olacaq,
Haqqın divanında dinən olacaq,
Beylə ədəb, nəzakətki bizdə var.

Nəqədər çalışsaq bay olanmarıq,
Qaranlıq səmada ay olanmarıq,
Toplaşıb biryerə çay olanmarıq,
Bu məxluqat, cəmiyyət ki, bizdə var.

Hələ kamalımız yetişə bilməz,
Məslək-amalımız yetişə bilməz,
Cəmi mahalımız yetişə bilməz,
Beylə təlim, qiraət ki, bizdə var.

***Cəmil Əkbər*** 6. 01 – 1995

## 256. SƏNDƏ DƏ VAR, MƏNDƏDƏ VAR

Eybəcərlik, çirkinlik də,
Səndədə var, məndədə var.
Yerli-yersiz nikbinlik də,
Səndə də var, məndədə var.

Qarov olub görməyən göz,
Möhübləri hörməyən söz,
Biri əyri, birisi düz,
Səndə də var, məndədə var.

Oğruluq da, əyrilik də,
Ögeylik də, qeyrilik də,
Avamlıq da, gerilik də,
Səndə də var, məndə də var.

Laqeyidlik, biganəlik,
Sərsərilik, divanəlik,
Xudpəsəndlik, yeganəlik,
Səndə də var, məndə də var.

Xainlik də, xəbislik də,
Nanəciblik, naqislik də,
Acgözlük də, hərislik də,
Səndə də var, məndə də var.

Dağıdaraq sökən əllər,
Zəhlələri tökən əllər,
Burun-damaq, acı dillər,
Səndə də var, məndə də var.

Gəl qardaşım yarışmayaq,
Tez-tez küsüb, barışmayaq,
Dava salıb vuruşmayaq,
Səndə də var, məndədə var.

Kin-küdurət, ədavət də,
Nadanlıq da, cəhalət də,
Addımbaşı qəbahət də,
Səndə də var, məndə də var.

Ona-buna böhtan demək,
İblis-əqrəb şeytan demək,
Həcv yazmaq, dastan demək,
Səndə də var, məndə də var.

Xalqı soyub vara çatmaq,
Haya qalmaq, dara çatmaq,
Qızılgültək xara çatmaq,
Səndə də var, məndə də var.

Vuran-tutan, qıran əllər,
Qəlbə dəyən acı dillər,
Hiylə-kələk, fitnə-fellər,
Səndə də var, məndə də var.

Yaxşı-yaman, pis qonşular,
Xain-xəbis, nəs qonşular,
Höcət, inad, tərs qonşular,
Səndə də var, məndə də var.

Gözgörəti yolu azmaq,
Ona-buna böhtan yazmaq,
Ünsiyyət-ülfəti pozmaq,
Səndə də var, məndə də var.

Çəp oturub, düz danışaq,
Ruha yatan söz danışaq,
Çox işləyək, az danışaq,
Səndə də var, məndə də var.

***Cəmil Əkbər*** 24. 05 – 1993

## 257. TƏKLƏDİ MƏNİ

İstədim ki, mərdlik edəm,
Namərdlər təklədi məni.
Dərk eyləyib qanan olum,
Nadanlar təklədi məni.

Alim olam, loğman olam,
Naşılar təklədi məni.
El dərdinə yanan olam,
Höyüşlər təklədi məni.

İstədimki yol göstərim,
Nabələd təklədi məni.
Qəlbə yatan gözəl olum,
Çirkinlər təklədi məni.

İstədimki sadə olam,
Xudbinlər təklədi məni.
Abırlı-həyalı olum,
Həyasız təklədi məni.

İstədimki nikbin olum,
Bədbinlər təklədi məni.
Bağçalarda bülbül olum,
Bayquşlar təklədi məni.

İstədimki tərlan olum,
Sar quşlar təklədi məni.
Ər oğlu ər, kişi olum,
Gədələr təklədi məni.

İstədimki səxam olsun,
Xəbislər təklədi məni.
İlqar, iman, vəfam olsun,
Qanmazlar təklədi məni.

İstədimki eldə qalam,
Əzrail təklədi məni.
Qələbə marşını çalam,
Məzara əklədi məni.

***Cəmil Əkbər*** 4.01-1983

## 258. MƏNİM

Hiyləgər, dələduz bic dünyasında,
Mat qalıb dərrakəm, kamalım mənim
İlqara, imana kəc dünyasında,
Acizdir əqidəm, amalım mənim.

Tamahkar, hərislər o qədədiki,
Xainlər, xəbislər o qədədiki,
Nanəcib, naqislər o qədədi ki,
Yerbəyer çaşıbdı xəyalım mənim.

Sorağı gəlməyir ər kişilərin,
İgid kişilərin, nər kişilərin,
İxtiyar, ağsaqqal, pir kişilərin,
Nəyaman cırlaşıb mahalım mənim?

Pirani, nurani çaşarsa əgər,
Hüdudu, həddini aşarsa əgər,
Qaynayıb, qıcqırıb daşarsa əgər,
Neyləsin tifilim, cahalım mənim?

Gədə-güdələrə söz demək olmur,
Açıb ürəyini düz demək olmur,
Məqamı gələndə tez demək olmur,
İncidir qəlbimi kahalım mənim.

Oqədər çoxalıb söz qanmayanlar,
Mənanı, mətləbi düz qanmayanlar,
İşarə anlayıb göz qanmayanlar,
Artıb dərdi-qəmim, məlalım mənim.

Səmimiyyət, xətir hörmət azalıb,
Sədaqət, səxavət, mürvət azalıb,
Şan-şərəf tükənib, şöhrət azalıb,
Sayılıb seçilmir  ahalım mənim.

Qalmışam haçandan nadan əlində,
Haqqısay sümürüb udan əlində,
Təlimdən yarımçıq dadan əlində,
Düzəlmir ovqatım, əhvalım mənim.

Cana doydum həyasızlar əlində,
Dolaşmışam fitnəsində, felində,
Cəmil gözəllikdi ərəb dilində,
Niyə xoş gəlməyir camalım mənim?

***Cəmil Əkbər*** 4. 09 - 1990

## 259. MƏNİM

Çalışanlar azdır, yeyənlər çoxdur,
Odur ki, qəhətdir sərvətim mənim.
Düzəldənlər azdır, əyənlər çoxdur,
Çatmayır qüvvətim, qüdrətim mənim.

Birisi toxuyur, yüz beşi geyir,
Biri məğdur olur, yüz beşi döyür,
Biri təhqir edir, min beşi söyür,
Neyləsin nicatım, nüsrətim mənim?

Gözləməkdən gözlərimiz yoruldu,
Danışmaqdan sözlərimiz yoruldu,
Qızarmaqdan üzlərimiz yoruldu,
Azalıb, qalmayır ismətim mənim.

İnsanoğlu birbirinə qəsd edir,
Yeməmişdən, içməmişdən məsd edir,
Üstünü alt, altı isə üst edir,
Tükənir insafım, mürvətim mənim.

Zalımlıqla, bədxahlıqla aram yox,
Sərsəmliklə, axmaqlıqla aram yox,
Nə yandırıb, nə yaxarmaqla aram yox,
Yol vermir namusum, qeyrətim mənim.

İnsanlarda pis niyyəti gördükcə,
Bəd fikiri, nəs adəti gördükcə,
Ləyaqətə pis qiyməti gördükcə,
Çoxalır qəlbimdə heyrətim mənim.

Mənə yolgöstərən kamalımdır bil,
Düşüncəm, dərrakəm, amalımdır bil,
Mənəvi varlığım, camalımdır bil,
Odur bu dünyada şöhrətim mənim.

Nadanlar əlində qalsada bəşər,
Saralıb gül kimi, solsada bəşər,
Nəqədər boşalıb, dolsada bəşər,
Baqidir qəlbimdə küdrətim mənim.

Nəqədər mövcuddur ara vuranlar?
Sağlam bədənlərə yara vuranlar?
Tərtəmiz vicdana qara vuranlar?
Azalmır nifrətim, hiddətim mənim.

Anadan olandan belə doğuldum,
Vicdana, məsləkə kölə doğuldum,
Məzluma, fəqirə lələ doğuldum,
Əzəldən pak olub niyyətim mənim.

Birkimsənin var-halında gözüm yox,
Dövlətində, nə malında gözüm yox,
Yanağında, camalında gözüm yox,
Haqq versin qüdrətdən qismətim mənim.

Ara vurub, ev yıxmağı sevmədim,
Qan qaraldıb, qəlb sıxmağı sevmədim,
Ona-buna kəc baxmağı sevmədim,
Halal, tərtəmizdi xislətim mənim.

Heçkimsənin mən xətirinə, dəymirəm,
Nə yolumu, nə izimi əymirəm,
Nə oğlumu, nə qızımı öymürəm,
Onlardı qüdrətim, qüvvətim mənim.

Nəqədərki, haqq-ədalət yolumdur,
İlqar-iman ol sədaqət yolumdur,
Doğru-düzlük ya həqiqət yolumdur,
Tükənməz cəsarət, cürətim mənim.

Nəqədər yaratsam, nəqədər qursam?
Nəqədər yaşasam, nəqədər dursam?
Ömrümü şərəflə mən başa vursam,
Çatmayır zəhmətim, xidmətim mənim.

Mənə zəfərləri çaldıran odur,
Yerlərdən göylərə qaldıran odur,
Finişdə nəmərlər aldıran odur,
Vicdandı, məsləkdi surətim mənim.

***Cəmil Əkbər*** 9. 03 – 1987

## 260. MƏNİM

Məhəbbətdən qoyulubdur təməlim,
Söküb dağıtmayın, himimi mənim.
Səadətə güzar edir yelkənim,
Vurub batırmayın, gəmimi mənim.

Haçandır pəsdəyəm, zil ötənmirəm,
Darçıntək bəslənib, hil ötənmirəm,
Oxu bu naməmi, bil ötənmirəm,
Görən kim kökləyib, bəmimi mənim?

İstərdim xoş keçən günüm çoxalsın,
Səksənə, doxsana sinnim[26] çoxalsın,
Yayılsın həryana, ünüm çoxalsın,
Sütülkən yeməyin dənimi mənim.

Çalışım tər töküm, nemət çoxalsın,
Var-dövlət çoxalsın, sərvət çoxalsın,
Halaldan kəsb olan qismət çoxalsın,
Dolular döyməsin zəmimi mənim.

İncidib küsdürmə, könlünü alın,
Dərdimə acıyın, halıma qalın,
Əvvəli-axırı yadına salın,
Artırma dərdimi, qəmimi mənim.

Ünsiyyəti, ülfətləri pozmayın,
Ədaləti tərsəməssəb yozmayın,
Ona-buna dərin quyu qazmayın,
Dağ-daşa salmayın, yönümü mənim.

Məni mehvərimdən aralamayın,
Vurub hər yerimdən yaralamayın,
Yüz yerə ayırıb, paralamayın,
Zülmətə döndərmə günümü mənim.

Ləyaqət əhlinə pisdi deməyin,
Qızıla, gümüşə misdi deməyin,
Mehriban insana, tərsdi deməyin,
Pozmayın nəşəmi, dəmimi mənim.

[26] Sinnim - yaşım

“Cəngi Koroğlu”ya, zilə kökləyin,
Mizana gətirin, elə kökləyin,
Çəmənə, çiçəyə, gülə kökləyin,
Könül rübabımın, simini mənim.

İstərdim həryanda ədalət olsun,
Doğruluq, düzgünlük, həqiqət olsun,
Ünsiyyət-ülfətdə sədaqət olsun,
Amandır azaldın kinimi mənim.

Könül bir şüşədir, qıran olmasın,
Qəsdi-qərəzimdə duran olmasın,
Sinəyə dağ-düyün, vuran olmasın,
Başımdan dağıdın çənimi mənim.

Nəyim var, nəyim yox, düzünü deyin,
Düşünüb, anlasın, dərk etsin beyin,
Açılsın qaşqabaq, açılsın eyin,
Görün mətahını sinəmi mənim.

Zirvədən aşağı enib getməyək,
İlqardan, imandan dönüb getməyək,
Alışıb yanmamış, sönüb getməyək,
Pozmayın şövkəti-şanımı mənim.

Olanlar, qalanlar yaddan çıxmasın,
Damaqdan düşməsin, daddan çıxmasın,
Şərəfli-şöhrətli addan çıxmasın,
Saxlayın adımı, sanımı mənim.

Əlimdən ixtiyar, iqtidar gedir,
Əyilib qamətim, şahvüqar gedir,
Qalmayır bədəndə, nəkivar gedir,
Almayın biryolluq canımı mənim.

Aralığa siz salmayın davanı,
Zəhərləyib korlamayın havanı,
Çox mənəm deyənlər, söyləyin hanı?
Az çəkin damardan, qanımı mənim.

Zəmanə hökmedir, qocaldır məni,
Günbəgün əridib, sozaldır məni,
Çəkir ayağımdan, azaldır məni,
Qaytarın cavanlıq camımı mənim.

Səhər az yesəm də zərəri yoxdur,
Heçkəsə qüssəsi, qəhəri yoxdur,
Ağrısı, acısı, zəhəri yoxdur,
Kəsməyin günorta "yemimi" mənim.

Qoymayın Cəmili sozalıb getsin,
Ayrılıb qatardan üzülüb getsin,
Silinsin yaddaşdan, biryolluq getsin,
Verməyin fürsəti, çəmimi mənim.

***Cəmil Əkbər*** 18. 07 - 1996

## 261. MƏNİM

Nəqədər desəm də, danışsam da mən,
Baxan yox Cavanşir, sözümə mənim.
Nəqədər xeyirə qarışsam da mən,
Qiymət yox yoluma, izimə mənim.

Toxunub qəlbimi qıran az deyil,
Sinəmə dağ-düyün vuran az deyil,
İncidib, bezdirib, yoran az deyil,
Xəyanət edirlər özümə mənim.

Cahil, sərsəlilər, nadan gədələr,
Yolunu tərsinə adan gədələr,
Təlimdən yarımçıq dadan gədələr,
Suyu calayırlar gözümə mənim.

Nəqədər danışıb, düz də söyləsəm,
Salaraq yolları, iz də söyləsəm,
Məqamı gəldikcə tez də söyləsəm,
Baxan yox, gülən yox üzümə mənim.

Altunum, daş-qaşım, param az deyə,
Namərdlə, nakəslə aram az deyə,
Sağalmaz dərdinə çaram az deyə,
Məhəl yox doxsana, yüzümə mənim.

Nanəcib, naqislər oqədər artıb,
Xainlər, xəbislər oqədər artıb,
Naxələf varislər oqədər artıb,
Vururlar, döyürlər dizimə mənim.

Mən Cəmil Əkbərəm, qocaldım getdim,
İnlədim, sızladım, sozaldım getdim,
İtirdim qüvvəmi azaldım getdim,
Görünmür bu dünya gözümə mənim.

***Cəmil Əkbər*** 25. 04 – 1994

## 262. SIRIDIN MƏNƏ

İlahi bu nə dərddi, necə azardı?
Onu özgəyə yox, sırıdın mənə.
Necə etibardı, nə behbazardı?
Onu özgəyə yox, sırıdın mənə.

Necə qəm-qüssədir, necə kədərdir?
Necə zəqqutundur, necə zəhərdir?
Necə mədəniyyət, necə şəhərdir?
Onu özgəyə yox, sırıdın mənə.

Necə sevgilidir, o necə yardır?
Dünyanı eyləyib başıma, dardır?
Eşitmir, eləbil qulağı kardır,
Onu özgəyə yox, sırıdın mənə.

Nə yoldaş pəsinir, nə yar anlayır,
Nə sazı dərk edir, nə tar anlayır,
Nə qaşqabaq qanır, nə zar anlayır,
Onu özgəyə yox, sırıdın mənə.

Nə insaf, nə mürvət, kəramət qanır,
Nə isti, nə soyuq, hərarət qanır,
Nə el-oba qanır, cəmaət qanır,
Onu özgəyə yox, sırıdın mənə.

İlahi nə deyim, sən verən paya?
Ömür-gün çürüdü, qalmışam vaya,
Məni tuş eylədin bu ağlı zaya,
Onu özgəyə yox, sırıdın mənə.

Bir anın içində yumdun gözümü,
Bağladın nitqimi, kəsdin sözümü,
Dərk edə bilmədim özüm-özümü,
Onu özgəyə yox, sırıdın mənə.

Nə imiş görəsən günahım mənim?
Düriykən şor oldu mətahım mənim,
Çatırmı yanına de ahım mənim?
Onu özgəyə yox, sırıdın mənə.

***Cəmil Əkbər*** 14. 05 – 1997

## 263. O MƏNƏM

Dünyada nəqədər həsrətli olsa,
Gözü yolda qalan varsa, o mənəm.
Eşqin atəşində qalanmış olsa,
Közü yolda qalan varsa, o mənəm.

Yazılmamış əsərlərim oqədər,
Verilməmiş səmərlərim oqədər,
Alınmamış nəmərlərim oqədər,
Sözü yolda qalan varsa, o mənəm.

Qınayan yox qəddarları, zalımı,
Vurub tökdü dəymişimi, kalımı,
Soruşan yox, bir bilən yox halımı,
Nazı yolda qalan varsa, o mənəm.

Ayaq açıb dördbiryana yalanlar,
Başımıza oyun açır kalanlar,
İnildəyir bulud kimi dolanlar,
Düzü yolda qalan varsa, o mənəm.

İbtidadan susdurublar dilimi,
Soldurublar çəmənimi, gülümü,
Yandırdılar, sovurdular külümü,
Tozu yolda qalan varsa, o mənəm.

Çox qaçmışam ədalətin dalınca,
Doğruluğun, həqiqətin dalınca,
İnsanlığın, ləyaqətin dalınca,
İzi yolda qalan varsa, o mənəm.

Kara çatan nə dayım var, nə əmim,
Nə dostum var, nə yoldaşım, həmdəmim,
Dəryalardaləngər vurur yelkənim,
Özü yolda qalan varsa, o mənəm.

Ay Cəmil, düşünən baş mənimkidir,
Xəyal mənimkidir, huş mənimkidir,
Boranı kəsməyən qış mənimkidir,
Yazı yolda qalan varsa, o mənəm.

***Cəmil Əkbər*** 24. 08 – 1988

## 264. ÇAŞBAŞ SALDI MƏNİ DƏ

Əzəldən bilməzdim lovğalıq nədir?
Ədəbazlar çaşbaş saldı mənidə.
Duymazdım, bilməzdim darğalıq nədir?
Hoqqabazlar çaşbaş saldı mənidə.

Tanıyıb bilməzdim yaltaqlığı mən,
Hərzəkar, həyasız, sırtıqlığı mən,
Xudpəsənd, kin, acıq, şıltaqlığı mən,
İsmətsizlər çaşbaş saldı məni də.

Bilməzdim sərsəri, divanəliyi,
Laqeyid olmağı, biganəliyi,
Həryanan şamlara pərvanəliyi,
Mürvətsizlər çaşbaş saldı məni də.

Bilməzdim ürəyi daş olmağı mən,
Fikiri, xəyalı çaş olmağı mən,
Qanmaya-qanmaya baş olmağı mən,
Müqəvvalar çaşbaş saldı məni də.

Bilməzdim ürəyi soyuq olmağı,
Bir quru qaraltı oyuq olmağı,
Yassarlıq etməyi, toyuq olmağı,
Biganələr çaşbaş saldı məni də.

Bilməzdim qisası, kini-küdrəti,
Təmənna, qərəzi, nə də hiddəti,
Gözlərdim ədəbi, mədəniyyəti,
Divanələr çaşbaş saldı məni də.

Bilməzdim bədxahlıq, pisliyi əsla,
Xainlik, xəbislik, nəsliyi əsla,
İnadlıq, höcətlik, tərsliyi əsla,
Bədniyyətlər çaşbaş saldı məni də.

İstəməzdim bir insana şər deyim,
Köhləninə uzunqulaq, xər deyim,
Tərlanına şahin-şonqar sar deyim,
Şərxətalar çaşbaş saldı məni də.

İstəməzdim bir insanı ağlasın,
Dərd-qəm çəkib sinəsini dağlasın,
Matəm tutub başa qara bağlasın,
Daşürəklər çaşbaş saldı məni də.

Həyat gör-götürdür atalar deyib,
Görüb götürməyən hədərə gedib,
Büküb vüqarını, qəddini əyib,
Müqəvvalar çaşbaş saldı məni də.

Kamil dərs almışam öz ustadımdan,
Fərq qoymadım qohumumdan, yadımdan,
O səbəbdən çıxmamışam yolumdan,
Nalbəndoğlu çaşbaş saldı məni də.

Cəmiləm, hərkəslə tay olmamışam,
Ah-nalə törədib, bay olmamışam,
Pozulub biryolluq zay olmamışam,
Həngamələr çaşbaş saldı məni də.

***Cəmil Əkbər***

## 265. DEMƏ MƏNİMDİR

Dövranı xoş görüb azma yolunu,
Demə dağ da mənim, daş da mənimdir.
Xalqı soyub çox artırma pulunu,
Deməki şirin də, turş da mənimdir.

Dövranı-fəsilin yayına uyma,
Arxanda dayanan dayına uyma,
Sovqatına uyma, payına uyma,
Demə yaz da mənim, qış da mənimdir.

Deməki hamıdan kamallı mənəm,
Məsləkli, vicdanlı, amallı mənəm,
Çəkidə, ağırda samballı mənəm,
İdraklı, bilikli baş da mənimdir.

Deməki hamıdan düz görən mənəm,
Uzağı, yaxını tez görən mənəm,
Cığırlar, keçidlər iz görən mənəm,
Ən iti xəyal da, huş da mənimdir.

Özünü hamıdan qüdrətli sanma,
Şərafətli sanma, şöhrətli sanma,
Cəsarətli sanma, cürətli sanma,
Demə zor da mənim, xoş da mənimdir.

Deməki aşiqəm tər buxaqlara,
Lalətək qızaran gül yanaqlara,
Məclislər başında kef yığnaqlara,
Demə göz də mənim, qaş da mənimdir.

Tamahdan əl çəkib doysan yaxşıdır,
Həyatda bir adsan qoysan yaxşıdır,
Hörmətə-izzətə uysan yaxşıdır,
Demə ləl də mənim, daş da mənimdir.

Düşərsən qarğışa, aha yazıqsan,
Satma mətahını baha yazıqsan,
Nə yazım qanasan, daha yazıqsan,
Demə cızbız mənim, xaş da mənimdir.

Buqədər var-hala hərislik etmə,
Paxıllıq, xainlik, xəbislik etmə,
Höcətlik, inadlıq nə tərslik etmə,
Demə begomont da, quş da mənimdir.

Nə olsun hamıdan varlı da olsan,
Qohuma, qardaşa, karlı da olsan,
Daş-qaşa bələnən yarlı da olsan,
Demə cəmdək, cəsəd, leş də mənimdir.

Sanmaki, qolçomaq, mülkədar sənsən,
Milyoner Tağıyev, xəznədar sənsən,
Hamıdan cüvəllaq sənətkar sənsən,
Demə kotan, dırmıq, xış da mənimdir.

Atanda bəllidir, anan da bəlli,
Nənən də bəllidir, baban da bəlli,
Yurdun da bəllidir, oban da bəlli,
Demə köhlən mənim, hoş da mənimdir.

***Cəmil Əkbər*** 24. 09 – 1987

## 266. MƏNİMCƏ

Hərbirkəsi ləyaqətə çatdıran,
Əzəl gündən məhəbbətdi mənimcə.
Möhnətin yükünü üstdən atdıran,
Sədaqətdi, səxavətdi mənimcə.

Ünsiyyətin, ülfətlərin əsası,
Dağılmayan, sarsılmayan binası,
Açıq deyim, aydın deyim qısası,
Ədalətdi, həqiqətdi mənimcə.

Dünyanın ən gözəl dövləti, varı,
İnsanın dar gündə yoldaşı, yarı,
Eşidib bilənlər görməsin karı,
Xeyirxahlıq, fəzilətdi mənimcə.

İnsanam deyəni hörmətli edən,
Kəramətli edən, mürvətli edən,
Şərafətli edən, şöhrətli edən,
Saf arzudu, pak niyyətdi mənimcə.

Qəddar, zalım, pisgünlərin baisi,
Bədxahlığın, nəsgünlərin baisi,
Höcət, inad, tərsgünlərin baisi,
Nadanlıqdı, cəhalətdi mənimcə.

İnsanları xəyallara daldıran,
Alınmayan qalaları aldıran,
Hünər meydanında zəfər çaldıran,
Əsl, kökdü, nəcabətdi mənimcə.

Evlər yıxıb, qapıları bağlayan,
Qan qaraldıb, sinələri dağlayan,
Üzə gülüb, məlhəm edib yağlayan,
Paxıllıqdı, xəyanətdi mənimcə.

Mövcud olan xəbisliyin əsası,
Əksikliyin, naqisliyin əsası,
Acgözlüyün, hərisliyin əsası,
Kin-küdurət, ədavətdi mənimcə.

Qoy dolmasın səbirlərin kasası,
Çox demirəm oxu, öyrən qısası,
Cəmil Əkbər ünsiyyətin əsası,
Ədəb-ərkan, nəzakətdi mənimcə.

***Cəmil Əkbər*** 4. 02 – 1993

## 267. SUSURAM MƏN DƏ

İlahi susmasın qoy ilham pərim,
İlhamsız, həvəssiz susuram mən də.
Onsuz nəyə lazım qələm dəftərim?
İlhamım susanda susuram mən də.

Onsuz bir qanadsız quşa bənzərəm,
Qədirsiz, qiymətsiz daşa bənzərəm,
Fikiri, xəyalı çaşa bənzərəm,
İlhamım susanda susuram mən də.

İlhamsız nəşə də, kef də əbəsdir,
Qazanc da, gəlir də, nəf də əbəsdir,
Zurna da, qaval da, dəf də əbəsdir,
İlhamım susanda susuram mən də.

Odur bu dünyada şən edən məni,
Xətadan-bəladan gen edən məni,
Tanıdıb həryanda mən edən məni,
İlhamım susanda  susuram mən də.

Onsuz bilinərmi hünərim mənim?
Qələbəm, təntənəm, zəfərim mənim.
Uğurlu sabahım səhərim mənim,
İlhamım susanda susuram mən də.

Onsuz bilinməyir gücüm, qüdrətim,
Fəhmim-fərasətim, nədə cürətim,
Dövrü-zəmanədə hanı sürətim?
İlhamım susanda susuram mən də.

Eşqimdi, andımdı, həvəsimdi o,
Canım-ciyərimdi, nəfəsimdi o,
Öz sözüm-söhbətim, öz səsimdi o,
İlhamım susanda susuram mən də.

Odur varlığıma qanad verən də,
İşə nicat verən, nüsrət verən də,
Yazıb-yaratmağa inad verən də,
İlhamım susanda susuram mən də.

Cəmilə dünyanı sezdirən odur,
Dağları-daşları gəzdirən odur,
Çətində, asanda dözdürən odur,
İlhamım susanda susuram mən də.

***Cəmil Əkbər*** 15. 05 – 1993

## 268. EŞİT MƏNİ

Həyatda olmaynan nabələd, naşı,
Oxuyub, öyrənib bil, eşit məni.
Ağladıb, sızladıb tökmə gözyaşı,
Axan gözyaşını sil, eşit məni.

Bağında bitməsin Qaratikanlar,
Gülüb lağ etməsin yolnan ötənlər,
Becərilib, bəslənməmiş bitənlər,
Bəsləyib yetişdir gül, eşit məni.

Yetişmiş meyvənin tamı gözəldir,
Şərbəti şirindir, camı gözəldir,
Süfrəsi genişdir, nanı gözəldir,
Qalmaynan həyatda kal, eşit məni.

Düz vursun ürəyin, işləsin beyin,
Şən olsun əhvalın, açılsın eyin,
Halal zəhmət ilə nə olsa geyin,
Axtarma zəhmətsiz şal, eşit məni.

Didməsin qəlbini şeytanlar sənin,
Fitnələr, fəsadlar, böhtanlar sənin,
Qəflət yuxusunda yatanlar sənin,
Könlün götürməsin lil, eşit məni.

Aldanıb nəfsinə, tamaha uyma,
Xalqın dərisini qoyuntək soyma,
İnsanları sən mal yerinə qoyma,
Utanıb, qızarıb öl, eşit məni.

İtirib ağlını olma divanə,
Ellərin şəninə qalma biganə,
Getməyə doğru yol budur yeganə,
Onun qayğısına qal, eşit məni.

Yaxşını yamandan seçmək gərəkdir,
Mərifət şərbətin içmək gərəkdir,
Dünyadan şərəflə köçmək gərəkdir,
Qalmaynan həyatda mal, eşit məni.

Birkimsəyə vermə, zülmü, qəhəri,
Nə axşam, günorta, nə də səhəri,
Tökməynən dilindən ağı, zəhəri,
Olsun dəhanında bal, eşit məni.

İnsaflı, mürvətli, kəramətli ol,
İşində, gücündə ədalətli ol,
Sağlam düşüncəli saf niyyətli ol,
Budur gedəcəyin yol eşit məni.

Hakim et qəlbində insaf mürvəti,
Salma ayaq altda ol ləyaqəti.
Unutma xətiri, hörməti qəti,
Xatırla, yadına sal, eşit məni.

Yetirmə meylini hərdəmxəyala,
Başını salmamış o qilüqala,
Kim bilir küsdürüb, qəlbini ala,
Çevirmə nə arxa, dal, eşit məni.

Çalış bu həyatda qüssə, qəm yemə,
Zilə meyil göstər, pəsdə bəm yemə,
Dünya nemətindən qazan, kəm yemə,
Qürurla yaşayıb gül, eşit məni.

Cəmiləm yayıram xoş avazımı,
Zimistan sanmayın bahar, yazımı,
Baş pərdə üstündə köklə sazımı,
“Kərəmi”, “Dilqəmi” çal, eşit məni.

***Cəmil Əkbər***

## 269. BASIRIN MƏNİ

Dünyamdan ayrılıb köçəsi olsam,
Söz ilə, saz ilə basırın məni.
Əcəl şərbətini içəsi olsam,
Qışda yox, yaz ilə basırın məni.

Gəlsin matəmimdə dostlar ağlasın,
İstəyib bilənlər qara bağlasın,
Dərd-qəm çəkib az sinəsin dağlasın,
Ərk ilə, naz ilə basırın məni.

Çalınsın, oxunsun el bayatısı,
Ağılar, acılar, dil bayatısı,
Qalsın ürəklərdə il bayatısı,
Xoş arzu-murazla basırın məni.

İnləsin üstümdə “Yanıq Kərəmi”,
Hicranı köküncə nakam “Dilqəmi”,
Vurub qanatsada dərdli sinəmi,
Bu qəmli avazla basırın məni.

Çatsın harayıma dostlar, tanışlar,
Yerdəki insanlar, göydəki quşlar,
Didməsin qəlbləri qəmli baxışlar,
Çox ilə, az ilə basırın məni.

Gedəni əyləmək, saxlamaq olmaz,
Kəsib qabağını yoxlamaq olmaz,
Əlindən gül alıb qoxlamaq olmaz,
Oğulla, qız ilə basırın məni.

Demirəm, öləndə tülə bürüyün,
İnciyə qərq edin, lələ bürüyün,
Zərli qumaşlara, pilə bürüyün,
Qədəklə, bez ilə basırın məni.

Yanıb-yaxılmayın, qardaş amandır,
Ay cavan, ay qoca, çağdaş amandır,
Ay həmkar, ay həmdəm, yoldaş amandır,
Səbrlə, döz ilə basırın məni.

Dünya çox şirindir qalmaq istərəm,
Şirin xəyallara dalmaq istərəm,
Hələ çox zəfərlər çalmaq istərəm,
Doxsanla, yüz ilə basırın məni.

Xətirin saxlayın Cəmil Əkbərin,
Baxın xidmətinə, deyin afərin,
Axtarın, soruşun, bilin xəbərin,
Dad ilə duz ilə basırın məni.

***Cəmil Əkbər*** 8. 11 – 1989

## 270. ZAMANIM MƏNİM

*I variant*

Həryana baxırsan alıb-satandır,
Daş-baş zamanıdır, zamanım mənim.
Şər-böhtan danışıb, ara qatanlar,
Zor-xoş zamanıdır, zamanım mənim.

Oğrular, əyrilər ələlə verib,
Sözləri-sözlərə, dildilə verib,
Salaraq aləmə vəlvələ verib,
Göz-qaş zamanıdır, zamanım mənim.

Hamı cəhd eyləyir vara çatmağa,
Taytuşa, yoldaşa, yara çatmağa,
Özü də bilməyir hara çatmağa?
Daş-qaş zamanıdır, zamanım mənim.

Bəşərin kələfi dolaşıb yaman,
Ağı-qarasına bulaşıb yaman,
Ünsiyyət-ülfətlər cırlaşıb yaman,
Çaşbaş zamanıdır, zamanım mənim.

Deyib-danışmaqla qanan kimdiki?
Xətiri-hörməti anan kimdiki?
Namərdi biryolluq danan kimdiki?
Hoş-hoş zamanıdır, zamanım mənim.

Haçandan bəridir ayılmayan var,
Tanınıb, seçilib sayılmayan var,
Şərəfi-şöhrəti yayılmayan var,
Sərxoş zamanıdır, zamanım mənim.

Cəmil Əkbər içməmişdən məsd olub,
Ülfət edib hər yetənlə dost olub,
Sanmayınki el-obaya qəsd olub,
Meyxoş zamanıdır, zamanım mənim.

***Cəmil Əkbər*** 1993

## 271. ZAMANIM MƏNİM

*II variant*

İlqar-iman pozulduqca arada,
Dilxor zamanıdır, zamanım mənim.
Haqq-ədalət yozulduqca arada,
Nankor zamanıdır, zamanım mənim.

Ayaq olan baş olanı görəndə,
Düşüncəsi çaş olanı görəndə,
Ürəkləri daş olanı görəndə,
Dılğır zamanıdır, zamanım mənim.

Əl-ayaqda sıxılırlar doğrular,
Yeyib-içib dövran edir oğrular,
Haqsızlıqdan söz açanı boğrular,
Cibgir zamanıdır, zamanım mənim.

Gədə-güdə iş görmürlər çarəsiz,
Can yandırıb, əl tutan yox əvəzsiz,
Ülfət yoxdur təmənnasız, qərəzsiz,
Pulgir zamanıdır, zamanım mənim.

İstəsən çatasan bir vəzifəyə,
Kiçik mövqeyindən ali rütbəyə,
İnanma, aldanma heçbir kimsəyə,
Gəl-gör zamanıdır, zamanım mənim.

Xainlər, xəbislər verib əl-ələ,
Qoymayır insanlıq əmələ gələ,
Salırlar dünyaya yaman vəlvələ,
Fəndgir zamanıdır, zamanım mənim.

***Cəmil Əkbər***

## 272. GÖYNƏDƏN MƏNİ

*Şairə Qənirə Mehdixanlıya nəzirə*

Baxdıqca insanın bədəməlinə,
Cahildi, nadandı göynədən məni.
Bədəsil, bədnəsil, bəd təməlinə,
Haqqısay udandı, göynədən məni.

Tutulan qabaqdır, çatılan qaşdır,
İnləyən ürəkdir, ağrıyan başdır,
Gödələn ömürdür, kəsilən yaşdır,
Ağrıdan, incidən, göynədən məni.

Müsibət içində solan yanaqdır,
Qaralıb buludtək dolan yanaqdır,
Əlacsız, çarəsiz qalan yanaqdır,
İnlədib, sızladıb, göynədən məni.

Nanəcib, naqisin qəbahətidir,
Kini-küdurəti, ədavətidir,
Hər addımbaşında xəyanətidir,
Qəlbimi ağrıdan, göynədən məni.

Dünyada törənən davadır bilin,
Zəhərə qarışan havadır bilin,
Sərsəri, gicbəsər, yavadır bilin,
İncidib, bezdirən, göynədən məni.

İlqarından, imanından dönəndir,
Mövqeyindən aşağıya enəndir,
Yerli-yersiz çərənləyib dinəndir,
Yarama duz basan, göynədən məni.

Hiyləgər, dələduz, bicoğlu-bicdir,
Haqqa-ədalətə kəcoğlu-kəcdir,
Qanuna, qaydaya öcoğlu-öcdür,
Qəlbə toxunandır, göynədən məni.

***Cəmil Əkbər*** 2. 05 – 1997

## 273. MƏNİ YAMAN İNCİDİRLƏR

Məni yaman incidirlər,
Əqrəb kimi çalanlar,
İlan kimi vuranlar.

Məni yaman incidirlər,
Hiyləgərlər, yaltaqlar,
Gicbəsərlər, sarsaqlar,
Arsız, karsız biveclər,
Ağılsızlar, həm giclər.

Məni yaman incidirlər,
Qazanmayıb udanlar,
Verməmişdən umanlar.

Məni yaman incidirlər,
Hər saxtalar, yalanlar,
Harınlaşan kalanlar.

Məni yaman incidirlər,
Ədaləti boğanlar,
Həqiqəti boğanlar,
Sədaqəti qovanlar,
Səxavəti qovanlar,
Kəraməti qovanlar,
Şərafəti qovanlar.

Məni yaman incidirlər,
İnsafını atanlar,
Mürvətini atanlar,
Aralığı qatanlar,
İşləməyib yatanlar.

Məni yaman incidirlər,
Qazanmayıb yeyənlər,
Düzə əyri deyənlər,
Öz-özünü öyənlər,
Qəlbimizə dəyənlər.

Məni yaman incidirlər,
Yaxşı-yaman qanmayan,
Düz sözə inanmayan,
Çətində sınanmayan,
Dost-tanışı anmayan.
El dərdinə yanmayan.
Məni yaman incidirlər,

Nanıkorluq eyləyən,
Ziyankarlıq eyləyən,
Davakarlıq eyləyən,
Saxtakarlıq  eyləyən,
Zülümkarlıq eyləyən,
Fitnəkarlıq eyləyən,
İnadkarlıq eyləyən,
Riyakarlıq eyləyən,
Hərzəkarlıq eyləyən,
Sitəmkarlıq eyləyən,
Cəfakarlıq eyləyən,
Səhlənkarlıq eyləyən,
Cadukarlıq eyləyən.

Məni yaman incidirlər,
Dili, sözü başqalar,
İçi, üzü başqalar,

Məni yaman incidirlər,
Tamahkirlər, hərislər,
Qaraçılar, xəsislər.

Məni yaman incidirlər,
Eli çalıb soyanlar,
Var-dövlətə uyanlar.

***Cəmil Əkbər***

## 274. QORUYUN MƏNİ

Heç nədən, kimsədən pəsinmirəm mən,
Gizli xəyanətdən qoruyun məni.
Qorxmuram, ürkmürəm, səksənmirəm mən,
Kindən, ədavətdən qoruyun məni.

Heçnədən, azacıq ürpənmirəm mən,
Ehtiyat etmirəm, qırpınmıram mən,
Oyana, buyana tərpənmirəm mən,
Adi qəbahətdən qoruyun məni.

Heçnədən çəkinib qorxan deyiləm,
Nə “soldat” nə “serjant”, səfxan deyiləm,
Nə muzdur, nə kölə, sərxan deyiləm,
Adi cinayətdən qoruyun məni.

Nə şahdan, nə xandan, bəydən qorxmuram,
Gicbəsər, sərsəri, səydən qorxmuram,
Acgözdən, hərisdən, keydən qorxmuram,
Elin hiddətindən qoruyun məni.

Kimsədən çəkinib, qısqanmıram mən,
Yorulub, bezikib ovsanmıram mən,
Varına, halına küsənmirəm mən,
Dostun nifrətindən qoruyun məni.

***Cəmil Əkbər***

## 275. QOCALTDI MƏNİ

Yüz il də yaşasam of eyləməzdim,
Hörmətsiz, izzətsiz qocaltdı məni.
Ömrümü-günümü puç eyləməzdim,
Rəhimsiz, mürvətsiz qocaltdı məni.

Özgə zəhmətindən var qazananlar,
Dost-tanış toplayıb, yar qazananlar,
Qeyrət qazananlar, ar qazananlar,
Abırsız, ismətsiz qocaltdı məni.

Eşidib-gördükcə dəngəsərləri,
Peysəri qalını, səngisərləri,
Hiyləgər, dələduz, gicbəsərləri,
Mənasız, hikmətsiz qocaltdı məni.

Dinlədik nəqədər başı-boşları?
Vicdanı kəmləri, qəlbi daşları?
Fillərə dartılan alabaşları?
Ədəbsiz, mərfətsiz qocaltdı məni.

Ustadından əsərini almayan,
Qılıncına kəsərini almayan,
Faydasını, səmərini almayan,
Bədəsil xislətsiz qocaltdı məni.

Böyük-kiçik pəsinməyən, sanmayan,
Dərk etməyən, düşünməyən, qanmayan,
Dünya alışsada tükü yanmayan,
Fəhimsiz, diqqətsiz qocaltdı məni.

Nadanlar dırmaşıb başa çıxdıqca,
Əl-ələ verdikcə, qoşa çıxdıqca,
Dad-hazar, ay aman, haşa çıxdıqca,
Şərəfsiz, şöhrətsiz qocaltdı məni.

Sözlərim kimsəyə gəlsədə acı,
Baxasa da üzümə xain, qiyqacı,
Deməsəm, yazmasam yoxdur əlacı,
Dəyərsiz, qiymətsiz qocaltdı məni.

Yedikcə, içdikcə haram tikədən,
Yoğurub-yapmamış yağlı kökədən,
Zərbələr alaraq beylə yekədən,
Zəhmətsiz, xidmətsiz qocaltdı məni.

***Cəmil Əkbər*** 7. 05 - 1985

## 276. AMALIM MƏNİM

Azəri xalqımın zəhmət oğluyam,
Onun xidmətində hüzurundayam.
Ar, namus oğluyam, qeyrət oğluyam,
Mübtəla olmuşam azarındayam.

Təmizdir vicdanım, ürəyim mənim,
Ülvidir niyyətim, diləyim mənim,
Heçkəsə bəd əsmir küləyim mənim,
Xoş tale, xoş iqbal güzarındayam.

Aşiqəm ən şirin dilə bağlıyam,
Bülbültək çəmənə, gülə bağlıyam,
Vətənə, xalqıma, elə bağlıyam,
Əminəm çıxmanam, nəzərindəyəm.

Uymadım ötəri baxışlara mən,
Hərcürə enişə, yoxuşlara mən,
Süni bər-bəzəyə, naxışlara mən,
Sərrafam cəvahir bazarındayam.

Qəzəbə, nifrətə biganəyəm mən,
Ləyaqət əhlinə "divanəyəm" mən,
Odlara alışan pərvanəyəm mən,
Düşmüşəm məhəbbət Xəzərindəyəm.

Əllini keçmişəm, yüzdədir meylim,
Lalətək yanaqda, üzdədir meylim,
Eləbil gəzirəm düzdədir Leylim,
Vuruldum, ilk eşqin yazarındayam.

Cəmiləm, öyrəndim söz Nizamidən,
Dərin düşünməyi, düz Nizamidən,
Dünyaya baxmağa göz Nizamidən,
Yazıb yaratmağın üzərindəyəm.

***Cəmil Əkbər*** 10-15. 11 -1979

## 277. CARÇISIYAM MƏN

Oxuyub dinləyin naməmi mənim,
Ədalət, həqiqət carçısıyam mən.
Deməyin nəçisən, dinləyəm səni,
İnsanam, ləyaqət carçısıyam mən.

Eşidən kəslərə əməyi verdim,
Faydanı, xeyiri, səməri verdim,
Hünər meydanında nəməri verdim,
Sədaqət, səxavət carçısıyam mən.

Nəola dünyada əngəl olmaya,
Qal-qovğa törədən cəncəl olmaya,
Bir insan işində tənbəl olmaya,
Bacarıq, fərasət carçısıyam mən.

İstərdim heçkəsə dəyməsin xəta,
Bəxş ola hamıya səadət əta,
Mərd igid nəkivar murada çata,
Ehtiram, nəzakət carçısıyam mən.

Mən elə insanam ürəyi təmiz,
Arzusu, istəyi, diləyi təmiz,
Qayğısı, yardımı, köməyi təmiz,
Kəramət, mərhəmət carçısıyam mən.

İstərdim hamıya xoş xəbər çata,
Möhnətin yükünü üstündən ata,
Sözlərim yetəydi hər an isbata,
Həryanda fəzilət carçısıyam mən.

Harda sevən varsa, orda mən varam,
Əzəldən nifrətlə olamyıb aram,
Qəsd-qərəz gördükcə sızlayıb yaram,
Pak istək, məhəbbət carçısıyam mən.

***Cəmil Əkbər*** 4.06 – 1998

## 278. MƏNİM BU VƏDƏM

Sən məni, mən səni gəl qınamayaq,
Sənin o vədəndir, mənim bu vədəm.
Çəkib bərkə-boşa gəl sınamayaq,
Sənin o vədəndir, mənim bu vədəm.

Boylanıb baxdıqca sən can alırsan,
Baxmayıb damara al qan alırsan.
Özündən nəyaman məmnun olursan?
Sənin o vədəndir, mənim bu vədəm.

Mən sönüb gedirəm, sən qaynayırsan,
Mən gedə bilirəm, sən oynayırsan,
Mən əldən düşmüşəm, sən boylanırsan,
Sənin o vədəndir, mənim bu vədəm.

Mən qədək geyirəm, sən al geyirsən,
Mən sətin deyirəm, sən şal deyirsən,
Mən şor düşünürəm, sən bal yeyirsən,
Sənin o vədəndir, mənim bu vədəm.

Zəmanə gətirdi mən qocalmışam,
Sən aşıb-daşırsan, mən sozalmışam,
Sən hey çağlayırsan, mən azalmışam,
Sənin o vədəndir, mənim bu vədəm.

Fələyin işinə nə demək olar?
İştah gətirməsə nə yemək olar?
Bəzənib-düzənib nə geymək olar?
Sənin o vədəndir, mənim bu vədəm.

Sən yanırsan, mən sönürəm a gülüm,
Sən qalxırsan, mən enirəm a gülüm,
Sən dindirdin, mən dinirəm a gülüm,
Sənin o vədəndir, mənim bu vədəm.

Kef-damaq sənindir, qəhər mənimdir,
Zülal səninkidir, zəhər mənimdir,
Düşmüşəm bu hala, təhər mənimdir,
Sənin o vədəndir, mənim bu vədəm.

Mən gördüm, götürdüm, sən götürmədin,
Mən əkdim, suladım, sən bitirmədin,
Mən çatdım mənzilə, sən yetirmədin,
Sənin o vədəndir, mənim bu vədəm.

Sən mənə, mən sənə gəl pis deməyək,
Bədxah anlamayaq, gəl nəs deməyək,
Danışma sözünü gəl kəs deməyək,
Sənin o vədəndir, mənim bu vədəm.

***Cəmil Əkbər*** 19. 08 – 1991

## 279. DƏYİŞMƏRƏM MƏN

Nəqədər keçsədə dövrü-zəmanə,
Yaxşını-yamana dəyişmərəm mən.
Alışıb yansada oda pərvanə,
Dağları dumana dəyişmərəm mən.

İstərdim həryanda ədalət olsun,
Doğruluq, düzgünlük, həqiqət olsun,
Ünsiyyət-ülfətdə sədaqət olsun,
Doğrunu-yalana dəyişmərəm mən.

Oba həvəsliyəm, el həvəsliyəm,
Bağlarda açılan gül həvəsliyəm,
Oxu bu naməmi, bil həvəsliyəm,
Açanı-solana dəyişmərəm mən.

Ağlayan-ağlayır, gülənlər-gülür,
Gözünün yaşını silənlər-silir,
Gedənlər-gedirlər, gələnlər-gəlir,
Gedəni-qalana dəyişmərəm mən.

Açılan-açılır, solanlar-solur,
Doğulan-doğulur, olanlar-olur,
Boşalan-boşalır, dolanlar-dolur,
Boşları dolana dəyişmərəm mən.

Kimisi qazanır, kimisi yeyir,
Kimisi toxuyur, kimisi geyir,
Kimisi düzəldir, kimisi əyir,
Verəni alana dəyişmərəm mən.

İstərdim həyatda yol şahrah olsun,
Sağlar şahrah olsun, sol şahrah olsun,
Qajlar şahrah olsun, qol şahrah olsun,
Küçəni dalana dəyişmərəm mən.

Yaxşını-yamandan seçən Cəmiləm,
Mərifət şərbətin içən Cəmiləm,
Zaman hökm edəndə köçən Cəmiləm,
Yəhəri-palana dəyişmərəm mən.

***Cəmil Əkbər*** 2. 01– 1997

## 280. MƏNİ ƏYMƏSƏ

Toxunub qəlbimə dəyən olmazdı,
Sənin "mərifətin" məni əyməsə.
Haqqımı-sayımı yeyən olmazdı,
Sənin "mərhəmətin" məni əyməsə.

Könül diyarında nifrət olmazdı,
Qəzəb kükrəməzdi, hiddət olmazdı,
İşgəncə, iztirab, zillət olmazdı,
Sənin "kəramətin" məni əyməsə.

Nəqədər üşüsəm donmaq bilməzdim,
Özgə xəyallara qonmaq bilməzdim,
Odlanıb, alışıb, yanmaq bilməzdim,
Sənin "hərarətin" məni əyməsə.

Hamını özümə yoldaş bilərdim,
Anabir, atabir, qardaş bilərdim,
Ən yaxın həmdəmim, sirdaş bilərdim,
Sənin "qiraətin" məni əyməsə.

Ehtiram göstərib, ülfət edərdim,
Saf arzu-istəklə söhbət edərdim,
Nə giley, nə güzar, qeybət edərdim,
Sənin "cəsarətin" məni əyməsə.

Ləyaqət əhlinə canı verərdim,
İstərsə damardan qanı verərdim,
Zülalı, şərbəti, şanı verərdim,
Sənin "məharətin" məni əyməsə.

İnsanam deyəndən üzüm dönməzdi,
Yolağım ayrılıb, izim dönməzdi,
Söhbətim qurtarıb, sözüm dönməzdi,
Sənin "şərafətin" məni əyməsə.

Yaxşılara pis deməzdim ölsəmdə,
Xeyirxaha nəs deməzdim ölsəmdə.
Qızıla da mis deməzdim ölsəmdə,
Sənin "sədaqətin" məni əyməsə.

Qaralara ağ demədim bilmədən,
Təpələrə dağ demədim bilmədən,
Kol-koslara bağ demədim bilmədən,
Sənin "siraətin" məni əyməsə.

Heçkəsdən inciyib, küsüb getməzdim,
Əlimi əllərdən kəsib getməzdim,
Tufantək sovurub, əsib getməzdim,
Sənin "məhəbbətin" məni əyməsə.

Aldanmazdım, öz yolumla gedərdim,
Yanılmazdım düz yolumla gedərdim,
Gecikməzdim, tez yolumla gedərdim,
Sənin "siyasətin" məni əyməsə.

Sağlam bədənimə yara dəyməzdi,
Ləkə salınmazdı, qara dəyməzdi,
Nəqədər istəsən ara dəyməzdi,
Sənin "xəcalətin" məni əyməsə.

Cəmil Əkbər həqiqətdən dönməzdi,
Haq yolundan, ədalətdən dönməzdi,
Saf arzudan, pak niyyətdən dönməzdi,
Sənin "nəsihətin" məni əyməsə.

***Cəmil Əkbər*** 12. 11 -1999

## 281. MƏN GÖRDÜKCƏ SARSILIRAM

Mərd yerində namərdləri,
Mən gördükcə sarsılıram.
Müşgülləri, həmdəmləri,
Mən gördükcə sarsılıram.

Eşitdikcə yalanları,
Varı, halı talanları,
Əfiləri, ilanları,
Mən gördükcə sarsılıram.

Ah-naləni, amanları,
Fikirlərdə dumanları,
Küsənləri, umanları,
Mən gördükcə sarsılıram.

Dələduzu, cəncəlləri,
Tüfeylini, tənbəlləri,
Yolda, izdə əngəlləri,
Mən gördükcə sarsılıram.

Əməlindən çirkinləri,
Ləyaqətsiz nikbinləri,
Lovğaları, xudbinləri,
Mən gördükcə sarsılıram.

Gədaoğlu gədaları,
Yersiz, yersiz ədaları,
Xoşa gəlməz sədaları,
Mən gördükcə sarsılıram.

Acgözləri, hərisləri,
Xainləri, xəbisləri,
Naxələfi, naqisləri,
Mən gördükcə sarsılıram.

Qazanmamış var tapanı,
Alma, heyva, nar tapanı,
Yanyörədən yar tapanı,
Mən gördükcə sarsılıram.

Sözü yalan, özü yalan,
Yolu yalan, izi yalan,
Baxışları, gözü yalan,
Mən gördükcə sarsılıram.

Harda varsa ədabazı?
Yekəxana, modabazı?
Kəndirbazı, hoqqabazı?
Mən gördükcə sarsılıram.

Müqəvvatək karsızları,
Söyüd kimi barsızları,
Qeyrətsizi, arsızları,
Mən gördükcə sarsılıram.

Hiyləgəri, dələduzu,
Vicdanı kəm, qəlbi buzu,
Niyə danım, budur düzü,
Mən gördükcə sarsılıram.

Gülüstana xar deyəni,
Qoduqlara nər deyəni,
Zir-zibilə zər deyəni,
Mən gördükcə sarsılıram.

Harın-harın yeyənləri,
Öz-özünü öyənləri,
Ünvanlara döyənləri,
Mən gördükcə sarsılıram.

Düzü əyri yazanları,
Ayaq altdan qazanları,
Ünsiyyəti pozanları,
Mən gördükcə sarsılıram.

Haqq yolunu görməyəni,
Aldığını verməyəni,
Könüllərə girməyəni,
Mən gördükcə sarsılıram.

İnsafını atanları,
Qəflətlərdə yatanları,
Vicdanını satanları,
Mən gördükcə sarsılıram.

El dərdinə yanmayanı,
Haqqı-sayı anmayanı,
Quran, kitab qanmayanı,
Mən gördükcə sarsılıram.

Sərsərini, gicbəsəri,
İlqarına kəcbəsəri,
Tərsə-məssəb, öcbəsəri,
Mən gördükcə sarsılıram.

Al-qanları soranları,
Onu-bunu yoranları,
Qəsd-qərəzdə duranları,
Mən gördükcə sarsılıram.

***Cəmil Əkbər***

## 282. NƏ VERDİN?

Cəmiyyətdən gileylənən dəngəsər,
Özün deynən, cəmiyyətə nə verdin?
Haqsızlıqdan gileylənən sərbəsər,
Ədalətə, həqiqətə nə verdin?

Sədaqətdən, səxavətdən dəm vuran,
İnsaf, vicdan, kəramətdən dəm vuran,
İnsanlıqdan, ləyaqətdən dəm vuran,
Bu məzmuna, bu hikmətə nə verdin?

Ədəb-ərkan, nəsihətdən söz açan,
Əyri yoldan, qəbahətdən söz açan,
Nadanlıqdan, cəhalətdən söz açan,
Saf arzuya, pak niyyətə nə verdin?

Acizlərdən, tənbəllərdən danışan,
Həyat üçün əngəllərdən danışan,
Tüfeylidən, cəncəllərdən danışan,
Özün denən şan-şöhrətə nə verdin?

Rəhimsizdən, mürvətsizdən bezikən,
Hörmətsizdən, qeyrətsizdən bezikən,
Abırsızdan, ismətsizdən bezikən,
Öz xalqına, bu millətə nə verdin?

***Cəmil Əkbər***

## 283. DAD-HAZAR

*I variant*

Yaxşı da, yaman da günlər görmüşəm,
Avamlıqdan, qəbahətdən dad-hazar.
Səs-küylər eşidib, ünlər görmüşəm,
Kin-küdurət, ədavətdən dad-hazar.

Ləyaqət əhlinin başına dönüm,
Torpağına dönüm, daşına dönüm,
Yamacına dönüm, qaşına dönüm,
Nadanlıqdan, cəhalətdən dad-hazar.

İnciyib küsmüşəm qəlbiqaradan,
Bilməm zühur etdi, gəldi haradan?
Necə bəxş eylədi onu yaradan?
Paxıllıqdan, xəyanətdən dad-hazar.

Qəlbimi ağrıtdı keyoğlu keylər,
Dəngəsər, gicbəsər, səyoğlu səylər,
Yetişmək bilməyən çiyoğlu çiylər,
Giley-güzar, şikayətdən dad-hazar.

Saxtalıqla səadətə gedilməz,
Fırıldaqla həqiqətə gedilməz,
Ədəb-ərkan, nəzakətə gedilməz,
Yalan-yanlıc bəyanətdən dad-hazar.

Dünyada oqədər qıtlıq görmüşəm,
Acizlik görmüşəm, kütlük görmüşəm,
Ölgünlük, durğunluq, süstlük görmüşəm,
Ehtiyacdan, səfalətdən dad-hazar.

Heçkimsəni pis günlərə düşməsin,
Birbirindən nəs günlərə düşməsin,
Höcət, inad, tərs günlərə düşməsin,
İşgəncədən, zəlalətdən dad-hazar.

Ünsiyyət-ülfətdə yalan olmasın,
Əllərdə-ayaqda qalan olmasın,
Dağılıb sökülən, talan olmasın,
Müsibətdən, fəlakətdən dad-hazar.

***Cəmil Əkbər*** 7. 03– 1998

## 284. DAD-HAZAR

*II variant*

İlanlardan, çayanlardan qorxmuram,
Acı dilli olanlardan dad-hazar.
Tülkülərdən, çaqqallardan qorxmuram,
Min sifəti olanlardan dad-hazar.

Dolu döysün aralığı vuranı,
Dost-tanışa hiylə, kələk quranı,
Ləyaqətin əleyhinə duranı,
Fitnə-felli olanlardan dad-hazar.

Həqiqəti sevənlərdən çəkinmə,
Ədaləti sevənlərdən çəkinmə,
Ləyaqəti sevənlərdən çəkinmə,
Qəlbi kinli olanlardan dad-hazar.

Namərdlərdən, nakəslərdən uzaşın,
Xainlərdən, xəbislərdən uzaşın,
Acgözlərdən, hərislərdən uzaşın,
Bədəməlli olanlardan dad-hazar.

Həzin əsən küləklərdən qorxmuram,
Saf döyünən ürəklərdən qorxmuram.
Nəcib arzu-diləklərdən qorxmuram,
Qəlbi lilli olanlardan dad-hazar.

Əzəl gündən xoşlamadım qərəzi,
Doğru çəkib vicdanımda tərəzi,
Eldən aldım məhəbbəti əvəzi,
Gözü küllü olanlardan dad-hazar.

Aşiq oldum gülər üzə, camala,
Düşüncəyə, dərrakəyə, kamala,
Ar namusa, vicdan, məslək, amala,
Başı cinli olanlardan dad-hazar.

Mən Cəmiləm məhəbbətin oğluyam,
Sədaqətin, səxavətin oğluyam,
İnsaf, mürvət, kəramətin oğluyam.
Qəlbi kinli olanlardan dad-hazar.

***Cəmil Əkbər***

## 285. DAD-HAZAR

*III variant*

Zahirdəki vəhşiliyə dözərəm,
İçimdəki həşarətdən dad-hazar.
Xaricdəki naşılığa dözərəm,
Daxildəki cəhalətdən dad-hazar.

Kənardakı zərbələrə dözərəm,
Həmlələrə, hərbilərə dözərəm,
Qərargaha, cəbhələrə dözərəm,
Daxildəki qəbahətdən dad-hazar.

Məni qorxutmayır yadın tənəsi,
Təpiyi, dumbuzu, nə də şilləsi,
Fırıldaq, kələyi, məkri, hiyləsi,
Daxildəki xəyanətdən dad-hazar.

Məni ürpətməyir özgə nərəsi,
Özgə çapacağı, özgə dəhrəsi,
Özgənin hayküyü, özgə hədəsi,
Batildəki ədavətdən dad-hazar.

Xaricin səsküyü eynimə deyil,
Düşüncə, dərrakə, beynimə deyil,
Hissimə, duyğuma, zehnimə deyil,
Daxildəki cinayətdən dad-hazar.

Məni incitməyir yadların səsi,
Çoxnağı, yığnağı, nədəki dəsi,
Sevgi, məhəbbəti, eşqi, həvəsi,
Batildəki söz-söhbətdən dad-hazar.

Sinə gərib hər sözlərə dözərəm,
Cığır, yolaq, hər izlərə dözərəm,
Hər sifətə, hər üzlərə dözərəm,
Nəs fikirdən, pis adətdən dad-hazar.

Hər yetən Cəmilə əsər eyləməz,
Fayda yetirənməz, səmər eyləməz,
Ovxara gətirib kəsər eyləməz,
Giley-güzar, şikayətdən dad-hazar.

***Cəmil Əkbər*** 28. 09 – 1993

## 286. HESAB ETMƏ

Dolanma tərsinə ey fitnə-fəsad,
Düzü əyri görüb, şər hesab etmə.
İnsafdan, vicdandan olaraq kasad,
Hər dördayaqlını nər hesab etmə.

Aldanma iblisə, uyma şeytana,
Atını çapırtma şərə, böhtana,
Bir nəzər yetirin yaxşı-yamana,
Hər ziri-zibili, zər hesab etmə.

Tanıyın taytuşu, yaxşı yoldaşı,
Ünsiyyət məqamı olmayın naşı,
Düzgün dərk eyləyin, zəkalı başı,
Hər çürük kəlləni sər hesab etmə.

Hörmətdən salmayın siz ağsaqqalı,
İrəli çəkməyin yaltaq naqqalı,
Hiyləgər tülkünü, qorxaq çaqqalı,
Kərgədan fil deyib, şir hesab etmə.

Nə paxıl olmayın, nə qəlbi qara,
Çəkilib ayağa, düşərsən dara,
Qaraya ağ demə, ağa da qara,
Hər sinədöyəni pir hesab etmə.

Yazıram gəraylı, divani, qəzəl,
Tərsinə gedənə deyirəm düzəl,
Kəmağıl, sərsəri, yelbeyin gözəl,
Hər üzəgüləni ər hesab etmə.

Cəmil unudarmı heç haqqı-sayı?
Bulaq döndərərmi, gur axan çayı?
Görmək istəməyib məlum bir sayı,
İkinin yerində bir hesab etmə.

***Cəmil Əkbər*** 4-16. 05 - 1967

## 287. İNSANLARLA YOLA GET!

Əsəblər korlama, qaraltma qanı,
İnsanoğlu, insanlarla yola get!
Çox asıb-kəsənlər özün de hanı?
İnsanoğlu, insanlarla yola get!

Görmürsənmi öldürəni, öləni?
Ağladanı, sızladanı, güləni?
Milyon-milyon gedənləri gələni?
İnsanoğlu, insanlarla yola get!

Deməki bədənim poladdan sağdır,
Yediyim, içdiyim bal ilə yağdır,
Öləndə qazancın kəfənlik ağdır,
İnsanoğlu, insanlarla yola get!

Zirvədən aşağı enməmiş bir gün,
Yanan çıraq kimi sönməmiş bir gün,
Hakim divanında dinməmiş bir gün,
İnsanoğlu, insanlarla yola get!

Sanmaki hər şeyin biləndərisən,
Alimi, loğmanı, qələndərisən,
Sərrafı, xərratı, çilingərisən,
İnsanoğlu, insanlarla yola get!

Çox asıb-kəsənin tutuldu özü,
Bağlandı qolları, qırıldı dizi,
Ağladı, sızladı, kor oldu gözü,
İnsanoğlu, insanlarla yola get!

Deməki sözlərin batmır beyinə,
Gəlmir ölçümüzə, olmur əyinə,
Heçkimsə almayır onu eyninə,
İnsanoğlu, insanlarla yola get!

Demə nəsihətin əsəri yoxdur,
Tükənib faydası, səməri yoxdur,
Paslanıb qılıncı, kəsəri yoxdur,
İnsanoğlu, insanlarla yola get!

Nəsihət alanlar  faydalanırlar,
Ölçüyə gəlirlər qaydalanırlar,
Xəta-bəlalardan daldalanırlar,
İnsanoğlu, insanlarla yola get!

Qoy sözlərim toxunmasın şəstinə,
Sanmayınki giribdilər qəsdinə,
Ayaq alma hər yetənin üstünə,
İnsanoğlu, insanlarla yola get!

Qisas qiyamətə qalanha deyil?
Atalar deyibdir yalanha deyil?
Yaxşılıq dünyada solanha deyil?
İnsanoğlu, insanlarla yola get!

Su daşmamış, dağıtmamış bəndini,
Qəsəbəni, şəhərini, kəndini,
Yoluna qoy, izinə qoy fəndini,
İnsanoğlu, insanlarla yola get!

Eşitsən sözümü  budur qısası,
Həm məzmunu, həm mətləbi, əsası,
Dolmamışdan səbirlərin kasası,
İnsanoğlu, insanlarla yola get!

Eşitsən Cəmili budur təvəqqi,
Unutma xətiri, hörməti-haqqı.
Qoyma hakim ola, haqqa-nahaqqı,
İnsanoğlu, insanlarla yola get!

***Cəmil Əkbər*** 10.06 - 1978

## 288. GETDİ

*Cəbrayıl müəllimin vəfatı mümasibəti ilə*

Hayıf, a Cəbrayıl, əziz qardaşım,
Səninlə nəqədər ləyaqət getdi.
Vicdanı, məsləki təmiz yoldaşım,
Nəqədər sədaqət, səxavət getdi.

Gözləyirdin ədəb, ərkan nəzakət,
Xeyirxahlıq, mehribanlıq, fəzilət,
Bildirərdin insaf, mürvət, mərhəmət,
Səninlə nəqədər məlahət getdi.

Üzəbarı görüşəndə gülərdik,
Qəlbimizdən keçənləri bilərdik,
Dərdi-qəmi aralıqda bölərdik,
Səninlə nəqədər təravət getdi.

Elimin, obamın kamallı oğlu,
Məsləkli, vicdanlı, amallı oğlu,
Çəkidə tutarlı samballı oğlu,
Səninlə nəqədər dəyanət getdi.

Mehriban dostları itirmək çətin,
Yenidən bəsləmək, bitirmək çətin,
Bu ağır bir yükdür, götürmək çətin,
Qəlbində nəqədər hekayət getdi.

Bəyan eyləmədi çoxlu sözünü,
Boylanıb baxmadı, yumdu gözünü,
Saldı könüllərə qoydu izini,
Bu fani dünyadan şikayət getdi.

***Cəmil Əkbər***

## 289. GETDİ

Tarixi-Nadirdən, qoca dünyada,
Hərə bir ad ilə yaşadı, getdi.
Əfsanə dünyada, beca dünyada,
Hərə bir dad ilə yaşadı, getdi.

Hərə birisilə ülfət eylədi,
Ağlına gələndən söhbət eylədi,
Dəhşətə gələrək, heyrət eylədi,
Hərə bir yad ilə yaşadı, getdi.

Kimisi ucaldı, kimisi endi,
Kimisi düz getdi, kimisi döndü,
Kimisi alışdı, kimisi söndü,
Hərə bir od ilə yaşadı, getdi.

Kimisi hiyləyə, kələyə düşdü,
Özü də bilmədən tələyə düşdü,
Qasırğa, tufana,  küləyə düşdü,
Hərə bir bad[27] ilə yaşadı, getdi.

Bilmədi kim ilə oturdu, durdu?
Kim ilə yaratdı, kim ilə qurdu?
Ömür karvanını tez başa vurdu?
Hərə bir zad ilə yaşadı, getdi.

Bu yolda yarıyan oldumu görən?
İşləri sarıyan oldumu görən?
Zülfünü darıyan oldumu görən?
Hərə bir çod ilə yaşadı, getdi.

***Cəmil Əkbər*** 21. 09 – 1997

## 290. GETDİ

Heyif o günlərə, o saatlara,
Dolanıb əqrəbi, boş gəldi-getdi.
O dövrü-zamana, o büsatlara,
Qərq oldu tufana qış gəldi-getdi.

Heyif o qəlblərə, o ürəklərə,
O arzu-istəyə, o diləklərə,
Yorulmaz qollara o biləklərə,
Cahilə-nadana tuş gəldi-getdi.

[27] Bad (Farsca) – külək, yel.

Nə deyim o dosta, o yoldaşlara?
O həmkar, həmdəmə, o sirdaşlara?
Fərqinə varmadan o çağdaşlara?
Çamırlıq qəlbiylə, daş gəldi-getdi.

Nə deyim, danışım, o insanlara?
Alim, münəccimə, o loğmanlara?
Can alan gözələ, o cananlara?
Vicdanı, məsləki, daş gəldi-getdi.

Dəyişir zəmanə, dəyişir həyat,
Tapılmır çarəsi, tapılmır heyhat,
Əbədi deyildir nə toy, nə büsat,
Haçandır kirkirə, xış gəldi-getdi.

Nəqədər insandan aralanmışam,
Şəklənib, xoflanıb qaralanmışam,
Bostantək dərilb uralanmışam,
Sanmayın günlərim xoş gəldi-getdi.

Nəqədər şəxsləri yetirəmmədim,
Sulayıb, becərib bitirəmmədim,
Möhnəti boynuma götürənmədim,
Qəlbimdən nəqədər kaş gəldi-getdi.

Heyif, keçirdiyim o zamanlara,
İlqara, imana, o peymanlara,
Könlümün düşdüyü o dumanlara,
Ömür sona çatdı yaş gəldi-getdi.

Cəmil Əkbər, zaman keçir neyləsin?
Kimi dayandırsın, kimi əyləsin?
Nəyi bəyan edib, nəyi söyləsin?
Xəyalda sarsıldı, huş gəldi-getdi.

***Cəmil Əkbər*** 24. 02 – 1990

## 291. GETDİ

Heyif o abıra, o ismətəki,
Arada, bərədə töküldü getdi.
Halaldan bəxş olan o qismətəki,
Dağıldı, talandı söküldü getdi.

Heyif o xətirə, o hörmətəki,
O insaf-mürvətə, mərhəmətəki,
İlqara, vəfaya, sədaqətəki,
Qalxdı aralıqdan çəkildi getdi.

Heyif o ülfətə, o ünsiyyətə,
O sözə-söhbətə, o nəsihətə,
O əhdi-peymana, o vəsiyyətə,
Əlvida etmədən əkildi getdi.

Heyif o vüqara, o qamətəki,
Bacarıq, ləyaqət, məharətəki,
Fəhm-fərasətə, cəsarətəki,
Əyildi yay kimi büküldü getdi.

***Cəmil Əkbər*** 19. 03 – 1991

## 292. GETDİ

Heyif o zəhmətə, o xidmətəki,
Bir fayda vermədi, hədərə getdi.
O qayğı, yardıma, o nüsrətəki,
Qərq oldu qüssəyə, qəhərə getdi.

Heyif o istiyə, məhəbbətəki,
O əhdə, o anda, sədaqətəki,
O xətir-hörmətə, fəzilətəki,
Qarışdı ağıya, zəhərə getdi.

Nə deyim cahilə, nadan kəslərə?
Yolunu tərsinə adan kəslərə,
Təlimdən yarımçıq dadan kəslərə,
Qalmadı kəndlərdə şəhərə getdi.

Yazıqlar halına o kəslərinki,
O avaz sahibi, o səslərinki,
Beylə yığıncağa, o dəslərinki,
Düşdü müsibətə mənşərə getdi.

***Cəmil Əkbər*** 24.04 – 1996

## 293. GETDİ

Hərə düşünərək bircür söz yazıb,
Saf-çürük edilib, iç olub getdi.
Kimi əyri yazıb, kimi düz yazıb,
Qarışıb karvana, köç olub getdi.

Kiminin sözləri elə yayıldı,
Ətiri-gülüstan, gülə yayıldı,
Muğana, Şirvana, Milə yayıldı,
Od qoydu ürəyə, peç olub getdi.

Kiminin yazdığı dillərdə qaldı,
Əsr yola saldı, illərdə qaldı,
İtmədi, batmadı, əllərdə qaldı,
Kiminin yazdığı puç olub getdi.

Kiminin yazdığı xoşa gəlibdi,
Ağıla sığışıb, başa gəlibdi,
İlhama gəlibdi, coşa gəlibdi,
Kiminin yazdığı heç olub getdi.

Kiminin yazdığı ədalət oldu,
Doğruluq, düzgünlük, həqiqət oldu,
Bəşər övladına sədaqət oldu,
Kiminin yazdığı suç olub getdi.

Düşünüb, dərk edən, qanan kimsələr,
Ellərin dərdinə yanan kimsələr,
Məhəbbət bağına qonan kimsələr,
Cəmilin sözündən güc alıb getdi.

***Cəmil Əkbər*** 5.08 - 1998

## 294. GETMƏ!

Yediyin, içdiyin el çörəyidir,
Bu elin, obanın kəcinə getmə!
Zəhmət adamının bil, çörəyidir,
Bu xalqın, mahalın kəcinə getmə!

Ədəb, ərkan babalardan qalıbdır,
Martenatək sobalardan qalıbdır,
Atalardan, analardan qalıbdır,
Bu adət, qanunun kəcinə getmə!

***Cəmil Əkbər***

## 295. GETMƏYİN!

Hiyləgər, dələduz, biclər hökmedir,
Amandı, fitnəyə, felə getməyin!
Haqqa-ədalətə kəclər hökmedir,
Düşüb qasırğaya, yelə getməyin!

Şər danışıb aralığı qatırlar,
Yaxşıları yamanlara satırlar,
Fürsət tapıb zibilliyə atırlar,
Çəkilin bu yoldan, belə getməyin!

Ünsiyyət-ülfətlər pozulur yaman,
Həqiqət tərsinə yozulur yaman,
Ay qardaş-bacılar verməyin aman,
Qərq olub daşqına selə getməyin!

İnsansan, kamalın ağası olun,
İstər ağsaqqalı, çağası olun,
Böyük sərkərdəsi, dühası olun,
İblisə, şeytana kölə getməyin!

Aldanıb tamaha, hərislik etmə,
Nanəciblik etmə, naqislik etmə,
Gəl insanoğluna  xəbislik etmə,
Sussayıb daş-qaşa, lələ getməyin!

Oxuyub, öyrənib, bil olun halı,
Salmayın araya qovğanı-qalı,
Dəymiş duran yerdə, tökməyin kalı,
Düşüb biyabana, çölə getməyin!

Nə lazımdır hiylə, məkr ya kələk?
Asıb-kəsək, ya öldürək, ya ölək?
Ora-bura parçalanıb, ya bölək?
Əfsanədir, elə-belə getməyin!

Səxavət bağının barını görək,
Alma, heyvasını, narını görək,
Çəkib cəfasını, karını görək,
Pisliyə yön alıb elə getməyin!

Dünya gör-götürdür, ibrət götürək,
Bağ becərib, peyvənd vuraq, bitirək,
İnsanlığa ləyaqəti gətirək,
Tələsib pisliyə, hələ getməyin!

Bədxahlıqla döyünməsin ürəklər,
Ev yıxmaqla sevinməsin ürəklər,
Bəd əsməsin üstümüzdən ürəklər,
Duz bilib, tam bilib, külə getməyin!

Xalqımızı səadətə səsləyin,
Ədəb-ərkan məhəbbətə  səsləyin,
İnsaf-mürvət, kəramətə səsləyin,
Düşüb çamırlığa, lilə getməyin!

Mən Cəmil Əkbərəm eldi həvəsim,
Şirin söz-söhbətdi, dildi həvəsim,
Baharda bülbüldü, güldü həvəsim,
Amandı, fitnəyə, felə getməyin!

***Cəmil Əkbər***    10. 01 – 1990

## 296. YOL GETMƏK OLAR

İlahi sən saxla gic başlarından,
Kamallı başlarla yol getmək olar.
Haqqa, ədalətə öc başlarından,
Amallı başlarla yol getmək olar.

İlahi sən saxla nadanlarından,
Yarımçıq tərbiyə dadanlarından,
Sümürüb haqqısay udanlarından,
Düşünüb qananla yol getmək olar.

İlahi sən saxla hərislərindən,
Xaindən, paxıldan, xəbislərindən,
Cılız bəndələrdən, naqislərindən,
Kəramət əhliylə yol getmək olar.

İlahi sən saxla ürəyi daşdan,
Arzusu, niyyəti, diləyi daşdan,
Özü müqəvvadan, biləyi daşdan,
Mərhəmət əhliylə yol getmək olar.

İlahi sən saxla dönüklərindən,
Vicdanı, məsləki sönüklərindən,
Hər dinə-məzhəbə yönüklərindən,
Nəcabət əhliylə yol getmək olar.

İlahi sən saxla qəlbi kinlidən,
Ürəyi çamırlı, başı cinlidən,
Minbir sifətlidən, minbir dillidən,
Səxavət əhliylə yol getmək olar.

İlahi sən saxla bəd əsillərdən,
Bəd aydan, bəd ildən, bəd fəsillərdən,
Bəd insan əhlindən, bəd nəsillərdən,
Ləyaqət əhliylə yol getmək olar.

***Cəmil Əkbər***

## 297. GEDİB

Adam var, həyatda adı qalmayıb,
Adam var, cahanda iz qoyub gedib.
Sönübdür ocağı, odu qalmayıb,
Adam var, hikmətli söz qoyub gedib.

Adam var yolunu əyib gedibdir,
Toxunub qəlblərə dəyib gedibdir,
Talayıb, dağıdıb, yeyib gedibdir,
Adam var təməli düz qoyub gedib.

Adam var, əzəldən duyuq olubdur,
Adam var, müqəvva, oyuq olubdur,
Hər işdə biganə, soyuq olubdur,
Ülfət-ünsiyyəti buz qoyub gedib.

Adam var, astarı, üzü bəlli döy,
Babası, dədəsi, özü bəlli döy,
İstisi, həniri, közü bəlli döy,
Adam var, qor qoyub, köz qoyub gedib.

Adam var, namusu, arı anlamır,
Dostunu-tanışı, yarı anlamır,
Çalınıb kamanı, tarı anlamır,
Adam var, sədəfli saz qoyub gedib.

Adam var, yurdunda naşı qalıbdır,
Fikirdən, xəyaldan, çaşı qalıbdır,
Çatılmış qabağı, qaşı qalıbdır,
Adam var, mərd oğul, qız qoyub gedib.

Adam var, abırlı, həyalı olub,
Tərtəmiz qayəli, sayəli olub,
Təlimi düz verən dayəli olub,
Adam var, ismətsiz üz qoyub gedib.

Adam varki, xidmətini göstərib,
Xətirini, hörmətini göstərib,
İnsafını, mürvətini göstərib,
Adam var, hayıf ki, az qoyub gedib.

Adam var, arxada, dallarda qaldı,
Qatardan üzülüb, yollarda qaldı,
İlişib tikana, kollarda qaldı,
Adam var, işini tez qoyub gedib.

Adam var, nə gözəl hava düzəldib,
Adam var, qal-qovğa, dava düzəldib,
Doğub-törədibdir, yava düzəldib,
Meydanda "tvist"lə, "caz" qoyub gedib.

Adam var, əlindən bezibdir hamı,
Fitnəsi-felinə dözübdür hamı,
Əlini-əlindən üzübdür hamı,
Bədəməl törədib, paz qoyub gedib.

***Cəmil Əkbər*** 1.03 – 1998

## 298. GEDİBDİR

Nə deyim zamanın kəc gərdişinə?
Doğru sözüm, həqiqətim gedibdir.
Sərsəri, kəmağıl, gic vərdişinə,
Sədaqətim, səxavətim gedibdir.

De necə açılsın qabağım, qaşım?
Necə ağarmasın saqqalım, başım?
Yerində cəm olsun xəyalım, huşum?
Ədəb-ərkan, nəzakətim gedibdir.

Ünsiyyət-ülfətlər pozulub yaman,
Ləyaqət tərsinə yozulub aman,
Nəqədər qanunlar yazılıb zaman?
Gözəl arzum, saf niyyətim gedibdir.

Hayana baxırsan qəbahət artıb,
Küdurət çoxalıb, ədavət artıb,
Nadanlıq, avamlıq, cəhalət artıb,
İnsanlığım, ləyaqətim gedibdir.

Arada-bərədə hörmət qalmayıb,
Kəramət tükənib, mürvət qalmayıb,
Mənəvi gözəllik, sərvət qalmayıb,
Xeyirxahlıq, fəzilətim gedibdir.

Köçüb gedib nər kişilər qalmayıb,
İnci-sədəf, zər kişilər qalmayıb,
Dəyaətli ər kişilər qalmayıb,
Cəsarətim, fərasətim gedibdir.

Açdım-tökdüm qəlbimdəki sirimi,
Yanılmışam xeyirimi, şərimi,
İtirmişəm gör nəqədər zərimi?
Bacarığım, məharətim gedibdir.

Nələr çəkdi yazıq canım arada?
Qövr eylədi sinəm üstə yara da.
Axtarmaqla tapılmayır çara da,
Xoş güzəran, səadətim gedibdir.

Zülmət çöküb, qaranlığa düşmüşük,
Münbit yerdən şoranlığa düşmüşük,
Abadlıqdan viranlığa düşmüşük,
İqtidarım, sədarətim gedibdir.

Başlar dumanlanıb, ürək dərdlidir,
Qollar yorulubdur, bilək dərdlidir,
Arzum xəsdə düşüb, dilək dərdlidir,
Eşqim-andım, məhəbbətim gedibdir.

Ay Cəmil, ülfətin azalıb dadı,
Qaralıb ocağı, sönübdür odu,
Görəsən azadlıq, səadət budu?
Təravətim, lətafətim gedibdir.

***Cəmil Əkbər*** 14. 11 – 1994

## 299. GEDİBDİR

Aman Allah nə günlərə qalmışam?
Qalmayıb damaqda dişim gedibdir.
Bulud kimi qaralmışam, dolmuşam,
Ağarıb saqqalım, başım gedibdir.

Pozulub növrağım, əhvalım, kefim,
Kəsilib taqətim, heç gəlmir nəfim,
Azalır kamalım, çoxalır səhvim,
Ömür sona yetir, yaşım gedibdir.

Hayanda qalıbdır kamal dünyası?
Əqidə dünyası, amal dünyası,
Mənəvi gözəllik, camal dünyası,
Sarsıyıb xəyalım, huşum gedibdir.

Az qalır yetişə yetmişə yaşım,
Daha nə həddim var, dağları aşım,
Çıxıb öz məcramdan qaynayıb daşım,
Köçedib taylarım, tuşum gedibdir.

Düşmüşəm əvvəlki eşq-həvəsdən,
Tay-tuşla, yoldaşla hey bəhsəbəhsdən,
Xətrimə dəyirlər, eləbil qəsdən,
Gətirmir dərrakəm, guşim gedibdir.

Bazarda qıtlıqdır, ət bahalıqdır,
Pamidor, badımcan, qənd bahalıqdır,
Şəhər alverxana, kənd bahalıqdır,
Kababım çəkilmir, şişim gedibdir.

Korlanıb insanlar, bəd gəlib zaman,
Neyləsin bu bəşər, ay dad, ay aman?
Dağların başını bürüyür duman,
Alınıb əlimdən peşəm gedibdir.

Haçandan bəridir tökürəm təri,
Düşünüb, dərk edib, yoruram səri,
Tapmıram sözümə layiq müştəri,
Hüquq ixtiyarım, işim gedibdir.

Avamlığın, cəhalətin əlindən,
Addımbaşı qəbahətin əlindən,
Kin-küdurət, ədavətin əlindən,
Çatılıb qabağım, qaşım gedibdir.

Nanəcib, nanıkor qəlbimə dəyib,
Vurub qamətimi yay kimi əyib,
Əlinə keçəni tapdayıb, döyüb,
Sınıbdır, qəlbimdən şüşəm gedibdir.

Korlanıb ünsiyyət, dəyişib həyat,
Pozulub dövranlar, pozulub büsat,
Oyanmır qəflətdən bu bəşər, heyhat,
İşləmir kotanım, xışım gedibdir.

Avamlığın, cəhalətin əlindən,
Addımbaşı qəbahətin əlindən,
Xainliyin, xəyanətin əlindən,
Çatılıb qabağım, qaşım gedibdir.

Çox dedin sözünü ay Cəmil Əkbər!
Yummadın gözünü ay Cəmil Əkbər!
Yormusan özünü ay Cəmil Əkbər!
Atılıb biryolluq daşım gedibdir.

***Cəmil Əkbər*** 22. 08 -1994

## 300. GEDİR

Hamı bir fikirdə, başqa yoldadır,
Özü də bilməyir o hara gedir?
Hamı bir zikirdə, min xəyaldadır,
Bilməyir çətinə, ya dara gedir.

Birisi çalışır, birisi yatır,
Birisi aldanıb günaha batır,
Birisi satılır, birisi satır,
Eləbil dəllaldır, bazara gedir.

Xətalar törədib naqislik edir,
Acgözlük eyləyir, hərislik edir,
Paxıllıq, xainlik, xəbislik edir,
Cəhənnəm deyilən diyara gedir.

Ağladır, sızladır, bezdirir, bezir,
İncidir, inciyir, əzdirir, əzir,
İnləyir, inlədir, dözdürür, dözür,
Tapmayıb dərdinə, biçarə gedir.

Bilmirki yeyəcək qurdlar ətini,
Alacaq əlindən hər ləzzətini,
Verəcək sonunda öz qiymətini,
Yem olub axırda, o mara gedir.

Hamı birbirini asıb kəsməklə,
İnciyib, incidib, ya da küsməklə,
Borantək sovurub, coşub əsməklə,
Eyləyib gününü o qara gedir.

Hərkəs mətahını sataraq baha,
Aldanıb nəfsinə, uyub tamaha,
Batır qəbahətə, düşür günaha,
Susayıb dövlətə, o vara gedir.

Düşünüb, dərk edib, anlamır, qanmır,
Dünya alışsada bir tükü yanmır,
Utanıb-qızarmır, nə də usanmır,
Dolanıb sərsəri, avarə gedir.

Heçkəs birbirini yıxıb getməsin,
Salıb məngənədə sıxıb getməsin,
Yanakı gözücü baxıb getməsin,
Bilsinki axırda məzara gedir.

Cəmiləm sözümü dedim qurtardım,
Cahilə, nadana söydüm qurtardım,
Qəzəblə, hiddətlə döydüm qurtardım,
Qanmazdan-qanana xəbərə gedir.

***Cəmil Əkbər***

## 301. GEDİR

Günlər keçir qocalırıq dünyada,
Gözümüzdən işıq gedir, nur gedir.
Zəhmət çəkib biz çatsaq da murada,
Dizimizdən taqət gedir, gir gedir.

Çatılıbdır çatılmayan qaşımız,
Ağarıbdır saqqalımız, başımız,
Payız gedir, yaxalayır qışımız,
Eləbilki tufan qopub, qar gedir.

Zəifləyir yaddaşımız, huşumuz,
Əldən qalır görüləsi işimiz,
Ağzımızda qərar tutmur dişimiz,
İnci gedir, sədəf gedir, dürr gedir.

Qırışlar da iz salıbdır üzlərə,
Duman çöküb, tor gəlibdir gözlərə.
Ağrı çökür oynaqlara, dizlərə,
Qüvvət gedir, qüdrət gedir, zor gedir.

Gəzənmirik oylaqları, dağları,
Solub gedir eşqimizin bağları,
Bar gətirmir şamamanın tağları,
Yetişməmiş alma-heyva, nar gedir.

Əzalardan sağlam qalmır biri də,
Sümüklər də, əzələ də, dəri də,
Bəhsəbəhsdən qalan yoxdur geridə,
Saxlamayır budağında bar, gedir.

Tarix yola salır ulu şahları,
İstər günah etsin, ya savabları,
Ya sevimc gətirsin, ya da ahları,
Tərlan gedir, şahin gedir, sar gedir.

Meydan açıb bir ayağa durmamış,
At çapırıb, köhlənini yormamış,
Dövranını tamam-kamal sürməmiş,
Neçə tay-tuş, neçə yoldaş, yar gedir.

Dəyişir zəmanə, dəyişir həyat,
Əbədi deyildir nə toy, nə büsat,
Tapılmır çarəsi, tapılmır heyhat,
Səraf gedir, zərgər gedir, zər gedir.

Könülləri sındirmasın sözümüz,
Od-ocaqsız yandırmasın közümüz,
Görə-görə kor olmasın gözümüz,
Hörmət edək insanlara, gör gedir.

Cəmil, gəl unutma bu həqiqəti,
Əmanət almısan xətir-hörməti,
Sədaqəti, səxavəti, mürvəti,
Ellərin borcunu qaytar, ver gedir.

***Cəmil Əkbər*** 1979

## 302. GEDİR

Adam var, ilişib dünyada qalır,
Adam var, dayanmır, tez gəlib gedir.
Adam var, düşünüb xəyala dalır,
Adam var, dayazdır, üz gəlib gedir.

Adam var, yolunu, izini azır,
Danışıb dinəndə sözünü azır,
Çevirib doğrunu tərsinə yozur,
Adam var, dolanıb, düz gəlib gedir.

Adam var, çəkilib kölgəyə gedir,
Ayrılıb xüsusi bölgəyə gedir,
Nəqədər el gəzir, ölkəyə gedir,
Qəlbinin başında buz gəlib gedir.

Adam var, eləbil ürəyi daşdır,
Arzusu, istəyi, diləyi çaşdır.
Adam varki insanlıqda o başdır,
Adam var, qəlbində köz gəlib gedir.

Adam var, əzəldən eləbil kaldır,
Danışmaq istəmir, sanırsan maldır.
Söysən də dillənmir, eləbil laldır,
Adam var, dilində söz gəlib gedir.

Adam var, söhbəti, sözü də baldır,
Baxışı mülayim, gözü də baldır,
Yolu da şahrahdır, izi də baldır,
Adam var, dilində duz gəlib gedir.

Adam var, yüz dəfə pozula bilib,
Çevrilib tərsinə yozula bilib.
İnləyib, sızlayıb, sozala bilib,
Adam var bakirə qız gəlib gedir.

Adam var dağlarda qarı xoşlayır,
Dolanıb bağlarda narı xoşlayır.
Adam var çalmağa tarı xoşlayır,
Cəmil də əlində saz gəlib gedir.

***Cəmil Əkbər*** 6.09 – 1998

## 303. GEDİRSƏN

İnsanoğlu bu nə yoldu tutmusan?
Aza-aza beylə hara gedirsən?
Haqqı-ədaləti ucuz tutmusan?
Salırsan özünü dara gedirsən.

Nə hiylədi, nə kələkdi qurursan?
Şər danışıb aralığı vurursan?
Kişilənib bığlarını burursan?
Düşürsən borana, qara gedirsən.

Milyon ildir birbirini qırırsan,
Sinələrə dağ-düyünlər vurusan,
Onu-bunu haldan salıb yorursan,
Tapmayıb dərdinə çara gedirsən.

Qanqaraldıb əsəbləri korladın,
Əbəs yerdən hissimizi zorladın,
Bəyənməyib birbirini xorladın,
Salırsan zindana, tora gedirsən.

Dərdini çəkməkdən olmuşam xəsdə,
Oxudum mərsiyə, ağı, şikəstə,
Qalmışam çarəsiz, mən son nəfəsdə,
Salırsan qəlbimi hara gedirsən?

Dünyada nəqədər mal olmalıyıq?
Hamıdan arxada, dal olmalıyıq?
Dəyib, yetişməyib kal olmalıyıq?
Məqamı çatmamış gora gedirsən.

Bilmirsənmi buminvalla ay yazıq?
Toplamaq mümkün döy, qış üçün azıq[28],
Tufana qərq edib, öldürər sazaq,
İblisə, əqrəbə, mara gedirsən.

***Cəmil Əkbər*** 10. 09 – 1993

---

[28] Azıq – azuqə anlamında

## 301. GEDİRSƏN?

İnsan birbirinə yaman qəsd edir,
Bəşəroğlu bu nə yoldur gedirsən?
Yeməmişdən-içməmişdən məsd edir,
İnsanoğlu bu nə yoldur gedirsən?

Başınızda şeytan yatır, cin yatır,
İblis yatır, ilan-çayan, kin yatır,
Cəhalətə sürükləyən din yatır,
İnsanoğlu bu nə yoldur gedirsən?

Seçməyirsən yaxşıları pislərdən,
Xeyirxahı bədxahlardan, nəslərdən,
Mülayimi höcətlərdən, tərslərdən,
İnsanoğlu bu nə yoldur gedirsən?

Görən gözün görə-görə kor olub,
Eşitməyir, qulaqların kar olub,
Bu gen dünya niyə sənə dar olub?
İnsanoğlu bu nə yoldur gedirsən?

Nahaq yerdən al qanımız tökülür,
Dağ vüqarlar, şah qamətlər bükülür,
Sinələrə dağ-düyünlər çəkilir,
İnsanoğlu bu nə yoldur gedirsən?

Öldürən də bizik, ölən də bizik,
Ağlayan da bizik, gülən də bizik,
Axan gözyaşını silən də bizik,
İnsanoğlu bu nə yoldur gedirsən?

Əzilən də bizik, əzən də bizik,
İnciyən də bizik, bezən də bizik,
Tablaşıb, səbr edib dözən də bizik,
İnsanoğlu bu nə yoldur gedirsən?

Gözləmirik abır-ismət, həyanı,
Vicdan, məslək, əqidəni, qayəni,
Eşitmirik yolgöstərən dayəni,
İnsanoğlu bu nə yoldur gedirsən?

Lovğalığa, ədalara uyuruq,
Yersiz-yersiz sevdalara uyuruq,
Haqlı-haqsız sədalara uyuruq,
İnsanoğlu bu nə yoldur gedirsən?

Acgözlərə, hərislərə dözürsən,
Nanəcibə, naqislərə dözürsən,
Adbatıran varislərə dözürsən,
İnsanoğlu bu nə yoldur gedirsən?

Qurşanırsan alışlara-verişə,
Alışırsan həyəcana, təşvişə,
Çalıb-çapmaq sənə olubdur peşə,
İnsanoğlu bu nə yoldur gedirsən?

Biribirinizi qaralayırsan,
Baltasız, dəhrəsiz paralayırsan,
Atanı oğuldan aralayırsan,
İnsanoğlu bu nə yoldur gedirsən?

Ona buna lağ etməkdən doymursan,
Hədyan deyib, ağ etməkdən doymursan,
Qaraları ağ etməkdən doymursan,
İnsanoğlu bu nə yoldur gedirsən?

Birbirinə həsəd çəkib darılır,
İçin-için xırs yeməkdən qırılır,
Haldan düşüb, dildən düşüb yorulur,
İnsanoğlu bu nə yoldur gedirsən?

Deyən yoxdu elə getmə, belə gəl,
Arı kimi çiçəyə qon, gülə gəl,
Qoşulmaynan fitnəyə gəl, felə gəl,
İnsanoğlu bu nə yoldur gedirsən?

Yerli-yersiz davaları görürük,
Zəhərlənmiş havaları görürük,
Gör nəqədər yavaları görürük?
İnsanoğlu bu nə yoldur gedirsən?

Gözdikən var özgələrin varına,
Namusuna, qeyrətinə, arına,
Gözəl-göyçək xanımına, yarına,
İnsanoğlu bu nə yoldu gedirsən?

Birbirini gicitkantək dalayır,
Var-halını şülən çəkib talayır,
Onu-bunu barmağına dolayır,
İnsanoğlu bu nə yoldur gedirsən?

Birbirini korlayırlar nədənsə?
Xoşlamayıb xorlayırlar nədənsə?
Əsəbini zorlayırlar nədənsə?
İnsanoğlu bu nə yoldur gedirsən?

Həyasızlar, azğınlar da çoxalır,
Yelbeyinlər, pozğunlar da çoxalır,
Leşgəmirən quzğunlar da çoxalır,
İnsanoğlu bu nə yoldur gedirsən?

Gədələrə dədəmizdi deyirik,
Bəyimizə gədəmizdi deyirik,
Zəmanədə hədəmizdi deyirik,
İnsanoğlu bu nə yoldur gedirsən?

Qazanandan satan çoxdu, ay aman,
Oyanandan yatan çoxdu, ay aman,
Günahlara batan çoxdu,  ay aman,
İnsanoğlu bu nə yoldur gedirsən?

Gör haçandan cəhalətdə qalmısan?
Kin-küdrətdə ədavətdə qalmısan?
Satqınlıqda, xəyanətdə qalmısan?
İnsanoğlu bu nə yoldur gedirsən?

Bu gedişlə dağa-daşa düşərsən,
Bərkə-boşa, zora-xoşa düşərsən,
Baharı görməmiş qışa düşərsən,
İnsanoğlu bu nə yoldur gedirsən?

Belə getsə sağalandöy yaramız,
Axtarmaqla tapılandöy çaramız,
Düzələndöy viran qalmış aramız,
İnsanoğlu bu nə yoldur gedirsən?

Bu sözləri mən yazdım ki, qanasan,
Xətir-hörmət, haqqı-sayı anasan,
Nadanlığı birdəfəlik danasan,
İnsanoğlu bu nə yoldur gedirsən?

Mən Cəmil Əkbərəm öz övladınam,
Halaldan kəsb olan düz övladınam,
Dərin övladınam, üz övladınam,
İnsanoğlu bu nə yoldur gedirsən?

***Cəmil Əkbər*** 10. 06 – 1992

## 302. GEDİRSƏN

İnsanoğlu bu nə yoldu seçmisən?
İnsafı-mürvəti atıb gedirsən.
Qanından, canından yoxsa keçmisən?
Yaxşını-yamana qatıb gedirsən.

Ayıra bilmirsən yaxşını-pisdən,
Qızılı gümüşdən, qalayı misdən,
Salırsan qəlbləri eşq-həvəsdən,
Qərq olub qəflətdə yatıb gedirsən.

Yorulub bezmədin dava-dalaşdan,
Vahimə, səksəkə, qorxu, təlaşdan,
Feyziyab almırsan dostdan, yoldaşdan.
Qəlbi çamılığa batıb gedirsən.

Xainsən, paxılsan, qəlbiqarasan,
Əqidə, məsləkdən dönük parasan,
Sağlam bir bədəndə çürük yarasan,
Mayanı haramdan tutub gedirsən.

Nəqədər yazılıb oxumamısan,
Ətrindən doyunca qoxumamısan,
Özünə arxalıq toxumamısan,
Nifrətə, hiddətə çatıb gedirsən.

Fikirin, xəyalın viranəlikdir,
Ləyaqət naminə biganəlikdir,
Övladı-bəşərə divanəlikdir,
Bayquştək ulayıb, ötüb gedirsən.

Nəfsinə nəqədər aldanacaqsan?
Onun kölgəsində daldanacaqsan?
Bəd işə, əmələ yollanacaqsan?
Düşüb el gözündən itib gedirsən.

Sanma ki, dünyada kef eyləmisən,
Qazanclar götürüb nəf eyləmisən,
A zalım anla ki, səhv eyləmisən,
Cəhənnəm oduna çatıb gedirsən.

Ariflər pisliyə eyləmir meyil,
Mübtəda yerində işlətmir feil,
Qozbel qəbirdə də düzələn deyil,
Qanqaltək çöllərdə bitib gedirsən.

Eşit sözlərimi sən gəl insafa,
İnsan övladına heç vermə cəfa,
Sənə deməsinlər “gəl a bivəfa”,
Hansı məqsədinə yetib gedirsən?

Tanımırsan yaxşı nədi, pis nədi?
Papaq nədi, kepqa nədi, fəs nədi?
Tüsdü nədi, qurum nədi, his nədi?
Dəyər-dəyməzinə satıb gedirsən.

Sözlərim gəlməsin heçkəsə acı,
Baxmasın Cəmilə xain, qiyqacı,
Başında olsada şahlığın tacı,
Qaşları-qabağı çatıb gedirsən.

***Cəmil Əkbər*** 14. 10 – 1983

## 303. HARA GEDİRSƏN?

Yaman dəyişmisən, yaman ay gədə,
Dəyişə-dəyişə hara gedirsən?
Heçkəsə vermirsən aman ay gədə,
Döyüşə-döyüşə hara gedirsən?

Yetənə-yetirsən, daş da atırsan,
Ayaq qaldırırsan, baş da atırsan,
Gücün çatmadıqda xoş da atırsan,
Söyüşə-söyüşə hara gedirsən?

Ona-buna sabınlanıb girirsən,
Nə bacarsan meyvəsindən dərirsən,
Faydasını, hər xeyrini görürsən,
İrişə-irişə hara gedirsən?

Onu-bunu güldürürsən özünə,
Tanıtdırıb bildirirsən özünə,
Zərbə vurub, öldürürsən özünə,
Bürüşə-bürüşə hara gedirsən?

Yerli-yersiz davaları salırsan,
Zəhərlənmiş havaları salırsan,
Yer üzünə yavaları salırsan,
Çəkişə-çəkişə hara gedirsən?

Şər danışıb vuruşdurdun aranı,
Qövr etdirdin sızıldayan yaranı,
Ha cəhd etdin, tapanmadın çaranı,
Əyişə-əyişə hara gedirsən?

Yaxşıları yamanlara qatırsan,
Vicdanını, məsləkini satırsan,
Min sifətlə mətləbinə çatırsan,
Süyüşə-süyüşə hara gedirsən?

Elə sandın muradına yetmisən,
Sulanmamış, əkilməmiş bitmisən,
Son arzuna yetişmisən, çatmısan,
Sürüşə-sürüşə hara gedirsən?

Sən Cəmil Əkbərə darıldın yaman,
Qoluna-qılçına sarıldın yaman,
İçindən çatlayıb qırıldın yaman,
Daraşa-daraşa hara gedirsən?

***Cəmil Əkbər*** 30. 12 – 1992

## 304. GÖRƏN HARA GEDİRİK?

İnsanoğlu birbirinə qəsd edir,
Bu yol ilə görən hara gedirik?
Yeməmişdən, içməmişdən məsd edir,
Bu yol ilə görən hara gedirik?

Başımızda şeytan yatır, cin yatır,
Qəlbimizdə gör haçandan kin yatır?
Cəhalətə sürükləyən din yatır,
Bu yol ilə görən hara gedirik?

Seçənmirik yaxşıları pislərdən,
Xeyirxahı bədxahlardan, nəslərdən,
Qızılları gümüşlərdən, mislərdən,
Bu yol ilə görən hara gedirik?

Görə-görə gözlərimiz kor olub,
Eşitməyir, qulağımız kar olub,
Nə baladır, gen dünyamız dar olub?
Bu yol ilə görən hara gedirik?

Davalarda al qanımız tökülür,
Dağ vüqarlı şah qamətlər bükülür,
Sinələrə dağ-düyünlər çəkilir,
Bu yol ilə görən hara gedirik?

Əzilən də bizik, əzən də bizik,
İnciyən də bizik, bezən də bizik,
Səbr edib, tablaşıb, dözən də bizik,
Bu yol ilə görən hara gedirik?

Gözləmirik abır-ismət, həyanı,
Nə əqidə, nə məsləki, qayəni,
Yolgöstərən, iz göstərən dayəni,
Bu yol ilə görən hara gedirik?

Acgözlər də, hərislər də bizimdir,
Nanəciblər, naqislər də bizimdir,
Adbatıran varislər də bizimdir,
Bu yol ilə görən hara gedirik?

Biri-birimizdən qaralanırıq,
Ülfəti pozaraq aralanırıq,
Dərilib bostantək uralanırıq,
Bu yol ilə görən hara gedirik?

Qurşanırlar alışlara, verişə,
Baş qoşuruq hər peşəyə, hər işə,
Hər adətə, ənənəyə, vərdişə,
Bu yol ilə görən hara gedirik?

Ona-buna lağ etməkdən doymuruq,
Hərzəkarlıq, ağ etməkdən qorxmuruq,
Dahiləri, dühaları saymırıq,
Bu yol ilə görən hara gedirik?

Saxta-saxta təriflərə uyuruq,
Yalan-palan söz-söhbətdən doyuruq,
Çoxlarını ağlar gözlü qoyuruq,
Bu yol ilə görən hara gedirik?

Birbirinə həsəd çəkib darılır,
Paxıllıqdan için-için qırılır,
Haldan, heydən, dildən düşüb yorulur,
Bu yol ilə görən hara gedirik?

Yerli-yersiz davaları görürük,
Zəhərlənmiş havaları görürük,
Əqli-kəmi, yavaları görürük,
Bu yol ilə görən hara gedirik?

Göz dikirik özgələrin varına,
Namusuna, qeyrətinə, arına,
Almasına, heyvasına, narına,
Bu yol ilə görən hara gedirik?

Qoyan yoxdur hərkəsdəni yerinə,
Arvadlar da qəsd edirlər ərinə,
Gedən yoxdur bu işlərdə dərinə,
Bu yol ilə görən hara gedirik?

Cavanlar saymayır qocalanları,
Zəfər çalanları, bac alanları,
Zirvədən-zirvəyə ucalanları,
Bu yol ilə görən hara gedirik?

Həyasızlar, azğınlar da çoxalır,
Gündən-günə pozğunlar da çoxalır,
Leşgəmirən quzğunlar da çoxalır,
Bu yol ilə görən hara gedirik?

Qazanandan satan çoxdur ay aman,
Aralığı qatan çoxdur ay aman,
Oyanandan yatan çoxdur ay aman,
Bu yol ilə görən hara gedirik?

Cəmil Əkbər sağalandöy yaramız,
Ha çalışsaq düzələndöy sıramız,
Tapılandöy dərdimizə çaramız,
Bu yol ilə görən hara gedirik?

***Cəmil Əkbər***

## 305. HAYANA GEDİR?

İlahi görəsən bu yazıq bəşər,
Didişə-didişə hayana gedir?
Haçandan bəridir bu pozuq bəşər,
Çəkişə-çəkişə hayana gedir?

Nə kitab anlayır, nə sözü qanır,
İşarə anlayır, nə gözü qanır,
Əyrini tanıyıb, nə düzü qanır,
Əyişə-əyişə hayana gedir?

Biri-birisini al qana salır,
Fitnəyə, fəsada, böhtana salır,
Məhbəsə, türməyə, zindana salır,
Söyüşə-söyüşə hayana gedir?

Haçandan bəridir yola getməyir,
Sağa çəkilməyir, sola getməyir,
Bazarda satılıb pula getməyir,
Deyişə-deyişə hayana gedir?

Deyirsən sözünü başa düşməyir,
Qaşını-gözünü başa düşməyir,
Dərk edib özünü başa düşməyir,
Keyləşə-keyləşə hayana gedir?

İtiribdir kamalını yerbəyer,
Məsləkini, amalını yerbəyer,
Bədnam edir mahalını yerbəyer,
Söyüşə-söyüşə hayana gedir?

Biri-birisini qandıra bilmir,
Yaramaz işləri dandıra bilmir,
Salıb yaramazı yandıra bilmir,
Taylaşa-taylaşa hayana gedir?

Haçandan bəridir düzələ bilmir,
Rəndəyə gələrək nəzilə bilmir,
Bədxahlıq etməkdən üzülə bilmir,
Zaylaşa-zaylaşa hayana gedir?

Oyanıb yuxudan səsküyə düşüb,
İtirib ağlını, pis günə düşüb,
Bədxah günə düşüb, nəs günə düşüb,
Küyləşə-küyləşə hayana gedir?

Düz getmir yolunu haçandan bəri,
Gözünü dünyaya açandan bəri,
Bu yurddan, o yurda köçəndən bəri,
Söyləşə-söyləşə hayana gedir?

***Cəmil Əkbər***

## 306. GEDƏRSƏN

Bəs eyləyər hey özünü öydüyün,
El verər qiymətin, alıb gedərsən.
İsrafil çaldığı o sur düdüyün,
Yetişər məqamı çalıb gedərsən.

Dadarsan həyatın tamından biraz,
Dövrü-zəmanənin kamından biraz,
İçərsən şərbəti, camından biraz,
Xəzana qərq olub, solub gedərsən.

Ağarar saqqalın, ağarar başın,
Sarsıyar fikirin, dağılar huşun,
Köçərsən dünyadan, atılar daşın,
Qərq olub, xəyala dalıb gedərsən.

Keçən dövranları, ötən günləri,
Arada-bərədə itən günləri,
Arzuya, mətləbə yetən günləri,
Arabir yadına salıb gedərsən.

Yanına nə gedən, nə gələn olar,
Soruşub əhvalın nə bilən olar,
Gözünün yaşını nə silən olar,
Yorulub yollarda qalıb gedərsən.

Korlanıb əsəbin, qaralar qanın,
Çəkilər zülalın, quruyar şanın,
İtirib taqəti, üzülər canın,
Qara buludtəki dolub gedərsən.

Cəmil Əkbər, çalış şərafətə çat,
Ətiri-gülüstan, tərafətə çat,
Qoçaqlıq, zirəklik, məharətə çat,
Ellərdən ilhamı alıb gedərsən.

***Cəmil Əkbər*** 14. 02 – 1995

## 307. ÖMÜRDƏN GEDİR

*Yeni il münasibətilə*

Yatmaynan qəflətdə oyan vətəndaş,
Hər ötən günlərin ömürdən gedir.
Qal-qovğa törətmə, dayan vətəndaş,
Həftələr, hər aylar ömürdən gedir.

Bu keçən günlərin qədrini bilin,
Gözləri bürüyən dumanı silin,
Gözəl əməllərlə sevinin, gülün,
Dolanan hər illər ömürdən gedir.

Nəzər sal özünə, nə iş görmüsən?
Vətənə, xalqına nəyi vermisən?
Nəyi becərmisən, nəyi dərmisən?
Qərinə, fəsillər ömürdən gedir.

Cəsarət göstərin, hünərlə durun,
Qələbə, təntənə, zəfərlə qurun,
İşləyib, tər tökün, özünü yorun,
Hər ötən əsrlər ömürdən gedir.

Yerli-yersiz onu-bunu bezdirmə,
Dağa salıb, daşa salıb gəzdirmə,
Nadanlığın cəfasına dözdürmə,
Hər yazın, hər qışın ömürdən gedir.

Sanma bu dünyaya bir də gələrsən,
Təzədən doğulub, bir də ölərsən,
Sevinib, şənlənib, bir də gülərsən,
Hər anın, saniyən ömürdən gedir.

Sən ötürmə hədər vaxtı, vədəni,
Yada sal babanı, nurlu dədəni,
Güldürmə özünə gəlib-gedəni,
Dövr edir zəmanə ömürdən gedir.

Eşit sözlərimi gəl məni dinlə,
Az oyna şeytanla, iblislə, cinlə,
Qəlbini doldurma qəzəblə, kinlə,
Azın da, çoxun da ömürdən gedir.

Dayanıb gecikmə, yerində anla,
Nöqsanın olubsa, özünü danla,
Hesablaş hərzaman məqamla, sanla,
Vaxtı boş keçirmə, ömürdən gedir.

O günlər bir daha geriyə dönmür,
Ölən vaxt-vədələr diriyə dönmür,
Qayıdıb naxıra, sürüyə dönmür,
Nəyin var, nəyin yox, ömürdən gedir.

***Cəmil Əkbər***     31. 12 – 1997

## 308. YANIB GEDİR

Əzəldən belədir dünyanın işi,
Qurunun oduna yaş yanıb gedir.
Saxlamaq olmayır, dövrü-gərdişi,
Baharın eşqilə qış yanıb gedir.

İnsanoğlu mürvətini atanda,
Yaxşıya pis, pisə yaxşı qatanda,
Yolu azıb şər işləri tutanda,
Dərdləyib, kamallı baş yanıb gedir.

Kimki çəkib zəhmət qədri bilməsə,
Qayğı çəkib, xidmət qədri bilməsə,
Hünəriylə sevinməsə gülməsə,
Vədə tamam olub, boş yanıb gedir.

İnsan yaralanıb insan dilindən,
Baş açmayıb fitnəsindən, felindən,
Alışıb, kül olub, öz əməlindən,
Dayana bilməyib daş yanıb gedir.

Yollarını, izlərini azanda,
Düzü əyri, əyrini düz yozanda,
Ünsiyyəti, ülfətləri pozanda,
Fikir çaşbaş qalıb, huş yanıb gedir.

Nadanlığın, cəhalətin ucundan,
Addımbaşı qəbahətin ucundan,
Paxıllığın, xəyanətin ucundan,
Nəqədər Səməndər, quş yanıb gedir.

Xəta-bəla cəncəlliklər üzündən,
Həyatdakı əngəlliklər üzündən,
Aman Allah tənbəlliklər üzündən,
Nəqədər, nəqədər iş yanıb gedir.

Ay Cəmil, belədir dünyanın işi,
Zamanın qərarı, dövrü-gərdişi,
Qoyan belə qoyub özü vərdişi,
Gətirə bilməyib, guş yanıb gedir.

***Cəmil Əkbər*** 11. 01 -1997

## 309. ƏLDƏN GEDƏR[29]

*(DİVANİ)*

Gəl aldanma zəmanənin hər köklənən sazına,
Yolu versən tamahına, şöhrətin əldən gedər.
Həris olma var-dövlətin nə çoxuna, azına,
Boğanmasan sən nəfsini, qeyrətin əldən gedər.

Əvvəl-axır seyrə çıxıb, qazandığın gör nə var?
Ləli-gövhər, cəvahirat, inci, əşrəf, zər nə var,
Sən bilirsən, mən bilmirəm, əllərində hərnə var,
Düşsən elin nəzərindən, hörmətin əldən gedər.

Qılıncına bel bağlayıb tanınma cəllad kimi,
Enişlərdə, yoxuşlarda sınanma cəllad kimi,
Əvvəl-axır aqibətdə qınanma cəllad kimi,
İtirərsən sədarəti, qüdrətin əldən gedər.

Elə otur, elə durki görənlər əhsən desin,
Yaxşı becər bağlarını dərənlər əhsən desin,
Qədəm qoyub bostanına girənlər əhsən desin,
Gözləməsən ədəb-ərkan, mərfətin əldən gedər.

Elə danış, elə dinki zəhlələri tökməsin,
Qaş-qabağa düyün vurub, qamətləri bükməsin,
Şimşək kimi yalavıyıb, bulud kimi, çökməsin,
Gözləməsən abır-həya ismətin əldən gedər.

Nə bacarsan əsirgəmə, öz xalqına zəhməti,
Göstərginən hünərini, qayğıları, xidməti,
Əhdi-peyman, düz ilqarı, səadəti, hörməti,
Tər tökməsən sən bu yolda, hikmətin əldən gedər.

---

[29] Cəmil Əkbərin "Əldən gedər" rədifli divanisi Türkiyədə işıq üzü görən "Hece Taşları" dərgisinin 15 Moyabr 2022 –ci il 93-cü sayının 14-15-ci səhifəsində yayınlanmışdır. https://mail.google.com/mail/u/0/#inbox/FMfcgzGqRZfCKjMNmGmNqRKjCsWrBhhS?projector=1&messagePartId=0.2

Elə et ki, çəkiləsən sərrafların gözündə,
Alimlərin, loğmanların, maariflərin gözündə,
Dərdbilənin, ariflərin, əhlihalın gözündə,
Dəyərini bilən olmaz, qiymətin əldən gedər.

Xidmət eylə kişi kimi, Vətənində ad qazan,
Hərbir evdə istin olsun, ocaq qala, od qazan,
Ülfət eylə insanlarla, qohum-qardaş, yad qazan,
Yaşatmasan, yaratmasan, nüsrətin əldən gedər.

Öz vaxtının qədrini bil, diqqətini itirmə,
Saatını boş keçirib, saniyəni itirmə,
Böyüyünə təzim eylə, öz dayəni itirmə,
Olan-qalan məharətin, fitrətin əldən gedər.

İnsanlığa xələl vurma, ləyaqətlə gəz, dolan,
Çətinliyə sinə gərib, mətanətlə döz, dolan,
Ədalətlə rəftar edib, həqiqətlə düz, dolan,
Yalan-yanlış danışmaynan, ülfətin əldən gedər.

Çox əylənmə gəl ay Cəmil, hər yetənin yanında,
Bədəsilin, nanəcibin, xoryadların yanında,
İdeyası, əqidəsi bərbadların yanında,
İtirərsən olan-qalan söhbətin əldən gedər.

***Cəmil Əkbər*** 27. 01 - 1989

## 310. ÖZGƏ YOLLA GEDƏNMƏRƏM

Məni çəkmə əyri yola,
Mən o yolla gedənmərəm.
Haqq yolundan qeyri yola,
Özgə yolla gedənmərəm.

Yayındırma öz yolumdan,
Doğma, əziz, düz yolumdan,
Dərin-dayaz, üz yolumdan,
Özgə yolla gedənmərəm.

Qovma məni ləyaqətdən,
Xeyirxahlıq, fəzilətdən,
İnsanlıqdan, sədaqətdən,
Özgə yolla gedənmərəm.

Məhrum etmə nəzakətdən,
İnsaf-mürvət, kəramətdən,
Mərhəmətdən, səxavətdən,
Özgə yolla gedənmərəm.

İnanmaram yalana mən,
Cızmaqara plana mən,
Hər zurnanı çalana mən,
Özgə yolla gedənmərəm.

Salma məni dağa-daşa,
Uymaram hər gözə-qaşa,
Doğru anlayıb düş başa,
Özgə yolla gedənmərəm.

Mərd igidə böhtan demə,
Yerli-yersiz dastan demə,
Qərəz, hiylə, qəsdən demə,
Özgə yolla gedənmərəm.

Şeytanları tərifləmə,
Əhlihalı hərifləmə,
Qəmişini gəl üffləmə,
Özgə yolla gedənmərəm.

Aralığı qatma gədə,
Bədəməllər tutma gədə,
Gəl günaha batma gədə,
Özgə yolla gedənmərəm.

Fitnə-fəsad, şər danışma,
Hər nadana zər danışma,
Ürək açıb sir danışma,
Özgə yolla gedənmərəm.

Xoşlamıram ədəbazlıq,
Hər zurnaya oyunbazlıq,
Nə şıltaqlıq, kəndirbazlıq,
Özgə yolla gedənmərəm.

Düz gedəni əymə gədə,
Könüllərə dəymə gədə,
Geçmişimə söymə gədə,
Özgə yolla gedənmərəm.

Ucalanı endirmə gəl,
Çırağını söndürmə gəl,
Cəhənnəmə göndərmə gəl,
Özgə yolla gedənmərəm.

Düz yoluma daşı düzmə,
Ay nabələd naşı düzmə,
Baharıma qışı düzmə,
Özgə yolla gedənmərəm.

Bacarmıram dələduzluq,
Vicdanı kəm, qəlbi buzluq,
Nə azğınlıq, nə pozğunluq,
Özgə yolla gedənmərəm.

El bilirki yolum haqdır,
Sağım haqdır, solum haqdır,
Yorulmayan qolum haqdır,
Özgə yolla gedənmərəm.

İstərdim ki, qanım Haqqı,
Nə gizlədim, danım Haqqı?
Harda olsam anım Haqqı,
Özgə yolla gedənmərəm.

Alışqınam düz yola mən,
Çox qoymuşam göz yola mən,
Gələnmirəm tez yola mən,
Özgə yolla gedənmərəm.

Cəmil Əkbər qanı təmiz,
Zülalı pak, şanı təmiz,
Oxu sən də, tanı təmiz,
Yanlış yolla gedənmərəm,
Özgə yolla gedənmərəm.

***Cəmil Əkbər*** 24. 08 -1994

## 311. DÜZ GƏLİB GEDİN

Oxuyun, öyrənin, nəzərə alın,
Yol ilə, iz ilə düz gəlib gedin.
Düşünün, dərk edin, xəyala dalın,
Yol ilə, iz ilə düz gəlib gedin.

Bağban olub, bağça, barı saxlayın,
Əhd-peymanı, düzilqarı saxlayın,
Adı, sanı, iftixarı saxlayın,
Yol ilə, iz ilə düz gəlib gedin.

Sükanı düz saxla, əyilmə qəti,
Elin nəzərində söyülmə qəti,
Nifrət zindanında döyülmə qəti,
Yol ilə, iz ilə düz gəlib gedin.

Yaxşını yamana qatandan olma,
Mərdləri namərdə satandan olma,
Qəflət yuxusunda yatandan olma,
Yol ilə, iz ilə düz gəlib gedin.

Elinə lağ edib, obana gülmə,
Martena peçinə, sobana gülmə,
Nurani dədənə, babana gülmə,
Yol ilə, iz ilə düz gəlib gedin.

Köksüz ağac olmaz, butaqsız da bar,
Bağlarda gül olar, zirvələdə qar,
Oxu bu sözləri, bil açıq-aşkar,
Yol ilə, iz ilə düz gəlib gedin.

Övladı-bəşərə sataşma əsla,
Qapı-bacasına daş atma əsla,
Qəlbində xainlik yaşatma əsla,
Yol ilə, iz ilə düz gəlib gedin.

Həmdəmlik eyləmə azanlara gəl,
Doğrunu əyriyə yozanlara gəl,
Ülfət-ünsiyyəti pozanlara gəl,
Yol ilə, iz ilə düz gəlib gedin.

Xainlə, xəbislə oturub-durma,
Axtarıb arama, hal-əhval sorma,
Acgözlə, hərislə özünü yorma,
Yol ilə, iz ilə düz gəlib gedin.

Elin nəzərindən uzağa getmə,
Qərq olub tufana, sazağa getmə,
Aldanıb tamaha duzağa getmə,
Yol ilə, iz ilə düz gəlib gedin.

Əl çəkin hiyləgər, dələduz, bicdən,
Sərsəri, kəmağıl, səfehdən, gicdən,
Haqqa, ədalətə öc oğlu öcdən,
Yol ilə, iz ilə düz gəlib gedin.

İncidib kimsəni bezdirməyin siz,
Kökündən qopardıb, üzdürməyin siz,
Əzaba, zülmətə dözdürməyin siz,
Yol ilə, iz ilə düz gəlib gedin.

Uymayın fitnəyə, fəsada, şərə,
Tamahı, nəfisi alma nəzərə,
Deyirəm sözümü eşit min kərə,
Yol ilə, iz ilə düz gəlib gedin.

Bu bəşər övladı xoşlamır pisi,
Xoşlamır bədniyyət, bədxahı, nəsi,
Vicdandan, məsləkdən uzaşan kəsi,
Yol ilə, iz ilə düz gəlib gedin.

Gözlə hüdudunu, keçmə həddini.
Bədəməl törədib əymə qəddini,
Çıxıb cızığından, daşma səddini,
Yol ilə, iz ilə düz gəlib gedin.

Demə lazım deyil nəsihət mənə,
Bu məna, bu məzmun, bu hikmət mənə,
Bu peşə, bu sənət, bu adət mənə.
Yol ilə, iz ilə düz gəlib gedin.

Atalar sözünün faydası çoxdur,
Ölçüsü, biçisi, qaydası çoxdur,
Yarpağı, kölgəsi, daldası çoxdur,
Yol ilə, iz ilə düz gəlib gedin.

Demə bildiyiniz az olub baba,
Ya dayaz, ya səthi, üz olub baba,
İncəsənətiniz saz olub baba,
Yol ilə, iz ilə düz gəlib gedin.

Cəmiləm, dünyada gördüm, götürdüm,
Ustaddan dərs aldım, kursu bitirdim,
Karvanımı mənzilimə yetirdim,
Yol ilə, iz ilə düz gəlib gedin.

***Cəmil Əkbər*** 20. 01 -1984

## 312. GETMİRƏM

Ay zərif çətirli, ay çiçəklərim,
Mən səndən əl çəkib doyub getmirəm.
Ay behişt ətirli, ay göyçəklərim,
Mən səni kimsəsiz qoyub getmirəm.

Ətirli çəmənin gözəldir mənə,
Şeirdi, dastandı, qəzəldi mənə,
Hərşeydən ülvidir, əzəldir mənə,
Özgə gözəllərə uyub getmirəm.

Mən səni heçkəsə dəyişmərəm bil,
Qaynayıb, yovuşub, üyüşmərəm bil,
Yanından xəbərsiz süyüşmərəm bil,
Günahı, bavalı yuyub getmirəm.

Fikirim, xəyalım yanında qalır,
Mehri-ülfətində, canında qalır,
Çəkilən zülalda, şanında qalır,
Göyöyün xisləti yeyib getmirəm.

Boynumda nəqədər haqqı-sayın var?
Kəkotu, quşburnu, çəmən çayın var?
Dadlı sovqatın var, dürlü payın var?
Gözümü önündə döyüb getmirəm.

Mən də bu dağların balasıyam bil,
Şair təbiətli lalasıyam bil,
Öl desən ölərəm, qalasıyam bil,
Cəmiləm özümü öyüb getmirəm.

***Cəmil Əkbər*** 29. 06 – 1986

## 313. GETMƏSİN

Bilmirəm nə deyim, nə yazımki mən?
Silinib ürəkdən izi getməsin,
Nəyi qaralayıb, nə yozum ki, mən,
Astarı cırılıb, üzü getməsin.

Əsrlər keçsə də, çıxmasın yaddan,
Düşməsin hörmətdən, düşməsin moddan,
Düşməsin damaqdan, düşməsin daddan,
Tamı azalmasın, duzu getməsin.

Həmişə gül açsın, ətiri olsun,
Dəyməsin qəlblərə, xətiri olsun,
Könüllər mülkündə sətiri olsun,
Baharı solmasın, yazı getməsin.

Dolansın dəhanda, dodaqda, dildə,
Gəzsin diyar-diyar hər oba, eldə,
Şirvanda, Şəkidə, Muğanda, Mildə,
Avazı kəsilib, sazı getməsin.

Bu cahan mülkündə hörməti artsın,
Şərəfi çoxalsın, şöhrəti artsın,
Ay Cəmil, mənası, hikməti artsın,
Çoxu əksilməsin, azı getməsin.

***Cəmil Əkbər*** 25. 10 – 1992

## 314. GƏL

Elə-belə qurdalanma,
Cəsarətə, cürətə gəl.
Əlayaqda xırdalanma,
Namusa gəl, qeyrətə gəl.

Yerli-yersiz ədalanma,
Boş-boşuna sədalanma,
El içində gədalanma,
Dəhşətə gəl, heyrətə gəl.

Əlayağın soyumasın,
Qəflətlərdə uyumasın,
İşdən-gücdən yayınmasın,
Şərafətə, şöhrətə gəl.

Çiçəyə düş, yetiş bara,
Nazı-nemət, külli vara,
Köməyə gəl, yetiş kara,
Nicata gəl, nüsrətə gəl.

Bulud kimi dolana bax,
Kömül mülkü talana bax,
Gözü yolda qalana bax,
İnsafa gəl, mürvətə gəl.

Birbirinə kömək üçün,
Halal zəhmət, əmək üçün,
Xurma, kişmiş yemək üçün,
Bağdada gəl, Bəsrətə gəl.

Damarında coşsun qanın,
Üzə çıxsın gövhər-kanın,
Budur doğru yol-ərkanın,
Təpərə gəl, riqqətə gəl.

Gün keçirmə arsız-arsız,
Ulğun kimi barsız-barsız,
Olmaginən etibarsız,
Məzmuna gəl, hikmətə gəl.

Bulud kimi dolan mənəm,
Tər qönçədə solan mənəm,
Qapılarda qalan mənəm,
İntizara, həsrətə gəl.

Vaxt-vədəni ötürmə boş,
Hədər yerə itirmə boş,
Ömrü sona yetirə boş,
El-obaya xidmətə gəl.

Çalış bağda barın artsın,
Alma, heyva, narın artsın,
Yemək, içmək varın artsın,
Dövlətə gəl, sərvətə gəl.

Gözdən düşüb itib getmə,
Kol-kostəki bitib getmə,
Yan-yörədən ötüb getmə,
Gülüstana, cənnətə gəl.

Dolanmaynan arsız-arsız,
Söyüd kimi barsız-barsız,
Etibarsız, düz ilqarsız,
Hörmətə gəl, izzətə gəl.

Ülfətimiz pozulmasın,
Gücdən düşüb azalmasın,
Sözlərimiz yozulmasın,
Xahişə gəl, minnətə gəl.

Kimə lazım divanəlik?
Laqeyidlik, biganəlik,
Gəl eyləmə əllaməlik,
Giley-güzar, qeybətə gəl.

Taleyindən küsmə qəti,
Məqamında susma qəti,
Ümidini kəsmə qəti,
Qüvvətə gəl, qüdrətə gəl.

Yeri gəlsə canı yandır,
Damarında qanı yandır,
Vicdanında şamı yandır,
Xidmət eylə millətə, gəl.

Ülfətini saxla təmiz,
Tamahına olma kəniz,
Kamal olsun dərya, dəniz,
Pak arzuya, niyyətə gəl.

Qoy əlindən bezməsinlər,
Bəd işini sezməsinlər,
Əzabına dözməsinlər,
Nəzər yetir xidmətə gəl.

Yaxşı şeydir üzdə həya,
Təmiz vicdan, məslək, qayə,
Yol göstərir müdrik dayə,
Abıra gəl, ismətə gəl.

Şan-şöhrətin varmı, hanı?
Göstər eldə adı-sanı,
Görüb-götür yaxşı tanı,
Dəyərə gəl, qiymətə gəl.

Cəmil Əkbər yorulmaynan,
Şirətəki sorulmaynan,
Hər yetənə vurulmaynan,
Vüsətə gəl, sürtətə gəl.

***Cəmil Əkbər*** 7. 06 -1997

## 315. GƏL

Qovuşmaq istəsən səadətə sən,
Dayanıb durmadan hərəkətə gəl.
Gözəl ənənəyə, xoş adətə sən,
İnsanlıq elminə ləyaqətə gəl.

Meylini yetirmə əyri yollara,
Ədəbdən-ərkandan qeyri yollara,
Heçkəsə olmayan xeyri yollara,
Doğruluq-düzgünlük, həqiqətə gəl.

Aldanma, daldanma hər yetən kəsə,
Zalıma, qəddara, bədxaha, nəsə,
Hər cücərən kəsə, hər bitən kəsə,
İnsafa, mürvətə, kəramətə gəl.

Deməki, dünyada mən də varam, var,
Cəm olub əlimdə külli-ixtiyar.
Hamı hüzurunda baş əyir, diyar,
Ədəbə-ərkana, nəzakətə gəl.

Bu fani dünyada izin bilinsin,
Nəzərin bilinsin, gözün bilinsin,
Söhbətin bilinsin, sözün bilinsin,
Ətiri-gülüstan, təravətə gəl.

Hər bəd işə, əməllərə yollanma,
İtirib əqlini əsla, aldanma,
Orda-burda, kölgələrdə daldanma,
Bacarıq, fəhimə, fərasətə gəl.

Desinlər dünyanın Hatəmi sənsən,
Ulduzu, günəşi, aytəni sənsən,
Dar gündə imdada yetəni sənsən,
İxtiyar, hüquqa, sədarətə gəl.

Avamlığa, cəhalətə yollanma,
Xəta-bəla, qəbahətə yollanma,
Kin-küdurət, ədavətə yollanma,
Mehri-ülfətə gəl, fəzilətə gəl.

Eşidin, anlayın Cəmil Əkbəri,
Zəka sahibini, sinədəftəri,
Olun sözlərinə siz də müştəri,
Xoş-arzu, istəyə, məhəbbətə gəl.

***Cəmil Əkbər*** 6. 11. – 1993

## 316. GƏL

Şəhər, qəsəbədə çox gəzdin yetər,
Oğul kəndinə dön, kəsəyinə gəl.
Dolandın, yaşadın, girləndin yetər,
Doğma ocağının kösöyünə gəl.

Yabançı ölkədə qaldığın bəsdir,
Fikirə, xəyala daldığın bəsdir,
Gül kimi saralıb, solduğun bəsdir,
Səfalı yaylağın, güneyinə gəl.

Gəl ulu dağların nəfəsini gör,
Bülbüllü bağların həvəsini gör,
Barlı-bərəkətli meyvəsini gör,
Bənövşə dərməyə, quzeyinə gəl.

Çıxıb yal-yamacın lalasına bax,
Yaşıl meşələrin talasına bax,
Əliyin, maralın balasına bax,
Sirli təbiətin muzeyinə gəl.

Alma burda, heyva burda, nar burda,
Dövlət burda, sərvət burda, var burda,
Qohum burda, qardaş burda, yar burda,
Ülfət-ünsiyyətin bəzəyinə gəl.

Ana Vətənindən aralanma sən,
Buralı sayılıb oralanma sən,
Kimsədən şəklənib qaralanma sən,
Həyatın cövhəri, özəyinə gəl.

Dərib dəstə bağla kəkotusundan,
Yığıb qışa saxla yolotusundan,
Qıcı, cincilimdən, çölotusundan,
Qartof  basırmağa, təzəyinə gəl.

Demə ki, kənd hara mən hara qardaş?
Dəyirman, dağarcıq, dən hara qardaş?
Sis-duman, qar-boran, çən hara qardaş?
Qışda sürüşməyə, xizəyinə gəl.

Cəmilə demə ki, şəhər gözəldir,
Çəksədə kef-damaq, qəhər gözəldir,
Birtəhər olsada bəhər gözəldir,
Payızda sürünün güzdəyinə gəl.

***Cəmil Əkbər*** 3. 09 - 1991



# PROF. DR. İLQAR CƏMİLOĞLU İMAMVERDİYEV

İlqar Cəmiloğlu İMAMVERDİYEV 23 sentyabr 1956-cı ildə Azərbaycanın Gəncə şəhrində anadan oldu. Fikrət Əmirov adına 1 saylı Uşaq Musiqi Məktəbini *(1967-1972),* Qənbər Hüseynli adına Orta İxtisas Müziqi Litseyini *(1972-1976)* və Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (Bakı Musiqi Akademiyası) *(1976 - 1981 ilində tar ixtisası üzrə)* fərqlənmə diplomaları ilə bitirdi. 1985 ilində Moskvada təşkil olunmuş Tələbə və Gənclərin XII Ümumdünya Festivalının diplomunu, 1986 ilində Orta Asiya və Zaqafqaziya dövlətləri arasında Şərq Alətləri üzrə Bakıda keçirilən Üzeyir Hacıbəyli adına I Beynəlxalq müsabiqəsinin laureatı adana layiq görüldü. Zaqafqaziya, Orta Asiya və Türkiyədə düzənlənən xalq musiqisi və folkloru sahəsində bir çox uluslararası kongreslərdə aktual mövzularla çıxış edərək, 200-dən artıq elmi məqalələri fərqli hakimli dərgilərdə, eyni zamanda Azərbaycan və Türkiyə mətbuatında yayınlanmıştır. 1994 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarına əsasən «Sənətşünaslıq namizədi» diplomunu *(EN № 0308, 2 Noyabr 1994 il tarixli Protokol № 54),* 2009 ilində sənətşünaslıq doktoru diplomunu *(ED № 01109, 8 May 2009 il tarixli Protokol № 8 –R),* - elmi ünvanlarını aldı. 1981 ilindən 2000 ilə qədər Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Xalq Çalgı Alətləri Kafedrası"nda, 2000–2006-ci illərdə Ərzurum Atatürk Üniversitetndə dosent vəzifəsində çalışdı. 2007-ci ilindən etibarən Gaziantep Üniversiteti Türk Musiqisi Dövlət Konservatoriyasında dosent, 2011-ci ilindən etibarən həmin Ali Təhsil Qurumunun İdarə Heyətinin qərarı *(05.07-2011, № 14)* ilə professor vəzifəsində çalışmaqdadır. 2015 ilində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı əsasında 2-ci Professorluq Diplomunu *(PR № 01432, 17 Aprel 2015 tarixli Protokol №* 07 *R )* almağa layiq görülən İlqar Cəmiloğlu İmamverdiyev bir çox mükafatlara layiq görüldü.

1. İstanbul Büyükşehir Belediyesi ile Motif Vakfı işbirliğinde düzenlenen 21.Motif Halk Bilim Ödülleri değerlendirmeleri Ödül Tespit Komisyonu tarafından yapılmış "Halk Müziği Hizmet Ödülü". 12 Aralık 2015
2. "Avrupa Nəşr Mətbuat Evi"nin "En Yaxşı Vətənsevər Tədqiqatçı Elm Adamı" Qızıl Medalı və Diplomu *(AZ - № 8032200126 )* Bakı – 2016.
3. İksad Yayınevinin "Onur ödülü" 2018, 2020.

Ötən illər ərzində İlqar Cəmil oğlu İmamverdiyev "Ansambl üçün pyeslər məcmuəsi" *(1997),* "Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri" *(2004),* "Azərbaycanın 20 saz havası" adlı I, II *(2005)* və III cild *(2006),* "Azərbaycanın 40 saz havası" *(2006 ),* "Fortepiano müşayiətli saz əsərləri" *(2006),* "Fortepiano müşayiətli tar əsərləri" I, II cild *(2006),* "İran Türklərində aşıq toy mərasimləri" *(2006),* iki cilddən ibarət "Azərbaycan rəqs havaları" *(2007),* üç cilddən ibarət "Azərbaycan muğam rəngləri və dəramədləri" *(2007, 2009),* "Azərbaycan və İran Türklərinin aşıq - ifaçılıq sənətinin qarşılıqlı əlaqələri" 1-ci nəşr *(2007),* 2-ci nəşr *(2008),* "Aşıq Mikayıl Azaflının saz havaları" *(2008),* altı cilddən ibarət "Azərbaycan xalq mahnıları" *(2007, 2008, 2009),* "Azərbaycan muğam inciləri" *(2010),* "Məzəli əhvalatlar və gülməcələr" *(2010),* "Miskin Abdal ocağının el sənətkarları" 1-ci nəşr *(2011),* "Şirvan aşıqlarının saz havaları" *(2011),* "İran-Azərbaycan aşıqlarının 40 saz havası" *(2012),* "Koroğlu havaları" *(2012),* "Saz havaları antologiyası" *(2013),* "Azərbaycan instrumental xalq musiqi örnəkləri" *(2014),* "Vahid Əlioğlunun şeirlərinə bəstələnmiş musiqilər" *(2015),* "Miskin Abdal elinin saz - söz ustadları" 2-ci nəşr *(2017),* "Dədə Şəmşir ifaçılığı sənətində ənənəvi saz havaları" *(2017),* "Azərbaycan musqisində Bahar mövzusu və Novruz motivlərinin izləri" *(2018),* "Bir millət, iki dövlət, Azərbaycan – Türkiyə" *(2018),*"Azərbaycan musiqi mədəniyyətində bayatılar – manilər" *(2019) (türkcə),* "Yaşayırsan ürəyimdə" *(2020),* eyni zamanda Əli İmamverdi ilə ortaq "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "Ürəyimin nəğmələri" *(2021),* "Aşıq Ələsgər - 200, Aşıq Ələsgərin poetik və musiqi dünyası" *(2021),* "Fortepiano müşayiətli instrumental tar əsərləri" *(2021),* Firuzə İmamverdi ilə ortaq yazdığı "İran Türklərində aşıq düyün gələnəyi" *(2021) (türkcə),* Əli İmamverdi ilə ortaq yazdığı "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Qacar, Qatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı-Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Azərbaycan muğam

dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə)* "Cəmil Əkbər – I cild şeirlər" *(2022)* isimli altmış dörd kitabı nəşr edilməklə yanaşı *"Klassik saz havaları" (54 hava) adlı* ***SD*** *albomu (2015)* Azərbaycan musiqi ictimaiyyətinə təqdim olunmuşdur.

Prof. Dr. İlqar Cəmiloğlu İmamverdiyev fərqli illərdə **Azərbaycanda** *(Bakı 1979, 1980, 1999, Qazax 2022),* **Gürcüstanda** *(Tiflis 1981),* **Özbəkistanda** *(Daşkənd 1988, 1989),* **Rusyada** *(Moskva 1982, 1985, Sankt-Peterburq 1980 ),* **Qazaxıstanda** *(Alma – ata 1992),* **Moldovada** *(Komrat - Qagauziya 2017),* **KKTC** (*Lefkoşa 2019),* və **Türkiyədə**: (*Ankara 2002, 2007, 2012, Qocaeli 2007, Şanlıurfa 2015, Edirnə 2016, Niydə 2017, İstanbul 2012, 2017, Nevşəhər 2017, 2018, Iğdır 2017, Sivas 2017, Diyarbakır 2017, Antalya 2018, Afyon 2018, Ardahan 2019, Əskişəhər 2019, Qaziantep 2019, 2021, Muqla 2021, İzmir 2022, Ərzincan 2022*) düzənlənən bir çox tədbirlərdə, mərasimlərdə folklor və xalq müsiqisi sahəsində beynəlxalq konqreslərdə, simpoziumlarda aktual mövzulardakı məqalələri ilə yanaşı həm də tarda və sazda professional ifası ilə iştirak etmişdir. Sənətşünaslıq elmləri doktoru, professor İlgar İmamverdiyev fərqli illərdə **Azərbaycan** *(Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Bərdə, Ağcabədi),* **Rusiya** *(Moskva, Sankt-Peterburq),* **Qazaxıstan** *(Alma - ata),* **Özbəkistan** *(Daşkənd, Səmərqənd),* **İtaliya** *(Roma, Napoli, Kapri),* **İran** *(Təbriz, Urmiya),* **İrak** *(Bağdat, Babil),* **Türkiyə** *(Ankara, Ərzurum, Ağrı, Iğdır, Qars, Bayburt, Amasya, Osmaniyə, Şanlıurfa, Akçaabad, İstanbul, Bursa, İzmir, Hayvalık, Əskişəhər, Kırşəhər, Nevşəhər, Qaziantep, Adıyaman, Kozan )* vs. bir çox ölkələrdə təşkil olunmuş konsertlərdə iştirak edərək 70 –dən artıq fəxri fərman və plaketlərlə təltif olunmuşdur. Ötən illər ərzində Azərbaycan və Türkiyə televiziyalarında: "AzTV1", "İctimai TV", "TRT İnt", "TRT Gap", "25. kanal"da tar və saz aləti ilə fərqli konsertlərdə çıxış etmişdir. "Qaçaq Nəbi", "Papaq", "Bəyin oğurlanması", "Doğma sahillər" filmlərinin və Dədə Qorqud motifləri əsasında çəkilmiş "Səkrəyin dastanı" cizgi filminin musiqisində tar, saz, bağlama və ud alətində ifa etmişdir.

Pedaqoji sahədə 50 il ali təhsil müəssisəsində ardıcıl xidmət etmiş, iqtisadcı alim, şair təbiətli Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə bir araya gətirilmiş ***"Cəmil Əkbər – II cild şeirlər"*** kitabı Hüquqşünas Əli İmamverdinin iyirmi birinci, Sənətşünaslıq elmləri doktoru, professor İlqar Cəmiloğlunun Azərbaycan ədəbi-mədəni, filoloji sahədə xalqımıza ərmağan etdiyi **65-ci** əsəridir.



## ƏLİ İLQAR OĞLU İMAMVERDİ

Əli İlqaroğlu İmamverdi 1993-cü ildə Bakı şəhərində anadan olmuşdur. 2000-ci ildə Bakı şəhər ibtidai məktəbdə, daha sonra Ərzurum ilk okulda təhsilini davam etdirdi. 2008-2012 illər arası "Çağdaş" bilgi okulunda litseyi tamamlayıb 2012 ilində Qaziantep Universitetinin Hüquq Fakultəsində təhsilini davam etdirib 2021 ilində məzun oldu. 2021-2022-ci ildə Qaziantep şəhərində ixtisası üzrə hüquq sahəsində təcrübə keçməklə, Gaziantep Universitetində magistr təhsili almaqdadır.

Sənətşünaslıq doktoru İlqar Cəmiloğlu ilə ortaq yazdıqları "Azərbaycan rəqs havaları atlası" I cild "Qaytağı" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" II cild "Yallılar" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" III cild "Diringi" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" IV cild "Qədim rəqslər" *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" V cild "Çağdaş dönəm rəqsləri" (1. bölüm) *(2020) (türkcə),* "Azərbaycan rəqs havaları atlası" VI cild, "Çağdaş dönəm rəqsləri" (2. bölüm) *(2020) (türkcə),* "Avtandil İsrafilovun 26 rəqs havaları" *(2021),* "Azərbaycan aşıq ifaçılığı sənəti" *(2021) (türkcə),* "İnstrumantal tar əsərləri" *(dəramədlər, rənglər, diringilər) (2021) (türkcə),* "Şüştər dəramədləri və rəngləri" *(2021) (türkcə),* "Şur dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Kürdü-Şahnaz, Dilkəş, Rahab, Nəva dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Hümayun, Bayatı – Kürd dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Rast dəramədləri və Rəngləri" *(2022) (türkcə),* "Muğam dəramədləri və rəngləri" *(Mahur–Hindi, Orta-Mahur, Bayatı-Gacar, Gatar, Dügah, Bayatı-Türk, Zəmin–xara, Çoban-Bayatı) (2022) (türkcə),* "Bayatı - Şiraz dəramədləri və rəngləri" *(2022) (türkcə),* "Segah dəramədləri və rəngləri" *(2022),* "Cahargah dəramədləri və rəngləri" *(2022) (türkcə)* "Azərbaycan muğam dəramədləri və rəngləri ensiklopediyası" *(2022) (türkcə),* "Cəmil Əkbər – I cild şeirlər" *(2022)* isimli 20 kitabı Azərbaycan və Türkiyə ictimaiyyətinə təqdim olunmuşdur.

Cəmil İmamverdioğlu Əkbərin 95 illik yubileyi münasibəti ilə ***"Cəmil Əkbər – II cild şeirlər"*** adlı kitabı Hüquqşünas Əli İmamverdinin Azərbaycan ədəbi-filoloji sahədə xalqımıza ərmağan etdiyi iyirmi birinci əsəridir.

İKSAD
Publishing House

ISBN: 978-625-8323-55-9